AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

AZERBAIJAN STATE PEDAGOGICAL UNIVERSITY

ISSN 2221–7576

# Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri

# Актуальные проблемы музыкальной науки, культуры и образования

# Actual problems of the science, culture and education of music

**www.adpu.edu.az**

**2017 №2**

**Redaksiya şurasının sədri**

C.M.Cəfərov tarix üzrə elmlər doktoru, professor

**Redaksiya şurasının sədr müavini**

A.D.Zamanov fizika-riyaziyyat elmləri doktoru, professor

**Redaksiya heyəti**

| | |
|---|---|
| Fərhad Bədəlbəyli | Bakı Musiqi Akademiyasının rektoru, professor |
| Fərəh Əliyeva | ADMİU-nun rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Firəngiz Əlizadə | Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor |
| Səyavuş Kərimi | Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti, professor |
| Zemfira Səfərova | sənətşünaslıq üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Rəna Məmmədova | sənətşünaslıq üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Gülnaz Abdullazadə | fəlsəfə üzrə elmlər doktoru, professor |
| Rəna Abdullayeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Yuliy Əliyev | pedaqogika üzrə elmlər doktoru, professor (Rusiya) |
| Əjdər Ağayev | pedaqogika üzrə elmlər doktoru, professor |
| Oqtay Rəcəbov | pedaqogika üzrə elmlər doktoru, professor |
| Sevda Qurbanəliyeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| İmruz Əfəndiyeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Çingiz Abdullayev | kulturologiya üzrə elmlər doktoru, professor |
| Vidadi Xəlilov | pedaqogika üzrə elmlər doktoru, professor |
| Vladimir Adişev | pedaqogika üzrə elmlər doktoru, professor (Rusiya) |
| Eduardas Balçitis | pedaqogika üzrə elmlər doktoru, professor (Litva) |
| Anatoliy Bolqarskiy | pedaqogika üzrə elmlər doktoru, professor (Ukrayna) |
| Anatoliy Qoremıçkin | pedaqogika üzrə elmlər doktoru, professor (Ukrayna) |
| Rauf Kadırov | pedaqogika üzrə elmlər doktoru, professor (Özbəkistan) |
| Yelena Nikolayeva | pedaqogika üzrə elmlər doktoru, professor (Rusiya) |

**Baş redaktor**

Jalə Qədimova pedaqogika üzrə elmlər doktoru, professor

**Baş redaktorun müavini**

Tamilla Kəngərli pedaqogika üzrə elmlər doktoru, professor

**Elmi redaktor**

Fərrux Rüstəmov pedaqogika üzrə elmlər doktoru, professor

**Məsul redaktor**

Gülçöhrə Alıyeva filologiya üzrə fəlsəfə doktoru, dosent
Həcər Hüseynova filologiya üzrə fəlsəfə doktoru, dosent

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Elmi Şurasının 15 aprel 2016-cı il, 15 saylı qərarı ilə çap olunur.**
Təsisçi: **Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Jurnal ildə iki dəfə çıxır.
Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №2 Bakı, 2017, 170 səh.
Ünvan: AZ 1000, Azərbaycan Respublikası, Bakı, Üzeyir Hacıbəyli küçəsi 68
Адрес: AZ 1000, Азербайджанская Республика, Баку, улица Узеира Гаджибейли 68
Address: AZ 1000, Azerbaijan Republic, Baku, Uzeyir Hajibeyli street 68
Tel.: (99412) 493-00-32
Fax: (99412) 598-10-35
e-mail: elmi.hisse.08@mail.ru

## Sahələr üzrə redaksiya komissiyaları:

- **Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə:** pedaqogika üzrə elmlər doktoru, professor Tamilla Kəngərli (sədr), pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze, pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova, pedaqogika üzrə fəlsəfə doktoru Aynur Hüseynova;

- **Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Musiqinin tədrisi metodikası) ixtisası üzrə:** pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov (sədr), pedaqogika üzrə elmlər doktoru, professor Minarə Dadaşova, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova;

- **Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə elmlər doktoru, professor Nərminə Quliyeva (sədr), sənətşünaslıq üzrə elmlər doktoru, professor Nailə Rəhimbəyli, sənətşünaslıq üzrə elmlər doktoru, dosent Ülkər Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ellada Hüseynova;

- **Kulturologiya ixtisası üzrə:** tarix üzrə elmlər doktoru Fuad Məmmədov (sədr), fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı, fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Laçın Həsənova;

- **Məktəbəqədər təlim, tərbiyə ixtisası üzrə:** pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva (sədr), pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov, pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva, pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova, psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova.


---


**11 may 2016-cı il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.**

**Qeydiyyat №: 4050**

# MÜNDƏRİCAT

## ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

**QƏDİMOVA J.** Musiqi təhsilinin məzmununun yeniləşdirilməsində musiqi mentallığının formalaşdırılması ........ 10

## TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

**DADAŞOVA E.** Dirijorluq dərslərində əyanilik didaktik prinsipinin həyata keçirilməsi ........ 24
**ƏLİYEVA M.** Musiqi dərslərinə innovativ yanaşma ........ 30
**ƏHƏDOVA A.** Fortepianoda ifa tədrisinə dair bəzi metodik tövsiyələr ........ 37
**HACIYEVA S.** Musiqi müəllimlərinin hazırlığında Azərbaycan xalq musiqisinin əsaslarının öyrənilməsinin əhəmiyyəti və onun tədrisinin təkmilləşdirilməsi məsələləri ........ 45
**QOCAYEVA X.** Vokal dərslərində məşğələ və təmrinlərin rolu ........ 51
**ORUCOVA U.** Yaradıcılıq qabiliyyətlərinin inkişafında musiqinin rolu ........ 57
**AXUNDOVA G.** Dahi şəxsiyyət – Bülbül ........ 60

## MUSİQİ SƏNƏTİ

**ƏLLƏZOVA S.** Cövdət Hacıyevin simfonik yaradıcılığında polifonik üslub xüsusiyyətləri ........ 65
**HACIYEVA G.** Azərbaycan bəstəkarlarının yaradıcıllığında uşaq mahnıları 72
**HÜSEYNOVA S.** Milli baletin inkişafında Azərbaycan bəstəkarlıq məktəbinin rolu ........ 77
**QOŞQAROVA S.** Sevda İbrahimovanın yaradıcılığında fortepiano üçün birhissəli konsert janrı ........ 81
**MUSAYEVA L.** Bəstəkar Oqtay Rəcəbovun yaradıcılığında mahnı janrı ........ 88
**SÜLEYMANOVA T.** Musiqişünaslıq tədqiqatı üçün rəqəmsal arxivlər ........ 93
**ŞİRƏLİYEVA İ.** İsmayıl Soltan oğlu Hacıbəyovun Ü.Ə.Hacıbəylinin “Koroğlu” operasından uvertüranın fortepiano üçün işləməsi ........ 98
**RZAYEVA L.** Əfrasiyab Bədəlbəyli – ilk azərbaycan milli baletinin banisi ..... 106

## MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ

**ABDULLAZADE F.** Pedaqoji prosesdə İKT-nin tətbiqinin məktəbəqədər yaşlı uşaqların inkişafına təsiri ........ 111
**ABDULOVA S.** Məktəbəqədər yaşlı uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsi ........ 114
**ƏLİYEVA N.** Məktəbəqədər tərbiyə müəssisəsi ilə ailənin uşaq şəxsiyyətinin formalaşmasında rolu ........ 118

**ƏSGƏRLİ A.**Uşaqların doğma yurda məhəbbət hissi yüksək əxlaqi keyfiyyət kimi 121
**İSRAFİLZADƏ Ə.** Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsinə təsir göstərən amillər ........ 125
**MUSTAFAYEVA S.** Məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı üzrə təlim məşğələlərinin təşkili ........ 128
**NURİYEVA Ş.** Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi ........ 132
**NURULLAYEVA G.** Ətraf aləm uşaqların rabitəli nitqinin inkişafında əsas amildir ........ 136
**OSMANOVA M.** Nitq ünsiyyəti və davranışın etik normaları ilə uşaq nitqinin ifadəliliyin tərbiyəsinin vəhdəti ........ 139
**SALMANLI F.** Uşaq şəxsiyyətinin formalaşmasında milliliyin rolu ........ 143
**SALMANOVA E.** Məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafına musiqinin təsiri ........ 146
**TALIBZADƏ Ş.** Məktəbəqədər yaşlı uşaqlarda milli şüurun formalaşmasında islami dəyərlərdən istifadə imkanları ........ 149
**TEYMURLU G.** Məktəbəqədər yaşlı uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsinə müasir yanaşmalar ........ 152
**VƏLİYEVA X.** Məktəbəqədər təhsil müəssisələrində musiqi təlimi ........ 156
**YAHYAZADƏ İ.** Əxlaqi normaların mənimsənilməsinin məktəbəqədər yaşlı uşaqların tərbiyəsində təzahürü ........ 160
**Qaydalar** ........ 165

# СОДЕРЖАНИЕ

## ОБЩАЯ ПЕДАГОГИКА, ИСТОРИЯ ПЕДАГОГИКИ И ОБРАЗОВАНИЯ

**КАДИМОВА Ж.** Формирование музыкального менталитета в обновлении содержания музыкального образования ........ 10

## ТЕОРИЯ И МЕТОДИКА ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ (МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ)

**ДАДАШОВА Э.** Осуществление дидактического принципа наглядности на уроках дирижирования ........ 24
**АЛИЕВА М.** Инновационный подход к урокам музыки ........ 30
**АХАДОВА А.** Некоторые методические рекомендации обучения игре на фортепиано ........ 37
**ГАДЖИЕВА С.** Значение изучения основ азербайджанской народной музыки в подготовке учителей музыки и вопросы усовершенствования системы ее преподавания ........ 45
**ГОДЖАЕВА Х.** Роль упражнений и распеваний на уроках вокала ........ 51
**ОРУДЖЕВА У.** Роль музыки в развитии творческих способностей ........ 57
**АХУНДОВА Г.** Бюльбюль – гениальная личность ........ 60

## МУЗЫКАЛЬНОЕ ИСКУССТВО

**АЛЛАЗОВА С.** Черты полифонического стиля в симфоническом творчестве Джевдета Гаджиева ........ 65
**ГАДЖИЕВА Г.** Детские песни в творчестве азербайджанских композиторов ........ 72
**ГУСЕЙНОВА С.** Роль азербайджанской композиторской школы в развитии национального балета ........ 77
**ГОШГАРОВА С.** Жанр одночастного фортепианного концерта в творчестве Севды Ибрагимовой ........ 81
**МУСАЕВА Л.** Песни Октая Раджабова ........ 88
**СУЛЕЙМАНОВА Т.** Цифровые архивы для музыковедческого исследования ........ 93
**ШИРАЛИЕВА И.** Обработка Исмаила Солтановича Гаджибекова увертюры из оперы “Кёроглы» У.А.Гаджибейли ........ 98
**РЗАЕВА Л.** Афрасияб Бадалбейли – основатель первого национального балета ........ 106

## ДОШКОЛЬНОЕ ОБУЧЕНИЕ И ВОСПИТАНИЕ

**Абдуллазаде Ф.** Влияние применения ИКТ на развитие дошкольников в педагогическом процессе ........ 111
**АБДУЛОВА С.** Воспитание дошкольников в духе патриотизма ........ 114

**АЛИЕВА Н.** Роль дошкольного воспитательного заведения и семьи в формировании личности ребенка ........ 118
**АСКЕРЛИ А.** Чувство любви у детей к родному краю как высокое моральное качество ........ 121
**ИСРАФИЛЗАДЕ А.** Факторы, влияющие на эстетическое воспитание детей дошкольного возраста ........ 125
**МУСТАФАЕВА С.** Организация в дошкольных заведениях учебных занятий по развитию речи ........ 128
**НУРИЕВА Ш.** Экологическое воспитание детей дошкольного возраста .... 132
**НУРУЛЛАЕВА Г.** Окружающая среда является ключевым фактором в развитии связанной речи у детей ........ 136
**ОСМАНОВА М.** Единство воспитания выразительности детской речи с этическими нормами речевого общения и поведения ........ 139
**САЛМАНЛЫ Ф.** Роль национальности в формировании личности ребенка ........ 143
**САЛМАНОВА Э.** Влияние музыки на социально-эмоциональное развитие дошкольников ........ 146
**ТАЛЫБЗАДЕ Ш.** Возможности использования исламских ценностей в процессе формирования национального сознания у детей дошкольного возраста ........ 149
**ТЕЙМУРЛУ Г.** Современные подходы к мониторингу и оценке развития дошкольников ........ 152
**ВЕЛИЕВА Х.** Музыкальное образование в дошкольных учреждениях ....... 156
**ЯХЙАЗАДЕ И.** Проявление освоения моральных норм в воспитании детей дошкольного возраста ........ 160
**Правила оформления статей**........ 165

# CONTENTS

## GENERAL PEDAGOGICS, HISTORY OF PEDAGOGICS AND EDUCATION

**GADIMOVA J.** Formation of musical mentality in the update of the content of music education ………………………………………………………. 10

## THEORY AND METHODS OF TRAINING AND EDUCATION (METHODS FOR TEACHING OF MUSIC)

**DADASHOVA E.** Implementation of the didactic principle of visibility in conducting classes ……………………………………………………. 24
**ALIYEVA M.** An innovative approach to music lessons …………………… 30
**AHADOVA A.** Some methodical recommendations for learning to play the piano …………………………………………………………………….. 37
**Hadjiyeva S.** The importance of studying the foundations of the Azerbaijani folk music in the training of music teachers and the issues of improving the system of its teaching ………………………………………………… 45
**HODJAYEVA Kh.** The role of exercises and singing in vocal lessons ……….. 51
**ORUJOVA U.** The rule of music in the development of artistic ability ……….. 57
**AKHUNDOVA G.** Byulbyul – ingenious personality ………………………… 60

## ART OF MUSIC

**ALLAZOVA S.** Feauteres of the polyphonic style in the symphonic works of Jevdet Hajiev ………………………………………………………………. 65
**HAJIYEVA G.** Children's songs in the creativity of Azerbaijani composers …. 72
**GUSEYNOVA S.** The role of Azerbaijani composite school in the development of the national ballet ……………………………………………. 77
**GOSHGAROVA S.** Genre of one-part piano concerto in creativity Of Sevda Ibrahimova ……………………………………………………………………. 81
**MUSAYEVA L.** Songs of Oktay Radzhabov **…………………………………..** 88
**SULEYMANOVA T.** Digital archives for musicological research ……………. 93
**SHIRALIYEVA I.** Ismail Soltanovich Hadjibekov's processing overtures from the opera of «Koroglu» of U.A.Hadjibeyli ……………………………………... 98
**RZAYEVA L.** Afrasiyab Badalbeyli – the founder of the first national ballet … 106

## PRESCHOOL TRAINING AND UPBRINGING

**ABDULLAZADEH F.** The impact of ict application on the development of preschool children in the pedagogical process ………………………………….. 111
**ABDULOVA S.** Upbringing of preschool children in the spirit of patriotism …. 114
**ALIYEVA N.** Role of family and pre-school education institution in formation of personality of child ………………………………………………………… 118
**ASGARLI A.** The love of children to the native land as a high moral quality.... 121

**ISRAFILZADEH A.** The factors which affect to pre-school childrens' aesthetic nurture ........................................................................................ 125
**MUSTAFAYEVA S.** Organization of training sessions in the development of speech in preschool educational educational institutions ……………………….. 128
**NURIYEVA S.** Ecological education of pre-school aged children ..................... 132
**NURULLAYEVA G.** The environment is the main factor in the development of children's communication speech …………………………………………… 136
**OSMANOVA M.** Upbringing in unity of speech communication and ethical norms of behaviour with expression of child speech ......................................... 139
**SALMANLY F.** The role of nationality in formation personalities of the child 143
**SALMANOVA E.** Influence of music on the socio-emotinonal development of pre-school children **…………………………………………………………………** 146
**TALIBZADEH Sh.** Opportunities of use from islamic values information of national consciousness of pre-school children ………………………………….. 149
**TEYMURLU G.** Modern approaches to monitoring and evaluation of the development of preschool aged children ………………………………………... 152
**VALIYEVA Kh.** Education in pre-school institutions ………………………. 156
**YAHYAZADE I.** The manifestation of the development of moral norms in the education of children of preschool age ………………………………………….. 160
**Rules**…………………………………………………………………………... 165

# *ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ*

**UOT 78.01:37.02**

**Jalə Qədimova**
Pedaqoji elmlər doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: jale.gadimova@mail.ru

## MUSİQİ TƏHSİLİNİN MƏZMUNUNUN YENİLƏŞDİRİLMƏSİNDƏ MUSİQİ MENTALLIĞININ FORMALAŞDIRILMASI

***Açar sözlər:*** *milli semantika, Azərbaycan mədəniyyəti, yeni kurslar, metodiki parametrlər*

Musiqi pedaqogikasında yaradıcılıq aspektindəki problemlərin həlli üçün, musiqi mentaliteti, musiqi pedaqogikasının tarixinin əsaslarını öyrənməyin əhəmiyyəti böyükdür. Mədəniyyət təcrübəsi onu şərtləndirir ki, Azərbaycan musiqi pedaqogikası qədim tarixə malikdir və onun əsasları bütün dövrlərdə qorunub-saxlamaqla yanaşı həmçinin də daim inkişaf da etdirilib. Belə halda, müasir musiqi pedaqogikasının gələcəkdə daha geniş inkişafı, mövcud möhkəm ənənələrlə qırılmaz bağlılıqdan asılıdır.

**Жаля Кадимова**

## ФОРМИРОВАНИЕ МУЗЫКАЛЬНОГО МЕНТАЛИТЕТА В ОБНОВЛЕНИИ СОДЕРЖАНИЯ МУЗЫКАЛЬНОГО ОБРАЗОВАНИЯ

***Ключевые слова:*** *национальная семантика, Азербайджанская культура, новые курсы, методические параметры*

Для решения проблем музыкальной педагогики с точки зрения творчества велика роль изучения музыкального менталитета, основ истории музыкальной педагогики. Культурная практика показывает, что музыкальная педагогика Азербайджана имеет древнюю историю, основы которой не только сохранялись во все времена, но и постоянно

развивались. В такой ситуации дальнейшее широкое развитие современной музыкальной педагогики зависит от ее неразрывной связи с существующими прочными традициями.

**Jala Gadimova**

## FORMATION OF MUSICAL MENTALITY IN THE UPDATE OF THE CONTENT OF MUSIC EDUCATION

***Key words:*** *national semantics, culture of Azerbaijan, new courses methodical parameters*

For solution of the music pedagogy problems from the point of view creation the role of learning mentality of music, the basis of the history of music pedagogy is very important.

The cultural experience shows that music pedagogy of Azerbaijan have an old history and its grounds are kept at all times and also developed constantly. In this case, further development of modern music pedagogy in future depends on its inseparably link with existing strong traditions.

Musiqi pedaqogikasının əsas problemlərindən biri, millilik ruhunda dünyagörüşü, dünyanı hiss etmək, mentalitet, üslub və musiqi dili ilə bağlı olan hər bir nəzəri fənnin özünün əlavə proqramına yiyələnə bilməsidir. Azərbaycan mədəniyyətinin qədimliyini, zənginliyini və ən nəhayət unikallığını nəzərə alsaq, qarşıda duran bütün problemlər xüsusi aktuallığa malik olur.

Bu baxımdan ən vacib humanitar problemlərdən biri, azərbaycançılıq adlanan yüksək məfhumun öyrənilməsi, xarakterizə olunması və arqumentləşdirilməsi işinə böyük yer verilməsi ilə əlaqədardır. Burada birinci dərəcəli hal kimi əsas rolu milli-spesifik xarakteristika məsələsi oynayır.

Biliyin, mənəvi dəyərlərin təkcə müəyyən səviyyədə toplanması deyil, onları həm də aktiv şəkildə mənimsənilməsi, daha sonra isə həyata keçirilməsi pedaqogikanın qarşısında duran əsas məsələdir. Milli ənənələrə müraciətin əhəmiyyətini heç cür danmaq olmaz. Bu, ümum-humanitar təhsilin tam olması üçün profilləşmiş istiqaməti sintezdə müəyyən etməyə şərait yaradır. Bədii mədəniyyət probleminin həllində, humanitariyanın bədii-estetik proseslərlə səciyyələnməsi məsələlərində, sintez, ümumhumanitar hazırlığın müxtəlif növ informasiya ilə vəhdəti lazımi nəticələri hasil edə bilir. Buna görə, müasir təhsil və tərbiyə məsələlərində, xalq musiqisinin pedaqoq tərəfindən, etnomədəniyyət, morfoloji, milliliyindən asılı olaraq, musiqiyə xas olan orqanikasını

işıqlandırmaqla və dolğun şəkildə çatdıra bilməyi aktual problem kimi qalmaqdadır.

Musiqi mentallığını gücləndirmək yolu ilə musiqi təhsilinin məzmununun yeniləşdirilməsi – respublikamızın pedaqoqları qarşısında duran ən vacib məsələlərdəndir. Lakin Azərbaycan musiqisinin milli xüsusiyyətlərini tam qavraya bilməyin vacibliyi ilə pedaqoji proses zamanı bu vərdişlərin təşkilinin qeyri-mümkün olması barədə biri-birinə zidd olan iki fikir mövcuddur.

Burada müasir musiqi təhsili məsələsinin həlli işində çox vacib bir məqam ortaya çıxır – musiqi yaradıcılıq prosesinin yeni formada modelləşdirmək. Bir məqamı da göstərmək vacib olardı ki, xalq musiqisinin əsaslarını öyrənən tələbə, təkcə informasiyalı, didaktik bilik bloklarını almaqla kifayətlənmir. Onu həm də xalq musiqisinin yaranması və sonradan məişətdə nə cür qalması məsələləri düşündürür. Onun mahnı-instrumental, aşıq və ya muğam yaradıcılığı ilə tanışlığı və mənimsəməsi kifayət etmir, çünki o, özü bu musiqini bəstələyir. Beləliklə, xalq musiqisinin təbiətinin daha dərin qatlarını öyrənmək üçün zəmin yaranır, kreativlik inkişaf edir və tələbənin yaradıcılıq potensialı üzə çıxır. Nəticədə təhsil kurslarındakı musiqi fənlərinin məzmunu xüsusi bilik və vərdişlərin formalaşması üçün yeni şərait yaradır. Bu mənada musiqi təhsili prosesi düzgün təşkil olunduqda, tələbənin intonasiya-eşitmə təcrübəsi, Azərbaycan musiqisinin incəliklərini duya bilməsi və proqramın vacibliyi faktorları nəzərə alınacaq.

Verilənlər Azərbaycan xalq musiqisinin təhsildəki aktuallığını, onda olan spesifik problemləri ayırd etməyə imkan yaradacaq.

1) Milli ideya məzmunu sahəsinə aid olan kateqoriyalı problemlər, mentalitet, estetik dəyərlər. Buraya mədəni tarixi prosesdə xalq musiqisinin funksiyası problemini də əlavə edək, çünki milli spesifika tədricən təşkil olunmaqla, tarixi baxımdan dəyişkəndir. Bununla yanaşı, uzun əsrlər boyu ərzində keçmişdən müasirliyə gəldikdə görürük ki, Azərbaycan mədəniyyət bənzərsiz, özünəməxsus şəkildə, yalnız ona aid edilən qanunauyğunluqla formalaşa bilmişdir.

2) Aksioloji problemlər. Bu problemlər xalq sənətinə verilən qiymət probleminə aiddir. Folklor və professional sənəti arasındakı qarşılıqlı, bir qayda olaraq, səthi – kompozitor və folklor şəklində öyrənilir.

Tələbənin musiqinin əsaslarının öyrənilməsi, qavraması işində, musiqi pedaqogikasının imkanları genişdir. Musiqi mədəniyyətinin əsasları musiqişünaslıqla sıx bağlıdır. Buna görə, Azərbaycan etnomusiqişünaslığının və musiqi folklorunun əldə etdiyi nailiyyətlərdən xəbərdar olmaq lazımdır, çünki Azərbaycan musiqisinin spesifikasının mənimsənilməsi ən ümdə məsələ olaraq qalır.

Məlum olduğu kimi müasir musiqiçi və dinləyicini tərbiyə etmək üçün,

onlarda estetik zövqü tərbiyə etmək lazımdır. Musiqinin estetik funksiyalarının vacibliyini qeyd edərkən, bununla yanaşı digər aspekt olan – etik aspekti də qeyd etmək vacibdir. Musiqinin etik tərbiyədə rolu böyükdür və etnomədəniyyət təsəvvürü ilə əlaqəlidir. Musiqinin etik tərbiyədəki əhəmiyyəti o dərəcədə çoxdur ki, onu mədəniyyətin digər aspektləri ilə heç müqayisə etməyə də dəyməz. Ona görə bu funksiyanın öyrənilməsi öz-özlüyündə vacibdir.

Musiqinin öyrənilməsi işinin pedaqoji tərbiyə prosesində həyata keçirilməsi olduqca zəruri hesab olunur. Belə dərslər intellektin əsaslarını qoyur, şəxsiyyətin individuallığını açıqlamaqla milli dəyərlərə yönəldir.

Musiqi pedaqogikasının müasir problemlərinin həlli üçün, Azərbaycan pedaqogikasının ənənələrinin əsaslarını üzə çıxarıb anlamaq gərəkdir. Musiqi-pedaqoji proqramların quraşdırılması, daim artan və yeni-yeni metodik parametrlər üzə çıxaran informasiya spektri ilə sıx bağlıdır.

Azərbaycan musiqisi – hər bir elementi ümumi struktura tabe olan tam, dolğun orqanizmdir. Azərbaycan milli mədəniyyətinin problemlərinə aktiv maraq, təkcə sosial-siyasi dəyişikliklərlə xarakterizə olunmur, bu həm də musiqi yaradıcılığın özündə müəyyən dəyişikliklərin baş verməsindən irəli gəlir. Belə ki, musiqinin yeni və ən yeni tarixi, informasiya çoxluğu şəraitində, müasir Azərbaycan musiqisi haqqında müəyyən bilikləri mənimsəmək labüddür. Musiqi tarixi kursları davam etdirməlidir.

Musiqi kurslarında qısa bir müddət ərzində əgər polifoniya, harmoniya öyrənilirsə, onda digər kursların, musiqi mədəniyyətinin tarixi dövrlərinə aid olan, müəyyən üslub formalarını özündə əks etdirənləri də proqrama daxil edilməlidir. Burada söhbət, adekvat olan, bir növ pedaqoji sikllərin təşkilindən, məsələn, "yeni" və "ən yeni" tarixdən gedir. Q.Qarayevin 3-cü simfoniyasından sonra, Azərbaycan musiqi tarixində yeni bir dövr başlamışdır. Bu da uzun bir yol keçərək, Azərbaycan musiqi xəzinəsinə lazımi qədər dəyərli əsərlər bəxş etmişdir. Onların bu gün xarakterizə olunması, ən əsas da keçirilən bu yolu təkcə ayrı-ayrılıqda tədqiqatlar vasitəsilə çatdırmaq kifayət etmir, daha vacibi odur ki, zəngin materialın ali məktəb kurslarında fənn kimi aparılsın. Söhbət müasir Azərbaycan musiqi mədəniyyətinin problemlərinin dərin analizinə yardım etməkdən, həm milli, həm də müasir musiqi mədəniyyəti kontekstlərindən dünya sivilizasiyasının bütün səviyyələri anlamağı öyrətməkdən gedir.

İnsanlar çox geniş olan dinləyici təcrübəsini toplaya bilmişlər. Səslər mühiti müxtəlif üsul, sistemlərlə boldur. Musiqinin əsaslarını öyrənən tələbə, bu əsasları mənimsəməklə birgə, sözsüz ki, musiqi informasiyaları içində uyğunlaşa bilmək ehtiyacını duyur.

Bu pedaqoji problemin həlli, orta və ali təhsil məktəblərində təhsil alanların musiqini duyub-anlaya bilmək işinə düzgün yanaşmaqla bilməklə həll

oluna bilər. Bunun üçün, ilk növbədə, öz musiqi mədəniyyətimizi dolğun şəkildə mənimsəyə bilmək işi əsas baza kimi qiymətləndirilir.

Deyilən problemlərin həlli musiqi təhsilini daha intensivləşdirə, musiqini dərin anlaya bilən insanların sayını xeyli artıra bilər. Göstərilən məsləhətlərin məqsədyönlülüyü, Azərbaycan musiqi tarixini müxtəlif dövrlərdə təqdim edə bilmək və musiqi pedaqogikasının müasir metod, həlli yollarını tapmaq arzusundan ibarətdir. Musiqi pedaqogikasının müasir problemlərinin tədqiqatı, pedaqoji prosesə daxil edilə bilən yeni-yeni məsləhətlərin irəli sürülməsi, xüsusi metodik proyektlərin tərtibatı, sözsüz ki, musiqi pedaqogikasının inkişafına, yeni professional, mədəni və intellektual imkanların əldə edilməsinə, ən əsası isə vətəndaşın tərbiyə edilməsinə gətirib çıxarır.

Azərbaycan xalq musiqisinin öyrənilməsi işində, pedaqoji prinsiplərin formalaşdırılmasında aparıcı rolu müasir metodoloji problemlərin dərindən qavraya bilməsi oynayır. Musiqini anlaya bilməyin inkişaf etdirilməsi problemini üç modelin köməyilə həll etmək olar. Modellərin birinin başında, tələbənin reproduktiv fəaliyyəti, yəni, topladığı biliyi, bacarıq və əldə etdiyi vərdişlər durur. Bu zaman, musiqini anlaya bilmək problemi ikinci plana keçir və nəticədə elmi-texnoloji təmayül müşahidə edilməklə, musiqi təhsili metodlarının təşkili tam deyil, ayrı-ayrı elementlər şəklində özünü büruzə verir.

Musiqi tərbiyəsinin digər modeli illüstrativ-təsviri xarakter daşıyır. Burada, bir qayda olaraq, emosional təsiredici faktora daha çox fikir verilir. Adları çəkilən bu hər iki modeli digərindən fərqləndirən cəhət, onların musiqi interpretasiyasına dekorativ-təsviri nöqteyi-nəzərdən yanaşmalarıdır. Təqdim edilən anlamanın inkişafı üsulları, musiqinin özünün anlaşılmasına mane olur. Üçüncü modeldən istifadə zamanı biz, D.Kabalevskinin musiqini anlama metodlarına müraciət etmiş oluruq ki, burada anlamanın inkişafına ümumi şəkildə yanaşmaq məsləhəti verilir. Bu model, əvvəlki iki modeli realizə etməklə, eyni zamanda, tələbənin intonasiyalı yanaşmağını əlavə edir və beləliklə də onun şüurunu intellektual səviyyəyə çatdırır. Pedaqoqun əsas vəzifələrindən biri – səs oriyentirlərinin düzgün istiqamətləndirilməsi, musiqi zövqünü zənginləşdirilməsindən ibarətdir. Ona görə də intonasiya seçimi, müasir pedaqoji təcrübədə ən optimal variant kimi hesab edilir. V.M.Belyayev hesab edir ki, xalq musiqisinin mənimsənilməsi zamanı, intonasiyalı yanaşmanın düzgünlüyü onunla şərtlənir ki, bu proses zamanı musiqi "əlifbası" əvvəlcədən ixtira olunmur, əksinə, yaradıcılıq təcrübəsindən, ümumi musiqi dilinin inkişafından doğulur.

Azərbaycan xalq musiqisinin tədqiqatında, intonasiyalı yanaşma metodunun şərtləndirilməsinin vacibliyi, ilk növbədə musiqinin incəsənətin bir növü kimi çıxış etməsi xassəsilə bağlıdır. Axı musiqinin təbiəti – intonasiyadır və musiqinin öyrənilməsi məhz intonasiyadan başlanır. Musiqinin intonasiya

“forması” özündə həyati mənanı və spesifik musiqi təcrübəsini əks etdirir. Məlumdur ki, melodiya – musiqinin canıdır. Həm Avropa, həm də Asiyanın müxtəlif ölkələrini təmsil edən musiqişünasların əsərlərində daim konstatasiya edilir ki, individuallıq, özünəməxsusluğa baxmayaraq, melodik prosesin məntiqi ümumi xassələri, insan təbiətindən doğan universallığı özündə cəmləyir. Təsadüfi deyil ki, əksər alim – Musiqişünaslar tez-tez melodiya ilə təəssürat, həyəcan anlamlarının adlarını bir sırada çəkir.

Musiqi sənətinin müvəqqəti-intonasiya spesifikasına daxil olması, eşitmə təcrübəsini zənginləşdirir. Müasir musiqi tərbiyəsi, intonasiya – eşitmə təcrübəsinin inkişaf etdirilməsi tendensiyasından və onun paralel izahatından fərqli olmalıdır. Bu işdə zəncirvariyə adekvat olan – musiqi-pedaqoq-tələbə kimi olan problemin həlli vacibdir. Beləliklə, intonasiyalı musiqiyə analoji olan inteqrasiyalı zəncir yaranır ki, bu da onun təbiətinə zidd çıxmır, əksinə, onu tam şəkildə, bütövlükdə açıqlaya bilir. Spantan, vasitəsiz şəkildə ilk qavrama, pedaqoq tərəfindən aradan götürülməlidir. Tələbə tərəfindən musiqi materialının təcrübə kimi mənimsənilməsi, aləmə emosional dəyərləndirici münasibət kimi qəbul edilməlidir. Bunun nəticəsində, hazırkı musiqi tərbiyəsi üçün vacib olan müəyyən analitik metodika yaranır. Analitik metodika, mədəni, daha dəqiq desək, müasir sosial-mədəni kontekstlə sıx bağlıdır.

Problem ondan ibarətdir ki, differensial eşidə bilməni tərbiyə etməkdən əlavə, eyni zamanda onun tam, bütövlüyünü də çatdır bilmək lazımdır. Təkcə ayrı-ayrı biliklərin cəmindən musiqi mədəniyyəti haqqında ümumi təəssüratı həmişə almaq olmur. Ona görə, musiqini qavrama yalnız o vaxt baş tutur ki, tələbə qavramanı həm özünün konkret xüsusi biliklərinin nəticəsində, həm də musiqini tarixi-mədəni kontekstdə, daha doğrusu, “onun stilistikasını anlamaqla” həyata keçirə bilsin.

Musiqini düzgün qavramaq üçün, doğru istiqamət seçmək vacibdir. Bunun üçün, musiqi əsərinin məğzini, intonasiyalı – dolğun forma vasitəsilə açıqlamaq lazımdır. Beləliklə, intonasiya şüuru formalaşır ki, bunun da nəticəsində intonasiyanı eşitmə plastik şəkildə həyata keçir.

Musiqi pedaqogikasının müasir təcrübəsində ən aktual sayılan problemlərindən biri, “intonasiya lüğətinin” kristallaşdırılmasıdır. Əgər musiqi eşitmənin müxtəlif istiqamətləri “İntonasiya lüğətinin” dolğunluğuna istinad edərsə, onda real nəticələr əldə etmək olar. “İntonasiya lüğəti” milli musiqi üslubunun əldə olunmasına dəlalət edir. Bu mənada, milli musiqi sənətinin intonasiyaya əsas prinsip kimi yanaşması nəticəsində yaranan pedaqoji marağı qanunauyğunluq kimi qiymətləndirmək olar. Musiqiyə məqsədyönlü, özünəməxsus tərzdə yanaşma (milli, epoxal, fərdi), müəllimlə tələbə, bəstəkarla ifaçı arasında sağlam dialoqun yaranmasına imkan verir.

Azərbaycan mədəniyyətinin, mentalitetinin daşıyıcıları – auditoriya ilə və

eləcə də pedaqoqların bir-biri ilə bilavasitə kontaktı nəticəsində, xalq yaradıcılığının xassələrinə yeganə konsepsiya ilə nəzər salmaq mümkündür. Bu mənada pedaqoji təfəkkürün elmi təfəkkürə təsiri barədə konstatasiya etmək olar.

Musiqi mədəniyyətinin anlayış və terminoloji fondu böyükdür. Pedaqogikada, xalq musiqisinə həsr edilən əsas kurslarda, müəllimlərin sayı kifayət qədər deyil.

Azərbaycan humanitar elminin milli xüsusiyyətlərinin öyrənilməsi problemi, Azərbaycan mədəniyyətinin sistemli öyrənilməsi problemi ilə bağlıdır. Bu sistemə pedaqogikanın daxil olması ona görə vacibdir ki, mədəniyyət insan təfəkkürünün fenomeni kimi özündə mürəkkəb konqlomeratı əks etdirir.

Milli Azərbaycan musiqisinin xüsusiyyətlərini öyrənmək, bu sahəyə dərin yanaşmaq işi, Azərbaycan musiqi pedaqogikasında olan bir sıra problemlərlə bağlıdır. Birinci, bu aspektdə mənimsənilmə Azərbaycan musiqisinin mənşəyini bilməyi tələb edir, çünki Azərbaycan xalqının musiqi dilinin öyrənilməsinin və onu çatdıra bilməyin zəruriliyi.

Deyilənlərin mənası ondan ibarətdir ki, pedaqoq təkcə informasiyanı, musiqi dilinin aşkar elementlərini çatdırmaqla kifayətlənməməli, həm də onları açıq-aydın şəkildə aşılamalıdır. Və nəhayət üçüncü, Azərbaycan musiqi mədəniyyətinin xüsusiyyətlərini öyrənərkən, bununla paralel olaraq onun formalarının qorunub saxlanılması prosesi də aparılmalıdır.

Pedaqogika, konkret, özündə elmi bilikləri cəmləyən elm sahəsi olmaqla, yalnız ciddi elmi potensiala əsaslanmaqla, milli müstəqillik hisslərini tərbiyə etmək iqtidarındadır.

Milli müstəqilliyi isə etnomusiqişünaslığın əsasları kursları kimi qəbul etdikdə əldə etmək olar. Etnomusiqişünaslığı yalnız bu istiqamətdə yönəltməklə, xalq musiqisinin öyrənilməsi üzrə fənni keçməklə, müəyyən metodoloji oriyentləri hasil etmək mümkündür.

Ədəbiyyatların analizi göstərir ki, tələbələrin marağı müxtəlif üsul və metodlarla stimullaşdırılır. Bütün stimullar 3 qrupa bölünür:

1) Fənnin məzmunu: praktiki yenilik, yeni materialın keçmişdəki biliklə əlaqəsi, yenilik, elmin yüksək nailiyyətləri, tarix, fənlərarası əlaqə.

2) Pedaqoqun şəxsiyyət kimi nüfuzu: aparan kursu kamil bilmək, onun materialı çatdıra bilmək bacarığı, mühazirənin dərinliyi və dolğunluğu, praktiki və seminar dərslərinin maraqlı aparılması, pedaqoji mədəniyyət.

3) Tələbənin özünün fəaliyyəti: müxtəlif tapşırıqların vaxtı-vaxtında həlli, alınan biliyin təcrübədə istifadəsi, əlavə ədəbiyyatların oxunuşu.

Azərbaycan musiqi mədəniyyətinin milli xarakteri, musiqinin məğzi və onun tərbiyəvi əhəmiyyəti konsepsiyasında öz əksini tapır. Hazırda söhbət ali musiqi məktəbləri və kafedralarında milli fenomen probleminin öyrənilməsinin

konkret yollarından gedir.

Azərbaycan xalq musiqisinin dərs kimi aparılmasının əsas aspektlərindən biri – vokal, melos, melodiyalıqdır. Sonuncu, Azərbaycan xalq musiqisini daha parlaq şəkildə nümayiş etdirir.

Buna görə musiqi tərbiyəsi sistemində intonasiya bölməsinə (solfecio) mühüm yer verilir. Yaxşı məlumdur ki, solfecio – təkcə eşitməni deyil, musiqi intellektini də inkişaf etdirir, çünki intonasiya ifa zamanı musiqiçi sanki yeni bir musiqini yaradan insana çevrilir. Belə halda musiqi əsərində eşitmə oriyentiri tarazlaşır, zənginləşir və xalq musiqisini dərindən mənimsəməyə imkan yaranır. Ona görə tələbəyə xalq musiqisinə xas olan intonasiya-janrlı embrionlardan geniş məlumat vermək, melodiyanın polifunksional dərəcəsini və s. göstərmək lazımdır.

Solfecionun xüsusi aspektdə təşkili – məğzi anlamaq, Azərbaycan musiqisinin milli xüsusiyyətlərini və onun mənşəyini üzə çıxarmaq, xalq musiqisinin ən gözəl əsərlərini nümunəsində canlılığını göstərmək və s. yalnız müsbət nəticələnə bilər. bizim qarşıya qoyduğumuz məsələ, belə pedaqoji parametrlərin tədqiqatı və həyata keçirilməsidir ki, bu da milli musiqinin xassələrinin öyrənilməsinə yaxından kömək göstərə bilər. Axı məlumdur ki, Azərbaycan musiqisi ilə bağlı olan bütün təhsil proqramları faktoloji xarakter daşımaqla, tələbələrin diqqətini konkret olaraq Azərbaycan musiqi mədəniyyəti istiqamətində cəmləyirlər. Biz isə materialda milli musiqi mədəniyyətini aşkar təyin edən spesifik xarakterli xüsusiyyətlərin bariz şəkildə təqdim olunması təklifini irəli sürürük. Bununla yanaşı, dərsliyin əsas metodoloji, praktiki yönümü aşağıdakılardan irəli gəlir.

Düzgün olardı ki, milli xüsusiyyətlər haqqında anlayış tədricən, özü də etnos və onun formalaşması tarixlərindən başlanaraq aparılsın. Bundan başqa, hər bir konkret kursu (kursun materialından asılı olaraq) müxtəlif milli xassə ilə zənginləşdirilsin. Pedaqoji prosesin əsas, müəyyən psixoloji "auraya" istinad edən etapları nəzərdən qaçırılmasın.

Tələbəyə musiqinin semantikasını eşitməyi öyrətmək, onun daxili eşitmə qabiliyyətini tərbiyə etməyə bərabərdir. Dərs aparma metodikasını elə tərtib etmək lazımdır ki, orada müxtəlif kontekstlərdən asılı olmayaraq milli semantika, hətta onun üçün xarakterik olmayan elementlərlə əlaqəli olan zaman tələbə üçün anlamlı olsun. Milli semantikanın mənimsənilməsi böyük rol oynayır, çünki o, müxtəlif növlü kontekstlərin elementlərini, yeni üslubları qavramağa yardım göstərməklə, onların aparıcısına çevrilir. Məsələn, müasir professional musiqi sahəsində. Musiqi fənlərinin aparılmasında rəhbər ideyalardan biri, Azərbaycan musiqisini metodik şəkildə analizə edilməsidir. Bu tipli metodika müxtəlif materiallarla təchiz edilməlidir ki, bu materiallar da ilk növbədə Azərbaycan xalq musiqisinin formalaşmasında rol oynayan milli, özünəməxsus elementləri arqumentləşdirmək iqtidarında olsun. Burada genezis

və tərəqqinin müəyyən növ pərəstiş arealı nəzərdə tutulur.

"Etnomusiqişünaslığın əsasları" kursunun qarşıya qoyduğu məsələlər tam olaraq konkretdir. Bizim kurs haqqında tərtib etdiyimiz metodik məsləhətlər elə quruluşa malikdir ki, burada müəllim gələcək pedaqoji təcrübəsində öz biliyindən istifadə edə bilsin və məsələn, solfecio dərslərində məqsədyönlü şəkildə materialları toplamaqla musiqi ədəbiyyatı kurslarında əyani şəkildə nümayiş etdirə və bununla yanaşı tələbələrin fikrini Azərbaycan xalq musiqisi aləminə yönəldə bilsin. Bu kursda həmin materiallardan istifadə zamanı, yaxşı olardı ki, Azərbaycan xalq musiqisinin nəzəri və tarixini Şərqin digər musiqi mədəniyyətləri ilə səciyyələndirilib və ya fərqləndirilsin. Azərbaycan musiqisində bəhs edilən kurslardakı janr toru sözsüz ki, müxtəlif növ genetik və tərəqqini əks etdirən məlumatlarla doldurulsun. Belə olan halda, tələbənin elmi təşəbbüslərinin meydana çıxması ilə bərabər, Azərbaycan irsinin əsas ənənəvi özəyi qorunub-saxlanılır.

Dərslikdə məsləhət görülən mövzular praktiki müstəqil biliyin müxtəlif formalarını özündə əks etdirir. Məsələn, inşa, ədəbiyyatların oxunuşu, yazılı və şifahi analiz.

Fənnin yeni olmasını nəzərə alaraq, kursun məzmununa, məqsədini və qarşıya qoyduğu məsələlərin izahatına və Azərbaycan xalq musiqisinin spesifik xassələrini gələcəyin musiqiçilərinə xarakterizə etməyə səbəb yaranır. Bundan əlavə kursun aktuallığı, təciliiliyi və ümumi proqrama salınmasının vacibliyi vurğulanmalıdır. Xüsusi olaraq kursa etnomusiqişünaslıq nəzəri ədəbiyyatının daxil edilməsinin vacibliyini göstərmək və həmçinin onların layiqli siyahısını təqdim etmək zəruridir.

"Etnomusiqişünaslığın əsasları" kursunun praktiki hissəsinin qarşıya qoyduğu vəzifə, xalq musiqisinin yazı dövrünü öyrətməkdən ibarətdir. Kursun özü üç hissədən ibarətdir. Birinci hissə etnomusiqişünaslığa aid, onun elmi yolu kimi ümumi suallara həsr edilib. Əldə edilən elmi biliklərə əsasən tələbə digər kursun ikinci hissəsinə keçə bilər. Burada Azərbaycan xalq musiqisinin xassələri öyrənilir. Üçüncü hissə – xalq musiqisinin toplusu və yazısından təşkil edilmişdir.

Kursun əsasını mühazirələr, seminar və praktiki məşğələlər (yay tətili zamanı folklor ekspedisiyaları) təşkil edir.

Mühazirələrdə tələbələr üçün rahat olan bütün növ ədəbiyyatlardan, (rus, ingilis, alman və Azərbaycan dillərində) istifadə üçün zəmin yaradılıb.

Musiqi illüstrasiyalarının əhəmiyyəti böyükdür. Burada məşhur Azərbaycan xalq musiqisinin çap olunmuş gözəl nümunələri verilir. Bizə yaxın olan, məsələn türkdilli xalqların musiqi materiallarından da istifadə etmək faydalı olardı. Azərbaycanın, eləcə də onun regionlarının mədəni tarixini, musiqi dialektologiyasını bilmək vacibdir.

Yaradıcılıq iştirakının aktivləşdirilməsi not şifrlərinin açılması ilə bağlı olduğuna görə yaradıcılıq birliyi ilə əlaqəli müxtəlif növ tapşırıqlar verilməlidir ki, bu yolla da folklor nümunəsini bərpa etmək mümkündür. Təkcə not açıqlaması ilə kifayətlənmək məsləhət görülmür və bu prosesi musiqi dilinin analizi ilə daha da dərinləşdirmək olar.

Tələbələr xalq musiqisini sərbəst, dəqiq və düzgün intonasiyaya uyğunlaşdırmağı bacarmalıdır. Bu kursla solfecio mühüm rol oynayır. Söhbət tələbənin verilmiş tapşırığı təkcə düzgün ifa etməsindən getmir "Etnomusiqişünaslıq" ümumi nəzəri kursunun ayrı-ayrı mövzularından tapşırıqlar verilməlidir – melo-rifma formulu, tonik kadensiyanı, aşkar edib, onu oxumaq.

İmtahan dövründə tələbənin biliyinin yoxlanması, verilmiş notların nəzəriyyəsi və analizi, öyrənilən materialın əzbərdən oxunması ilə bağlı olmalıdır.

Kursun qısa tematik strukturu:

– folklorun xüsusiyyəti

– folklorun janrları

– folklorda sintetik növ incəsənətin yaranması

– folkloru təşkil edən elementlərin bir-biri ilə qarşılıqlı münasibəti

– folklorda yerli ənənələr

– folklor və xalq mədəniyyəti: zəhmətkeşlik, ictimai və ailə münasibətləri, bədii təfəkkür.

– folklorun funksional təbiətinin mədəniyyətin tarixi inkişafı mərhələləri ilə qarşılıqlı əlaqəsi.

– folklorun öyrənilməsinin əsas metodları (üç istiqamət: tarixi-etnoqrafiya, janr-funksional, stilistik).

– folklorun ekspedisiyası – tələbənin etnoqrafik təcrübəsindəki forma kimi.

Artıq bu gün "xalq yaradıcılığı" anlamı birmənalı qəbul olunmur və buna görə də konkretləşməni tələb edir. Bu vəziyyətdə müasir xalq yaradıcılığını folklor strukturu üzərində öyrənilməsi məsləhətdir, çünki folklorun müasir dövrdə mövcudluğu folklorun inkişafının potensial imkanlarından əmələ gəlir.

Folklorun strukturunda baş verən dəyişiklik dinamikası folklorda yeni formaların yaranmasından asılıdır. Bunun üçün yeni yaranan kursda folklorun hansı mənşədə yerləşməsi təyin edilməlidir. Söhbət folklor janrının harada birinci dərəcəli inkişaf edib-etməməsinin açıqlamasından gedir.

Sözsüz ki, bu növ məşğələlər folklorun funksional-sosial tədqiqindən başlanır. Folklorun quruluşunu təyin edən sosial mühit musiqini anlama səciyyəsində olur, yəni burada mühit və yaradıcılığın növü nəzərdə tutulur.

A.N.Veselovskinin nəzəriyyəsinə görə, folklorun bədii tərkibinin – ənənəvi tərifi – "mahnı-nağıl-hərəkət-rəqs", deyilən kursda daha da geniş, musiqinin tətbiqi və təsviri incəsənətə inteqrasiyaya qədər öyrənilir. Öyrənmə

prosesində, musiqişünaslığın əsasında duran və incəsənətlə xalqı birləşdirib, yeganə vəhdət təşkil edən, xalq yaradıcılığı əlamətlərini, tələbədə mütləq açıqlamaq lazımdır. Başqa sözlə, bağlılıq aydın göstərilməlidir, məsələn, dekorativ tətbiqi incəsənətin musiqi poetik janrın tamamlığı ilə. Axı folklor poeziyası folklorun təsviri sistemi ilə sıx bağlıdır. Beləliklə, xalq incəsənətinin növləri müqayisə formasında öyrənilir. Buraya aşağıdakı mövzular daxil edilir:

– xalq incəsənətinin növləri arasında bağlılıq
– dilin qanunları ilə xalq incəsənəti növlərinin qarşılıqlı əlaqəsi
– xalq incəsənətinin müxtəlif növlərinin inkişafında dövrlərin əlaqəsi
– xalq incəsənətinin bədii sistemində musiqili folklor
– musiqi folkloru ilə xalq yaradıcılığının dolğun struktur əlaqələri
– dolğun əlaqələr – mövzu, süjet, motivlərin ümumiliyi
– variativ (variantlar və təkrarlar, xalq bədii mədəniyyətinin genetikliyi)
– əlaqələrin təyin edilməsi ənənəvi, tətbiqi və ilaxır.

Musiqi folklorunun öyrənilməsinin başlıca aspekti, onun bədii forma və etno-psixoloji təqdim olunma forması ilə əlaqəli olmasını anlaya bilməkdir. Etnopsixologiya sahəsində tədqiqatlar tarixinin əsrdən çox yaşı var. Musiqi pedaqogikasının həlli işində bizi etnopsixologiyanın inkişafının iki planı maraqlandırır. Onlardan birincisi mədəniyyətin bilavasitə insana, ikincisi isə şəxsiyyətin mədəniyyətə təsiridir. Musiqi təhsilinin sosial-mədəni anlayışına görə, musiqi pedaqogikasının perspektivləri məhz bu iki amilin üzərində qurulub. Xalq musiqisinin xassələrini etnopsixoloji anlamda mənimsənilməsi nəticəsində folklorun öyrənilməsi mümkün olur. Musiqi folkloru, həmçinin Azərbaycan pedaqoji elmində, etnosun psixologiyası aspektində, onların etnopsixoloji tərəfdən öyrənilməsi sayəsində, tələbənin xalq mədəniyyəti haqqında biliyini artırır. Məsələn; lay-lay uşaq folkloru kimi qəbul olunur.

Uşaq folkloru musiqi mədəniyyətinin əzəl qatını təşkil edir. Bununla belə, haqqında söhbət apardığımız janr ana tərəfindən ifa olunduğuna görə, qadın məişətində olan musiqi kimi də qələmə verilə bilər. Beləliklə lay-lay, təkcə oxuyanın (qadın-ana) deyil, həm də qulaq asan körpənin etnopsixoloji "aurasını" açıqlayır. Bununla bağlı milli spesifikanın öyrənilməsini "etnik" kollektivdə əldə edilən təcrübədən gəlir. Axı musiqinin sadə "etnik" şəraitdə qəbul olunması elə lay-laydan başlanır.

Dərslik tərəfindən qarşıya qoyulan problemlərin həlli qəbul olunmuş iki planla həyata keçirilir:

1) Verilən tapşırıqların ana dilində öyrənilməsi ilə əlaqədar, yalnız təhsilin köməyi ilə;

2) Yaradıcı, kreativ, Azərbaycan musiqisinin düzgün qəbulunun formalaşdırılması ilə bağlı.

"Etnomusiqişünaslığın əsasları" kursunda müxtəlif tədqiqatçıların verdiyi

rəyləri səsləndirmək vacibdir. Bu tələbənin bu və ya digər alimlə tanışlığından başqa, həm də öyrənilən fənnin əsas məğzini anlayaraq duymağa, öz intellektual səviyyəsini yüksəltməyə zəmin yaradır. Bu işdə yardım göstərə bilən mövzular aşağıdakılardır:

– folklor xalq mədəniyyətinin xüsusi mənəvi-maddi sahəsidir

– folklorun tipik xassələri bədii təfəkkürünün sistemi kimi

– folklorun estetik xassələri

– musiqi folklorunun istifadə etdiyi üsulların spesifikliyi-folklorun tətbiqi funksiyası.

– folklorun praktiki vəzifəsi

– şifahilik

– improvizə

– variantlıq

– kollektivlik. Buna iki aspektdə baxılır: yaradıcı kollektiv və məzmunu kollektiv xarakter (kollektiv təfəkkür, dünya anlayışı).

Şifahilik – folklorun məişət üslubudur, yəni, onu yaşadan əsas amildir. T.Qolovinski göstərir ki, əsərin yaranması, qorunub-saxlanması və ötürülməsi yalnız onun dolğunluğuna arxalanaraq, bütöv bir sistem prinsipini, müxtəlif fəndləri irəli sürür, lakin məhdudiyyət də var – heç olmasa ona görə ki, insan yaddaşı hüdudsuz deyil. Şifahilik həm də onunla səciyyələnir ki, folklor əsəri özünü yalnız tam, bütöv, ifa və bilavasitə qavramada büruzə verir.

Şifahilik folklorun bilavasitə sinktretizmi olmaqla, həmçinin onun möhkəm olmaması ilə, qeyri-sabitliyi ilə tanınır. Bu haqda T.Qolovinski qeyd edir ki, şifahilik və ondan gələn nəticə kimi qeyri möhkəmlik, özünü onda göstərir ki, eyni əsər hər dəfə ifa olunduqda, düzgün desək o heç ifa olunmur, yəni yenidən qurulur – bir az ayrı şəkildə. Bu cür yenidənqurmanın mexanizmini açıqlamaqdan ötrü folkloristika ənənə, improvizə, variasiya kimi anlamlardan istifadə edir.

Folklorun məişət forması variantlılıqdır. Bu belə qeyd edilir:

– daxili kompozisiyalı təkrar-bütöv variasiya

– variantlıq struktur bədii prinsip kimi

– təkrarın rolu. Təkrar əsasən yadda qalmaq üsuludur və dinləyicinin qavrama aktivliyi kimi səciyyələnir.

Daha sonrakı vacib mövzu, folklorun etnoqrafik əlaqələri:

– məişətdə folklorun fəaliyyəti

– folklorun ənənəvi sinkretik hərəkətlərlə qədim əlaqəsi

Kursun digər tematik qrupu – folklorun metodlarının öyrənilməsidir. Burada folklorun bir çox elmlər tərəfindən öyrənilməsi haqda söhbət aparılır: estetika, sosiologiya, kulturologiya, etnoqrafiya, linqvistika, ədəbiyyatşünaslıq, musiqişünaslıq, teatrşünaslıq, serniotika.

Folkloristika müstəqil elm kimi özünün metodologiyasını, folkloru öyrənən metodlar və digər elmi rakursların əsasında yarada bilir.

Folkloristikanın "məktəbi" miqrasiya, antropologiya, etnopsixologiya, tarix və mifologiya məktəb.

Folkloristikanın metodları: genetik, coğrafi-tarixi (ya da tarixi-coğrafi), tarixi-tipoloji, kompleksli, panteoloji analiz metodu (İ.Y.Marr), müqayisəli, struktur-tipoloji, funksiyalı, funksional-sosioloji.

Folklorun öyrənilməsi işində bu və ya digər metodlardan istifadə edilir. Məsələn, tipoloji metod, bir-biri ilə etnik mənada qohum olmayan xalqların folklor mədəniyyətlərini tədqiq etməklə məşğuldur.

Bununla belə, bir neçə diskussiyalı məqamlardan söhbət açaq. Məsələn, V.Qusyev hesab edir ki, tipoloji tədqiqat, tez-tez və ən çox oxşarlıqla, ümumi şəkildə, çoxlu faktın təkrarları ilə maraqlanır. Tipologiyanın qərar verməsi elm üçün böyük əhəmiyyət kəsb edir. Lakin nə vaxt ki tipoloji metod folklorun bənzərli-tarixi universal metodu kimi elan olunursa, onda bu hal elmin imkanlarını daraldır.

Qanunauyğunluğu tədqiq edərkən, yeganəlik və ümumilik amillərinə qarşı biganə olmaq lazım deyil, xüsusilə də bu qanunauyğunluqlara xas olan həm milli, həm dini, həm də sosial-qrup kimi spesifik keyfiyyətlərə.

Genetik metod, tipolojidən fərqli olaraq folklorda bir-birinə etnik qohum olan və mədəniyyətlərində ümumi bir mənşəyə gələn xalqların, yəni janr, süjet, obraz, forma xüsusiyyəti, poeziya tədqiqatını aparır.

Tipoloji metod folklorun müqayisəli şəkildə öyrənilməsi istiqamətinə yönəlib, öz tarixlərində vasitəli və ya bilavasitə mədəni əlaqələrin başqaları ilə olub-olmaması haqda məlumatı olmayanlar buraya aid edilir.

Tarixi-tipoloji metod o hallarda hüquqa malikdir ki, burada bir-birindən asılı olmadan ayrı-ayrı xalqların ümumi tarixi-sosial qanunlarına uyğun mübahisəli məsələ ortaya çıxsın.

Üç anlayışın sintezi: tarixi stadiya – struktura – əlaqə növü, daha bir sıranı verir:

– tarixi-tipoloji metod
– genetik metod
– tipoloji metod

"Musiqişünaslığın əsasları" musiqi təhsilinin zəncirində ən mühüm həlqələrindən biri olmaqla, musiqiçinin kompleksli hazırlığında və tərbiyəsində özünə əhəmiyyət kəsb edən yerini tapmışdır. Bu baxımdan, tələbələrin praktik işlərini gücləndirmək və onların müstəqil fəaliyyətlərinə daha çox diqqət vermək lazımdır.

Tələbənin təhsil alması nəticəsində, hətta optimal, "informasiyalı", hazırlıqlı tələbə olsa belə, onun bədii mövqeyi artır, individuallığı üzə çıxır.

Vacib əlavə kimi onu da qeyd etməliyik ki, məqsədyönlü təşkil edilən praktiki məşğələlər, şəxsi mövqeyin təyin edilməsinə və yaradıcılıq fəaliyyətinin yaranmasına gətirib çıxarır.

## ƏDƏBİYYAT

1. Abdullazadə G.A. "Şərq və Qərbin qədim və orta əsr mədəniyyətində cəmiyyət, insan və musiqi. Bakı: 1991.
2. Ələkbərova N.İ. "VIII-XVI əsrlərin Azərbaycan mədəniyyəti kontekstində musiqi". Bakı: 1996.
3. Vıqotski L.S. "İncəsənətin psixologiyası". Moskva: 1968.
4. Qusev V.E. "Folklorun estetikası" Moskva: 2007.
5. Ağayev Ə.Ə. "Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz". Bakı: 2000.
6. Aslanov D.D. "İncəsənət və tərbiyə". Bakı: 1967.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05.09.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.11.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Tamilla Kəngərli**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# *TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)*

**UOT 7.071.2**

**Elmira Dadaşova**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: elmira1948@outlook.com

## DİRİJORLUQ DƏRSLƏRİNDƏ ƏYANİLİK DİDAKTİK PRİNSİPİNİN HƏYATA KEÇİRİLMƏSİ

***Açar sözlər:*** *musiqi təhsili, didaktik prinsiplər, idrak, səsli və vizual əyanilik*

Əyanilik didaktik prinsipinin dirijorluq dərslərində həyata keçirilməsi həm ənənəvi metodları, həm də yeni multi-media texnologiyaların tətbiqini tələb edir ki, bunların vasitəsilə tələbələrin bilik və təsəvvürləri dərinləşir, dirijorluğun tədrisi prosesi təkmilləşir. Əyani tədris vasitələrin istifadəsi gələcəyin musiqi müəllimlərinin xor kollektivinə rəhbərlik etmək bacarıq və vərdişlərinin səmərəli şəkildə formalaşdırılmasını təmin edə bilər.

**Эльмира Дадашова**

## ОСУЩЕСТВЛЕНИЕ ДИДАКТИЧЕСКОГО ПРИНЦИПА НАГЛЯДНОСТИ НА УРОКАХ ДИРИЖИРОВАНИЯ

***Ключевые слова:*** *музыкальное образование, дидактические принципы, познание, звуковая и зрительная наглядность*

Реализация дидактического принципа наглядности на уроках дирижирования требует как применения традиционных методов, так и современных мультимедиа технологий, посредством которых углубляются представления и знания студентов, совершенствуется процесс преподавания дирижирования. Использование наглядных средств обучения может обеспечить эффективное формирование умения и навыков управления хоровым коллективом у будущих учителей музыки.

**Elmira Dadashova**

# IMPLEMENTATION OF THE DIDACTIC PRINCIPLE OF VISIBILITY IN CONDUCTING CLASSES

***Key words:*** *musical education, didactic principles, cognition, sound and visual clarity*

The implementation of the didactic principle of visibility in the lessons of dirigitation requires both the application of traditional methods and modern multi-media technologies, through which the ideas and knowledge of students are deepened, the teaching process of conducting is being improved. The use of visual training tools can provide effective formation of skills and skills of choral collective management in future music teachers.

Gələcəyin musiqi müəlliminin formalaşması üçün Pedaqoji Universitetlərin musiqi fakültələrində tədris edilən bir sıra ixtisas silsilə fənləri sırasında ən başlıcası xor dirijorluğu fənnidir, çünki hər bir musiqi müəllimi ümumtəhsil məktəbində uşaq xor kollektivi ilə işləməli olur.

Dirijorluğun tədrisi metodikası, hər bir digər fənn kimi, didaktikanın beş əsas prinsiplərinə əsaslanır: əyanilik, şüurluluq, biliklərin möhkəmliyi və sistemliyi, onların sadə və asan yolla ötürülməsi (mümkünlük). Biz bu məqaləmizdə əyanilik prinsipini həyata keçirilməsi üsullarından danışacayıq. Qeyd etməliyik ki, elmi ədəbiyyatda musiqi müəlliminin peşə hazırlığı sahəsində müxtəlif istiqamətlər araşdırılmışdır, məsələn, inkişafedici təlim, tələbələrin idrak fəaliyyəti məsələləri və s. Lakin əyyanilik prinsipinə çox az diqqət yetirilmişdir ki, zənnimizcə onu nəzərə almadan musiqi təlimi prosesi, xüsusilə də dirijorluğun tədrisi səmərəli qurula bilməz.

Təhsildə aparılan islahatlarla əlaqədar olaraq ümumtəhsil məktəb üçün hər bir fənn müəlliminin, o cümlədən də, musiqi müəllimlərinin hazırlığının keyfiyyətinin artırılması məsələsi xüsusi əhəmiyyət kəsb edir. Bu nöqteyi nəzərdən Pedaqoji Universitetdə musiqi müəllimlərinin hazırlığının səmərəliliyi probleminə didaktikanın ümumnəzəri müddəaları prizmasından baxılmalıdır. Musiqiçi-müəllimin dərindən və hərtərəfli hazırlığı ali məktəb müəllimindən nəinki öz fənnini mükəmməl bilməni, həmçinin bu bilikləri tələbəyə ötürmə bacarığını tələb edir. Başqa sözlə, ali məktəb müəllimi dərsi elə aparmalıdır ki, tələbə şüurlu şəkildə bütün bilik, bacarıq və vərdişləri mənimsəyə bilsin.

Peşə təhsilinin yüksək səviyyəsini yalnız tədris prosesinin bütün qanunauyğunluqlarını nəzərə alan metod və vasitələrin tətbiqi şəraitində təmin etmək mümkündür. Pedaqogikada tədris prosesinin səmərəli təşkilindən

çıxarılan ilkin tələblər didaktikanın prinsipləri kimi müəyyənləşdirilir. Musiqi tərbiyəsinin və təhsilinin didaktik əsaslarının və metodikasının işlənilməsi hər zaman tədris prosesinin qanunauyğunluqlarını nəzərə almalıdır.

Musiqili-idrak prosesində əyyaniliyin rolu idrak prosesinin obyektiv qanunauyğunluqları ilə müəyyənləşdirilir. Pedaqogika və psixologiyada aparılan tədqiqatlar göstərir ki, ətraf dünya haqqında biliklərin mənbəyi və vasitəsi bizim duyğu və hisslərimizdir. Musiqi təlimi bir idrak prosesi kimi idrak subyektinin və obyektinin qavrama vasitəsilə qarşılıqlı əlaqəsini nəzərdə tutur. Hisslər vasitəsilə həyata keçirilən idrak qavranılan obrazların yaranmasına gətirib çıxarır. Qavranılan obraz şüurda ümumiləşdirilərək və işlənilərək intellektual fəaliyyət nəticəsində dəyişdirilib təsəvvür obrazına çevrilir. Musiqi tərbiyəsində parlaqlıq, səlistlik, musiqi təfəkkürünün dolğunluğu əyyani-obrazlı təfəkkürün strukturunu və xassələrini müəyyənləşdirir və sözlü-məntiqi təfəkkürlə birgə əqli fəaliyyətin əsasını təşkil edir.

Musiqili-idrak fəaliyyətinin xüsusiyyətini səs obrazları və təsəvvürlər ilə işləmə təşkil edir. Buna görə də musiqi təhsilinin fundamentini səsli əyanilik təşkil edir. Dirijorluq fəaliyyətində dirijor tərəfindən daxilən təsəvvür edilən musiqili səsli obrazlar jestlər (əl hərəkətləri) vasitəsilə gözə görünən formaya çevrilərək xora və ya orkestrə ötürülür. Bu hal dirijorluğun tədrisində səsli əyaniliklə bərabər vizual əyaniliyin də rolunu  artırır. Bütün deyilənlərdən belə nəticə çıxarmaq olar ki, dirijorluq dərslərində musiqi müəlliminin peşə hazırlığının metod və vasitələrinin təkmilləşdirilməsi üçün əyanilik prinsipi nəzərə alınmalıdır.

Əyanilik prinsipi digər didaktik prinsiplərlə (məsələn, bilik, bacarıq və vərdişlərin şüurlu, fəal və möhkəm mənimsənilməsi) qırılmaz şəkildə bağlıdır. Hər bir qavrama prosesi idrak vəzifəsini daşıyır. İstənilən əyani təlim aktında qavrama prosesi abstrakt təfəkkür ilə bağlıdır. Qavrama prosesini maksimal dərəcədə şüurlu etmək, abstrakt məhfumu konkret ilə əlaqələndirmək – tələbəni idrak məsələsinin fəal və maraqlı şəkildə həllinə yönəltmək deməkdir.

Dirijorluğun tədrisində təhsilin istiqamətləndirilməsi məsələsi də önəmli yer tutmalıdır. Belə ki, bu vəya digər dirijorluq üsullarının və jestlərinin öyrədilməsi prosesini məqsədəuyğun şəkildə gələcəkdəki xor ilə işəyönəltmək lazımdır.Tələbəyə sinif və ev tapşırıqlarında xoru təsəvvür edib, onun səslənməsini daxildən eşitmək bacarığını aşılamaq lazımdır. Ona görə müəllim tələbəyə SD və DVD disklərini, İnternetdə və canlı konsertləri dinləməyi məsləhət görməlidir.  Bunların hamısı ona görəedilməlidir ki. “xor dirijorluğu” fənni bir abstraksiyaya çevrilməsin, əksinə başa düşülən,  aydın praktiki bir fənnkimi qəbul edilsin. Bu məsələdə sinifdə, auditoriyada tədris ilə yanaşı ümumtəhsil məktəblərində canlı uşaq kollektivi ilə pedaqoji təcrübə də mühüm rol oynayır.

Peşəkar musiqi təhsilində "musiqili əyanilik" əsasən müəllimin canlı göstərişi şəklində geniş yayılmışdır. Dirijorluq dərsləri hər bir tələbə ilə fərdi formada keçirilir. Hər bir dərs ümumi metodik xəttin bir bəndidir. Buna görə də bir-birindən məzmun, materialın paylaşdırılması cəhətdən fərqlənərək, eyni zamanda dərsin ümumi qanunauyğunluğu olmalıdır və o, bir-neçə hissədən ibarət olmalıdır: əsərin hərtərəfli araşdırılması, əsərin ifası (üzdən oxuma və fortepianoda ifa), partituranın səslərini ifası, dirijorluq məsələlərinin müəyyənləşdirilməsi və dirijorluq.

Hər bir dərs canlı yaradıcı prosesdir, o, donmuş standart formanı almamalıdır. Hər konkret halda onun məqsəd, vəzifələri və quruluşu müəllim tərəfindən müəyyənləşdirilir. Dirijorluq sinfinin müəllimi öz tələbəsini ümumtəhsil məktəbində gələcək fəaliyyəti – həm dərs, həm sinifdən kənar fəaliyyət, həm də özfəaliyyət xorlarda iş üçün hərtərəfli (texniki və metodiki cəhətdən) hazırlamalıdır.

Müəllim tərəfindən xor musiqisinindən müxtəlif temp, ölçü, ritm, dinamika, aqogika, frazirovka və ştrixləri olan nümunələr seçilməlidir. Bunların hamısı tədris prosesində dirijorluq jestləri vasitəsilə əsərin təkcə metr-ritm quruluşunu deyil, həm də emosional-obrazlı tərəfini əks etdirmək bacarığını aşılayır. Tələbə ilə sinifdə işə başlayarkən müəllim özü keçilən əsərləri mükəmməl bilməlidir: onu fortepianoda çalmağı, səsi ilə oxumağı və dirijorluğunu bacarmalıdır. Öz tələblərini tələbəyə sadə, aydın və lakonik şəkildə təqdim etməlidir. Bütün dediklərimizdən aydın olur ki, dirijorluq dərslərində müəllimin canlı ifa nümunəsi mühüm rol oynayır. Əsər üzərində işə başlamazdan əvvəl tələbələr öncədən hansı musiqini dirijorluq edəcəklərini, əsərin bu və ya digər yerlərində onları nələr gözləyəcəyindən xəbərdar olmalıdırlar: məsələn, səsin gürlaşması və ya azalması, temp dəyişiklikləri və s. Dərslərdə «başlama» jestinin köməyi ilə səs axınının fasiləsizliyini təmin etmə kimi vacib vərdişi tələbəyə aşılamaq lazımdır. Buna səs gücünün artması və ya azalmasını, kulminasiyalara, dayaq "nöqtələrinə" can atan qolların dairə üzərində hərəkətlərin böyüyüb-azalması yolu ilə nail olunur. Jestlərin ifadəliliyi, obrazlığı və "ünsiyyətliliyi" üzərindəiş də vacibdir.

Qeyd etməliyik ki, bu gün musiqi təlim-tərbiyəsinin bütün səviyyələrində musiqini qavrama mədəniyyətinin inkişafı müasir texniki vasitələrlə həyata keçirilir. Elmi-texniki tərəqqinin nailiyyətləri musiqi təlimi prosesinə müxtəlif tenologiyaları (sintezator, kompüter, internet, CD, DVD və s.) daxil etmək imkanını yaratmışdır ki, bu da musiqiçinin peşə hazırlığını təkmilləşdirməyə imkan verir. Dirijorluq dərslərində əyanilik prinsipinin həyata keçirilməsi üçün də multi-media texnologiyalarından istifadə mühüm rol oynayır.

Bununla yanaşı təcrübə göstərir ki, musiqi ifaçılığı sahəsində ən sadə, rahat və didaktik cəhətdən universal əyani vasitə müəllimin canlı ifa

nümunəsidir. Və yalnız müəllimin bütün imkanları tükənəndə və tədris prosesinin tələbatlarının ənənəvi üsullarla təmin edilməsi mümkünsüz olduğu halda, yeni yolların və həllərin axtarışı üçün obyektiv zərurət yaranır. Belə bir ehtiyac dirijorluğun tədrisində xüsusilə hiss olunur.

Məlumdur ki, dirijorluğun tədisi prosesinin xüsusiyyətlərindən biri – dərsdə dirijorun təsiri olunacaq obyektin – xorun olmamasıdır. Belə ki, burada tələbə canlı xorla təmasda olmur, onu yalnız xəyalında təsəvvür edir, yəni xorun idarə edilməsi qanunauyğunluqların öyrənilməsi, musiqi əsərlərinin dirijorluğu və partituraların təhlili xorsuz, fortepiano müşayiətinin əsasında baş verir. Bu da tələbədə eşitmə təsəvvürlərinin təhrifinə, xorun səslənməsinin ifadəlilik imkanları barəsində biliklərin çətinliklə mənimsənilməsinə gətirib çıxarır, musiqi qavramanın inkişafını ləngidir.

Dirijorluğun tədrisinin digər bir xüsusiyyəti – dərs şəraitində dirijorun xora təsirinin bilavasitə müşahidə etməyin mümkünsüzliyidir. Xor olmadığı halda müəllim tərəfindən dirijorluq texnikasının elementlərinin göstərilməsi konkret ifaçılıq vəziyyətini nəzərə almadan həyata keçirilir ki, bu da tələbə tərəfindən dirijorluq jestinin əsl funksional məqsədinin dərk edilməsini çətinləşdirir. Dirijorluq ifaçılıq sənətinin konkret nümunələrinin olmaması, rəhbərin real kollektiv ilə birgə qarşılıqlı fəaliyyətinin təhlilinin mümkünsüzlüyü dirijorluq barəsində bir ifaçılıq sənəti kimi dəqiq təsəvvürlərin və anlayışların formalaşmasını çətinləşdirir.

Həmçinin tələbə özünüidarə və özünənəzarəti həyata keçirmək istədikdə də əhəmiyyətli dərəcədə çətinliklərlə qarşılaşır. Dirijorluq hərəkətlərinin səmərəli icrası bu fəaliyyətin nəticələri barəsində səsli və gözlə görünən informasiya əsasında həyata keçirilir, lakin dirijorluq zamanı tələbə özünü görmür və öz hərəkətlərini obyektiv şəkildə qiymətləndirə bilmir. Belə olan halda ifanın müəllim tərəfindən qiymətləndirilməsi mühüm rol oynayır. Lakin sözlə ifadə olunan bu qiymətləndirmə hərəkətlərin bütün xüsusiyyətlərini tam şəkildə əks etdirə bilməz. Beləliklə də tam-dolğun əks əlaqə informasiyanın olmaması tələbənin idarak müstəqilliyinin inkişafını tormozlayır, dirijorluq bacarıq və vərdişlərinin formalaşmasını ləngidir.

Nəhayət, musiqi müəlliminin dirijorluq hazırlığının səmərəliliyinin bir ciddi maneəsi onun təlim və təcrübi fəaliyyət şəraitlərinin uyğunsuzluğundadır. Xor əsəri və ya məktəbli mahnısı üzərində iş priyomlarının formalaşdırılması vaxtı canlı xorun olmaması dirijorluq ifadəlilik vasitələrinin düzgün seçilməsini çətinləşdirir, eşitmə (slux) vasitəsilə xor səslənməsinin diaqnostikasını və differensiallaşdırılması bacarığının inkişafını ləngidir, tədris-təlimin həyat təcrübəsindən qırılmasına, uzaqlaşmasına gətirib çıxarır.

Dirijorluğun tədrisinin spesifikasının təhlili göstərir ki, bütün yuxarıda göstərilən çətinliklərin səbəbi tədris prosesində əyani təlim informasiyasının

azlığındadır. Hal hazırda ölkəmizdə musiqi müəllimlərinin dirijorluq hazırlığında (hətta digər musiqi yönümlü orta və ali məktəblərdə peşəkar dirijorların hazırlığında da) səsli və vizual əyanilik yalnız müəllimin göstərməsi ilə məhdudlaşır. Musiqi informasiyasının əlavə mənbələri dirijorluq dərslərində, demək olar ki, istifadə edilmir. Bu da tələbələri yüksək bədii səviyyəli xor musiqisi nümunələri ilə müntəzəm olaraq tanış olmaq imkanından məhrum edir. Dirijorluq dərsləri keçi-rilən siniflərinin kompüter texnikası, proyektor, İnternetə çıxış ilə təchiz olunması bu gün artıq bir zərurətdir. Müasir səviyyəli texniki təchizat imkan verər ki, tələbələr dərs prosesində dirijorluq və xor ifaçılığını əks etdirən lazımi musiqi informasiyası ilə təmin olunsunlar, videogörüntüləri və səs yazılarını dəfələrlə izləmək imkanını əldə etmiş olsunlar.

Beləliklə, əyanilik ümumdidaktik prinsipinin dirijorluq dərslərində həyata keçirilməsi həm ənənəvi metodları, həm də yeni multi-media texnologiyaların tətbiqini tələb edir ki, bunların vasitəsilə tələbələrin bilik və təsəvvürləri dərinləşir, dirijorluğun tədrisi prosesi təkmilləşir. Əyani tədris vasitələrin istifadəsi gələcəyin musiqi müəllimlərinin xor kollektivinə rəhbərlik etmək bacarıq və vərdişlərinin səmərəli şəkildə formalaşdırılmasını təmin edə bilər.

## ƏDƏBİYYAT

1. E.Dadaşova, M.Əliyeva. Dirijorluq və onun tədrisi metodikası. / Dərslik/ Bakı, ADPU, 2013
2. G.Axundova, E.Dadaşova, M.Əliyeva. Dirijorluq fənninin kurikulumu. / Proqram / Bakı, ADPU, 2015
3. M.T. Əliyeva. Основные направления и практическое значение предмета «дирижирование» в системе подготовки учителей музыки в Пед. Унив-те / Məqalə / “ Odlar Yurdu Univ-nin elmi və pedaqiji xəbərləri”, Bakı, 2008, № 24
4. N.Mirzəyeva. Xorşünaslıq. / Dərslik/ Bakı, ADPU, 2007
5. M.T.Əliyeva. Развитие творческих навыков студентов на уроках дирижирования с помощью ИКТ. / Məqalə / “Müəllim hazırlama siyasəti və problemləri” V Beynəlxalq konfrans mater., ADPU, Qafqaz Universiteti, Hacıtəpə Un-ti, Bakı, 2015
6. Л.Безбородова «Дирижирование», Москва, 1985

**Məqalənin redaksiyaya daxil olma tarixi: 13.07.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.11.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 371.036**

**Maralxanım Əliyeva**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: m.aliyeva@gmail.com

# MUSİQİ DƏRSLƏRİNƏ İNNOVATİV YANAŞMA

***Açar sözlər:*** *innovasiya, layihələr metodu, müasir texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları*

"Musiqi" fənnini uşaqlar üçün maraqlı və cəlbedici etmək üçün dərsi müasir etmək lazımdır, buna isə musiqi dərslərinə innovasiyalı yanaşma, müasir metodların geniş istifadəsi və dərslərdə İKT-nin tətbiqi yolu ilə nail olunmalıdır. İnformasiya texnologiyalarını tətbiq edərək müəllim unutmamalıdır ki, bu dərs incəsənət ilə ünsiyyət dərsidir, onu informatika dərsinə çevirmək olmaz. Yeni metodikalara həvəs göstərən müdrik müəllim İKT-dən yalnız o dərəcədə istifadə edir ki, onun tətbiqi uşaqların qabiliyyətlərinin aşkarlanmasına və inkişaf etdirilməsinə qulluq etsin.

**Маралханум Алиева**

# ИННОВАЦИОННЫЙ ПОДХОД К УРОКАМ МУЗЫКИ

***Ключевые слова:*** *инновация, метод проектов, современные технологии, информационно-коммуникативные технологии*

Чтобы сделать уроки музыки привлекательными для молодежи надо придать им современный уровень, используя современные педагогические технологии и ИКТ. Увлеченный инновационными технологиями мудрый учитель музыки не должен забывать, что это не урок информатики, а общение с искусством. Поэтому надо использовать их только с целью выявления и развития музыкальных и творческих способностей учащихся.

**Maralkhanum Aliyeva**

# AN INNOVATIVE APPROACH TO MUSIC LESSONS

***Key words***: *innovation, the project method, modern technology, information and communication technologies*

To make music lessons should be attractive for young people to give them a modern level, using modern educational technologies and ICT. Fascinated by innovative technology wise music teacher must not forget that this is not a lesson of computer science, but it is communication with art. Fascinated by innovative technology-wise music teacher must not forget that this is not a lesson of computer science and communication with art. Therefore we must use them only for the purpose of identification and development of musical and creative abilities of students.

Artıq XXI əsrin ikinci onilliyi bitmək üzrədir, sivilizasiya inkişaf edir. İnformasiya texnologiyaları sürətlə inkişaf edir ki, bunlar yer kürəsinin müxtəlif istiqamətlərində olan nəhəng insan kütlələrinə bir-birilə ünsiyyət qurmaq, bir-birini görmək, mübahisə aparmaq, bir-birinə təsir etmək imkanını yaradır. İnsanların qarşısına çıxan yeni məsələlərin sayı artır. Müstəqil qərar qəbul edə bilən, təşəbbüskar, bacarıqlı və zirək insanlara ehtiyac artır. Beləliklə də müasir məktəb üçün hərtərəfli harmonik inkişaf etmiş kreativ şəxsiyyətin yetişdirilməsi problemi ön plana çəkilmiş olur.

Müasir təhsil şəraitində incəsənət yeganə bir məkandır ki, burada böyüməkdə olan balaca insanın emosional-mənəvi qanunauyğun inkişafı, onun öz xalqının və bəşəriyyətin mənəvi dəyərləri ilə ünsiyyəti baş veriri. Zənnimizcə, müasir nəsil musiqi ilə məşğuliyyətin praktiki faydasını dərk etmir, buna görə də “Musiqi” fənninə lazımsız, az əhəmiyyətli bir fənn kimi baxılır. Lakin helə Pifaqor özünün “müdriklik məktəbi”ni yaradarkən, onun əsasına iki sənəti qoymuşdur – musiqi və riyaziyyatı. O, hesab edirdi ki, rəqəmlərin harmoniyası musiqi səslərinin harmoniyası ilə qohumluq təşkil edir və hər iki sənət təfəkkürdə xaosu ləğv edir və bir-birini tamamlayır. Müasir tibb elmi də musiqini bir kosmik kod, “beynin dili” kimi qəbul edir. Musiqi fəza və assosiasiyalı təfəkkürü inkişaf etdirir, beynin işini stimullaşdırır, nitq və yaddaşın inkişafına təkan veriri, zəhmətkeşliyi, səbri, iradəni tərbiyə edir, emosiyaları mükəmməlləşdirir, ətraf dünyanın xüsusi bir gözlə duyulmasını aşılayır. Bundan əlavə, düzgün seçilmiş musiqi insanın psixikasına və sağlamlığına da müsbət təsir göstərir.

Sosioloji tədqiqatlar göstərir ki, musiqi müasir gənclərin maraq dairəsində əsas yerlərdən birini tutur. Lakin problem bundadır ki, aşağı səviyyəli xarici və yerli bayağı musiqi repertuarına üstünlük verilir. Xalq musiqisinin yüksək bədii nümunələri və klassik musiqisinin şedevrləri gənclərin maraq dairəsindən kənarda qalır ki, bu əsərlər yüksək mənəvi potensiala, tərbiyəvi və inkişafedici imkanlara malikdir. “Musiqi” fənnini uşaqlar üçün maraqlı və cəlbedici etmək lazımdır. Bəs bunu necə həyata keçirmək olar? Hər şeydən əvvəl dərsi müasir etmək lazımdır, buna isə musiqi dərslərinə innovasiyalı yanaşma, müasir metodların geniş

istifadəsi və dərslərdə İKT-nin tətbiqi yolu ilə nail olunmalıdır.

İnnovasiyalı yanaşma dedikdə biz tədrisdə belə məqsədyönlü yenilikləri nəzərdə tuturuq ki, onların tətbiqi nəticəsində təhsildə yeni elementlər və keyfiyyət nöqteyi nəzərdən pozitiv dəyişikliklər baş vermiş olsun. İnnovasiyalı fəaliyyətə innovasiya prosesini təmin edən kompleks tədbirlər aiddir. İnnovasiya fəliyyətinin əsas funksiyası pedaqoji prosesin komponentlərinin (məqsəd, məzmun, forma, metod, texnologiya, təlim vasitələri və idarə sistemlərinin) dəyişdirilməsidir.

İnnovasiyalı təlim müəllim tərəfindən xüsusi təşkil olunmuş və şagirdlərin şəxsiyyətlərinin inkişafına yönəlmiş pedaqoji, didaktik və yaxud metodik dəyişikliklərdir. İnnovasiyalı təlimin əsas məqsədlərindən biri daima dəyişən müasir dünyada şagirdlərin hər zaman dəyişikliklərə, yeniliklərə hazır olmaları, dəyişilməni bir həyat tərzi kimi qəbul etmələridir.

Musiqi təhsilinin modernləşdirilməsi prosesi təcrübəyə yeni iş formalarının daxil olunmasına yönəldilmişdir ki, bunlar nəinki fənnin çərçivələrini genişləndirir, həmçinin də şagird şəxsiyyətinin mənəvi potensialının formalaşdırılması üçün səmərəli bir vasitədir. Ənənəvi iş formaları ilə bərabər (mahnı oxuma, dimləmə və musiqili-ritmik hərəkətlər) yeni iş formalarını da istifadə etmək vacibdir.

Musiqi dərslərində innovasiyalı iş formalarına aşağıdakılar aiddir:

- İnkişaf edici təlim texnologiyası: tədris materialının problemli şərhi, qismən axtarış fəliyyəti, müstəqil layihə-tədqiqat fəaliyyəti.
- Təngidi təfəkkürün inkişafı texnologiyası: şagirdlərin həyati təsəvvürlərinin elmi faktlarla toqquşması.
- İnformasiya kompüter texnologiyaları: hazır elektron tədrisi resurslarının istifadəsi, yaradıcı plana problemli məsələlərinin daxil edilməsi ki, onlarin həlli üçün kompüter texnologiyaları cəlb olunsun.
- Fərdi fəaliyyətli yanaşma texnologiyası: şagirdlərin yaradıcı işləri, onları korrektə etmə bacarığı, özünə nəzarət.

Tədqiqat təcrübəsi – buraya şagirdlərin müstəqil tədqiqat aparma və yaradıcı layihələrin yerinə yetirilməsi aiddir.

İnnovasiyalı iş formalarının ən mühümlərindən biri layihə texnologiyalarıdır. Layihələr müxtəlif tipli ola bilər. Bu gün layihə metodu gənc nəslin təlimində şəxsiyyət yönümlü yanaşma məsələsinin səmərəli həllinə şərait yarada bilər. Ümumiyyətlə, latın dilindən bütün avropa dillərinə daxil olan “projectus” sözü “irəliyə atılan”, “qabarıq”, “gözə çarpan” mənasını daşıyır. Həqiqətən də bu metod diqqətə layiqdir, gözə çarpandır.

Musiqi dərslərində ənənəvi iş formaları yeni üsullarla tətbiq oluna bilər. Məsələn, oyun forması rollu layihə kimi təqdim oluna bilər, mahnıların süjeti dramaturji cəhətdən işlənilə bilər. Rollu oyun şagirdlərin şəxsiyyətinin inkişafinda böyük əhəmiyyət kəsb edir: müxtəlif rolları ifa edərək o, qəhrəmanın keçirdiyi hissləri daha da dərindən dərk edir, onları sanki yaşayır, insanlar arasında olan

münasibətlərdən baş çıxarmağı öyrənir, təbiətində olan yaradıcı qabiliyyətlərini üzə çıxarmağa müvəffəq olur.

Klassik musiqi ilə tanışlıq zamanı (məsələn, E.Qriqin "Per Günt" əsəri ilə) şagirdlərə internetdən həmin cizgi filmindən fraqmentləri nümayiş etdirmək olar. Sonra onlara bu əsərdən müxtəlif nömrələri çalaraq onların adını tapmaq təklif olunur (Anitranın rəqsi, Dağ kralının mağarasında və s). Beləliklə "Tapmaca" oyunu vasitəsilə uşaqların yaddaşını möhkəmlətmək, onlarda maraq hissini inkişaf etdirmək olar. Sonda evdə bu əsərə afişa çəkmək tapşırığı verilir (burada rəsmlə musiqinin inteqrasiyası baş verir) ki, bu da şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirir.

Layihə texnologiyası yüksək kommunikativliyi ilə səciyyələnir və şagirdlər tərəfindən öz fikirlərini, hisslərini, düşüncələrini əks etdirməni, real fəaliyyətə aktiv daxil olmalarını, təlimdə müvəffəqiyyətlərinə görə şəxsi məsuliyyətlərini nəzərdə tutur. Layihə metodikası vasitəsilə dərsdə bir neçə məqsədlərə nail olunur: uşaqları yaradıcılığa istiqamətləndirmək, tədris olunan materialı möhkəmlətmək, dərsdə bayram əhval-ruhiyyəsini yaratmaq və sinfi uşaqların rəngərəng boyalı işləri ilə bəzəmək. Layihələrin hazırlanıb təqdim edilməsi adi ənənəvi tapşırıqların yerinə yetirilməsindən daha çətin və ciddi işdir. Layihənin qiymətliliyi də bundadır ki, onun üzərində işlədiylərii vaxt müddətində məktəblilər müstəqil şəkildə bilik əldə etməyi öyrənirlər.

Bəzi layihələr evdə müstəqil olaraq işlənilir, digərləri, daha mürəkkəbləri isə müəllimin yardımı ilə sinifdə yaradılır. Ən başlıcası isə odur ki, uşaqların təşəbbüsünü əzməmək, onlar tərəfindən verilən hər bir ideyaya hörmətlə yanaşmaq, "müvəffəqiyyət" situasiyasını yaratmaq. Bundan əlavə, fəaliyyətin məzmun və üsullarının müstəqil olaraq seçilməsi şəxsiyyətin emosional cəhətdən inkişafına, qabiliyyətlərin və maraqların üzə çıxarılmasına təkan vermiş olur. Layihələr metodu şagirdlərə bilikləri hazır vəziyyətdə alınmasına deyil, onları şüurlu şəkildə əldə edilməsinə vadar edir. Şagirdlərin fəal marağını oyatmaq üçün onların qarşısına əhəmiyyətli və maraqlı problem qoymaq vacibdir.

Layihə üzərində işi təşkil edərkən bir neçə şərtləri nəzərə almaq lazımdır:

1. Təklif olunan problem elə təqdim olunmalıdır ki, şagirdlər digər bilik sahələrinə və müxtəlif informasiya mənbələrinə müraciət etməli olsun. İşə sinfin bütün uşaqlarını cəlb etmək lazımdır və hər kəsə onun hazırlıq səviyyəsinə uyğun tapşırıq verilməlidir.

2.Layihənin hazırlanması yeni, əlavə informasiyanın axtarışı, bu informasiyanın müzakirə edilməsi və sənədləşdirilməsi, onun həyata keçirilməsi üsullarının (bunlar rəsmlər, əl işləri, viktorina, prezentasiya və s. ola bilər) seçilməsi ilə bağlı olmalıdır.

İnnovasiyalı iş formalarına tədqiqat işi də aiddir ki, o aşağıda göstərilən səpkidə aparıla bilər:

Treninq – buraya şagirdlərin tədqiqat aparmaq üçün bilik, vərdiş və bacarıqların formalaşdırılmasına yönəlmiş xüsusi məşğələlər aiddir. Treninqdə şagirdlərin tədqiqat işi aparma qabiliyyətləri inkişaf etdirilir ki, bunun nəticəsində aşağıdakı bacarıqlar əmələ gəlməlidir: problemi görmək; sual qoymaq; fərziyyə irəli sürmək; anlayışları müəyyənləşdirmək; təsnifat aparmaq; müşahidə aparmaq; eksperimentlər keçirmək; nəticə çıxarmaq; verilən materialı strukturlaşdırmaq; öz məruzələrinin testlərini hazırlamaq; öz ideyalarını izah, sübut və müdafiyə etmək.

Monitorinq – şagirdlərin tədqiqat işinin qiymətləndirilməsinə yönəlmiş tədbirlər (buraya mini-kurslar, konfranslar, tədqiqat işlərinin və yaradıcı layihələrin müdafiəsi və s. daxildir).

Ssenari layihəsi. Məsələn, ümümməktəb sinifdən kənar tədbirlərdə iştirak və yaxud ayrıca bir sinifin konsertə, müsabiqəyə, festivala hazırlığı və s.

Yaradıcı layihələr – məsələn, Movie Maker proqramında video klipin yaradılması.

İnformasiyalı tədqiqat layihələri – referatlar, prezentasiyalar. Bunun üzərində bir qədər duraraq, onu daha geniş izah edilməsi ehtiyacını duyuruq.

Təhsildə aparılan islahatlarla əlaqədar olaraq son zamanlar kompüter multimedia texnologiyalarının məktəb musiqi təhsilinin inkişafına təsiri artmışdır, çünki təhsil prosesində bu texnologiyaların nailiyyətlərinin ən geniş tətbiqi sahəsini məhz bədii-estetik fənlər təşkil edir. Multimedia vasitələrinin köməyi ilə yaradılan kompüter mühiti innovasiyalı təfəkkürün inkişafı üçün şərait yaradır, həmçinin bədii-estetik fənlərin öyrənilməsi prosesində və müstəqil iş zamanı intellektual və şəxsiyyət inkişafı, təhsil prosesinin optimallaşdırılması, şagirdlərin yaradıcı kompetensiyalarının inkişafını təmin edən imkanlar yaradır.

Qeyd etməliyik ki, uşaqların yaradıcı vərdişlərinin inkişafı üçün təlimedici və inkişafedici musiqi proqramları çox faydalıdır. Bu texnologiyaların üstünlükləri çox müxtəlifdir. Bir elektron təhsili məhsulunda arxitektura, heykəltaraşlıq, rəsm sənətinin rəngarəng təsvirlərinin musiqi əsərləri və mətn informasiyası ilə birləşməsi emosional təsir göstərərək, uşaqların bədii zövgünü inkişaf etdirir və mədəniyyət və incəsənət sahəsində biliklərin əldə edilməsinə imkan yaradır.

Çoxsaylı illüstrasiya və əyyani materialdan başqa bu texnologiyalar həmçinin şagirdlərin müxtəlif iş formalarının təşkilinə və müəllimin müxtəlif metodiki priyomlar ilə silahlanmasına köməklik edir. İnformasiya texnologiyaları musiqi dərslərində mətn, səs, qrafik və video-informasiyanı yeni tərzdə istifadəsini mümkün edir, yəni dərsin metodiki imkanlarını zənginləşdirir, onu müasirləşdirir.

Musiqi dərslərində müxtəlif mövzuların öyrənilməsi zaman İKT-dən istifadə musiqi əsərlərinin keyfiyyətli yazısını dinləmək, görkəmli musiqiçilərin konsertlərindən fraqmentlərin videoyazılışını izləməklə bərabər, həmçinin təsviri incəsənət, ədəbiyyat, xalq sənətlərinə dair böyük informasiya blokunu istifadə etməyi mümkün edir.

Kompüterin istifadəsi ilə keçirilən dərs, ənənəvi dərsdən fərqli olaraq, işin bir qədər dəyişik təşkilini nəzərdə tutur: bu və ya digər mövzunun öyrənilməsində aksent aktuallığa, həyatla bağlılığa edilməlidir. Tapşırıqlar konkret xarakter daşımalıdır. Belə işin məqsədi uşaqları fənni müstəqil olaraq öyrənməyə cəlb etməkdən, geniş həcmli informasiyadan baş çıxarmaq, onu təhlil edərək bütün sinif üçün əhəmiyyətli olanı ayırd etmək bacarığının aşılanmasından ibarətdir.

Məsələn, ibtidai siniflərdə «Bəstəkarlar və simfoniya» mövzusunu öyrənəndə kifayət qədər mürəkkəb məsələlər araşdırılmalıdır: “orkestr”, “simfoniya” terminlərinin araşdırılması, orkestrdə müxtəlif alətlər qruplarının xarakteristikası, hər bir alətin səslənmə xüsusiyyətləri, simfonik orkestrin ifasında müxtəlif əsərlərdən fraqmentlərin dinlənilməsi və musiqidən alınan təsuratların, həyacanın təhlili. Bütün bunlar İKT vasitəsilə video və səs ilə müşayiət olunur. Beləliklə, uşaqlar aldıqları informasiyanın təstiqini almış olur. Həmçinin “Azərbaycan xalq çalğı alətləri” mövzusu və digər mövzular da bu səpkidə təqdim oluna bilər.

Yuxarı və orta siniflərdə musiqi dərslərində məruzə, referat və prezentasiya kimi iş formaları geniş tətbiq olunmalıdır. Şagirdlərin yaradıcı qabiliyyətlərini inkişaf etdirilməsi üçün Power Point proqramının istifadəsi mühüm rol oynayır. Bu proqramda həm müəllim, həm də şagirdlər prezentasiyaları yarada bilərlər ki, bunlar musiqi dərslərində və sinifdən kənar işdə informasiya mühitini yaratmağa köməklik göstərir. Prezentasiyanın həyata keçirilməsi üçün şagird böyük tədqiqat işi aparmalıdır ki, bu da şablonlardan qaçınmağa, hər bir işin fərdi yaradıcılıq məhsuluna çevrilməsinə yardım edir. Şagird prezentasiyanın hər bir slaydını yaradarkən kompüter rəssamına çevrilir, çünki slayd gözəl olmaqla bərabər həm də müəllifin açıqladığı mövzuya daxili münasibətini əks etdirməlidir.

Təlim fəaliyyətinin bu növü şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirməyə və vərdişlərin formalaşmasına imkan yaradır. Əvvəllər sönük, hətta heç bir illüstrasiyalarla da müşayiət olunmayan çıxışlar parlaq və yadda qalan məruzələrə çevrilir. Nümayiş prosesində şagirdlər ictimaiyyət qarşısında çıxış etmə təcrübəsini əldə edirlər ki, bu da onlara sonrakı həyatlarında çox gərəkli ola bilər. Bundan əlavə yarış elementləri də işə salınır ki, bu da şagirdin özünəqüvənini artırır, çünki kompyüterlə işləmə bacarığı müasir gənclik mədəniyyətinin vacib bir elementlərindəndir.

Aldıqları biliklərin möhkəmlənməsi üçün Power Point proqramından istifadə edərək uşaqların və müəllimin birgə fəaliyyətini təşkil etmək faydalıdır, belə ki, mövzu ilə əlaqədar slaydların hazırlanması kimi birgə yaradıcılıq işi dərsdə əlverişli psixoloji mühiti, əməkdaşlıq abu-havasını yaradır və qruplarda işləmə bacarığını formalaşdırır. Yuxarı siniflərdə “Opera yaradıcılığı” mövzusunu öyrənərkən şagirdlər qruplara bölünür və hər bir qrupa tapşırıq verilir: “Leyli və Məcnun”operasının librettosunu və tərkibini, formalarını araşdırmaq. Müəllim

qabaqcadan illüstrasiya materialını hazırlamalıdır. Bundan sonra tapşırığın yerinə yetirilməsi üçün slaydların yaradılması prosesi başlanır. Belə iş metodu dərsin maraqlı və qeyri standart keçirilməsinə və tədris materialının möhkəmlənməsinə imkan yaradır.

Cəmiiyətin inkişafı bu gün bizdən həyatın hər bir sahəsində innovativ yanaşmanı tələb edir. Müasir məktəb zamanın tələblərindən geri qalmamalıdır. Lakin müəllim unutmamalıdır ki, musiqi dərslərində texniki vasitələrin tətbiqi əsas məqsəd deyil. İnformasiya texnologiyalarını tətbiq edərək müəllim unutmamalıdır ki, bu dərs incəsənət ilə ünsiyyət dərsidir, onu informatika dərsinə çevirmək olmaz. Yeni metodikalara həvəs göstərən müdrik müəllim İKT-dən yalnız o dərəcədə istifadə edir ki, onun tətbiqi uşaqların qabiliyyətlərinin aşkarlanmasına və inkişaf etdirilməsinə qulluq etsin.

## ƏDƏBİYYAT


1. Алиев Ю.Б. «Настольная книга школьного учителя-музыканта», М.,2000
2. Кларин М.В. «Инновационные модели обучения в зарубежных педагогических поисках», Москва, 1994
3. Мозговая Т.В. “Информационные технологии на уроках музыки», М., 2013
4. Qədimova J.H. “Musiqinin tədrisi metodikası”, Bakı, 2007
5. O.Rəcəbov, F.Hidayətova “Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası”, Bakı, 2013


**Məqalənin redaksiyaya daxil olma tarixi: 05.07.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 30.11.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78:371**

**Aygün Əhədova**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: aygunahadova@yahoo.com

# FORTEPİANODA İFA TƏDRİSİNƏ DAİR BƏZİ METODİK TÖVSİYƏLƏR

***Açar sözlər:*** *ifaçılıq, yaradıcılıq potensialı, qavrama, əsərin araşdırılması*

Musiqi müəllimi məktəbdə özü özünə və uşaq xoruna yaxşı müşayiət etməyi, müxtəlif əsərləri musiqini dinləmə üçün ifa etməyi bacarmalıdır. Bu baxımdan ali məktəbdə musiqi müəlliminin hazırlığı sistemində fortepianoda ifa bacarığının inkişafı əsas peşə bacarıqlarından biri kimi çıxış edir.

**Айгюн Ахадова**

# НЕКОТОРЫЕ МЕТОДИЧЕСКИЕ РЕКОМЕНДАЦИИ ОБУЧЕНИЯ ИГРЕ НА ФОРТЕПИАНО

***Ключевые слова:*** *исполнительство, творческий потенциал, восприятие, разбор произведения*

Учитель музыки должен уметь аккомпанировать себе и школьному хору, а также уметь исполнять различные произведения для слушания музыки. Поэтому в высшем учебном заведении в системе подготовки учителей музыки развитие умения играть на фортепиано является одним из основных профессиональных умений.

**Aygun Ahadova**

# SOME METHODICAL RECOMMENDATIONS FOR LEARNING TO PLAY THE PIANO

***Key words:*** *performance, creativity, perception, analysis of a work*

The teacher of music should be able to accompany himself and the school choir, as well as be able to perform various works for listening to music. Therefore, in higher education in the system of training music teachers, the development of the ability to play the piano is one of the main professional skills.

Pedaqoji iş – hər zaman mürəkkəb bir prosesdir, incəsənət sahəsində isə digər sahələrdən daha çətindir, çünki müəllimin qarşısında duran məsələlər dairəsi xüsusilə genişdir.

Pedaqoji Universitetin "Musiqi müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələr onlara gələcək peşə fəaliyyətində lazım olacaq müxtəlif fənlər keçirlər. Bu fənlərin sırasında əsas alət (fortepiano) mühüm yerlərdən birini tutur.

Məlumdur ki, musiqi müəllimi məktəbdə özü özünə və uşaq xoruna yaxşı müşayiət etməyi, müxtəlif əsərləri musiqini dinləmə üçün ifa etməyi bacarmalıdır. Bu baxımdan ali məktəbdə musiqi müəlliminin hazırlığı sistemində əsas alətdə (fortepianoda) ifa bacarığının inkişafı əsas peşə bacarıqlarından biri kimi çıxış edir. Buna görə təqdim etdiyimiz məqalədə qısa şəkildə fortepianoda ifanın metodikasının əsas məsələləri araşdırılır, əsərlər üzərində işin müxtəlif tərəflərinə baxılır.

Fortepiano dərslərində yeni əsərin öyrənilməsi zamanı tələbə onu bir-neçə dəfə tam çalaraq, onunla tanış olmalıdır, sonra musiqi mətnini tam təfərruatları ilə araşdırmalıdır, daha sonra ayrı-ayrı əsas ifaçılıq məsələlərinin həlli üzərində işləməlidir, diqqətini musiqi parçasının müxtəlif elementlərinə yönəltməli və, nəhayət, bədii obrazın tam olaraq dolğun açıqlanmasına çalışmalıdır. Beləliklə, tələbə tam bütövdən başlayaraq, sonra müxtəlif fərdi məsələləri həll edərək, sonda yenə də ümumi ifaçılıq ideyasının yeni səviyyədə təcəssümünə qayıdır.

Fortepiano ədəbiyyatının zənginliyi və müxtəlifliyi müəllimə tələbələrlə tam dolğun iş üçün geniş imkanlar yaradır. Savadlı müəllim dərsin gedişatına uyğun olaraq əsərləri məharətlə seçərək, tələbənin inkişafını təmin edə bilər. Beləliklə də öyrənilən əsərlər müxtəlif ifaçılıq bacarıq və vərdişlərinə yiyələnmək üçün vasitə kimi çıxış edir. Lakin musiqi əsərlərinə bucür birtərəfli baxış düzgün deyil və zərər verə bilər. Hər əsər üzərində iş, ilk növbədə, tələbənin yaradıcılıq potensialının açıqlanmasına təkan verməli, onun gözəllik dünyasına daha bir addımı kimi çıxış etməlidir. Bununla yanaşı hər zaman müvafiq pianoçuluq məsələləri də həll olunmalıdır. Müəyyən bir əsər üzərində işin məqsədi – məzmunlu, parlaq, texniki cəhətdən mükəmməl ifadır. Sözsüz ki, bunun üçün bütün lazımi texniki vərdişlərə yiyələnmənin səviyyəsi müxtəlif ola bilər: burada tələbəyə mümkün olan səviyyə nəzərdə tutulur, eyni zamanda bu səviyyə keyfiyyətli ifanı təmin etməlidir.

Fortepiano sinfində təlimin ümumi vəzifəsini tələbələrdə musiqiyə sevgi, musiqi əsərlərinə emosional yanaşma, onları parlaq qavrama və hərtərəfli musiqi hazırlığının həyata keçirilməsi təşkil edir ki, bütün bunlar müxtəlif üslublu və janrlı əsərləri bədii məzmununu açıqlayaraq ifa etməyə imkan verir. Fortepiano ədəbiyyatının obrazlar dünyası son dərəcə genişdir: hər bir bədii cəhətdən zəngin musiqi əsəri təkrarsız məzmuna malikdir, ən sadədən çox əhəmiyyətli və dərinliyi ilə insanı fəth edənə qədər özünün obrazlar dairəsini

açıqlayır. Tələbə – istər A.Zeynallının, F.Əmirovun, Ə.Abbasovun, V.Adıgözəlovun, P.Çaykovskinin və digərlərin uşaq pyeslərini yaxud L.Bethovenin, V.Motsartın, F.Şopenin, S.Raxmaninovun mürəkkəb bəstələrini – hər hansı bir əsəri ifa etdikdə onu başa düşməli, hər bir detalın ifadəlilik əhəmiyyətini dərk edərək, onu ifa etməyi bacarmalıdır, yəni öz çalğısı ilə onun bədii məzmununu açıqlamağı bacarmalıdır.

Tələbədə musiqini bucür anlama bacarığını inkişaf etdirmək üçün müəllim müntəzəm olaraq bütün tədris dövründə bu istiqamətdə ciddi işləmələdir və hər zaman düşüncəsiz ifanın qarşısını almalıdır. İfa etdiyi əsərin tələbə tərəfindən anlanılmamasının səbəbi obrazlı məzmunun mürəkkəbliyində, musiqi inkişafının kifayət qədər yaxşı olmamasında, verilən əsərin əhvalının duya bilməməsi və onun xarakterik cəhətlərini görməməsində ola bilər. İstənilən halda müəllim müxtəlif yollarla tələbəyə kömək etməlidir. Bu yardımın səmərəliliyi əhəmiyyətli dərəcədə müəllimin özünün musiqi duyumunun dərinliyindən asılıdır. Əgər əsər müəllimin fikrincə maraqsızdır və diqqətə layiq deyilsə, onda o, tələbəyə də heçnə öyrədə bilməz. Əsəri hər dəfə sanki yenidən qavramaq, bu musiqidən həzz almaq vacibdir. Yalnız fraqmentləri fortepianoda ifa edərək, əsərin xarakterini və ruhunu açıqlayaraq, tələbənin diqqətini ifadəlik detallarında cəmləyərək müəllim tələbə tərəfindən musiqinin dərindən anlamasına nail ola bilər. Bəzi tələblərlə işləmək çox rahat olur, iş sanki özü-özlüyündə alınır, digərləri ilə isə daha çox işləmək lazım olur. Lakin müəllim özü öyrənilən əsərin gözəlliyini hiss etmirsə, tələbə də onu yaxından duya bilməz və bununla da ifa cansız və formal olar.

Tədrisin ilkin dövründə tələbə ilə çox vaxt bu və ya digər pyesin məzmunu barəsində əsaslı surətdə söhbət etmək, demək olar ki, bütöv bir proqram yaratmaq lazım olur, xüsusilə də musiqi savadı kifayət qədər dolğun olmayan tələbələrlə. Sonralar bu həm lazım, həm də mümkün olmur. Tələbənin ümumi və musiqi inkişafının artması belə söhbətlərə yalnız bəzi istisna hallarda üz tutmağa imkan verir. Fortepianoda canlı çalğı göstərişləri ilə yanaşı müəllimin əsaslı və hərtərəfli qeydləri də tələbəyə musiqinin məzmununu anlamağa, bəstəkarın fikirlərini daha dərindən başa düşməyə, musiqinin özünəməxsusluğu və ifadəliliyini, əsərin xarakterik xüsusiyyətlərini hiss etməyə təkan verir.

Tələbənin imkanlarına, onun inkişafına söykənərək tələbə tərəfindən canlı, ifadəli, aydın və anlaşılan ifaya nail olunmalıdır. Bu məsələni istedadlı tələbələrlə daha asan həll etmək olur, çünki onlar üçün musiqi dili özünün doğma dilidir və müəllimdən sadəcə tələbəni bir qədər istiqamətləndirmək tələb olunur. Daha zəif tələbələrlə isə iş daha mürəkkəb olur, lakin yenə də tədrisi məsələlərinin həlli mümkünlüdür. Bunun üçün musiqi əsərlərinin qavranılması və dərk edilməsi üzərində iş daima, müntəzəm olaraq bütün tədris dövründə

aparılmalıdır. Onda tələbə nəinki musiqinin gözəlliyini hiss etməyi bacarar, lakin musiqi obrazlarında ifadə olunan bədii məzmunu qavramağı öyrənər.

Əsərin daha dərindən dərk edilməsi üçün müəllim dərslərdə tələbəni bəstəkarın həyatından faktlarla, onun dünyagörüşü ilə, bütövlükdə yaradıcılığı ilə tanış etməlidir, müəllifin digər əsərləri ilə müqayisəli təhlil aparmalıdır. İş prosesində öyrənilən əsərin dinlənilməsini də təşkil etmək olar (CD-diskdə və yaxud İnternetdə), özüdə müxtəlif ifaçıların ifasında. Lakin tələbə bilməlidir ki, o dinlədiyi yazıları təqlid etməməlidir, özünün interpretasiya yolunu tapmalıdır, dinləmə yalnız əsərin daha parlaq qavranılması, obrazın "içinə daxil olması" üçün lazımdır. Buna görə dinləməni əsər üzərində işin əvvəlində yox, sonunda həyata keçirmək daha faydalıdır, yəni tələbənin öz ifaçılıq üslubu artıq müəyyənləşəndən sonra.

İndi də əsər üzərində işin gedişatını araşdıraq. Əsərlə tanışlıq – tələbə üçün çox vacib bir məqamdır. Çox vaxt əsər tələbəyə artıq tanışdır: digər tələbə-yoldaşlarının ifasından, konsert və ya disklərdən eşitdiklərindən və yaxud özünün fortepiano ədəbiyyatına ötəri baxışından. Lakin tamamən yeni, tanış olmayan əsər də ola bilər. Bu zaman əsərlə ilk tanışlıq xüsusi əhəmiyyət kəsb etməyə başlayır.

Əsəri bir-neçə dəfə bacırdığı kimi çaldıqda (bu tələbənin üzdən oxuma vərdişlərindən və ümumi musiqi inkişafından asılıdır), tələbə ümumi şəkildə onun musiqi məzmununu qavrayır, onun xarakterik cəhətlərini, formasını və s. Əgər tələbənin üzdən oxuma vərdişləri qənaətbəxş deyilsə, müəllimin özü tərəfindən əsərin ifası daha faydalı olar, özü də bu zaman müəllim tələbənin diqqətini əsərin ifadəlik xüsusiyyətlərində cəmləşdirməlidir. Daha hazırlıqlı tələbələr bunu özləri də edə bilər. Lakin hətta onların da qavrama proseslərini düzgün istiqamətləndirmək üçün müəllim əsərin xarakteri, əhvalı barəsində bir-neçə söz desə, ayrı-ayrı epizodları çalsa, tipik çətinlikləri göstərsə daha yaxşı olar.

Belə iş üsulu çətin və tələbə üçün üslubuna və xarakterinə görə tamamən yeni əsərlə tanışlıq vaxtı məsləhət bilinir. İlkin təsəvvür nə qədər parlaq və dolğun olsa, o qədər sonrakı iş prosesinın konturları daha aydın olacaq və həll olunacaq yaradıcılıq məsələlərin anlanılması ilə keçəcəkdir. Əsərlə tanış olandan sonra tələbə əsəri hərtərəfli və əsaslı surətdə araşdırmalıdır. Savadlı, düşünülmüş araşdırma sonrakı düzgün işin gedişatının əsasını müəyyənləşdirir. Müxtəlif səviyyəli və istedadlı tələbələr üçün araşdırmaya sərf olunan vaxt müxtəlif olacaq, lakin istənilən halda işin bu ilkin mərhələsində səhlənkarlığa, səliqəsizliyə və diqqətsizliyə yol vermək olmaz.

Mətndə verilən bütün müəllif göstərişləri təfərruatı ilə araşdırılmalıdır, tələbə əsərə qarşı diqqətli olmağı işin lap ilkin vaxtlarından öyrənməlidir və düzgün araşdırma vərdişlərini əldə etməlidir. Belə ki, əsəri əvvəl kiçik

hissələrlə araşdırmaq, çətin yerləri daha çox işləmək, metroritmik dəqiqliyi gözləmək, mürəkkəb əsərlərdə hər əlin partiyasını ayrı-ayrılıqda öyrənmək və s. lazımdır. Araşdırma zamanı səslənmə nisbətən güclü olmalıdır, nəinki sonra lazım olacaqdır. Bununla belə, bu mərhələdə hər nə qədər texniki məsələlər üzərində iş aparılsa da yenə də səslənmənin musiqi-ifaçılıq tərəfinə, heç olmazsa ümumi şəkildə fikir verilməlidir. Helə araşdırma mərhələsində tələbəni frazanı dinləməyi, musiqinin inkişafını qavramağı öyrətmək vacibdir. Sözsüz ki, frazirovka üzərində daha dərin iş sonrakı mərhələdə baş verməlidir, lakin onun başlanğıcı burada qoyulmalıdır.

İşin bu mərhələsində lazım olan tempdə çalğıdan, dinamik nüanslardan, aqogikadan, pedallaşmadan və bir çox başqa şeylərdən hələ danışmaq olmaz. Lakin səslənmənin intonasiya və metroritmik dəqiqliyi, mətndə göstərilən ştrixlərin tətbiq olunması, elementar frazirovka, harmonik əsasın eşidilməsi istənilən əsərin araşdırma mərhələsində mütləqdir. Burada olan fərq ondadır ki, bir halda belə işi tələbə özü müstəqil olaraq aparır, digər halda isə – müəllimin köməyi ilə. Sözsüz ki, tələbənin müstəqil iş aparma bacarığı birdən-birə özü-özlüyündə olmur, onu düzgün iş aparma vərdişlərinə öyrətmək lazımdır.

Tələbənin diqqətini rahat applikaturanın düzgün seçiminə də yönəltmək vacibdir. Ona qarşı səhlənkar münasibət işi çətinləşdirir və uzadır. Əsərin araşdırılması mərhələsində çox vaxt düzgün applikatura istifadə olunmur, lakin sonralar onu dəyişdirmək də mümkündür. Araşdırma zamanı pedaldan istifadə üçün hər hansı bir dəqiq qaydalar da lazım deyil. Pedaldan istifadəni mətn tam dəqiq öyrəniləndən sonra tətbiq etmək lazımdır.

Ən vacib məsələlərdən biri – əzbər çalmadır ki, sərbəst, azad ifaya nail olmaq üçün bu vacib bir amildir. Bəs əzbər ifanı əsər üzərində işin əvvəlindən, yoxsa sonunda tələb etmək lazımdır? Bu məsələni hər müəllim özü bildiyi kimi həll edir. Bizim fikrimizcə tələbə əsəri ən əvvəldən əzbər çalmalıdır, bu əsər üzərində iş üçün çox rahat olar və sonda ifanın təbiiliyinə köməklik edər. Bununla belə, yaxşı və dəqiq araşdırılmamış əsərin əzbərlənməsi də pis nəticələr verə bilər. Əgər əsərin düzgün araşdırılması tələbə tərəfindən çətinliklə həyata keçirilirsə, onda erkən əzbərləməyə ehtiyatla yanaşmaq lazımdır. Xüsusi diqqətlə mürəkkəb, polifonik əsərin araşdırılması və öyrənilməsinə yanaşmaq lazımdır. Əsərin dərin, düşünülmüş öyrənilməsi, detallara qarşı dəqiqlik əzbər ifa ilə notla ifanın birgə istifadəsini tələb edir. Tələbə də bunu bilməlidir.

Əgər tələbə yaxşı yaddaşa malikdirsə, çox vaxt araşdırma prosesində o xeyli şeyləri yadda saxlayır. Düzgün araşdırılmış əsəri dərhal əzbərləmək lazımdır, əsər özü-özlüyündə yadda qalsın deyə sonraya saxlamaq olmaz. Çox saylı və adətən formal, düşüncəsiz təkrarlarla əldə olunan əsərin mexaniki əzbərlənməsi əsasən motor yaddaşı üzərində qurulmuşdur. Lakin imtahanda və ya konsertdə ifa zamanı həyacan ucbadından tələbə bildiklərini unuda bilər.

Bundan əlavə, bu cür iş üsulu mənasızdır və böyük vaxt itkisinə səbəb olur. Motor yaddaş lazımdır, lakin yalnız fəal, düşünülmüş əzbərləmənin əlavə amili kimi. Əzbərləməni əvvəl kiçik və nisbətən böyük hissələrin asta tempdə, sonra onları daha iri hissələrə birləşdirilməsi və ən sonda bütün əsərin asta tempdə öyrənilməsi yolu ilə aparmaq lazımdır. Belə ifa tələbə tərəfindən yaxşı mənimsənilməli və yaddaşda saxlanılmalıdır.

Əsəri yaxşı-yaxşı araşdırandan və bəzi hallarda əzbər öyrənəndən sonra əsər üzərində işin növbəti mərhələsinə keçmək olar. Burada ümumi və fərdi məsələlərin həlli həyata keçirilməlidir: alətin səslənməsi, frazirovka, dinamika və aqogika, applikatura, pedallaşma, əsərin texniki cəhətdən tam mənimsənilməsi və s. Tələbə qarşısında bir sıra lokal tələblər durur və hər bir əsər üçün onlar müxtəlifdir, məsələn, Şopenin e-moll Noktürunda müşayiətin rəvan və hamar səslənməsi üzərində iş eyni zamanda lazımi tuşe axtarışları ilə üst-üstə düşür (fransızca “toucher”- toxunma deməkdir, ifaçının alətin dillərinə toxunma tərzidir). Lakin Bethovenin №2 F-dur sonatasının I hissəsində iş tamam başqa səpkidə aparılmalıdır. Burada fortepiano fakturası rəngərəngliyi ilə seçilir və hər bir hətta çox qısa quruluşun, hər akordun ifadəlilik mənasını anlamaq, bəzi detalları çox diqqətlə işləmək, həmçinin ilk baxışdan parçalanmış kimi görünən qısa frazaların məna baxımından birləşməsinə fikir vermək lazımdır. Bundan ötrü bütün əsərin sanki içindən keçən ritmik nəbzləşmənin aşkarlanması gərəkdir.

Əsərin bir-birinin ardınca düşüncəsiz təkrarına yol vermək olmaz. Tələbə əsəri anlamalı, dərk etməlidir ki, orada olan məsələləri həll edə bilsin. Hətta dar texniki məsələlərin həlli zamanı da səslənməni dinləmək, onun keyfiyyətinə fikir vermək lazımdır. İstənilən, hətta texniki cəhətdən asan əsərdə də eşitmə yolu ilə kontrol, nəzarət olmalıdır ki, musiqi gözəl səslənsin və məhz konkret halda lazımi olan boyalar tapılsın. Emosional qavrama olmadan musiqini başa düşmək, dərk etmək mümkün deyil. Əgər müəllim tələbədə gözəlliyi hiss etmək, musiqinin ifadəliliyini qavramaq bacarığını tərbiyə edə bilməzsə, heç bir söz-söhbətlə, nəzəri mülahizələrlə tələbəyə kömək etmək olmaz. Lakin dərslərin müvəffəqiyyəti təkcə əsərin emosional təsirinin gücü ilə müəyyənləşdirilmir. Burada həmçinin ciddi, gərgin iş tələb olunur. Tələbə öyrənilən konkret əsərin xarakterik cəhətlərini başa düşməli, formasını təsəvvür etməli, onun kompozisiyasının ifadəliliyini və bütün musiqi parçasının elementlərini hiss etməlidir.

Əsər üzərində işin ardıcıllığı da vacib məsələlərdən biridir. Çox vaxt gənc müəllimlər tələbənin hətta yaxşı öyrəndiyi əsəri dinləyəndən sonra ona çox saylı iradlar tutub, çatışmamazlıqlarını fortepianoda göstərirlər. Lakin təcrübəmizdən bilirik ki, belə yanaşma fayda gətirmir, çünki çox saylı qeydlər alan tələbə bunlarda dolaşıb-qalır və bilmir ki, hansından başlasın. Tələbəni

qorxudaraq, görüləcək işlərin mürəkkəbliyindən danışmaq lazım deyil. Tələbəyə işin son məqsədini izah edərək, əvvəl ən vacib səhvləri, tədricən də başqalarını düzəltmək məqsədəuyğundur. Müəllimin diqqətindən heç bir şey qaçmamalıdır: ifaçılıqda "xırda" məsələlər olmur. Tələbə lazımi səslənməni axtarmalı, texniki cəhətdən əsəri tam mənimsəməli, əsərin bədii məzmununu bacardığı qədər dolğun açıqlamalıdır. Tələbədə özünə qarşı tələbkarlığı, məsuliyyəti tərbiyə etmək gərəkdir.

Əsər üzərində iş prosesində bəzi ümumi problemlər də ortaya çıxır ki, onların üzərində dayanmaq lazım bildik. Ən başlıcası – alətin səslənməsi. Son illər Azərbaycanda səs, səslənmə üzərində iş çox nadir müəllimlər tərəfidən aparılır. Bunun nəticəsini biz açıq-aşkar görürük: texniki cəhətdən güclü, yaxşı hazırlıqlı pianoçular belə gözəl səslənməni nümayiş etdirmir. İstər-istəməz ortaya bir sual çıxır: niyə tələbələr səslənmə üzərində belə işə hazır deyillər. Bunda birinci növbədə tələbənin ilk müəllimi (musiqi məktəbində) təqsirlidir: ən vacib məsələ olan pianoçuluq aparatının azadlığı və düzgün quruluşu üzərində iş vaxtı ilə kifayət qədər yaxşı aparılmamışdır. Buna görə də ali məktəbdə yeni müəllim çox vaxt böyük əmək və səylər nəticəsində vaxtında görülməmiş işləri yerinə yetirərək, tələbənin bilavasitə pianoçuluq hazırlığına xüsusi fikir verməli olur.

Tələbəni əsəri asta tempdə, barmaqları pianonun dillərinə dərindən basaraq, sanki səsin axmasını, uzunluğunu dinləyərək, ifadəli çalmağı öyrətmək lazımdır. Tələbədə bucür işləmə vərdişlərini tərbiyə etmək lazımdır. Fortepianonun ən adi, təbii səsini – dolğun, yumşaq, şirəli – sevməyi öyrətmək, bu səslənməyə ehtiyacı tərbiyə etmək vacibdir. Bunlar tələbə ilə düzgün iş zamanı sanki özü-özlüyündə əmələ gəlir, çünki tələbə fortepianonun imkanlarından və öz əllərindən istifadə etməyi öyrənir. Tələbə əllərini və barmaqlarını sanki alətin, piano dillərinin dərinliklərinə daxil etməyi, klaviaturanı hiss etməyi öyrənməlidir.

Tədricən tələbənin təcrübəsi və eşitmə təsəvvürləri artdıqca onda avtomatizmlər əmələ gəlir. Əllər sərbəst, azad olduqda barmaqlar artıq hərəkət etmədən və gərginliksiz növbə ilə pianonun dillərinə toxunaraq sakitcə birindən digərinə keçir. Tələbə barmağın "toppuş" ucu ilə pianonun dilinə toxunub bir səsi çaldıqda, bunu passiv şəkildə yox, elastik və dayaq hissi ilə etməlidir. O, bu səsi həm qulaq, həm barmaqlar, həm də bütün əl ilə hiss etməli. Bu zaman diqqəti frazanın təbii aparılmasına, onun şüurlu və dolğun səslənməsinə yönəltmək lazımdır. Piano dillərinə kobud şəkildə basmaq olmaz, çünki bunun nəticəsində melodik xətt qırıq-qırıq və battıq səslənir.

Bəs səslənmənin rəngarəngliyi və müxtəlifliyinə necə nail olunmalıdır? Tələbədə səslənmə çalarlarına, səsin ifadəliliyinə qarşı həssaslığı, səslənmənin incə fərqliliklərini hiss etmək və onları pianoda axtarıb-tapmaq bacarığını tərbi-

yə etmək lazımdır. Bu iş əsasən uzun müddət müəllim tərəfindən yönəldilməni, alətdə çox saylı göstərmələri, izahları tələb edir. İşin bu istiqamətində müstəqillik çox-çox sonralar əmələ gəlir. Dərslər prosesində, tələbənin yaradıcı təxəyyülü inkişaf etdikcə və onun daxili eşitmə qabiliyyəti zənginləşdikcə, o lazımi səslənməni təsəvvüründə canlandırmağı bacarar və bu səslənməyə ifada nail olmağa çalışar.

Burada toxunduğumuz məsələlər ifaçılıq prosesinin mühüm tərəflərindən bəzilərini əks etdirir. Fortepiano ifasını tədris edən müəllimlər bunları öz işlərində rəhbər tutmalıdır ki, lazımi nəticələrə nail olaraq bacarıqlı, savadlı musiqi müəllimlərini yetişdirə bilsinlər. Zənnimizcə ali məktəbdə təhsilin əsas məqsədi də budur.

## ƏDƏBİYYAT


1. M.R.Dadaşeva. Musiqi müəlliminin hazırlığının metodikası. Bakı, 2010
2. К.Леймер, В.Гизекинг. Обучение игре на фортепиано. С-Петербург, 2009
3. Е.Либерман. Работа над фортепианной техникой. Санкт-Петербург, 2014
4. Н.Любомудрова. Методика обучения игре на фортепиано. Москва, 1982
5. Г.Нейгауз. Об искусстве фортепианной игры. М., 1967



**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Minarə Dadaşova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.087.681**

**Svetlana Hacıyeva**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: svetahaciyeva@hotmail.com

# MUSİQİ MÜƏLLİMLƏRİNİN HAZIRLIĞINDA AZƏRBAYCAN XALQ MUSİQİSİNİN ƏSASLARININ ÖYRƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ VƏ ONUN TƏDRİSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *xalq musiqisi, muğam, tədris, lad sistemi*

Musiqi müəlliminin hazırlığı sistemində «Azərbaycan xalq musiqisinin əsasları» fənni tələbələrdə yaradıcı vərdişlərinin formalaşdırılmasına, xalq musiqisinə sevgi hisslərinin aşılanmasına, onu dərindən başa düşmələrinə və quruluşu barəsində bilik almalarına imkan yaradır ki, bu da nəticədə tələbələrin ümumtəhsil məktəbində gənc nəslin estetik tərbiyəsi üzrə gələcək fəaliyyətlərində aldığı bilik və bacarıqları uğurla tətbiq etmələrinə şərait yaradır.

**Светлана Гаджиева**

# ЗНАЧЕНИЕ ИЗУЧЕНИЯ ОСНОВ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ МУЗЫКИ В ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ МУЗЫКИ И ВОПРОСЫ УСОВЕРШЕНСТВОВАНИЯ СИСТЕМЫ ЕЕ ПРЕПОДАВАНИЯ

***Ключевые слова:*** *народная музыка, мугам, обучение, ладовая система*

В системе подготовки учителей музыки предмет «Основы Азербайджанской народной музыки» формирует у студентов творческие навыки, прививает любовь к народной музыке, способствует ее глубокому пониманию и получению знаний о ее строении, что в итоге помогает успешно применять полученные знания и умения в будущей педагогической деятельности в деле эстетического воспитания подрастающего поколения.

**Svetlana Hadjiyeva**

## THE IMPORTANCE OF STUDYING THE FOUNDATIONS OF THE AZERBAIJANI FOLK MUSIC IN THE TRAINING OF MUSIC TEACHERS AND THE ISSUES OF IMPROVING THE SYSTEM OF ITS TEACHING

***Key words:*** *folk music, mugam, training, ladder system*

In the system of training music teachers, the subject "Fundamentals of Azerbaijani Folk Music" shapes students' creative skills, instills love for folk music, promotes its deep understanding and knowledge of its structure, which ultimately helps successfully apply the acquired knowledge and skills in future pedagogical activity in the cause of aesthetic education of the younger generation.

Hər bir xalqın əsrlər boyu yaratdığı müxtəlif forma və janrları, musiqi nümunələri mövcuddur. Azərbaycan musiqi mədəniyyətinin mənbəyi qədim dövrlərə gedib çıxır. O, uzun inkişaf yolu keçərək təbii və orijinal xüsusiyyətlərə malikdir. Azərbaycanın xalq musiqisi – zəngin muğamları, mahnı və rəqsləri, təsnifləri və aşıq havaları müxtəlif janrlarda orijinal ritm və ladlar əsasında inkişaf etmişdir.

Xalqımızın ən ecaskar yaradıcılıq sahəsi – muğam sənətidir. YUNESKO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın dediyi kimi: “Muğam bizim qəlbimizin xüsusi məqamıdır… Muğam dəryasının sualtı cərəyanları çoxdur, bu cərəyanlara daldıqca biz insan hisslərinin sirli yelpazəsinin istiliyini hiss edə bilirik, varlığı onun bütün müxtəlifliyində dərk edirik. Elə buna görə də biz muğama dönə-dönə qayıdırıq. O artıq bizim həyatımızın hissəsi deyil, o bizim özümüzdür”.

Kiçik yaşlarından başlayaraq muğamlarımızı öyrətmək və musiqi tərbiyəsi prosesində məhz xalq musiqi nümunələrindən istifadə etməklə şagirdlərimizin musiqi qabiliyyətlərinin inkişafında müəyyən irəliliyişə çatmaq mümkündür. Bu məqsədlə muğam və xalq musiqi janrlarının məktəbdə istifadə olunmasının imkan və yollarının düzgün təyin edilməsinin xüsusi əhəmiyyəti vardır. Milli musiqi və mədəniyyət tariximizin incəsənət sahəsində qədim köklərə malik ənənələrimizin öyrənilməsi, böyüyən nəsildə estetik, hissi-emosional tərbiyənin gücləndirilməsi, ümumi intellektual səviyyənin inkişafı, istedadlı şagirdlərin aşkara çıxarılması kimi əsas tələblərin yerinə yetirilməsində musiqi təlimi mühüm əhəmiyyət kəsb edir. Emosional dəyərləndirmə musiqi əsərlərinin mahiyyətcə qavranılması şagirdlərin mənəvi aləminin zənginləşməsində, onlarda incə hiss və duyğuların yaranmasında daxili hissiyyatların biruzə verilməsində müstəsna rol oynayır.

Respublikamızda təhsil sahəsində aparılan islahatlar fundamental peşə ha-

zırlığına, ixtisas üzrə zəruri bilik, bacarıq və vərdişlərə malik olan müasir müəllimlərin hazırlığını tələb edir. Pedaqoji Universitetdə gələcəyin musiqi müəllimlərinin yetişdirilməsi işində «Azərbaycan xalq musiqisinin əsasları» fənni mühüm yerlərdən birini tutur.

Ümumilli liderimiz Heydər Əliyev öz çıxışlarının birində demişdir: "Biz çalışmalıyıq ki gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələri əsasında tərbiyə edilsinlər". Milli adət-ənənələrimizə hörmət etmək, onu qoruyub saxlamaq milli musiqimizin incəliklərini bilmək, Azərbaycanın görkəmli şəxsiyyətlərini tanımaq ruhunda şagirdləri tərbiyə etmək müəllimin borcudur.

Universitetin musiqi müəllimliyi ixtisasını bitirən hər bir tələbə gələcəkdə ümumtəhsil məktəblərində işləyərkən, şifahi ənənəli Azərbaycan xalq musiqisi ilə uşaqları tanış etməli, bu musiqiyə sevgi hisslərini aşılamalıdır. Bunun üçün isə onun özü bu musiqini dərindən bilməli, anlamalı və sevməlidir. Tələbələrdə xalq musiqisinə sevqi hisslərinin tərbiyəsi, mənəviyyatlarının zənginləşməsi, bədii zövq və təfəkkürlərinin inkişafı, düşüncə və fikirlərinin düzgün istiqamətə yönəldilməsi, peşə bacarıqlarının formalaşdırılması, eləcə də Azərbaycan xalq musiqisinin nəzəri cəhətdən əsasları barəsində biliklərin toplanması və praktiki cəhətdən onu ifa etmək bacarığının əldə edilməsi – bütün bunlar ali məktəblərdə təhsil aldıqları dövrdə "Azərbaycan xalq musiqisinin əsasları" fənnni vasitəsilə həyata keçirilir.

Azərbaycan muğamlarının mövzusu çox genişdir. Muğamda çox böyük bir məzmunun əks olunması və onun tərbiyəvi imkanları gənclərə əxlaqi və emosional təsir göstərməyə zəmin yaradır. Q.Qarayev yazırdı: "Muğamlar insan fəaliyyətinin bütün növlərinə, onun mənəviyyatının bütün tərəflərinə toxunur, onun iradəsinin bədii keyfiyyətlərinin formalaşmasında iştirak edir, onun yaradıcı və intellektual qabiliyyətlərini oyadır, musiqi zövgünü inkişaf etdirir".

Müasir dövrdə müstəqil Azərbaycanımızda muğam sənətinin daha da çiçəklənməsi üçün dövlətimiz tərəfindən hər bir şərait yaradılmışdır. Gənclərin və xalqın arasında muğam sənətinə maraq güclənmişdir. "Heydər Əliyev adına fond"un rəbəri Mehriban-xanım Əliyevanın köməyi və təşəbbüsü ilə gənc xanəndələr arasında muğam müsabiqələri, Bakıda beynəlxalq muğam festivalları keçirilir. Ən baçlıcası isə odur ki, bu fondun fəaliyyəti sayyəsində Azərbaycan muğamı bütün dünyada şöhrət qazanıb tanındı, hətta YUNESKO tərəfindən bəşəriyyətin ən qiymətli incisi kimi qəbul olundu.

"Azərbaycan xalq musiqisinin əsasları" fənni Pedaqoji Universitetin "Musiqi və onun tədrisi metodikası" kafedrasında tədris olunan mürəkkəb fənlərdən biridir, həta tam qətiyyətlə söyləmək olar ki, bu fənn Bakı Musiqi Akademiyasında da tədris olunan mürəkkəb fənlərdən hesab edilir. Bu da Azərbaycan xalq musiqisinin, onun lad sisteminin unikallığı və rəngarəngliyi, lad-funksional sistemin mürəkkəbliyi ilə əlaqədardır.

Azərbaycan xalq musiqisinin bütün janrları üçün vahid bir sistem olan

Azərbaycan lad-məqam sistemi mövcuddur. Buna görə “Azərbaycan xalq musiqisinin əsasları” fənninin mənimsənilməsində şifahi ənənəli professional musiqi janrlarının lad nəzəriyyəsinin öyrədilməsi ilə yanaşı, tələbələrə muğamlar haqqında müəyyən biliklərin verilməsi də zəruridir. Bu isə kursun öyrənilməsinin mürəkkəbliyini şərtləndirən faktorlardan biridir.

Bu baxımdan “Azərbaycan xalq musiqisinin əsasları” fənninin tədrisinin təkmilləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Bu sahədə prof. Rəna Məmmədovanın tədqiqatları təqdirə layiqdir. Belə ki, o hesab edir ki, bu fənn korrektə olunmalıdır. Sözsüz ki, Ü Hacıbəyliyə məxsus lad konsepsiyası qorunub saxlanılmalıdır, lakin materialın qavranılmasının yeni sistemi qurulmalıdır. Tədqiqatçı bunu aşağıdakı şərtlərlə əlaqələndirir:

1. İntonasiya genofondunun formalaşması prosesinin öyrənilməsi;
2. Azərbaycan lad sisteminin formalaşması prosesinin öyrənilməsi;
3. Lad təşkilinin müxtəlif növlərinin modifikasiyalarının mənimsənilməsi;
4. Azərb. ladlarının fərdi, ilkin qavranılması probleminə diqqət yetirilməsi;
5. Səs sırasının Azərbaycan musiqi sisteminin inkişafının yekunu kimi, tamamlanmış, əsaslı stabil bir təzahür kimi açılması;
6. Azərbaycan lad sisteminin təşəkkülü yolunu əks etdirən daxili funksional proseslərin açılması.

Bu şərtlər daxilində prof. R.Məmmədova “Azərbaycan xalq musiqisinin əsasları” fənni üzrə yeni xüsusi kurs təklif edir. O, bu kursun mənimsənilməsini iki səviyyəyə: sadələşdirilmiş və mürəkkəbləşdirilmiş səviyyələrə bölür. Kursun mürəkkəb variantı Azərbaycan musiqisinin lad təşəkkülü mənbələri ilə əlaqələndirilir. Əgər əsas kurs informasiya, konsepsiya funksiyasını daşıyırsa, əlavə kurs izahedici funksiyaya malik olmalıdır. Burada əsas nəzəri materialın mənimsənilməsi vacib və zəruridir. Tədqiqatçı “Azərbaycan xalq musiqisinin əsasları” fənnini tədris edən müəllimlərin qarşısına Azərbaycan xalq musiqisinin sistemli struktur cəhətdən öyrənilməsi məsələsini qoyaraq, Azərbaycan lad sistemini ciddi təşkil olunmuş vahid struktur kimi araşdırılmasının vacibliyini qeyd edir, təklif etdiyi kursun mənimsənilməsinin məqsədi kimi muğamın lad-intonasiya strukturunun dinamikliyinin, çoxcəhətli olmasını dərk etməkdən ibarət olduğunu göstərir.

Qeyd etməliyik ki, bu tədqiqatlar prof. R.Məmmədova tərəfindən 11 il öncə aparılmasına baxmayaraq, problem hələ olduğu yerdə qalmışdır və bu gün də öz həllini gözləyir.

Azərbaycan musiqisində funksionallığın təbiəti xalq musiqisinin intonasiya genofondu ilə sıx bağlıdır. Muğam təcrübəsinin əsaslarını bilməyən insan muğamı onun təbiətinə uyğun qavramağa qabil deyil. Muğamı mənimsəmək üçün dinləmə təcrübəsi, daha dəqiq desək, mental oriyentir zəruridir.

Bu gün “Azərbaycan xalq musiqisinin əsasları” fənni həm BMA-da, həm pedaqoji ali məktəblərdə, həm də musiqi kolleclərində vahid proqram və dərslik

əsasında tədris olunur ki, bu da zənnimizcə səmərəsiz yoldur. Buna görə hesab edirik ki, ümumtəhsil məktəblərində musiqi müəllimi olacaq tələbələr üçün fənnin proqram və dərslikləri aşağıdakı tələblərə cavab verməlidir:

1. Azərbaycan Respublikasında ümumi təhsil konsepsiyası sənədi (milli kurikulum) və musiqi fənni üzrə kurikulumun tələbləri nəzərə alınmalıdır;

2. Pedaqoji ali məktəblər üçün "Azərbaycan xalq musiqisinin əsasları" kursunun məqsəd və vəzifələri dəqiq müəyyənləşdirilməlidir;

3. Kursun zəruri və informatik materialları müəyyənləşdirilməlidir;

4. Kursun məzmunun və məzmun xətləri dəqiqləşdirilməlidir;

5. Tələbələrin həm musiqi müəllimi kimi ixtisaslaşması, həm də ümumi inkişafı təmin edilməlidir.

Musiqi şöbə tələbələrinin baza biliklərinin real səviyyəsini, onların nəzəri biliklərini genişləndirmək imkanlarını və onların gələcək peşə fəaliyyətlərinin xüsusiyyətlərini nəzərə alsaq, burada tədris olunan "Azərbaycan xalq musiqisinin əsasları" fənni Musiqi Akademiyasında, Milli konservatoriyada tədris olunan eyni adlı fəndən müəyyən dərəcədə fərqlənməlidir. Düşünürük ki, Pedaqoji Universitetlər üçün "Azərbaycan xalq musiqisinin əsasları" kursunun məxsusi metodikasının işlənib hazırlanmasına çoxdan ehtiyac duyulur. Bu kursun yığcam, daha sadələşdirilmiş variantı olmalıdır ki, burada iki prinsip gözlənilməlidir: zəruriyönümlük və məqsədyönümlük.

Beləliklə, gələcəyin musiqi müəllimlərinin milli lad hissiyatının gücləndirilməsi, xalqımızın şifahi ənənəli musiqisinə qarşı daxili tələbatın artırılması, zövqün cilalanması, intonasiya genofondunun formalaşması kimi keyfiyyətlərin yaranmasını düzgün qurulmuş təlim prosesi təmin etməlidir.

Musiqi müəllimi, digər fənn müəllimləri kimi, öz fənninin imkanları çərçivəsində şagirdlərin fəallaşdırılması, onlarda bacarıq və qabiliyyətlərinin, müstəqil və təngidi təfəkkürlərinin inkişafı, onların vətənə və cəmiyyətə faydalı olması üçün hansı vasitələrdən istifadə edəcəyi haqda dərindən düşünməlidir.

Musiqi müəlliminin hazırlığı sistemində «Azərbaycan xalq musiqisinin əsasları» fənni tələbələrdə yaradıcı vərdişlərinin formalaşdırılmasına, xalq musiqisinə sevgi hisslərinin aşılanmasına, onu dərindən başa düşmələrinə və quruluşu barəsində bilik almalarına, xalq musiqi nümunələrinin fortepianoda ifa və təhlil etmə bacarığına və digər fənlərlə qarşılıqlı əlaqələrini daha da dərindən anlamasına imkan yaradır ki, bu da nəticədə tələbələrin ümumtəhsil məktəbində gənc nəslin estetik tərbiyəsi üzrə gələcək fəaliyyətlərində aldığı bilik və bacarıqları uğurla tətbiq etmələrinə şərait yaradır.

## ƏDƏBİYYAT

1. "Azərbaycan xalq musiqisinin əsasları" fənninin kurikulumu. Bakı, ADPU, 2015
2. Ü.Hacıbəyli. "Azərbaycan xalq musiqisinin əsasları", Bakı, 1957
3. R.Məmmədova. "Azərbaycan xalq musiqisinin əsasları fənninin tədrisinə dair", Bakı, 2006, "Musiqi dünyası" jur. №1-2
4. M.İsmayılov. "Azərbaycan xalq musiqisinin janrları", B., 1984
5. R.Zöhrabov. "Azərbaycan muğamları", Bakı, 2013

**Məqalənin redaksiyaya daxil olma tarixi: 26.10.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 372.878**

**Xatirə Qocayeva**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: aygunahadova@yahoo.com

# VOKAL DƏRSLƏRİNDƏ MƏŞĞƏLƏ VƏ TƏMRİNLƏRİN ROLU

***Açar sözlər:*** *vokal, nəfəs, təmrinlər, diapazon, vərdişlər*

Vokal dərslərində məqsədyönlü iş nəticəsində tələbələrin səs diapazonu genişlənir və möhkəmlənir, həmçinin burada əsas vokal-texniki vərdişlər – nəfəs, dinamika, frazirovka, filirovka, səsin atakası, artikulyasiya və diksiya, intonasiya əldə olunur. Məşğələ və təmrinlər musiqi materialının vacib növüdür ki, burada bütün bu vərdişlər formalaşdırılır.

**Хатира Годжаева**

## РОЛЬ УПРАЖНЕНИЙ И РАСПЕВАНИЙ НА УРОКАХ ВОКАЛА

***Ключевые слова:*** *вокал, дыхание, распевания, диапазон, навыки*

На уроках вокала в результате целенаправленной работы диапазон студентов расширяется и укрепляется, также здесь приобретаются основные вокально-технические навыки – дыхание, динамика, фразировка, филировка, атака звука, артикуляция, дикция и интонация. Упражнения и распевания важная часть музыкального материала, где все эти навыки формируются.

**Khatira Hodjayeva**

## THE ROLE OF EXERCISES AND SINGING IN VOCAL LESSONS

***Key words:*** *vokal, breath, exercises, the range, skills*

In the vocal lessons, as a result of purposeful work, the range of students is expanded and strengthened, as well as basic vocal-technical skills – breath, dynamics, phrasing, filing, sound attack, articulation, diction and intonation. Exercises and singing is an important part of musical material, where all these skills are formed.

Təlim-tərbiyə prosesinin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasına dair Azərbaycanda bu gün çox böyük işlər aparılır ki, bunların nəticəsində biz gələcəyimiz üçün yeni insan tipini yetişdirib hazırlamalıyıq. Bu gün yaradıcı, hərtərəfli harmonik şəxsiyyətin yetişdirilməsi çox aktual və vacib məsələdir. Bunu isə yalnız yüksək səviyyəli bilik, bacarıq və vərdişlərə malik olan, müasir tələblərə cavab verə bilən ixtisaslı müəllimlərin vasitəsilə həyata keçirmək olar.

Yeni təhsil konsepsiyalarına müvafiq olaraq musiqi müəlliminin geniş mənada bir musiqiçi kimi rolu artmışdır. Məlumdur ki, ümumtəhsil məktəblərdə musiqi dərslərində mahnı oxuma əsas yer tutur. Buna görə də musiqi müəllimi yaxşı səsə malik olmalı, təmiz və düzgün oxumağı bacarmalıdır, həmçinin uşaq səslərini inkişaf etdirə bilməlidir. Bütün bunları gələcəyin musiqi müəllimləri ali məktəblərdə təhsil aldıqları dövrdə vokal dərslərində öyrənirlər.

Vokal dərslərində tədrisin peşəkar vəzifələri tələbələrin müsbət şəxsiyyət keyfiyyətlərinin (zəhmətkeşlik, məsuliyyət, yaradıcılıq, emosionallıq və artistizm, ifa sərbəstliyi, uşaqlara məhəbbət və digər pedaqoji qabiliyyətlər) tərbiyəsi ilə birləşir. Tədris dövründə tələbələrin gələcək ümumtəhsil məktəbdəki fəaliyyətləri üçün ixtisas və pedaqoji biliklərin inteqrasiyası baş verir. T.Kəngərli bunun barəsinə yazır: "Tələbələrin ifaçılıq və pedaqoji hazırlığının səmərəli texnologiyalarının işlənib-hazırlanmasında gələcək differensiasiya prosesində deyil, lakin bu iki təlim-təhsil formalarının inteqrasiyasında görünür" (1, 88.).

Vokal dərslərində tələbələr düzgün nəfəs alıb-buraxmanı öyrənirlər, məqsədyönlü iş nəticəsində onların səs diapazonu genişlənir və möhkəmlənir, həmçinin burada dinamika, frazirovka, filirovka və s. vərdişlər əldə olunur. Vokal dərsləri unikal psixoloji ünsiyyətin imkanlarını yaradır ki, bu da nəinki insan həyatının müstəqil bir sahəsidir, həmçinin də heç bir şeylə əvəz olunmayan şərtsiz labüd olan onun elementidir.

Vokal ifa prosesi – yığcam, mürəkkəb və bir növ gizli bir prosesdir. Bu prosesin dərinliklərinə varmaq, onu öyrənmək və hətta ona rəhbərlik etmək çox çətin bir işdir. Buna görə də vokal dərslərində səsin formalaşdırılması və yetişdirilməsi müəllimdən böyük məsuliyyət, pedaqoji məharət və ustalıq tələb edir.

İfaçılarda səsyaranmanın ən vacib amili – düzgün oxu nəfəsidir. Səsin keyfiyyəti, gücü, enerjisi və uzunluğu ondan asılıdır. Düzgün nəfəs olmadan nə nitq olar, nə mahnı. "Oxu ifası zamanı nəfəs sisteminin xüsusi uyğunlaşma fəaliyyətinə oxu nəfəsi deyilir. Onu sistematik müntəzəm məşqlər vasitəsilə daim inkişaf etdirmək tələb olunur, çünki inkişaf etmiş, uzunmüddətli və çevik idarəolunan nəfəs ifaçının ən qiymətli cəhətidir" (2.5).

Nəfəsalma ifaçı aparatını səfərbər və təşkil etməlidir. Dilçəkdə düzgün təşkil olunmuş və sazlanmış nəfəs, səsin daha yaxşı emissiyasına səbəb olur. Əgər nəfəs

səsyaranmanın tərkib hissəsi olaraq onun ən ilkin komponentidirsə, səsin həmləsi (*ataka*sı) lap ilkin əsas hissəsidir. Səsin atakası zamanı səs tellərini və nəfəsin qarşılıqlı təsiri və qarşılıqlı əlaqəsi aydın şəkildə hiss olunur.

Məlum olduğu kimi, səsin həmləsinin üç növü mövcuddur: sərt, yumşaq və nəfəsyani *ataka.* Hər bir təlim alan tələbə həmlənin bütün növlərini öyrənib mənimsəməlidir. Həmlə vasitəsi ilə təsir vokal ifaçılığı sənətində ən vacib üsullardan biridir. Bu zaman əlaqə hissələri və dayaq hissiyatı, yəni nəfəs qurğusu, aydın şəkildə ifadə olunur.

Tələbədə səsin başlanğıc anına ən ciddi münasibət inkişaf etdirmək lazımdır. Həmlə tələbə tərəfindən dəqiq və şüurlu surətdə həyata keçirilməlidir. Ümumtəhsil məktəbində çalışan musiqi müəllimi peşəkar vokalçı olmasa da, o, həmlənin hər üç növünə sahib olmalıdır. Həmlə səs aparatına pedaqoji təsirin ən mühüm vasitəsi sayılır. Və burada səs tellərinin işi ilə bərabər düzgün nəfəsalama böyük rol oynayır.

Vokal ifaçılığında nəfəsin işində səs aparatının hissələrinin xüsusi koordinasiyası tələb olunur ki, bu da ifaçının səsinin tembrinin yaranması üçün vacibdir. İfaçının qarşısında bir nəfəsə uzun səslənmənin əldə olunması və bu səsin danışıq zamanı istifadə olunan səsdən daha yüksək pozisiyada olması ilə bağlı mühüm bir məsələ durur. Həyati nitqdə işlənən nəfəsalma ifaçını qane edə bilməz. İfaçı axtarır və ona lazım olan, onu qane edən uzun, uca və yüksək keyfiyyətli səs yaradan nəfəsalma bə nəfəsvermə xarakterini tapır. Bütün bunlar müəllim və tələbənin birgə işi, birgə axtarışları nəticəsində baş verir. Müəllim lazım olan hallarda öz ifası ilə tələbəyə bu üsulları göstərir, lakin hər bir insanın orqanizmi fərdi olduğu üçün tələbə tam olaraq müəllimi kopiyalamamalıdır, öz fiziologiyasına uyğun və rahat olan özünün fərdi nəfəsalma üsulunu tapmalıdır.

Qeyd etmək lazımdır ki, hava ilə dolu ağ ciyərlər hələ yaxşı səslənmənin göstəricisi deyil. Əksinə, son zamanlar bir çox pedaqoqlar döş qəfəsinin həddindən artıq hava ilə doldurulmasına qarşı çıxırlar, çünki belə olan halda səslənmə gərgin və qışqırtılı alınır. Düzgün nəfəs alıb-verməni tələbələr müəllimin nəzarəti altında vokal dərslərində xüsusi vokal məşğələlərin və əsərlərin ifası vasitəsilə öyrənməlidir. Səsin inkişafı müəyyən məqsədəuyğun musiqi materialı əsasında həyata keçirilir. Məşğələ və təmrinlər (qısa vokal tapşırıqları) musiqi materialının vacib növüdür. Onlar hər tələbə üçün fərdi olaraq tərtib edilməlidir və dəqiq pedaqoji istiqamətə malik olmalıdır.

Məşğələlərin və təmrinlərin məqsədi – səs aparatının aktiv işə hazırlığı və əsas vokal vərdişlərin avtomatlaşdırılmasıdır hər bir məşğələ özünün konkret vəzifəsini güdür ki, bunu da tələbələr başa düşməlidir. Hər bir vokal dərsini təmrinlərdən başlamaq lazımdır ki, burada fizioloji hazırlıq aparılır, əsərlərin ifasından

öncə səs aparatı «isindirilir». Lakin təmrinlərin funksiyaları bununla kifayətlənmir, onların mahiyyəti daha genişdir. Təmrinlər – vokal dərsinin elə bölməsidir ki, orada əsas vokal-texniki vərdişlər – nəfəs, səsin atakası, artikulyasiya və diksiya, intonasiya və i.a. – formalaşdırılır.

Təmrinlər melodik və ritmik cəhətdən sadə və yadda qalan olmalıdır, bunlarda böyük intervallar olmamalı və onların melodiyası diapazonun böyük hissəsini əhatə etməməlidir. Oxu prosesi zamanı şən və yüksək əhval-ruhiyyə abu-havası yaratmaq üçün təmrinlər adatən majorda verilir. Təmrinlər əvvəl sakit, asта tempdə ifa olunur, sonralar isə temp, metodik məqsədlərdən asılı olaraq, sürətləndirilə bilər.

Dərsin əvvəlində verilən təmrinlər diapazonun orta hissəsində taraz, hamar səslə, orta qüvvə ilə aparılmalıdır. Daim güclü oxuma səsin forsirovkasına gətirib çıxarır ki, bu da səs telləri üçün xüsusilə təhlükəlidir. Düzdür, həddən artıq sakit oxuma da tövsiyyə edilməsə də, onun səs üçün ziyanı bağırtılı oxumadan daha az olur, oğlanlarda mutasiya dövründə isə sakit oxu tərzi zəruridir.

Təmrinlərin ifasını daha təbii və gözəl primar səslərdən başlamaq lazımdır. Adətən bunlar səs diapazonunun orta hissəsində olan səslərdir ($mi^1$-$si^1$). Təmrinlərdə keçici tonlardan qaçınmaq məsləhətdir, yəni kişilərdə sinə registri, qadınlarda isə - mərkəzdəki səslər. Tədricən məşğələlər zamanı səslərin həcmi bütün diapazonu əhatə edərək böyüyür. Qıraq ən aşağı və ən zil səslərin formalaşdırılması və inkişafı yalnız yaxşı səslənən ortanın əsasında aparıla bilər, buna görə də ilk növbədə diapazonun orta hissəsi möhkəmləndirilməlidir. İlk təmrinləri tələbələrin asan qavraya bildikləri rahat sait səslərdən aparmaq lazımdır. Əgər tələbə sıxılmış boğaz səsi ilə oxuyur, «i» saiti bu çatışmamazlığı bir qədər də artırır, lakin «a, o, u» saitləri onu aradan qaldırmağa köməklik göstərə bilər. Burunda səslənməni «o» və xüsusilə də «u» saiti ilə oxunan təmrinlər aradan qaldırar.

Təmrinləri əvvəl təkcə saitlərlə, sonradan isə samitləri əlavə edərək oxumaq olar. Samitlər artikulyasiya aparatının işini əhəmiyyətli dərəcədə aktivləşdirir. Buna görə də tələbələr cansız, solğun oxuyanda təmrinləri elə əvvəlcədən samit və saitlərin birləşməsilə oxumaq lazımdır (ma, dy, lyo və s.). Təmrinlər öyrənilən repertuarla bağlı və yaxud hər hansısa bir əsərin parçası və ya xalq mahnısı da ola bilər.

Təmrinlər vokalizasiya növlərinə görə də fərqlənir: *legato və staccato*.

*Legato*-da oxunan təmrinlər əsas vokal-texniki səsyaranma vərdişini – kantilenanın formalaşması və inkişafı üçün verilir. Kantilen oxu tərzi uzun, taraz, düzgün təşkil edilmiş nəfəsburaxma prosesi ilə sıx əlaqədardır. Ona görə, *legato*-da tədricən uzanan frazalar ilə oxunan təmrinlər nəfəsi yaxçı inkişaf etdirir.

*Staccato*-da oxunan təmrinlər səs tellərini aktivləşdirir və dəqiq *ataka*-nın

mənimsənilməsinə kömək edir. *Staccato* oxu (qırıq-qırıq oxu), yəni hər bir səsi bir-birindən ayıraraq oxu deməkdir. Bu zaman diafraqmanın fəal hərəkətləri və nəfəsin köməyi ilə *staccato* səslənməni yaratmaq olar. Frazanın *staccato*-da oxunması sanki birnəfəsə alınır. Tələbələrin diqqəti nəfəs əzələlərinin (əsasən diafraqmanın) və səs tellərinin birgə fəaliyyətində cəmləşdirilir. Məşğələni əvvəl *staccato*-da, sonra isə dərhal *legato*-da oxumaq faydalıdır. *Staccato*-nun istifadəsi nəfəsi fəallaşdırır, dayaq hissinin tapılmasına kömək edir. Cəld templər səslənmənin yüngüllüyünə, asta tempdə isə səsin dolğunluğuna xidmət edir, buna görə templərin növbələnməsi məsləhət görülür.

*Non legato* ştrixində oxuma nəfəsin düzgün alınmasına səbəb olur.

Oxu nəfəsi adi nitq nəfəsindən fərqlənir. Ən başlıcası, tələbələrə hələ birinci dərslərdən izah etmək lazımdır ki, təkcə böyük həcmdə hava almaqla iş bitmir, ən əsası odur ki, onu yavaş-yavaş, qənaətlə istifadə etmək lazımdır. Müəyyən xüsusi məşqlərin köməyi ilə nəfəs buraxmanı qənaətlə həyata keçirməyi öyrətmək olar.

Oxu nəfəsi səssiz nəfəsalmanı tələb edir və nəfəsi burunla almaq məsləhət görülür. Tələbələrə xas olan tipik çatışmamazlıq – nəfəsi üzdən almadır. Bu da nəfəsalma anında çiyinlərin qaldırılmasından irəli gəlir. Dərin nəfəsalma (diafraqma nəfəsi) üzərində işə aşağıdakı bənzətmələr yaxından kömək edə bilər: «elə nəfəs alın ki, hava sizin qurşağınıza çatsın, özü də elə ki, belbağınız sıxılsın».

Hər bir təmrin adətən bir dəfə yuxarı və aşağı yarımton sekvensiyalarla oxunur, lakin tələbənin diapazonunun ən zil və ən bəm notuna çatdırılmamalıdır. Əgər səs aparatında yorğunluq hiss olunursa, 1-3 dəqiqəlik tənəffüs etmək lazımdır, sonra davam etdirmək. Əgər nəfəs düzgün alınırsa, tələbə burun pərələri və dodaqlar nahiyyəsində titrəməni hiss etməlidir. Sekvensiyanın hər bəndindən sonra lazımi qədər nəfəs alınmalıdır, yəni nə həddən çox, lakin kifayət qədər. Ağızı yumulu və saitlərlə təmrinlərin ifasından sonra müxtəlif hecalarla təmrinlərə keçmək lazımdır, «ley», «mey», «ney». «vey» və s. Təmrinlər zamanı maksimal olaraq səsin azad və "uçuş" xarakterli olmasına nail olmaq lazımdır.

Sonda qeyd etməliyik ki, yalnız məşğələ və təmrinlərlə səsi inkişaf etdirmək olmaz. Eləcə də yalnız bədii əsərlərin üzərində çalışmaqla vokal tərbiyəsini həyata keçirmək olmur. Məşğələlər və təmrinlər vokal-texniki vərdişlərin inkişafı üçün vacib amillər olsalar da, tədricən mürəkkəbləşən bədii əsərlərin ifası olmadan vokal texnikasına yiyələnmək mümkün deyil. Bədii ifadəlilik vasitələri olan vokal-texniki vərdişlər, o cümlədən də oxu nəfəsi, məşğələ və təmrinlər vasitəsilə yaradılır və inkişaf etdirilir, lakin bədii əsərlər üzərində aparılan iş zamanı isə onlar möhkəmlənir, zənginləşir və mükəmməlləşir.

## ƏDƏBİYYAT

1. Т.Ф.Кенгерлинская «Музыкальная педагогика как интеграция науки и искусства», Баку, 2007
2. Л.К.Ярославцева. «Вопросы методики вокала и певческой физиологии», Москва,1975
3. Quliyev. E.B. «Vokal metodikasının bəzi məsələləri», Bakı, 1999
4. N.Kamilova "Vokal və onun tədrisi metodikası", Bakı, 2010
5. Ю.Алиев. «Основы вокальной педагогики», Москва, 2001

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.09.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Minarə Dadaşova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78 (075.8)**

**Urba Orucova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: urba.orucova91@gmail.com

# YARADICILIQ QABİLİYYƏTLƏRİNİN İNKİŞAFINDA MUSİQİNİN ROLU

***Açar sözləri***: *yaradıcılıq, yaradıcılıq qabiliyyəti, musiqi, musiqi təhsili*

Uşaqlarda mövcud olan yaradıcı düşünmə qabiliyyətini yalnız bu sahədə mütəxəssis olan tərbiyəçi üzə çıxara bilər. Uşaqların musiqi qabiliyyətini inkişaf etdirərkən, onları yaradıcı düşüncəyə sövq etmək, anadangəlmə mövcud olan yaradıcı qabiliyyəti inkişaf etdirmək lazımdır. Tərbiyəçi uşaqların enerjisini yaradıcı istiqamətinə yönəldərsə, təbii ki, uşaqlarda mövcud olan yaradıcı potensial özünü göstərəcək. Uşaqlarda mövcud olan qabiliyyəti inkişaf etdirərkən, tərbiyəçi onlara mənəvi güc və cəsarət verməlidir.

**Урба Оруджева**

## РОЛЬ МУЗЫКИ В РАЗВИТИИ ТВОРЧЕСКИХ СПОСОБНОСТЕЙ

***Ключевые слова:*** *творчество, творческие способности, музыка, музыкальное образование*

Способность детей творчески мыслить может выявить только воспитатель, специализированный в этой области. Развивая музыкальную способность детей, надо их привлечь к творческому мышлению, развивать врождённые творческие способности.

Если воспитатель направит энергию детей в творческом направлении, то конечно же существующий в детях творческий потенциал выявит себя. Развивая существующую способность детей, воспитатель должен им передать моральную силу и смелость.

**Urba Orujova**

## THE RULE OF MUSIC IN THE DEVELOPMENT OF ARTISTIC ABILITY

***Key words***: *ability, artistic ability, music, musical education*

The existing creative thinking ability in children can identify tutors that only specialists in this field. When Children develop the musical skills they need to encourage creative thinking, to develop existing innate creative ability. If Trainers will direct the creative energy of children, Naturally, will be available for creativity in children. When develops the existing capacity in children, educators should give them the moral strength and courage.

Yaradıcılıq, hər bir fərddə mövcud olan və insanın həyatının hər dövründə olan bir istedad, gündəlik həyatdan elmi işlərə qədər uzanan geniş bir sahəni əhatə edir. Anadan gəlmə yaradıcılıq hər bir fərddə mövcuddur, ancaq yaradıcılığın davamlılığı, inkişafı, dərəcəsi fərddən fərdə fərqli olur.

İnformasiyanın sürətlə inkişaf edib dəyişdiyi bu dövrdə, cəmiyyətin bu dəyişikliklərlə ayaqlaşması fəal, düşünən,yaradan, problem həll edən və özünü daim yeniləyən şəxslərə ehtiyacı olduğunu sübut etmişdir. Təhsildə artıq yaradıcılığın əhəmiyyəti yox, yaradıcılığın necə inkişaf etdirilməsi müzakirə edilir. İstər yaradıcılıq, istərsə də problem həll etmə məsələsi insanın həyatında mövcud olan əsas amillərdən biridir. Yaradıcılıq ilə təhsil arasında əlaqə dörd aspektdə araşdırılır: təhsil səviyyəsi, təhsil sahəsi, təhsil tərzi və yaradıcılıq təhsili. Yaradıcılıq ilə təhsil arasındakı ən mühüm əlaqə təhsilin tərzidir.

Yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsində və düzgün tərbiyə mühitinin formalaşdırılmasında tərbiyəçinin rolu böyükdür. Uşaqlarda yaradıcı potensialı açmaq və yaradıcı fərdlər yetişdirmək üçün tərbiyəçinin özünün də yaradıcı düşünmə bacarığı, yaradıcı məşğələlər planlaşdırma bacarığı olmalıdır. Tərbiyəçinin uşaqların yaradıcılığını inkişaf etdirməsi üçün təhsil və yaradıcılıq arasındakı əlaqənin fərqini bilməsi vacibdir.

Yaradıcılıq qabiliyyəti özünü müxtəlif sahələrdə göstərir. Bunlardan biri də musiqi sahəsidir ki, insanda yaradıcı potensial olmasa, yaradıcı düşünmə qabiliyyəti olmasa o şəxsdə musiqini duyma, musiqini hiss etmə qabiliyyətindən söhbət belə gedə bilməz.

Yaradıcı düşünmə bacarığı və musiqi yaradıcılığı musiqi pedaqoqlarının əsas maraq sahəsidir. Uşaqlarda bu bacarıqları inkişaf etdirməyi məqsəd qoyan pedaqoqlar üçün ən mühüm məqamlardan biri, musiqi yaradıcılığını təşkil edən təfəkkür prosesləri arasındakı əlaqəni bilməkdir. Musiqi təhsili sayəsində uşaqların özlərini ifadə etmə bacarıqları və yaradıcılıqları, hərəkət və bədii qabiliyyətləri, estetik hissləri, mədəni təcrübələri, dil bacarıqları, analitik düşünmə bacarıqları və sosial bacarıqları inkişaf edir. Uşaqların yaradıcılıqlarını təhsil prosesində inkişaf etdirmək daha məqsədəuyğundur. Musiqi təhsili fərdin yaradıcı istiqamətini inkişaf etdirən əsas amillərdən biridir. Yaradıcılıq, musiqi təhsilinin keyfiyyətini və səviyyəsini göstərən və müəyyən edən əsas amillərdən biridir.

Müxtəlif sahələrdə və səviyyələrdə yeni musiqilər yaratmağın, musiqi təhsilinə müxtəliflik və zənginlik gətirəcəyini, təhsilin tərəqqisinə müsbət istiqamətdə təsir göstərəcəyi qeyd etmək lazımdır. Yaradıcı şəxsiyyətin formalaşmasında, incəsənət təhsilinin ailədə, məktəbəqədər təhsil müəssisələrində və ibtidai siniflərdə başladığını vurğulamaq lazımdır.

Uşağın yaradıcılığı və şəxsiyyəti ailədən başlayır, sonra da ətrafda və məktəblərdə inkişaf edir. Bu baxımdan yaradıcılıq, istedadla bağlı olduğu qədər təhsillə də bağlıdır.

Təhsil insanda var olan bacarıqları, istedadları üzə çıxarmaq, duyğularını inkişaf etdirməkdir. Təhsil insanı irəli aparacaq, xoşbəxt edəcək məlumatlarla, keyfiyyətlərlə təchiz olunaraq, özünə, ətrafına, millətinə, dövlətinə və cəmiyyətinə faydalı olan bir vasitədir.

Musiqi yaradıcılığı insanın təhsil səviyyəsinə, düşüncə tərzinə və xarakterinə görə müxtəlif kateqoriyalara ayrılır. Musiqi sənəti istər-istəməz bir-birindən fərqli estetik və texniki obrazlara görə dəyər qazanır. Musiqi təhsilimizin gələcəyi üçün əhəmiyyətlidir. Yaradıcı qabiliyyəti olan təcrübəli insanlarımız musiqi sahəsinə daha çox diqqət yetirməli, yeni-yeni üsul, vasitələr,metodlar işləyib hazırlayaraq bu sahəni inkişaf etdirməlidirlər.

## ƏDƏBİYYAT

1. Шацкая В.Н. Музыкально-эстетическое воспитание детей и юношества. М., Педагогика, 1975.
2. Казакова Т.Г. Развитие у дошкольников творчества. Пособие для воспитателя детского сада. М.: Просвещение, 1995.
3. Трушкина И.М. Анализ педагогических аспектов творческого развития личности в процессе музыкального обучения по эксперементальной программе «Мир музыки». Омск: Мир музыки, 2001.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Minarə Dadaşova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 929:78**

**Gülarə Axundova**
dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: gulara_akhundova@mail.ru

# DAHİ ŞƏXSİYYƏT – BÜLBÜL

***Açar sözlər:*** *mədəniyyət, vokal sənəti, xanəndə, opera, musiqişünas-alim*

Bülbülün çoxşaxəli zəngin yaradıcılığı milli muğam ifaçılığının ən yaxın ənənələrini və dünya vokal məktəbinin nailiyyətlərini ahəngdar şəkildə özündə birləşdirir. Bülbülün böyük fitri istedadı, pedaqoq, musiqişünas, alim və ictimai xadimə xas olan yüksək keyfiyyətləri, ona Azərbaycan xalqının əbədi məhəbbətini qazandırmışdır.

**Гюляра Ахундова**

# БЮЛЬБЮЛЬ – ГЕНИАЛЬНАЯ ЛИЧНОСТЬ

***Ключевые слова:*** *культура, вокальное искусство, исполнитель мугамов, опера, ученый-музыковед*

Многостороннее, богатое творчество Бюльбюля органично соединяет в себе традиции национального мугамного исполнительства и мировых вокальных школ. Большое природное дарование исполнителя, педагога, музыковеда, ученого и общественного деятеля навсегда завоевали ему всенародную любовь.

**Gulara Akhundova**

# BYULBYUL - INGENIOUS PERSONALITY

***Key words:*** *culture, vocal art, mugham performer, opera, musicologist-scientist*

The versatile, godly creativity of Byulbyul organically combines the traditions of national mugham work and world vocal schools. The great natural talent of the performer, teacher, musicologist, scientist and public figure has won him nationwide love forever.

Əgər musiqi mədəniyyətimiz Üzeyir kimi, Müslüm Maqomayev, Niyazi, Q.Qarayev, F.Əmirov, T.Quliyev, Bülbül kimi korifeyləri yetişibsə, bunun üçün ancaq qədim musiqi sənətimizə minnətdar olmalıyıq. Əgər bu gün Bülbül kimi korifeylərin yubileyini beynəlxalq səviyyədə keçiririksə, yenə də onu yetişdirən xalqa, onun qədim musiqi ənənələrinə minnətdar olmalıyıq.

Bu il Azərbaycan professional vokal sənətinin banisi, SSRİ xalq artisti, görkəmli müğənni Bülbülün (Murtuza Məmmədovun) 120 illik yubileyidir. Bülbül sənəti Azərbaycanın musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Onun çoxşaxəli zəngin yaradıcılığı milli muğam ifaçılığının ən yaxın ənənələrini və dünya vokal məktəbinin nailiyyətlərini ahəngdar şəkildə özündə birləşdirir. Bülbülün böyük fitri istedadı, pedaqoq, musiqişünas, alim və ictimai xadimə xas olan yüksək keyfiyyətləri, ona Azərbaycan xalqının əbədi məhəbbətini qazandırmışdır. “Sözün əsl mənasında, Bülbül dahi və ölməzdir. Onun sönməz obrazını qranit monument kimi xalq öz üzərinə böyük məhəbbətlə qoruyur” – Mirzə İbrahimovun görkəmli sənətkarımız Bülbül haqqında söylədiyi bu sözlərin tarixi on illiklərlə hesablansa da, yenə də aktualdır.

Deputatlığa namizəd Bülbülün təşviqat vəsiqəsində göstərilir ki, siyasi xadim və geniş diapazonlu müğənni ifaçılığında milli vokal üslubu ilə italyan vokal məktəbinin ənənələrini birləşdirmiş və Azərbaycan vokal sənətinin inkişafında yeni bir pillə qoymuşdur. Geniş səs imkanları olan Bülbül Avropa vokal məktəbini ətraflı öyrənən və geniş təbliğ edən müğənnilərdən biridir.

Azərbaycanda müğənnilər və incəsənət xadimləri içərisində az adam tapılar ki, xarici ölkələrin orden və medalları ilə təltif edilmiş olsunlar. Bülbül o böyük müğənnilərdəndir ki, İtaliyada Azərbaycan musiqisini, Azərbaycanda isə İtaliya musiqisini tanıdıb və təbliğ edib.

Bununla bərabər o, incəsənəti zəngin olan dövlətləri yaxınlaşdırmaqla Avropa və Azərbaycan musiqisinin sintezi ilə məşğul olmuşdur. Bu və ya bununla əlaqədar digər xidmətlərinə görə Bülbül İtaliyanın Qaribaldi ordeni ilə təltif edilmişdir. O, İtaliyanın məşhur musiqi sənətçiləri, dövlət xadimləri tərəfindən dəfələrlə təşəkkürlər almışdır. Onun konsertləri özünün qeyri-adiliyi ilə xaricdəki dinləyiciləri valeh etmişdir.

Görkəmli sənətkar Bülbülün yaradıcılığı musiqi mədəniyyətimizdə ən zəngin irslərdən biridir. Bu irsin zənginliyi ilk növbədə onun çoxsahəli olması ilə səciyyələnir. Biz bu gün çoxcəhətli yaradıcılıq yoluna malik olan Bülbülün Azərbaycan vokal sənətinin yaradılmasındakı rolunu araşdıracayıq.

Bülbülün yaradıcılıq bioqrafiyasında diqqət çəkən məqamlardan biri məhz “ilk” sözünün dəfələrlə işlənməsidir. Azərbaycanın ilk vokalçı tələbəsi, eyni zamanda vokal sənətində ilk azərbaycanlı professor adına layiq görülən Bülbülün yaradıcılıq fəaliyyəti üçün “ilk” sözü səciyyəvi olub. Çətinliklə dolu olan sənət aləmində birinci olmaq isə, iki qat çətinlik deməkdir. Məsələn, Bülbül ilk dəfə

olaraq, spesifik Şərq oxuma məktəbindən Avropa vokal məktəbinə keçib. Və vokal sənətinə yaradıcı münasibət bəsləyərək, Azərbaycan milli ifa sənətinin ən yaxşı üsullarını rus və Avropa vokal məktəbi ilə birləşdirərək, Azərbaycan vokal sənətinin təməlini qoyub.

Murtuza Məşədi Rza oğlu Məmmədov – Bülbül – 1897-ci ildə iyunun 22-də muğamın beşiyi sayılan Şuşa şəhərində dünyaya gəlmişdir. Lap uşaq yaşlarından Qarabağın zəngin musiqi dünyasını duyan Murtuzanın səsi tez üzə çıxır. Operanın beşiyi sayılan İtaliyada vokal sənətinə yiyələnən Bülbül ilk musiqi təhsilini, demək olar ki, Şuşa mollaxanasında alıb. Hərgah Şuşu mollaxanasında dini mərasimlərdə duyulan "şəbih" müğənnilər hazırlanmışdır. İlk musiqi təhsilini Şuşu mollaxanasında alsa da, Bülbülün xanəndə kimi formalaşmasında Qarabağ musiqi mühitinin böyük rolu olub. Xüsusən də, Qarabağda yaşayan tanınmış xanəndələrin ifaçılıq qabiliyyəti onun üçün örnək olur. Onlardan böyük həvəslə öyrənən Bülbül tez zamanda Qarabağın məşhur xanəndələri sırasına qatılır və nəinki Qarabağda, Azərbaycanda, eləcə də Zaqafqaziyanın hüdudlarında tanınmağa başlayır.

1910-20-ci illərin tarixi sənədləri göstərir ki, Bülbül yalnız musiqi ilə kifayətlənməyib. Xalq maarif şöbələrinin yaradılmasında xidməti olan Bülbül eyni zamanda Gəncədə musiqi və teatr sahəsində yeni mədəniyyət siyasətinin həyata keçirilməsində böyük rol oynayıb. Belə ki, bu illərdə Gəncə incəsənət işçiləri Şurasının sədri, incəsənət işçilərinin I Ümum-Azərbaycan qurultayına nümayəndə seçilir. Həmin dövr incəsənət işçiləri Şurası idarə heyətinin üzvü olan Bülbül sonralar Şuranın rəyasət heyəti sədrinin müavini olur. Bütün bunlar Sovet dönəmində baş versə də, söhbət Azərbaycan mədəniyyətinin, sözün əsl mənasında, çiçəklənmə dövründən gedir. Məhz bu illərdə Azərbaycanda ilk dəfə olaraq ən müxtəlif sənət sahələri üzrə mərkəzlər yaradılıb, musiqi ocaqları, teatrları fəaliyyətə başlayıb.

Bülbülün opera sahəsində ilk rolu Kərəm olub. Üzeyir Hacıbəyovun xalq dastanı "Əsli və Kərəm" əsasında yazdığı eyni adlı muğam operasının qəhrəmanını böyük həvəslə qəbul edir. Kərəm rolunu hər xanəndə bacarmamış, çunki muğam ifaçılığının incəliklərini bilməklə yanaşı, xanəndənin 2,5 oktava diapazonlu səsinin olması vacibmiş. Bülbülün bu sarıdan heç bir narahatçılığı yox idi. Və o, çox asanlıqla opera səhnəsində öz ilk rolunu oynayır. Kərəm Bülbülün həyatında dəyişikliyə səbəb olur. Belə ki, məhz Kərəm rolunu ifa etmək üçün Bakıya gələn Bülbül paytaxta köçmək fikrinə düşür. Burada o, ilk dəfə olaraq, rus operasını görür. Özünün mənsub olduğu xanəndəlik məktəbi ilə klassik opera sənəti arasındakı fərqi görən Bülbül bu sənətlə yaxından maraqlanmağa başlayır. Və bu marağın nəticəsi olaraq, o, yeni yaradılmış Azərbaycan Konservatoriyasına daxil olur. Tarixi sənədlərdən aydın olur ki, Bülbülün bu qərarı birmənalı qarşılanmır. Klassik opera sənətini öyrənməyə maraq göstərdiyini görən

müasirləri onu muğamdan güya üz döndərdiyinə görə qınayır. Bəziləri isə Bülbülün bu seçimindən ayrı səbəbə görə rəncidə olurlar. Onun səsini və ya heyranedici tembrini itirəcəyindən ehtiyatlanır. Ancaq Bülbül öz seçiminə görə qətiyyən tərəddüd keçirmirdi. Əksinə, klassik opera sənətini daha böyük maraqla öyrənirdi.

Bülbülün yaradıcılığında klassik opera sənətinin beşiyi sayılan İtaliya səfərinə yeri müstəsnadır. 1924-cü ildə Bülbül ilk dəfə İtaliyada olub, yəni konservatoriyada təhsil aldığı zaman. 1927-ci ildə konservatoriyanı bitirən Bülbülün istəyi gerçəkləşir. Konservatoriyanın layiqli məzununun biliklərinin mükəmməlləşdirilməsinə şərait yaratmaq üçün o, 4 illik müddətə İtaliyaya göndərilir. Bülbül 1927-ci ildən 1931-ci ilə qədər İtaliyanın Milan şəhərində yaşayır. İtaliya səfəri barədə Bülbülün öz xatirələri ən etibarlı mənbədir: "Mən uzun müddət inadla təhsil aldım. Maestro Qrani ilə məşğələlər mənə böyük fayda verirdi. O, öz tələblərini çox dəqiq izah eləməyi bacarırdı, mən isə bu tələbləri ciddi-cəhdlə yerinə yetirir, vokal ədəbiyyatının öyrənilməsinə xeyli vaxt sərf edir, vokal sənətinə və oxu metodologiyasına dair müfəssəl əsərlərlə tanış olurdum. Mən kitabxanalarda xeyli vaxt keçirərək, müxtəlif oxu məktəblərini öyrənirdim. Eyni zamanda tamaşalarda və konsertlərdə olurdum. Dünyanın bütün məşhur müğənnilərinin iştirakı ilə keçirilən tamaşaları, Vaqnerin "Nibelunqların üzüyü" trilogiyasının "Laskala" teatrındakı bir tamaşasını belə buraxmırdım. 1928-ci ildə İtaliyanı tərk etməyə məcbur olmuş dirijor A.Toskaninin iştirak etdiyi tamaşalardan birini də ötürmürdüm. Mən Toskaninin İtaliyadakı axırıncı çıxışını da gördüm – tamaşadan əvvəl faşist himnini ifa etməkdən qəti surətdə boyun qaçırdığına görə məşhur dirijor tamaşadan sonra İtaliyanı tərk etmişdir.

Üç dəfə Veronaya getdim, orada meydanda 2 aylıq yay mövsümü təşkil edilmişdi, elə oradaca dünyanın məşhur müğənnilərinin iştirakı ilə "Faust"u, "Karmen"i, "Məsxərəçilər"i, "Kənd şərəfi"ni dinlədim. Ən yaxşı simfonik və kamera konsertlərinə getdim. İtaliyada qastrola gəlmiş F.Şalyapinə burada mən 14 dəfə qulaq asdım. Görkəmli rus artistinin iştirakı ilə tamaşalar mənim üçün böyük məktəb yaradıcılıq laboratoriyası oldu. Bu axtarışlarla və kəşflərlə dolu illər idi".

Bu, İtaliya səfəri barədə Bülbülün öz qeydləri idi. Ancaq həmin illərdə bu səfərin doğurduğu ayrı bir təəssürat da qələmə alınıb. Söhbət Bülbülü tanıyıb dəyərləndirən İtaliya musiqiçilərinin rəyindən gedir. Belə ki, Bülbülün vətənə dönmək ərəfəsində 1931-ci ildə İtaliyanın "Arte-Nostra" jurnalında "Azərbaycanlı Bülbül" adlı məqalə işıq üzü görür. Burada belə yazılmışdır: "...Bülbül müsəlman aləmindən İtaliyaya təhsil almaq üçün gələn ilk vokalçılar və özünəməxsus Şərq oxusundan Avropa müğənni məktəbinə keçmişdir. Maestro Rafaelo Qraninin Bülbülün İtalyan oxu məktəbini və italyan metodikasını mükəmməl surətdə mənimsədiyini etiraf etdikdən sonra o, Avropada topladığı

bilikləri öz xalqına vermək, iki məktəbin sintezini həyata keçirmək üçün vətəninə tələsir. Bu sintezə ən gözəl sübut elə Bülbülün özüdür".

Onu da demək lazımdır ki, Bülbülün vətənə qayıdışı konservatoriyanın tarixində yeni mərhələnin başlanmasına təkan verib. Belə ki, İtaliyadan qayıdan Bülbül ilk əvvəl konservatoriyada məruzə ilə çıxış edir. Azərbaycan vokal sənətinin qarşısında duran vəzifələrə aydınlıq gətirərək, həmkarlarını onu daha da zənginləşdirməyə səslədi. Bülbülün bu məruzəsini dönüş nöqtəsi adlandıran Üzeyir Hacıbəyov öz fikirlərini belə bölüşmüşdü: "Bülbülün məruzəsi ona görə qiymətlidir ki, şəxsən mən konservatoriyada bizim tələbələrimizi, ümumiyyətlə, necə tərbiyə etməyimiz barədə müəyyən təsəvvür aldım".

Azərbaycan vokal sənətini iki məktəbin sintezi ilə daha da zənginləşdirməyə çalışan Bülbül konkret fikirlərini bildirdi: "Xalq melodiyalarından, muğamlardan yeni operalarda istifadə etmək olar, bir şərtlə ki, onlar klassik Avropa operaları ruhunda yazılsınlar. Özü də, sadəcə, iqtibas etmək yox, folklor materialı əsasında öz orijinal motivlərini bəstələmək gərəkdir... Şərq və Avropa oxuları arasında fərq məsələsi çox ciddi məsələdir. Əsas məqsəd odur ki, müğənni təhsil alandan yüksək klassik ustalığa yiyələndən sonra xalq üslubunda oxumaq qabiliyyətini qoruyub saxlaya bilsin". Bülbülün İtaliyadan qayıtdıqdan sonra "Traviata", "Cakonda", "Karmen", "Afrikalı qız", "Toska" və Bülbülün italyan dilində böyük ustalıqla ifa etdiyi ariyaları onun fikirlərinin nümunəsi idi.

Azərbaycan xalq musiqi yaradıcılığının toplanmasında, yazılmasında və dərc edilməsində Bülbülün xidmətləri yetərincədir. O, düz 25 il ərzində bu sahədə böyük işlər görüb. Hətta 1938 və 1961-ci illərdə aşıqlar qurultayının keçirilməsi də onun adı ilə bağlıdır. Dahi sənətkarımız Bülbül 1961-ci ildə vəfat etmişdir.

## ƏDƏBİYYAT


1. G.Axundova. "Azərbaycanda xanəndəlik ənənəsinin və vokal mədəniyyətinin yaranması və inkişafi. /Monoqrafiya. Bakı, ADPU, 2010
2. Bülbül. "Seçilmiş məqalə və məruzələri". AEA-nın nəşri, Bakı, 1968
3. C.Həsənova-İsmayılova. "Bülbül Az. vokal sənətinin banisidir", "Musiqi dünyası" jurnalı, № 1-2, Bakı, 2001, s.27-28
4. Ə. İsazadə. "Böyük müğənni", AEA-nın nəşriyyatı, Bakı, 1962


**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2017
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2017
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2017

# *MUSİQİ SƏNƏTİ*

**UOT 78.071.1**

**Sevinc Əlləzova**
müəllim
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
Ş.Bədəlbəyli küçəsi 98, AZ1014
e-mail: sevallazova@gmail.com

## CÖVDƏT HACIYEVİN SİMFONİK YARADICILIĞINDA POLİFONİK ÜSLUB XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *Cövdət Hacıyev, simfoniya, epik-simfonizm, polifoniya, kanon, imitasiya*

Təqdim olunan məqalədə XX əsr azərbaycan musiqisinin dahi simalarından olan Cövdət Hacıyev yaradıcılığı haqqında ümumi məlumat verilmiş, onun yaradıcılığına müxtəlif aspektdən-simfonist, polifonist kimi baxılmışdır. Bəstəkarın son simfoniyaları forma, ideya məzmun cəhətdən təhlil edilmiş və bu simfoniyalarda C.Hacıyevin polifonik ifa üsullarından istifadəsi haqqında geniş söhbət açılmışdır.

**Севиндж Аллазова**

## ЧЕРТЫ ПОЛИФОНИЧЕСКОГО СТИЛЯ В СИМФОНИЧЕСКОМ ТВОРЧЕСТВЕ ДЖЕВДЕТА ГАДЖИЕВА

***Ключевые слова:*** *Джевдет Гаджиев, симфония, эпический симфонизм, полифония, канон, имитация*

В данной статье представлены общие сведения о творчестве Джевдета Гаджиева, одного из гениев азербайджанской музыки 20-го века. Его творчество рассматривалось с точки зрения симфониста и полифониста. Были проанализированы последние симфонии композитора с точки зрения формы и идеи, говорится об использование в них полифонических методов.

**Sevinj Allazova**

## FEAUTERES OF THE POLYPHONIC STYLE IN THE SYMPHONIC WORKS OF JEVDET HAJIEV

***Key words:*** *Jevdet Hajiev, symphony, epic symphony, polyphony, kanon, imitation*

This article presents general information about the work of Jevdet Hajiev, one of the geniuses of Azerbaijan music of the 20th century. His work was viewed from the point of view of the symphonist and polyphonist. The last symphonies of the composer were analyzed from the point of view of form and idea, it is said about the use of polyphonic methods in them.

Cövdət Hacıyev XX əsr Azərbaycan musiqisinin dahi simalarından biridir. Onun yaradıcılığı milli musiqi sənətinin inkişafında mühüm rol oynamışdır və bəstəkarın əsərləri olmadan Azərbaycan incəsənətini təsəvvür etmək mümkün deyil.

Cövdət Hacıyevin yaratdığı hər bir əsərdə onun individuallığı, orijinallığı duyulur. Hansı janra müraciət etməsindən asılı olmayaraq-simfonik əsərlər, opera, instrumental musiqi, vokal miniatürləri və s.-onun fərdi üslubu, bəstəkarlıq texnikası özünü biruzə verir. Böyük istedadı sayəsində bəstəkar milli musiqi ənənələri ilə qədim və müasir klassik üslubları birlikdə inkişaf etdirmiş və özünəməxsus yeni yazı texnikası yaratmışdır.

Cövdət Hacıyev musiqisinin mövzu dairəsi genişdir. Müasir dövrün ən mühüm və aktual problemləri öz vətənini, xalqını dərin bir məhəbbətlə sevən sənətkarın daim diqqət mərkəzində durmuşdur. O, xalqının taleyini, keçmiş və müasir həyatını, Yer üzərindəki insanların sülh uğrunda mübarizəsini öz yaradıcılığında səmimi surətdə əks etdirib. Xüsusi ilə də simfonik əsərlərində müasirlərimizin həyatı, xalqımızın azadlıq uğrunda mübarizəsi, kosmosun insan tərəfindən fəth edilməsi kimi mövzular lirik-dramatik tərzdə təsvir edilib.

Lakin, müasirliklə yanaşı C.Hacıyev elə dahi bəstəkarlardandır ki, onun yaradıcılığında hər zaman milli ruh özünü aydın biruzə verir. Onun musiqisi yadda qalan, xalq xarakterli səslənməyə malikdir. Bəstəkarın folklorla yaxınlığı onun yaradıcılığını Ü.Hacıbəyli ənənələrinin davamçısı adlandırmağa imkan verir. Onun əsərlərində xalq xarakteri musiqi dilinin bütün sahələrində-lad, melodika, metroritm, harmoniya-öz əksini tapıb. Folklor bəstəkar üçün sanki doğma danışıq dilidir. Məhz buna görə də onun bir sıra əsərlərinin tematik əsasını xalq musiqisi təşkil edir.

Qeyd etmək lazımdır ki, muğam janrının qanunauyğunluqları, ona xas olan

fikrin tədricən açılması xüsusiyyəti, improvizasiya xarakteri, lirik çalarları bəstəkara xüsusi ilə yaxındır. Öz əsərlərində C.Hacıyev muğama yaradıcı tərzdə yanaşır və onu obraz emosional, epik-dramatik şəkildə təqdim edir.

Bəstəkarın musiqisində folklor janrlarının xüsusiyyətləri yalnız klassik musiqi ilə deyil, həm Azərbaycan, həm də dünya müasir musiqi dilinin leksikası ilə üzvi surətdə birləşir. Bir çox Azərbaycan bəstəkarları kimi C.Hacıyev da milli və Ü.Hacıbəylinin yaradıcılıq ənənələrini davam etdirərək, onları dünya klassik musiqi nailiyyətləri və Avropa, rus klassik bəstəkarlarının ənənələri ilə məharətlə birləşdirir. Eyni zamanda tələbəsi olduğu dahi sovet bəstəkarı D.Şostakoviçin da C.Hacıyeva böyük təsirini xüsusi ilə qeyd etmək lazımdır. Şostakoviç isə öz növbəsində tələbəsinə hər zaman diqqət göstərmiş, onun sonrakı yaradıcılığı ilə maraqlanmışdır. "İki gənc bəstəkar-Q.Qarayev və C.Hacıyev böyük bir qüvvəni əks etdirir. Onların hər ikisi dahi istedada, enerjiyə malikdir və öz xalqına layiqincə xidmət etməyə çalışırlar"-deyə D.Şostakoviç qeyd edib.

Bəstəkarın yaradıcılığının məzmun dairəsi çox genişdir. Əsərlərində xalqının həyatının müxtəlif tərəflərini təsvir etmiş və onun mənəvi həyatını açmağa çalışmışdır. C.Hacıyev musiqisndə müasir insan obrazı özünün bütün sevinci və kədəri ilə xüsusi yer tutur.

Bəstəkarın yaradıcılıq fantaziyasının mənbəyi onun insana, həyata, xalqın tükənməz qüvvəsinə olan böyük inamından irəli gəlir. Təsadüfi deyil ki, C.Hacıyev musiqisində aparıcı mövzulardan biri Vətən mövzusu olmuşdur.

Azərbaycan musiqi sənətində C.Hacıyevin adını çox vaxt milli simfoniya janrının inkişafı ilə, simfonik musiqi ilə bağlayırlar. Bu sahədə onun xidmətləri xüsusi ilə böyükdür. Bəstəkar kamera-instrumental, vokal, habelə xor musiqisinin gözəl nümunələrini bəstələsə də, onun yaradıcılığında aparıcı janr simfoniyadır, simfonik musiqidir.

Bəstəkarın simfonik yaradıcılığının inkişafında onun hər bir simfoniyası ayrılıqda mühüm rol oynayır. C.Hacıyev 8 simfoniyanın və 2 simfonik trillogiyanın müəllifidir. Birinci simfonik trillogiyaya IV simfoniya, kvartet-poema və V simfoniya, İkinci simfonik trillogiyaya isə VI simfoniya ("20 Yanvar"), VII simfoniya ("Şəhidlər") və VIII simfoniya ("Onu zaman seçib") daxildir.

Parlaq simfonist kimi C.Hacıyev epik-dramatik üslubu inkişaf etdirib. Onun musiqisi monumental qəhramani, aktual, fəlsəfi və dramatik məzmunu ilə seçilir. Məhz simfonik yaradıcılıqda onun musiqisinin bu əsas üslub xüsusiyyətləri özünü göstərir. Bunlardan məzmunun dərinliyini, simfonik düşüncə tərzini, polifonik üsullardan ustalıqla istifadə edilməsini, formanın dəqiqliyini və s. qeyd etmək olar.

Öz əsərlərində bəstəkar tez-tez xalqın keçmişi ilə bağlı mövzulara müraciət

edir. Təsadüfi deyil ki, onu çox vaxt tarixçi-bəstəkar adlandırırlar. Bu sahədə o, müəllimi D.Şostakoviçin ənənələrinin davamçısı kimi çıxış edir.

C.Hacıyevin təsvir etdiyi hadisələrə özünün şəxsi münasibəti çox aktivdir: o sanki özü bu hadisələrdə iştirak edir və bu hadisələrin həm işıqlı, həm də qaranlıq, faciəvi tərəflərinə öz münasibətini bildirir.

C.Hacıyev yaradıcılığının tarixi əhəmiyyəti çox böyükdür. O, milli simfoniyanın əsasını qoyanlardan biri olmaqla yanaşı, digər tərəfdən Azərbaycan musiqisində epik simfonizmin yaradıcısı olmuşdur. Bu sahədə bəstəkarın musiqisinin əsas mənbəyi dahi Ü.Hacıbəyli olub. Məhz onun yaradıcılığında C.Hacıyeva xas obrazlar və musiqi dramaturgiyasının prinsipləri formalaşıb. Digər tərəfdən isə qəhramani məzmun, formaların monumentallığı bəstəkarın simfonizmini Bethoven və Borodinə yaxınlaşdırır. C.Hacıyev yaradıcılığında epik başlanğıcın digər mənbəyi də milli musiqi, xüsusi ilə də, muğam janrı olmuşdur. Muğam özündə epikliklə yanaşı lirik və dramatik xüsusiyyətləri də birləşdirir. Xalq musiqisinin cəhətlərindən istifadə edərək bəstəkar özünəməxsusluğu və təravətliyi ilə fərqlənən simfonik musiqini yaradır. Belə əsərlərin ideyası C.Hacıyev tərəfindən məzmun vahidliyi ilə qeyd olunan, iri həcmli, zidd musiqili şəkillərin növbələşməsi üsulu ilə açılır.

Beləliklə, bəstəkar simfonik yaradıcılığa Azərbaycan muğamlarının dramaturgiyasına xas olan epiklik prinsipini gətirir.

Bəstəkarın əsərlərinin formaları da özünəməxsusluğu ilə seçilir. Onun yaradıcılığının təhlili zamanı biz dəfələrlə sonata simfonik silsilənin qeyri-adi istifadəsinə rast gəlirik. Onun bütün son simfoniyaları maraqlı quruluşa malikdir. Misal üçün, V simfoniya 2 hissədən, 7 fəsildən ibarətdir. Burada I hissəyə 3, II hissəyə 4 fəsil daxildir. Eyni sözləri bəstəkarın VII simfoniyası haqqında da demək olar. VI simfoniya isə 3 hissəən ibarətdir Burada I hissəyə 2, II hissəyə 1, III hissəyə isə 2 fəsil daxildir. Bəstəkarın belə qeyri-adi quruluşlara müraciətinin səbəbləri var. Onlardan biri bu əsərlərin məzmunu ilə bağlıdır. Digər səbəb isə C.Hacıyevin xalq musiqisi ilə bağlılığıdır. Bununla bəstəkar muğam dəsgahlarının ənənəsini davam etdirir.

C.Hacıyevin xalqı narahat edən aktual mövzulara müraciəti son simfonik əsərlərində xüsusi ilə qeyd edilir. Belə ki "İnsan. Yer. Kosmos" adlı V simfoniyada İnsanın kosmosu fəth etməsi bəstəkar tərəfindən müasir yazı üsulları ilə işıqlandırılmışdır.

C.Hacıyev VI və VII simfoniyalarında isə xalqını dərin məhəbbətlə sevən əsl vətənpərvər kimi çıxış edir. Belə ki, bu simfoniyalarda bəstəkar xalqımızın qanlı səhifələrini öz musiqisində faciəvi şəkildə əks etdirir. "20 yanvar" adlı VI simfoniya və "Şəhidlər" adlı VII simfoniya azərbaycan xalqının qanlı faciəsinin təsviridir.

VI simfoniya birinci redaksiyada "Oktyabr.1917-1977" adlanırdı və bəstəkar

onu 70-ci illərin sonlarında yazmışdır. Lakin, 1990-1992-ci illərədə bəstəkar yenidən bu əsərə qayıdaraq onu yenidən işləyir və "20 yanvar" simfoniyası yaranır. Yeni redaksiyada simfoniya ilk dəfə 1990-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının may plenumunda səslənib. Lakin, bəstəkar bundan sonra da simfoniya üzərində işi davam etdirir və yekun olaraq əsəri 1992-ci ildə tamamlayır.

VII simfoniya birinci redaksiyada "Şostakoviçin xatirəsinə kamera-istrumental dilogiya" (1985) adlanırdı. 1993-cü ildə bəstəkar yenidən bu əsərə müraciət edir və onu "Şəhidlər" simfoniyası kimi işləyir.

Adı çəkilən simfoniyalarda baş verən dəhşətli hadisələri musiqisində olduğu kimi əks etdirərkən bəstəkar müxtəlif ifadə üsullarına müraciət edir. Lakin bir sıra ifa üslları ilə yanaşı polifonik ifa üsullarından istifadəni xüsusi ilə qeyd etmək istərdim.

Ümumiyyətlə, Cövdət Hacıyevin üslubu haqqında danışarkən onun yaradıcılığında polifoniyanın böyük rolunu qeyd etməmək mümkün deyil. Üzeyir Hacıbəylidən sonra Qara Qarayev və Cövdət Hacıyev öz yaradıcılıqlarında polifonik prinsipləri daha da möhkəmlətmişlər. Azərbaycan musiqisinin ən güclü polifonistlərindən olan Cövdət Hacıyev yaradıcılığında isə polifoniya mükəmməllik səviyyəsinə çatmışdır.

Bəstəkarın musiqisində polifoniya çox zaman digər ifadə vasitələri ilə müqayisədə ön planda olur. Onun vasitəsi ilə Cövdət Hacıyev bir çox yaradıcılıq məsələlərini həll edir. Öz əsərlərində C.Hacıyev demək olar ki bütün polifonik üsullardan istifadə etmiş, onları zənginləşdirmişdir.

C.Hacıyevin yaradıcılığını dərindən öyrəndikdən sonra belə bir nəticəyə gəlmək olar ki onun son əsərlərində polifoniyanın əhəmiyyəti daha böyükdür.

Artiq IV simfoniyasından başlayaraq bəstəkar polifonik ifa üsullarından geniş istifadə etməyə başlayır. "Qəhramani" adlandırılmış bu simfoniya 5 hissədən ibarətdir. İlk dəfə 1956-cı ildə Niyazinin dirijorluğu ilə ifa olunub. Simfoniyanın IV hissəsi "Passakaliya" adlanır və qəhramanın ölümünü təsvir edir. Burada bəstəkar qədim polifonik janra müraciət edərək dövrün matəm yürüşlərinin o cümlədən, Bethovenin "Qəhramani simfoniya"sından matəm marşının ənənələrini davam etdirir. Passakaliya ilə yanaşı, simfoniyada bəstəkar müxtəlif polifonik ifa üsullarına-imitasiya, kontrapunkt, stretto, kanon, mövzunun ritmik artırılması və əksildilməsinə müraciət edir.

Bir polifonist kimi C.Hacıyev Şostakoviç və Bax ənənələrinin davamçısı olmuşdur. Qeyd etmək istərdim ki, simfoniyanın I hissəsi olan "Reçetativ-fantaziyada" polifonik ifa üsulları geniş istifadə olunmaqla yanaşı bəstəkar musiqimizin kökü olan muğamlarımızdan da uzaqlaşmır və burada bayatı-şiraz ladının intonasiyaları eşidilir. Burada da Baxla müəyyən qədər bağlılıq var. Belə ki, məlumdur ki Bax d moll tokkatasında bayatı-şiraz muğamına müraciət

etmişdir.

Bəstəkarın sonrakı simfoniyalarında isə polifoniyadan daha da geniş istifadə olunub.

Onun əsərlərində bir çox hallarda polifonik epizodlar müəyyən inkişaf xətti əsasında qurulur və bu inkişafın kulminasiya nöqtəsi adətən daha iri həcmli polifonik forma vasitəsi ilə təqdim olunur. Buna nümunə kimi V simfoniyanın I hissəsindən üçüncü fəsil olan fuqanı göstərmək olar. Bu, bütün I hissənin kulminasiyasıdır. Burada bəstəkarın məhz polifonik formaya və xüsusi ilə də fuqaya müraciəti təsadüfi deyil. Fuqa burada bir sıra polifonik epizodlar vasitəsi ilə hazırlanmaqla yanaşı həm də onun istifadəsi dramaturji nöqteyi-nəzərdən də çox dəqiqdir. Belə ki III fəsil simfoniyanın I hissəsinin inkişafını yekunlaşdırır.

Maraqlı xüsusiyyətlərdən biri də odur ki polifonik forma olan fuqa inkişafı tamamladığı kimi, bəstəkarın yaradıcılığında həm də inkişafın başlanğıc mərhələsi də ola bilər. Misal olaraq, Yeddinci simfoniyanın II hissəsini açan fuqa formasında yazılmış "Burlesko" nu yada salmaq olar.

C.Hacıyevin yaradıcılığında polifonik formalar haqqında danışarkən xüsusi ilə V simfoniyanın I hissəsində II və III fəsillərin özünəməxsusluğunu vurğulamaq istərdim. Bu fəsillər 2 hissəli polifonik silsiləni təşkil edərək prelüd və fuqa kimi təqdim olunublar. Maraqlısı odur ki burada bəstəkar iri həcmli silsilənin daxilində kiçik silsiləni yaratmışdır.

Polifonik ifa üsullarından ustalıqla istifadə etməsi cəhətdən Cövdət Hacıyeva Taneyev, Qlazunov və əlbəttə ki Çaykovskinin ənənələrinin təsiri duyulur. Lakin, onun musiqisinin obraz-emosional və intonasiya quruluşu adları çəkilən bəstəkarlardan çox fərqlidir. Əgər bu bəstəkarlar polifoniya sahəsində öz xalq musiqilərinə arxalanırdılarsa, Cövdət Hacıyev muğamlara istinad edirdi.

Bütün yaradıcılığı boyu Cövdət Hacıyev dünya musiqi mədəniyyətini öyrənmiş və mənimsəmişdir. Onun əsərlərində İ.S.Baxın polifonik ənənlərindən başlayaraq müasirliyə qədər olan bəstəkarların nailiyyətlərinin təsiri duyulur. Bütün bu ənənələrə əsaslanan Cövdət Hacıyev özünün fərdi, təkrarolunmaz polifonik üslubunu yaratmışdır.

Bir çox hallarda bəstəkarın əsərlərində polifoniya əsas tematik materialın ifadəliyini artırmaq vasitəsi kimi istifadə olunur. O, həmçinin vahid tematik inkişafın yaradılmasını da təmin edir.

Qeyd edək ki, məhz polifoniya vasitəsi ilə Cövdət Hacıyevin əsərlərinin bədii ideya məzmunu açılır. Polifonik forma, elementlər bəstəkarın yaradıcılığında bədii obrazın inkişafı ilə bağlıdır. Bu forma və elementlər transformasiyaya uğrayır, mürəkkəbləşir və müəyyən inkişaf yolu keçərək zənginləşir.

Cövdət Hacıyevin musiqisində polifonik inkişaf mərhələli xarakter daşıyır. Bir epizoddan digərinə qədər polifonik ifa üsulları yeniləşir, daha da

mürəkkəbləşir.

Polifonik formalar, inkişaf epizodları bəstəkarın yaradıcılığında daha geniş homofonik formaya daxil olur və bütöv əsərin çərçivəsində ikinci dərəcəli formanı yaradır. Belə forma özünün dramaturji xəttinə malik olur və burada onun həm kulminasiya nöqtələri, həm də eniş epizodları qeyd edilir.

Cövdət Hacıyev əsərlərində daha çox istifadə olunan imitasiya formalarından sadə imitasiya və kanonu xüsusi ilə qeyd etmək lazımdır. Bunlar musiqi obrazının və daxili inkişafın əsas vasitələrindəndir.

Kanon haqqında danışarkən qeyd etmək lazımdır ki, onun həcmi adətən böyük deyil. Polifonik forma kimi kanon əsərin çoxsəsliliyinə daxil olaraq onun fakturası ilə qarışır. Polifonik xarakterli digər epizodlar kimi kanon musiqili obrazın inkişafının mərhələlərindən biri olub və çox vaxt yüksək gərgin anlara təsadüf edir.

Öz əsərlərində imitasiyanın əsası kimi bəstəkar çox zaman qısa və ifadəli intonasiya seçir. Bu intonasiya əsas mövzudan götürülür. Cövdət Hacıyevin simfonik əsərlərində imitasiya çox zaman harmonik səslərin müşayəti ilə və ya səslər arasında verilir.

Bəstəkarın simfonik əsərlərinin partituralarında tez-tez orkestrin müxtəlif alətlər qrupları arasında dioloqlara rast gəlinir. Bu hallarda digər səslərdə verilən imitasiyalar intonasiya materialının bütövlüyünü yaradır. Bu isə musiqi formasının vahid melodik əsas üzərində qurulmasını təmin edir.

Bütün bu qeyd etdiklərim C.Hacıyevin böyük polifonik ustalığının sübutudur. Polifonist-bəstəkar kimi onun haqqında yorulmadan danışmaq, yaradıcılığından nümunələr göstərmək olar. Belə ki, polifoniya C.Hacıyev yaradıcılıq üslubunun əsas xüsusiyyətlərindən biridir və onun əhəmiyyəti demək olar ki bəstəkarın bütün əsərlərində böyükdür.

## ƏDƏBİYYAT

1. Abbasova E. Cövdət Hacıyev. Azərbaycan dövlət nəşriyyatı, Bakı, 1967
2. Tağızadə A. Cövdət Hacıyev. "Şur", Bakı, 1992
3. Şostakoviç D. Musiqi və zaman. Musiqi və müasirlik. T№10, "Musiqi", M., 1976
4. Дмитриев А. Полифония как фактор формаобразования. Ленинград, 1962
5. Дмитриев А. Пятая симфония Джевдета Гаджиева. 30/III/1981

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.10.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor Nərminə Quliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78. 02:36. 02**

**Gülçöhrə Hacıyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: gulcohre.hacıyeva.93@bk.ru

# AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILLIĞINDA UŞAQ MAHNILARI

***Açar sözlər:*** *bəstəkar, mahnı, uşaq*

Mahnılar uşaqların musiqi zövqünün formalaşmasında ən aparıcı vasitələrdən biridir və onların bədii-estetik zövqünün inkişafında ən böyük amildir. Azərbaycan bəstəkarları şəxsiyyətin formalaşması üçün musiqi amilinin əhəmiyyətini düzgün dəyərləndirmiş və öz bədii yaradıcılıqlarında uşaq musiqisinə xüsusi diqqət yetirmişlər.

**Гюльчохра Гаджиева**

## ДЕТСКИЕ ПЕСНИ В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

**Ключевые слова:** *композитор, песня, ребенок*

В формировании музыкального вкуса детей самым важным направлением являются песни и в развитии у детей художественно-эстетического вкуса они играют большую роль. Азербайджанские композиторы, верно оценив роль музыки в формировании личности, уделили особое внимание детской музыке в своем творчестве.

**Gulchokhra Hajiyeva**

## CHILDREN'S SONGS IN THE CREATIVITY OF AZERBAIJANI COMPOSERS

**Key words:** *composer, song, child*

Songs are one of the most effective ways to create musical taste for children and the greatest factor in the development of their aesthetic pleasure Azerbaijani composers correctly describe the essence of the actual factor in the formation of the state.

Uşaq mahnıları ən qədim və ilkin janrlardan biri kimi dünya musiqi mədəniyyətində öz yerini bugünümüzə qədər saxlayaraq inkişaf etdirmişdir. Qeyd etmək lazımdır ki, hələ qədim zamanlardan başlayaraq ana və nənələrin uşaqlar üçün ifa etdikləri laylalar və oxşamalar uşaqlar tərəfindən böyük məhəbbətlə qarşılanır. Bəstəkarların yaradıcılığında uşaqlar üçün yazılmış əsərlər XX əsrin əvvəllərindən etibarən aktual sahələrdən biri oldu. Uşaqlar üçün yazılmış əsərlər zəngin, müxtəlif bəzən də fərdi obrazlar aləmi ilə seçilir. Uşaqlar üçün yazılmış musiqi əsərlərin əsas qəhrəman məhz uşaqlar olduğu üçün bu fenomen özündə bütöv bir fəlsəfi fenomeni ehtiva edir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında uşaqlar üçün müxtəlif janrda yazılmış əsərlər sırasında mahnı janrı özünəməxsusluğu ilə seçilir. İlk dəfə uşaqlar üçün mahnıların yazılmasının təşəbbüskarı məhz dahi bəstəkarımız Üzeyir Hacıbəyli olmuşdur. 1927-ci ildə "Azərbaycan türk xalq mahnıları" məcmuəsində nəşr olunan "Bir quş uçdu havadan" və "Yetim quzu" mahnıları ilk uşaq mahnılarıdır. Dahi bəstəkarımızın bu ənənələrini Asəf Zeynallı, Səid Rüstəmov, Tofiq Quliyev, Qənbər Hüseynli, Ağabacı Rzayeva və başqa bəstəkarlarımız öz yaradıcılıqlarında davam etdirmişlər. XX əsrin 50-ci illərindən başlayaraq Azərbaycan bəstəkarlarının yaradıcılığında uşaq mahnı janrı inkişaf etməyə başlayır. Bu dövrdə yazılan mahnıların əksəriyyəti Sovet hakimiyyəti dövrünə təsadüf etdiyindən özündə əlamətdar günləri, eyni zamanda uşaqların həyatını əks etdirirdi. Belə mahnılara C.Cahangirovun "Pioner yürüşü" mahnısı, Şəfiqə Axundovanın "Svetafor", Qara Qarayevin "Sülh uğrunda pioner marşı", Səid Rüstəmovun "Kosmonavtlar", Fikrət Əmirovun "Qatar", A.Rzayeva "Bir may", "Kukla", Qənbər Hüseynli "İdmançılar", "Cücələrim" mahnılarını misal göstərmək olar. Bu illərdə bəstəkarlar öz yaradıcılıqlarında digər janrlarda olduğu kimi uşaqlar üçün mahnıların yazılmasına xüsusi fikir verirdilər.

Hər bir xalq öz tarixinin böyük şəxsiyyətləri ilə fəxr edir. Azərbaycan xalqının şəxsiyyətləri arasında dahi bəstəkar Fikrət Əmirovun adı böyük ehtiramla çəkilir. Ulu öndər ümummilli lider Heydər Əliyev F.Əmirov yaradıcılığı haqqında belə deyirdi: "Fikrət Əmirov sənətkarlıqla bəstələdiyi əsərlər dünyanın məşhur dirijorlarının repertuarına daxil olmuş, bir çox xarici ölkələrin konsert salonlarında ssələnərək Azərbaycan musiqi sənətinə böyük şöhrət gətirmişdir. Bəstəkar milli musiqi mədəniyyəti tarixinə adını muğamı ilk dəfə simfonikləşdirən, ilk dəfə qadın azadlığı haqqında opera yazan bəstəkar kimi daxil etmişdir. F.Əmirovun "Sevil" operası, "Min bir gecə" baleti, "Nizami" simfoniyası, "Şur", "Kürd ovşarı" və "Gülüstan Bayatı Şiraz" simfonik muğamları və bir çox başqa əsərləri dünya musiqi mədəniyyətində dinləyicilərin dərin məhəbbətini qazanmış və gözəl sənət inciləri kimi qızıl fonda daxil edilmişdir.

"Mən həmişə arzulamışam ki, Azərbaycan musiqisi Yer kürəsinin hər bir nöqtəsində səslənsin. Çünki xalqın musiqisi ilə onun özü haqqında fikir, yaratmaq olar. Əgər mən bütün həyatımın bu arzusunu qismən də olsa, həyata keçirə bilsəm, özümü xoşbəxt sanaram" -deyən sənətkar həqiqətəndə xoşbəxt sənətkarlardan biridir. Bəstəkarın uşaqlar üçün yazdığı mahnılar zəngin musiqi palitrası ilə dinləyənləri valeh edir. Bəstəkar mahnıları əsasən şən əhvallı, oynaq templi mahnıların mətnləri isə öz sadəliyi ilə diqqəti cəlb edir. Eyni zamanda bu mahnılar uşaq təfəkkürünə, qavrayışının inkişafına müsbət təsir göstərir uşaqlar tərəfindən asan yadda saxlanılan və tələffüz zamanı heç bir çətinlik törətməyən mahnılar silsiləsinə aiddir. Belə mahnılara "Bip-Bipin nəğməsi" (söz. T. Elçin), "Məktəblinin mahnısı" (söz. T.Eyyubov), "Qatar" (söz. Z.Cabbarzadə), "Tənbəl" (söz. T.Elçin), "Bizim həyət" (söz T. Elçin), "Quzum" (söz. Z.Cabbarzadə), "Quşlar" (söz Z.Cabbarzadə), "Bənövşə", "Bahar gəlir" (söz. Z.Cabbarzadə) "Kolxozçu qızlar" (söz. Ə.Cəmil) sadalamaq mümkündür. Adlarını sadaladığımız mahnılardan 1) "Quşlar" 2) "Qatar" 3) "Quzum" 4) "Bahar gəlir" 1950-ci ildə "Uşaq nəğmələr" i məcmuəsində nəşr olunmuşdur. Fikrət Əmirovun uşaqlar üçün yazdığı mahnılar sayca azlıq təşkil etsə də, öz mövzularının rəngarəngliyi ilə kiçik dinləyicilərin daim diqqət mərkəzində olmuşdur.

Uşaq mahnıları sahəsində uğurlu fəaliyyət göstərən bəstəkarlardan biri də Qəmbər Hüseynlidir. O ömrünün 30 ilini mahnı janrına həsrt etmişdir. O, üç yüzə qədər mahnı və romansın müəllifidir. Görkəmli bəstəkar belə söyləyir. "Bəstəkar qələmindən çıxan istər vokal, istərsədə instrumental musiqi ürək və qəlb çırpıntısına səbəb olmursa ürəklə yaradılmayıb. Bəstəkar 60-dan çox dəyərli uşaq və məktəbli mahnısının müəllifidir. "Məstan pişik", "Salam doğma məktəb", "Biçim bağça", "Yolka", "Cürət", "Qaranquşla söhbət", "İdmançılar mahnısı" və sair mahnılar uşaqların həyatının müxtəlif anlarını təsvir etməklə, onların bədii-estetik tərbiyəsində mühüm rol oynamışdır. Bəstəkarın uşaq mahnıları içərisində bir mahnı vardır ki, bəstəkara dünya şöhrəti gətirmişdir. Bu 1948-ci ildə yazılmış "Cücələrim" uşaq mahnısıdır. Bu mahnı uşaq mahnılarının zirvəsini təşkil edir. "Cücələrim" mahnısının ilk ifaçısı məktəblilər evində özfəaliyyət kollektivində iştirak edən istedadlı Səmayə Mirzəyeva olmuşdur. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında aktrisa Suğra Bağırzadə tərəfindən ifa edilən mahnı hamı tərəfindən sevilir və mahnı sovet məkanını aşaraq bütün dünyada məşhurlaşır. Hətta "Dünyanın ən yaxşı uşaq mahnıları" albomuna daxil edilir. Məşhur cizgi filmi "Nu poqodi"nin bir bölümündə həmin mahnıdan bir parça Azərbaycan dilində verilmişdir. Bəstəkarın uşaqlar tərəfindən sevilən digər mahnılarına "Dovşanım" (söz Yusif Həsənbəyov), "Qaranquşla söhbət" (M.Dilbazi), "Yaz" (söz. A.Səhhət) "Yürüş" (söz. Hüseyn Abbaszadə), "Gənc

bağbanlar" ( söz. Tofiq Mütəllibov) və. s mahnıları misal göstərmək olar.

Uşaq mahnılarının digər yaradıcılarından biri də, görkəmli bəstəkar Ağabacı Rzayevadır. Kiçik yaşlı və məktəb yaşlı uşaqların musiqiyə və musiqinin digər janrlarına marağın artmasında bu bəstəkarın böyük əhəmiyyəti vardır.

Azərbaycan bəstəkarları uşaqlar üçün müxtəlif formalı əsərlər yazmışdırlar. Lakin məhz mahnı janrı uşaqların estetik və musiqi tərbiyəsində xüsusi əhəmiyyətə malikdir. Belə ki, mahnı melodiya və forma baxımından uşaqlar tərəfindən daha asan qavranılır və tez yadda qalır. Ağabacı Rzayeva da, elə bəstəkarlarımızdandır ki, onun uşaqlar və məktəblilər üçün yazdığı mahnıların çox qismi dillər əzbəridir. Bu xanım bəstəkar Azərbaycanın ilk professional qadın bəstəkarıdır. Bəstəkarın həyat və fəaliyyətinin əsas gostəricilərindən biri onun dahi Üzeyir Hacıbəylidən dərs almasi ve bu dahi şəxsiyyətin tələbəsi olması, öz müəllimindən dəstək və qayğı görməsidir. Xanım bəstəkarın ilk musiqi əsəri 1941-1945-ci illər Böyük Vətən müharibəsi dövrünə təsadüf etmiş və o, xalq çalğı alətləri orkestri üçün yazdığı "Gənc vətənpərvərlər" marşı əsərində vətənə olan sevgi və qələbəyə inam kimi hissləri tərənnüm etmişdir. Bəstəkarın uşaqlar üçün yazdığı mahnılar mövzu baxımından rəngarəngdir. Bu mahnılar uşaqlarda və məktəblilərdə əməyə, vətənə, məktəbə, oxumağa, təbiətə, dostluğa maraq və məhəbbət yaradan tərbiyə vasitəsidir.

Bəstəkarın uşaqlar üçün yazılmış mahnılara misal olaraq "Bizim gəmi" (söz. C.Məmmədov), "Əzizsən vətən", "Ay nəğməsi" (söz. H.Ziya), "Get məktəbə cavanım" (söz. M.Ə.Sabir), "Mişar" (söz. C.Məmmədov), "Balaca kapitan", "Mənim dəcəl buzovum", "Dostluq qatarı" (söz. C.Məmmədov), "Qaranquş" (söz. T.Elçin).

Ağabacı Rzayevanın yaradıcılığında geniş yer tutan uşaq mahnılarının iki məqsədi vardır:

1. Birinci məqsəd uşaqlarda və məktəblilərdə musiqiyə maraq və həvəs yaratmaq onların musiqi qavrayışını, eşitmə qabiliyyətlərini aşkara çıxartmaqdan ibarətdir.

2. İkinci məqsəd isə uşaqların vətəndaş və şəxsiyyət kimi formalaşmasını təmin etməkdir. Bunu da, mahnıların mövzu və məzmunu vasitəsi ilə uşaqlara aşılamaq mümkündür.

Bəstəkarın yaradıcılığında uşaqlar üçün yazılan bir mahnı vardır ki, bu mahnı dillər əzbəridir. Bu 50-ci illərdə yazılan "Kukla" mahnısıdır. Mahnı kiçiklərin və məktəblilərin dillər əzbəridir. Müraciət etdiyi müxtəlif mövzular içərisində tərbiyəvi xarakter daşıyan "Kukla" mahnısı digərlərindən seçilir. Mahnını tərbiyəvi xarakter daşıması şeirin dialoq şəklində olmasında bu dialoqda uşağın kuklaya təkcə oyuncaq kimi deyil, eyni zamanda bir uşağa

müraciət etdiyini və mahnının nə qədər tərbiyəvi əhəmiyyətə malik olduğunu görürük. Uşaq musiqisindən danışarkən Oqtay Zülfüqarovun adını çəkməmək qeyri mümkündür. Bəstəkar uşaqlar üçün opera, operetta, baletlər, kukla teatr tamaşalarına musiqilər və mahnılar yazmışdır. Lakin bəstəkarın yaardıcılığında əsas hissəsini uşaqlara həsr olunmuş mahnılar təşkil edir. Bəstəkar 100-dən artıq mahnının müəllifidir. Bəstəkar 1964-cü ildə "Telefon" adlı uşaq mahnıları kitabını hazırlayıb. 1966-ci ildə "Do, re, mi, fa, sol, lya, si" adlı mahnılar kitabını çapdan cıxıb . 1972-ci ildə "Uşaq mahnıları" kitabı çap olunub.

Bəstəkarların uşaqlar üçün yazdıqları mahnılarda onların yaş xüsusiyyətlərini nəzərə alaraq müxtəlif yaş qruplarına bölünürlər. Misal üçün məktəbə qədər kiçik yaşlı uşaqlar üçün yazılan mahnılar, məktəbli yaşlı uşaqlar üçün yazılan mahnılar. Hər bir yaş qrupuna aid olan mahnılarda bəstəkarların daim diqqət mərkəzində olan əsas məsələ mahnının sözlərinin uşaqlar üçün daha aydın və anlaşıqlı olması və söz və musiqinin vədhəti, melodiyanın yadda qalan olması uşaqların daxili aləminə və dünya görüşünə uyğun olmasıdır.

## ƏDƏBİYYAT


1. F.Əmirov . Biblioqrafiya Çinar-çap 2009 səh 27.
2. S.Qasımova. Z.Səfərova . "F.Əmirov" Bakı 2004 səh 17.
3. Əsgərova S. Uşaqlar, musiqi, təxəyyül Bakı İşıq 1989.
4. Əfəndiyeva. S. Azərbaycan bəstəkarlarının uşaq mahnıları antalogiyası. /Musiqi-dünyası №1 /58-2014
5. O.Rəcəbov. Uşaqlar və mahnılar. Bakı . İşıq. 1985.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor Kamilə Dadaşzadə**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.02:36.02**

**Sevinc Hüseynova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: Nigar.nika2017@mail.ru

# MİLLİ BALETİN İNKİŞAFINDA AZƏRBAYCAN BƏSTƏKARLIQ MƏKTƏBİNİN ROLU

***Açar sözlər:*** *balet janrı, obraz tərənnümü, süjet, bəstəkar*

Azərbaycan balet janrının inkişafı XX əsrin ikinci yarsına təsadüf edərək görkəmli bəsatəkar Əfsariyab Bədəlbəyli tərəfindən "Qız qalası" baleti ilə əsası qoyulmuş və Soltan Hacıbəyov, Qara Qarayev və digər görkəmli bəstəkarların yaradıcılığında inkişaf etmişdir. Bu da öz növbəsində Azərbaycan balet səhnəsində Soltan Hacıbəyovun "Gülşən" baletinin daim inkişafda olan Azərbaycan xalqının obrazının tərənnümü vasitəsilə milli baletə fərd və cəmiyyətin xoş və firəvan gələcəyə üçün yadigar qoymuşdur.

**Севиндж Гусейнова**

# РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ КОМПОЗИТОРСКОЙ ШКОЛЫ В РАЗВИТИИ НАЦИОНАЛЬНОГО БАЛЕТА

***Ключевые слова:*** *жанр балета, образ воспевание, сюжет, композитор*

Развитие азербайджанского балета началось со II половины XX века балета «Гыз галасы» выдающегося композитора Афрасияба Бадалбейли, который положил основу азербайджанского балета. Далее его развили такие видные композиторы как Солтан Гаджибеков, Кара Караев и другие. И это в свою очередь дало возможность оценить и выделить в жанре балета произведение «Гюльшен», в котором прослеживается образ развивающегося азербайджанского народа, что придает балету особенную роль в развитии общества и будущего наследия.

**Sevinj Guseynova**

## THE ROLE OF AZERBAIJANI COMPOSITE SCHOOL IN THE DEVELOPMENT OF THE NATIONAL BALLET

***Key words:*** *the genre of ballet, image chanting, the plot, composer*

Is a continuation of Azerbaijan ballet show Soltan Hajibeyov 's "Gulshan" ballet which through the expression of the image of the Azerbaijan people the national ballet has been laid for the welfare and prosperity of the people and society.

Azərbaycan baleti müstəqil janr kimi 1940-ci ildə meydana gəlmişdir. Azərbaycan baletinin inkişaf yolu onun ifadə vasitələrinin rəngarəng müxtəlifliyinə və milli musiqili-xoreoqrafik incəsənətin imkanlarına dəalələt edən əhəmiyyətli dərəcədə janr zənginliyini təsdiqləməyə icazə verir.Baletin ilkin forması – daha çox mifoloji xarakterli opera və dramatik tamaşalara daxil olan intermediyalar və divertismentlər artıq öz əhəmiyyətini XVII əsrdə balet müstəqil xoreoqrafik tamaşa kimi üzə çıxanda itirmişdi.Balet janrı inkişaf prosesində hakim bədii cərəyanlardan (Barokka,Klassisizim,Romantizm)asılı olaraq, bu və ya digər dövrdə dəyişikliklərə məruz qalır.Bununla bərabər onlar tarixən nisbətən dayanıqlı qalaraq, həyatın baletdə əks edilməsinin müxtəlifliyi, çeşidli sayda imkanlarını xarakterizə edir və müasir balet sənətində müəyyən sistem əmələ gətirir.

Azərbaycan baletləri həmişə yüksək keyfiyyətləri ilə seçilə və zəngin musiqi materialına malik olduqları üçün digər ölkələrdə də, dəfələrlə səhnələşdirilmiş müxtəlif orkestrlər tərəfindən ifa olunmuş, hətta baletlərdən süitalar dünya orkestrlərinin simfonik musiqi repertuarında qərar tutmuşdur.

Milli baletin inkişafında birinci addım Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baleti ikinci addım isə Soltan Hacıbəylinin "Gülşən" baletinin yaradılması oldu. "Gülşən" baletini yaranması üçün həm tarixi, həm də sosial zəminlər var idi.Bu balet müasir həqiqətlərin musiqili-xoreoqrafik janr vasitələri ilə realistik inikasının qanunauyğunluğunu sübut etdi.Baletdə poeziya və əmək gözəlliyi, tarlaların və zəhmətkeşlərin kollektiv toplaşma və səfərbərliyi mövzusu bütün əsərin aparıcı başlanğıcına çevrilir.Bəstəkarın milli rəqsin spesifikasına yaxşı bələd olması, müasirliyi kəskin duyması, ona parlaq ,rəngarəng balet partiturası yaartmağa köməık etmişdir. "Gülşən" baletinin birinci redaksiyası (libretto Q.Almaszadənindir) bir sıra çatışmamazlıqlardan əziyyət çəkirdi.

Baletdə süjetin çoxplanlı işlənməsinə nail olunmamışdır.İştirakçıların xasiyətləri zəif inkişaf etdirilmişdi. Baletin ilk ifaçıları: Gülşən – Qəmər

Almaszadə, Azad – Konstantin Bataşov, Əhməd – Yuri Kuznetsov olmuşdur. Tamaşanın rejissoru Soltan Dadaşov, rəssam isə Ənvər Almaszadə idi.

Bəstəkar baleti ikinci dəfə 1958-ci ildə redaktə etmişdir. Bu redaktədə tamaşa Azərbaycan ədəbiyyatı və incəsənətinin Moskvada İkinci dekasına hazırlanırdı.Yeni redaktədə dəyişikliklər baletin süjetini dərinləşdirmişdi.Bir sıra obrazlar çıxarılmış, Yaqutun Əhmədə üzrə yeni dramaturji xətt daxil edilmiş,pərdələrin sayı azaldılmışdır. 4 pərdə əvəzinə 3 pərdə, 5 şəkil qalmışdır. Bəstəkar baletin strukturunu yenidən işləmiş, nömrələrin sayını ixtiasr etmişdir. Partitura yenidən alətləşdirilmişdi. Bu variantda “Gülşən”in musiqili-səhnə kompozisiyası aydınlıq və yığcamlıqla seçilir.

Orada lirika və məişət, zəhmət qəhrəmanlığa üzvi surətdə qaynayıb – qarışır. Baletin əsas mövzusu – kollektiv zəhmətlə birləşən sovet insanlarının dostluğu və qarşılıqlı sədaqəti durur.Tamaşanın mərkəzində sovet zəhmətkeş qadını-şən və enerjili pambıqçılar sovxozunun briqadiri Gülşəndir.Azad-gənc mühəndis Mingəçevir SES-inin inşaatçısıdır. Gülşən və Azad yarışan briqadaların başında duraraq, cəsarətlə çətinlikləri dəf edir və parlaq əmək qələbələrinə nail olurlar.

Azərbaycan teatrının balet səhnəsində bu ,müasir sovet mövzusuna müraciət olunan ilk əsərdir. Müasir süjet baletin müəllifləri qarşına mürəkkəb tələblər çıxarmışdır.

“Gülşən” tamaşasının dinləyici və tamaşaçısını təkcə inandırmaqla yanaşı ,həm də cəlb etməsi faktının özü artıq onu deyir ki, baletin müəllifləri xeyli çətinlikləri öhtəsindən gəlmişlər.

Bəstəkarın baletində aparıcı obraz xalqdır.Bu, əhvalatın aparıcı qüvvəsi və musiqili dramaturgiyasının canlı sütunudur.Kollektiv səhnələrdə zəhmət mövzusu baletdə olan rəqs nömrələri vasitəsi ilə açılır.

Xalq musiqi təcrübəsində geniş yayılmış bu ilhamlı-lirik improvizə bəstəkar tərəfindən yeni düşünülmüşdür. Ritmik şəklin dəqiq astinatlığı, melodik frazaların ciddi kvadratlılığı əmək prosesinin harmonik,səhmanlı nizamını, ritmini təcəssüm etdirir. Musiqinin rəvan axınına Gülşənin leytmövzusu bəndlənir. Bununla, obrazının xalqla əlaqəsi vurğulanır. Melodiyanın sərbsəst variasiyalı açılışı, metrikanın reçitativ – improvizəli azadlığı, rəqsin kodasında lad özəklərinin təkidli fərqlənməsi, “çoban – bayatı”nın musiqisinin xüsusiyyətini incə imitasiya edir. “Gülşən” baleti müasir mövzuya iri musiqili-səhnə olmaqla yanaşı, burada uşaqların iştirakı, azyaşlı balet rəqqaslarının səhnədə yer alması hımin vəzifələrin öhdəsindən gəlindiyini sübut edir.

Məhz belə uzaqgörənliyi sayəsində bəstəkar bu əsərini həm böyüklər həm də, uşaqlar həvəslə seyr edə bilər, həmçinin uşaqların tərbiyəsinin təməlində müasir mövzunun, yəni zəhmətsevərliyin, əmək quruculuğu təsiri də aşılana

bilər.

Baletin xoreoqrafik xüsusiyyətlərinə gəlincə, rəqsdə tamaşanın əsas iştirakçılarının obrazları, xüsusilə Gülşənin özünün siması inandırıcı surətdə açılmışdır. Quruluşçu klassik balet üçün əsas qadın personajının ənənəvi təsvirindən yan keçməyə nail olmuşdur.Gülşənin partiyasında həm də klassik xoreoqrafiyanın vasitələri işlənmişdir. Baletin dramaturgiyası arasıkəsilməzlik və hadisələrin hərəkətliliyinin sıxlığı ilə seçilir.Tamaşanın böyük hissəsi boyunca tamaşaçı köhnə balet üçün adi olan pantomim və divertismentlərə bölünməni hiss etmir: sonuncular süjet dərkolunması sayəsində hadisələrin içərisinə üzvi surətdə daxil olurlar ki, bunun nəticəsində də hadisə hərəkət öz bütövlüyü və dramaturji sıxlığında əhəmiyyətli dərəcədə udur.Bu münasibətdə bütün I pərdə xüsusilə uğurludur.

Son pərdədə Azadla Gülşənin toy məclisi təsvir olunur.Əhməd gəlir,hamı hiss edir ki, o dəyişmişdir. O,şaddır.Azad və Gülşəni təbrik edir.Əhməd Azadla köhnə incikliyə son qoyaraq, birgə rəqs edir.

Nəhayət, baş qəhrəmanlar - Gülşənlə Azadın ayrı-ayrı variasiyalarından sonra onların Əhməd və Yaqutla birgə adajiosu səslənir.Adətən ,Adojio 2 sevən qəhrəmanın birgə ifasını ehtiva edir.

Lakin bu baletdə bəstəkarın yenilik gətirməsi- 4 nəfərin, iki cütlüyün birgə adajio ifa etməsi çox nadir rast gəlinən və maraqlı tapıntıdır.Balet hamını birgə şənləndiyi Yallı ilə tamamlanır. Təntənəli yürüşün ardınaca şlüz lenti kəsilir və Mingəçevir işıqlar Azərbaycan zəhmətkeşlərinin səadətlərini işıqlandırır.

## ƏDƏBİYYAT


1. Bədəlbəyli Ə. "Sovet baletinin fəxri" (Raisa Struçkova) "Kommunist" qəzeti, 21.07.1966
2. Qədimova J. Bağırova T. Etnomusiqişünaslıq. Bakı, "Elm və təhsil" 2009 səh. 79
3. XX əsr Azərbaycan musiqisi. Məqalələr toplusu. Tərtibçi: Aida Zeynal qızı Tağızadə. İkinci buraxılış. Bakı, "Elm və həyat" 1997.
4. Hüseynova L. "Məhəbbət əfsanəsi": ədəbi mənbədən baletə doğru. Musiqi dünyası, №3-4/17,2003 səh. 191.
5. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, Lider nəşriyyat, 2004. səh. 70


**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.10.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor Zemfira Abdullayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**УДК 78:373.5**

**Самра Гошгарова**
магистр
Бакинская Музыкальная Академия им. Узеира Гаджибейли
AZ1014, г.Баку, улица Шамси Бадалбейли 98
*Billsam@mail.ru*

# ЖАНР ОДНОЧАСТНОГО ФОРТЕПИАННОГО КОНЦЕРТА В ТВОРЧЕСТВЕ СЕВДЫ ИБРАГИМОВОЙ

***Ключевые слова:*** *азербайджанский композитор, Севда Ибрагимова, одночастный концерт, жанр, Поэма для фортепиано и симфонического оркестра, концерт для фортепиано №5, эпизод, лад, тональность*

Статья посвящена изучению жанра одночастного фортепианного концерта в творчестве азербайджанского композитора Севды Ибрагимовой.

На основе сопоставления двух значительных произведений композитора («Поэма» для фортепиано с оркестром (1964) и Пятый концерт для фортепиано с симфоническим оркестром (2014)) отмечаются традиции и пути развития жанра одночастного концерта в творчестве Севды Ибрагимовой.

**Səmra Qoşqarova**

# SEVDA İBRAHİMOVANIN YARADICILIĞINDA FORTEPİANO ÜÇÜN BİRHİSSƏLİ KONSERT JANRI

***Açar sözlər:*** *Azərbaycan bəstəkarı, Sevda Ibrahimova, birhissəli konsert, janr, f-no və simfonik orkestr üçün Poema, f-no və kamera orkestr üçün Beşinci konsert, epizod, lad, tonallıq*

Bu məqalə Azərbaycan bəstəkarı – Sevda Ibrahimovanın yaradıcılığında fortepiano üçün birhissəli konsert janrında yazılmış əsərlərin araşdırılmasına həsr olunub. Əlli illik zaman kəsiyi məsafəsində olan bəstəkarın iki parlaq əsərlərinin (fortepiano və orkestr üçün "Poeması" (1964) və fortepiano və simfonik orkestr üçün Beş saylı konserti (2014)) müqayisəsi əsasında Sevda İbrahimova yaradıcılığında birhissəli konsert janrında ənənə və inkişafı yollar qeyd olunub.

**Samra Goshgarova**

## GENRE OF ONE-PART PIANO CONCERTO IN CREATIVITY OF SEVDA IBRAHIMOVA

***Key words:*** *Azerbaijani composer, Sevda Ibrahimova, one-part concerto, genre, Poem for fortepiano and Symphony Orchestra, concerto for fortepiano №5, episode, harmony, tonality*

The Article is devoted to the study of genre of one-part fortepiano concerto in creativity of Azerbaijani Composer Sevda Ibrahimova. Traditions and development ways of genre of one-part concerto in creativity of Sevda Ibrahimova are mentioned on the basis of comparison of two remarkeable works of Composer ("Poem for Fortepiano with orchestra (1964) and Fifth Concerto for fortepiano with Symphony Orchestra (2014)).

Севда Ибрагимова[1] – одна из ярких представительниц музыкального романтизма в Азербайджане. В её творчестве оживают традиции Ф.Амирова, Дж.Джангирова, Т.Кулиева, Ниязи Тагизаде – Гаджибекова, Р.Гаджиева и других.

Музыка С.Ибрагимовой исполняется не только в Азербайджане, но и в других странах мира. В 2001 году американским биографическим институтом она была удостоена титула «Женщина года».

Одна из интересных сторон творческой галереи С.Ибрагимовой – это фортепианная музыка. Разнообразный и богатейший поэтический мир образов композитора нашли своё оригинальное воплощение в

[1] Ибрагимова Севда Мирза кызы – народная артистка Азербайджана, профессор, общественный деятель, композитор. Её произведения отличаются яркой романтической приподнятостью и силой выражения национального звучания. Среди её произведений: две оперы: «Кольцо справедливости» (1968-70) либретто Т. Эюбова, «Сказки моей бабаушки» (1982-83) либретто Х. Зия; два струнных квартета; Поэма для ф-но и симфонического оркестра (1964 г.); 5 концертов для фортепиано с оркестром; Концертино для ф-но с оркестром (1983 год, посвящено М. Адыгёзалову); Музыка для скрипки и камерного оркестра (1992); Фантазия для фортепиано с оркестром (1985); Концерт для органа с камерным оркестром (1990); "İthaf" для ф-но с оркестром памяти К. Караева (1982); «Ода партии» на сл. М. Ибрагимова (1982 г.); Трёхчастный цикл "Əzizlərimin xatirəsinə" («In Memory of Beloved») для виолончели и фортепиано (2005г.); "Qurbansız qalan tarım" для голоса и струнного оркестра – Элегия-память (сл. И.Сафарли) (2000 г. Посвящено 125 летию со дня рождения Г.Примова), «Воспоминания» – поэма для тара с камерным оркестром (1982), две поэмы "Dünya bir pəncərədir" для скрипки, ф-но и камерного оркестра (было исполнено в Оксфорде 2003 году, а Баку в 2008 году).

многочисленных опусах для фортепиано с оркестром. Это – Поэма для ф-но и симфонического оркестра (1964 г.); Концертино для ф-но с оркестром (1983 год, посвящено М.Адыгёзалзаде); Фантазия для фортепиано с оркестром (1985); пять фортепианных концертов: Первый концерт для ф-но с симфоническим оркестром (1978), Второй концерт для ф-но с камерным оркестром (1981), Третий концерт для ф-но с камерным оркестром (1993), Четвёртый концерт для ф-но и соло вокала (2009), Пятый концерт для ф-но и камерного оркестра (также имеется переложение и для симфонического оркестра) (2014).

Интересно заметить, что за исключением первого и второго концерта для фортепиано, все названные опусы являются *одночастными* произведениями.

История жанра одночастного концерта в творчестве Севды Ибрагимовой начинается с её дипломной работы, которой является «Поэма» для симфонического оркестра и фортепиано. Это – 1964 год. «Поэму» С. Ибрагимовой её учитель, профессор Кара Караев высоко оценив, назвал одночастным концертом. Так, в статье «Дебютанты», опубликованной в газете «Баку» в 1965 году, читаем: «Сегодня Севда – одарённый композитор с хорошим вкусом, тонко чувствующий инструмент. Севда склонна к лирическим образам. Её поэма – это одночастный концерт лирико-героического содержания, уходящими корнями в национальную музыку…»[2]. Вслед за К. Караевым, «Поэму» С. Ибрагимовой и сегодня называют концертом.

Поэму для фортепиано с оркестром С. Ибрагимовой профессор Т. Сеидов относит к «фольклорной линии развития концертного жанра в 60-е годы»[3]. Он так же пишет, что: «В Поэме для фортепиано с оркестром Севды Ибрагимовой просматривающаяся цикличность в рамках одночастной композиции, несомненно, находит своё родство не только с одночастной романтической поэмой, но и с принципом цикличности мугама, в котором разделы один за другим сменяются согласно законам жанра»[4]. Именно эти признаки одночастного фортепианного опуса С. Ибрагимова целенаправленно развивала в других своих произведениях.

«Поэму» для фортепиано с оркестром (1964) и Пятый концерт для фортепиано с симфоническим оркестром (2014) разделяет временное пространство в пятьдесят лет. На новом этапе творчества, то есть в пятом концерте, с новой силой и профессионализмом оживают принципы

---

[2] Кара Караев. «Дебютанты» / «Баку», 31 мая 1965 год, с. 3.
[3] Сеидов Т. «Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество». Баку: Азернешр, 2006, стр. 119.
[4] Там же, стр. 119.

мугамного цикла в рамках одночастной концертной формы и национальный тематизм. И в целом, сегодня, просматривая этапы творчества композитора, можно уверенно подчеркнуть, что принципы мугамного цикла в рамках одночастной концертной формы и национальный тематизм отмечены как яркие черты стиля Севды Ибрагимовой.

В жанре концерта С.Ибрагимова продолжает традиции Ф.Амирова. Она крупным пластом выносит в идёю формы фортепианного концерта особенности жанра симфонических мугамов. И в первую очередь это находит своё яркое претворение в ладо-тональном изложении формы концертов.

Также отметим, что неоднократно, музыковеды Азербайджана, обращаясь в своих исследованиях к музыкальным опусам С.Ибрагимовой, отмечали фольклорно – романтическое начало, романтическую направленность, яркие романтические тона в музыке композитора. Образ композитора – романтика крупным планом просматривается сквозь призму жанра фортепианного концерта. С.Ибрагимова выделяет в своём творчестве излюбленную романтиками форму *одночастного концерта*, осуществляет её синтез с особенностью жанра азербайджанской музыки – симфоническим мугамом, и тем самым, обогащает этот жанр новым содержанием.

Отметим некоторые особенности структуры одночастного концерта на примере Пятого концерта – одного из интереснейших произведений С. Ибрагимовой.

Музыка Пятого концерта С.Ибрагимовой поражает чувством радости, молодости, жизни, праздника, веселья и задора. Темы восхищают жизнерадостностью и светом. Это – одно из новых произведений композитора. Оно написано в 2014 году и посвящено первому исполнителю, народному артисту Азербайджана, пианисту Мураду Адыгёзалзаде. Премьера Пятого концерта состоялась в рамках торжественного вечера в Филармонии им. Муслима Магомаева, посвящённого 75-летию Севды Ибрагимовой.

Пятый концерт для фортепиано с оркестром С.Ибрагимовой – это одночастное произведение с чертами трёхчастного цикла, пленяющего красочностью музыкального языка. Характерной особенностью его является многогранность тем, их вариантные проявления, калейдоскопичность ладотонального языка, ритмическая щедрость, красота мелодий и оригинальное прочтение в решение одночастной формы. Структура этого произведения, наподобие симфонических мугамов, состоит из множества «родственного» материала.

Новаторство Пятого концерта С.Ибрагимовой нашло отражение в структуре, в жанре, в тематическом материале, ритмической организации и в

особенностях проявления национальных ладов с выпуклой концепцией тональностей в раст.

Ладовая концепция Пятого концерта Севды Ибрагимовой – сложна. Лишь в начальной части концерта в тональном развитии переплетаются восемь оттенков лада раст (A, F, B, H, C, G, As, E) . В каждой новой тональности раст содержание тематического материала диатонично. В структуре концерта исходная тональность, отход от неё и возврат к ней создаёт красочную картину ладовой волны в создании празднично-танцевальных и лирических образов.

Празднично «звенят» начальные аккорды концерта. Здесь органный пункт, аккорды с липнущими секундами, в мелодии выразительно звучит каденционная ячейка A-Раст. В содержании аккордового вступления отметим диссонирующие созвучия, в структуре которых важным элементом является интонация б.2.

Пример 1.

*С. Ибрагимова. Концерт для ф-но №5. Вступление.*




Следом появляется жизнерадостная, танцевальная тема главной партии. Она звучит на тоническом органном пункте. В ней так же ярко выражено жизненность интонации б.2. Этот интервал является одним из важных элементов в музыкальной фактуре концерта. Несёт на себе нагрузку образа (это бодрость, сила, жизнь), а также является заметным элементом в музыкальной фактуре, и в частности, в звучании аккордов. Второе проведение зажигательного, задорного, танцевального мотива звучит в партии оркестра

Пример 2.

*С. Ибрагимова. Концерт для ф-но №5. Главная тема.*



Большой интерес представляет девятый эпизод концерта – это красочный импровизационный фрагмент в Gis сарэндж.

Пример 3.

*Девятый раздел концерта. Piu mosso.*




Композитор привносит в структуру концерта не только закономерности лада Сарендж, но и музыкально-интонационный материал одноимённого мугама. Одновременно, данный мугамный элемент выражает роль связки-перехода к следующему эпизоду.

В целом, отметим, что содержание концерта составляет 19 эпизодов, с родственными интонационными чертами. В большей степени это диатонические эпизоды. Хроматика, в основном, встречается в связках-переходах между эпизодами.

При обзоре всех эпизодов концерта легко установить определённый порядок в распределении формы. Крайние эпизоды в сопоставлении с центральными эпизодами содержат основной контраст.

В разделе Cadenza диссонирующее звучание вступительных аккордов напоминает праздничные, начальные «звенящие» аккорды вступления концерта.

Отметим, что фольклорно-романтическая направленность опусов и принципы мугамного развития формы пронизывают всё творчество С. Ибрагимовой.

Контрастное свободное вариантное развитие в духе национальной импровизационности – это основной принцип музыкального развития Пятого концерта С.Ибрагимовой. Здесь подобно «Поэме», основным приёмом «моделирования атмосферы импровизационности» является «внедрение принципа вариационности и многократной варьированной повторности»[5].

Таким образом, С.Ибрагимова явилась создателем нового романтического типа одночастного концерта. В структуру концерта она привнесла не только закономерности цикличности мугама, новые образы, но

[5] Сеидов Т. Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество. Баку: Азернешр, 2006, стр. 119.

и закономерности национальных ладов и музыкально-интонационный материал одноимённых мугамов.

## ЛИТЕРАТУРА

1. Абезгауз И. В. «Об одной закономерности азербайджанской музыки» // Учёные записки. История и теория музыки. Серия XIII, № 1. Баку, 1973, стр. 3-9.
2. Алиева Ф. Второй концерт Севды Ибрагимовой для фортепиано и камерного оркестра // «Мир культуры» Научно-теоретический сборник Аз.Гос. Университет Культуры и Искусства, XVI выпуск. Баку, 2008, с. 239-243.
3. Ашумова С. Фортепианный концерт в творчестве композиторов Азербайджана (стилевые особенности и проблемы интерпретации). Автореферат. Москва, 1991, 19 с.
4. Гаджибеков У. Основы азербайджанской народной музыки. Баку: Азербайджанское государственное музыкальное издательство, второе издание, 1957, 113 с.
5. Зохрабов Р. Bəstəkar – pianoçu Sevda İbrahimova // Musiqi dünyası, 1(2) 2000 il, s. 91-92.
6. Исмайлов М.С. Ладовые особенности азербайджанской народной музыки // Учёные записки Азгосконсерватории им. Уз. Гаджибекова. Баку, 1969, №2 (7).
7. Мазель. Контрастно-составные формы // Строение музыкальных произведений. Учебное пособие, 3-е изд., М: «Музыка», 1986 г, с.460-465.
8. Сеидов Т. «Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество». Баку: Азернешр, 2006, 272 с.
9. Azərbaycan Bəstəkarlar İttifaqı "Məlumat kitabçası (1990-2001)", Bakı, 2002 il, s 75-76.
10. Həsənova C. "Sevda İbrahimova". Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, 32 səh.
11. Yusifova H. "Sevda ibrahimovanın yaradıcılığında iri həcmli fortepiano əsərlərinin ifaçılıq xüsusiyyətləri" // "Sevda İbrahimovanın instrumental əsərlərinin ifaçılıq xüsusiyyətləri" dərs vəsaiti, Bakı, 2014, ADPU-nəşriyyatı, s 99-157.
12. Əfəndiyeva İ. "Sevdiyim bəstəkar və gözəl insan haqqında düşüncələrim" S. Ibrahimova 70 illiyi // «Гобустан» 3/2009, s. 32-35.
13. Əfəndiyeva İ. "Sevimli bəstəkarımız, gözəl həmkarımız Sevda İbrahimova"// "Musiqi dünyası", 1-2/43 2010, s 96-98.
14. Zöhrabov R. "Mənalı yaradıcılıq yolu" // "Bəstəkarlarımızın haqqında söz" (I kitab), Bakı –"Şur" nəşriyyatı, 1995 il, s 83-88.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.10.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor Nərminə Quliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.071.1**

**Lalə Musayeva**
dissertant
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ1014, Bakı ş., Ş.Bədəlbəyli küçəsi 98
e-mail: emm-tehsil@mail.ru

# BƏSTƏKAR OQTAY RƏCƏBOVUN YARADICILIĞINDA MAHNI JANRI

***Açar sözlər:*** *mahnı, ənənə, novatorluq, müasirlik, musiqi dili*

**Лала Мусаева**

## ПЕСНИ ОКТАЯ РАДЖАБОВА

***Ключевые слова:*** *песня, традиции, новаторство, современность, музыкальный язык*

В статье повествуется о роли песен в творчестве видного азербайджанского композитора, академика Октая Раджабова. Также в статье прослеживаются пути развития азербайджанских профессиональных песен, начиная с творчества Узеира Гаджибейли до нашей современности.

**Lala Musayeva**

## SONGS OF OKTAY RADZHABOV

***Keywords:*** *song, traditions, innovation, modernity, musical language*

In the article said the role songs in works of the prominent Azerbaijani composer, academician Oktay Radzhabov. In article ways of development of the Azerbaijan professional songs are also traced beginning from Uzeyir Hajibeyli to the present.

***"Dinləyicilərin xoşuna gələn yaxşı mahnı az deyildir. Lakin bununla birlikdə elə mahnılar vardır ki, nə musiqi yadda qalır, nə də sözləri. Mahnı musiqidə ən kütləvi janrdır. Buna görə də ona daim ciddi fikir verilməlidir. Bütün mahnılar yaxşı olmalıdır, xalqın qəlbinə və şüuruna yol tapmalıdır."***

**Heydər Əliyev**

Mahnı janrı Azərbaycan xalqının musiqi həyatında ən mühüm rol oynayan qədim janrlardan biridir. Xalqın dünyagörüşü, daxili, aləmi, psixologiyası, hiss-həyəcanları, arzuları, məhz mahnılarda öz əksini tapır. Mahnı janrı demək olar ki,

xalq yaradıcılığının janr cəhətdən ən qədim və ən zəngin sahəsidir.

Azərbaycan bəstəkarlarının elə mahnıları var ki, onlar kiçikdən-böyüyə hamının dillər əzbərinə çevrilmiş, həmin mahnıları oxuyaraq böyümüşük. İndi də onları böyük həvəslə dinləyirik, bəzən nostalji hisslərdən təsirlənirik. Məlumdur ki, mahnı bədii-estetik təsir gücünə tez qavranılmasına görə ən çox sevilən janrdır. Mahnı musiqi sənətinin həcmcə ən kiçik və sadə janrı olsa da, bu janrda bəstəkarlar böyük şedevrlər yaratmışlar ki, onları musiqi xəzinəmizin inciləri adlandırmaq olar.

Eyni zamanda mahnı bizim musiqinin bəlkə də ən problemli janrıdır. Çünki müasir dövrdə məhz mahnı musiqi işbazlarının əlində 1 alətə çevrilib və bu insanlar öz zövqsüz mahnıları ilə musiqi mədəniyyətimizə, insanların estetik hisslərinə ziyan vururlar. Bizim mənəvi borcumuz bəstəkarlar tərəfindən yazılmış şedevr mahnıları qoruyub saxlamaqdır.

XX əsr eyni zamanda, milli peşəkar mahnı janrının təşəkkülü, tərəqqisi və vüsəti ilə səciyyəvidir. Azərbaycan bəstəkarlarının mahnı yaradıcılığının inkişafında böyük xidmətləri olmuşdur.

Məlumdur ki, mahnı kütləvi janrdır. Mahnı incəsənətin ən demokratik və insanlar tərəfindən ən tez mənimsənilən, sevilən bir janrdır.

İlk peşəkar mahnılarımızın yaranmasında şübhəsiz, xalq yaradıcılığı çeşməsi əvəzsiz rol oynamışdır. Xalq mahnısı milli mənəvi sərvətlərimizin ən zəngin bir hissəsi olaraq, müasir mahnı janrının təməlini qoymuşdur.

Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin 1927-ci ildə nəşr etdikləri "Azərbaycan türk xalq mahnıları" məcmuəsi xalq mahnı nümunələrinin ilk nəşri olmaqla yanaşı, Azərbaycan mahnı incəsənətinin gələcək inkişafına müsbət təsir göstərdi. Bu məcmuədə folklor mənbəyə, xalq melodiyalarının ladharmonik və ritmik potensialına əsaslanan müəlliflər fortepiano fakturası və harmonik yazı istiqamətində yeni yol açdılar. Klassiklərimizin ənənələrinə sadiq Azərbaycan bəstəkarları – Səid Rüstəmov, Tofiq Quliyev, Fikrət Əmirov, Rauf Hacıyev, Niyazi, Cahangir Cahangirov kimi bəstəkarlarımız musiqimizin Qızıl fonduna daxil olmuş klassik sənət nümunələri yaratmışlar. Mahnı yaradıcılığı sahəsində Azərbaycan bəstəkarlarından böyük bir dəstəsi uğurla çalışmışlar. Əşrəf Abbasov, Zakir Bağırov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Ağabacı Rzayeva, Hacı Xanməmmədov, Şəfiqə Axundova, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Qənbər Hüseynli, Ramiz Mirişli, Emin Mahmudov, Ədilə Hüseynzadə, Oqtay Kazımi, Polad Bülbüloğlu, Telman Hacıyev, Cavanşir Quliyev və başqalarını misal göstərmək olar.

XX əsrin ortalarında yeni yazı texnikası ilə silahlanmış Azərbaycan bəstəkarları mahnı janrı sahəsində yeni cərəyan yaradırlar. Bu proses nəticəsində milli təfəkkür formaları ilə Avropa təfəkkürü xüsusiyyətlərinin sintezi, qovuşması müxtəlif mahnı nümunələrinin yaranmasını şərtləndirdi. Ayrı-ayrı sənətkarlar öz

fərdi üslubuna uyğun, öz ifadə tərzinə xas müxtəlif forma, məzmunlu əsərlərini yaradırlar. Azərbaycan mahnısı getdikcə yüksək zirvələr fəth edir və respublikanın hüdudlarından kənarda şöhrət qazanır.

Niyazinin "Arzu", "F.Əmirovun "Reyhan" Q.Qarayevin "Gənclik mahnısı", "Neftçilər mahnısı", T.Quliyevin "Zübeydə", "Bakı haqqında mahnı", R.Hacıyevin "Sevgilim", V.Adıgözəlovun "Qərənfil", Q.Hüseynlinin "Cücələrim" mahnıları bu qəbildəndir.

Bütün dövrlərdə olduğu kimi, son illərdə respublikada vokal janrına maraq artıb. Azərbaycan bəstəkarları – Arif Məlikov, Xəyyam Mirzəzadə, Tofiq Bakıxanov, Polad Bülbüloğlu, Cavanşir Quliyev, Faiq Sücəddinov, Sevda İbrahimova, Elnarə Dadaşova, Rəşid Şəfəq, Oqtay Rəcəbov və başqaları mahnı yaradıcılığı sahəsində fəal çalışırlar.

Azərbaycan bəstəkarlarının demək olar ki, hamısı yaradıcılığı boyu mahnı janrına müraciət etmişlər. Onların arasında musiqi tariximizə gözəl töhfələr vermiş gözəl bəstəkarlardan biri də Oqtay Rəcəbov olmuşdur.

O.Rəcəbovun fitri istedadı, onun mahnılarında daha parlaq və dolğun ifadəsini tapmışdır. Onun əsərlərində insanların mənəvi və daxili aləmi, sevinc və kədəri həssaslıqla əks edilir.

Oqtay Rəcəbovun yaradıcılığı milli musiqi mədəniyyətinin inkişafı axarında formalaşmış və kamilləşmişdir. Bəstəkarın opera, kantata-oratoriya, xor, kamera-vokal və instrumental musiqi, teatr və kino musiqisi sahələrində əldə etdiyi nailiyyətlər milli musiqi irsinə daxil olmuş, mədəniyyətimizin tanıdılmasında mühüm rol oynamışdır. Bəstəkarın musiqi irsinin əhəmiyyətli hissəsini təşkil edən mahnılarının mövzu və obrazlar dairəsi çox genişdir. Mahnıların mövzu müxtəlifliyi onların janr rəngarəngliyini də şərtləndirir. Mahnılarda bəstəkarın xalqına, doğma yurduna məhəbbəti öz əksini tapmış, qüdrətli insan əməyi, vətən torpağının gözəllikləri, təmiz məhəbbət, xalqlar dostluğu tərənnüm olunmuşdur. Bəstəkar öz mahnılarında müasirlərimizin arzu və istəyini ifadə edir, adamları qurub yaratmağa səsləyir. Bəstəkarın mahnılarında lirikaya daha çox üstünlük verir. Bu səbəbdən də onun yaradıcılığında lirik mahnı janrı xüsusi yer tutur. Oqtay Rəcəbovun mahnılarında müasir səslənmə, dövrün tələbi ilə ayaqlaşma başlıca xüsusiyyətdir.

Keçən əsrin 60-80 illərində Azərbaycan musiqi mədəniyyətində bir-birindən gözəl mahnıların yaranmasının əsas səbəblərindən biri də Televiziya və Radio Komitəsi tərkibində Azərbacan xalq çalğı alətləri orkestrinin, Estrada simfonik orkestrinin, "Dan ulduzu", "Sevil" vokal ansabllarının və digər musiqi kollektivlərinin yaranması yeni mahnılara olan ehtiyacı da artırmışdı.Digər tərəfdən gözəl mahnı ifaçılarından olan M.Babayev, Ş.Ələkbərova, S.Qədimova, G.Məmmədov, Z.Xanlarova, M.Maqomayev, F.Kərimova, İ.Quliyeva, E.Rəhimova, A.Qəniyev, O.Ağayev və digər müğənnilərin də yeni mahnılara

böyük ehtiyacları var idi.Bir sözlə qeyd olunmalıdır ki,yaşlı nəsllərlə yanaşı, həm də gənc bəstəkarlar da gənc müğənnilərin tələblərini, ehtiyaclarını təmin etmək üçün xalq mahnıları ruhunda, eyni zamanda müasir ritmlərdən istifadə edərək yeni-yeni mahnılar yaradırdılar.Belə gənc bəstəkarlardan biri də Oqtay Rəcəbov idi. O dövrdə bəstəkarın yazdığı və Dövlət Televiziya-Radio verilişləri qapalı şirkətin fondunda aşağıda göstərilən mahnılar bu gün də sevilə-sevilə dinlənilir.

Bəstəkar yazdığı mahnılarda şən-oynaq xarakterə daha çox üstünlük verir. Lakin bununla bərabər, lirik əhval-ruhiyyəli mahnılar da onun yaradıcılığında azlıq təşkil etmir. Bu xarakterlər elə bəstəkarın özünə də məxsusdur. Ona görə də o, yazacağı mahnılar üçün çox zaman qeyd olunan məzmunlu və xarakterli mahnılar seçir. Bəstəkarın bir mahnı daxilində müxtəlif ladlardan istifadə etməsi onun melodiyasını daha da maraqlı və cəlbedici edir. Məsələn, bəstəkarın şair M.İsmayılın sözlərinə yazdığı "Səndən xəbərsiz" mahnısında 7 klassik muğamlarımızın intonasiyaları öz əksini tapmışdır.

2000-ci illərin əvvəllərində bəstəkar çoxlu sayda mahnılar yazır və bu mahnıların əksəriyyəti xalq artistləri E.Rəhimova, F.Kərimova, Y.Rzazadə, M.Babayev, A.Zeynallı, A.İskəndərli, A.Orucova, T.Əmrah, H.Anatollu və digər müğənnilər tərəfindən ifa edilmişdir. Bu mahnılardan aşağıdakıları qeyd etmək olar: "Qayıdacaqsan", "Qadasın aldığım", "Heyf o sevgiyə", "Analar", "Əlvida demirəm", "Qaytar mənə", "Yalan imiş", "Səni unutsam", "Səndən ötəri", "Bu sən deyilsən", "Mən özüm sənə qurban", "Bilməz oldu","Belə getmə", "Sənə güvəndiyim dağlar" (bu mahnıların sözləri N.Kəsəmənlinindir), "Ay mənim ərköyünüm" (söz. F.Mehdinin),"Necə sevməyim səni" (söz. Ş.Qırızlımunun), "Məhəbbət" (söz. Ş.Qırızlımuinun), "Gəlin ocağa gələr" (söz. M.İsmayılın), "Gənclik nəğməsi" (söz. H.Abbasovun), "Gültəkin" (söz. A.Qurbanın).

Bu mahnılar 2000-2009-cu illər arasında yazılmışdır. Göründüyü kimi, mahnıların əksəriyyətinin şeirləri istedadlı şair N.Kəsəmənliyə məxsusdur.

2011-ci ildə Bakı şəhərinin "Mütərcim" nəşriyyatında O.Rəcəbovun "Könül nəğmələri" adlı mahnılar məcmuəsi çap olunur. Məcmuəyə 14 mahnı daxil olunmuş və onların mətni şair Gülağa Tənhaya məxsusdur. Məcmuəyə "Ey tanrım, arxa ol bizim İlhama", "Vətən istəyi", "Ulduzlu gecələr", "Soruşum", "Gözlərin qal deyir", "Xatirən qalmayıb", "İlk sevgi", "Kim atdı bu gülü", "Nostalgiya", "Sevgi nədi, eşq nədi", "Gəl", "Dönməyir xatirən öz inadından!", "Mən kiməm?", "Bu kənd məni tanımadı" adlı mahnılar daxil edilmişdir.

İlahi, dini mövzuda olan mahnılara Azərbaycan bəstəkarlarının yaradıcılığında çox az rast olunur. Bəstəkar O.Rəcəbov belə bir mövzuya 2005-ci ildə müraciət etmiş və 10 mahnıdan ibarət "İlahi nəğmələr" məcmuəsi 2006-cı ildə Bakıda "Şirvannəşr" də çap etdirilmişdir. Bəstəkar 10 mahnıdan ibarət bu silsilənin yazılması üçün şairlərdən Qəşəm İsabəylinin, İskəndər Etibarın və Fəxrəddin Meydanlının sözlərinə müraciət etmişdir. Bu silsilə "Əhlibeyt

Məddahları" dini mahnı ifaçıları (kvartet) tərəfindən ifa olunmuş, mahnıların aranjemanını Vasif Babayev həyata keçirtmişdir.

"Həyat eşqi"mahnılar məcmuəsi 1978-ci ildə yazılmış və bu məcmuəyə "Anam Azərbaycan" (söz. Adil Babayevin), "Ana torpaq" (söz. Famil Mehdinin), "Mənim arxalandığım" (söz. Nəbi Xəzrinin), "Ağ qızıl" (söz. Həmid Abbasovin), "Şirinlik mahnısı" (söz. Həmid Abbasovun), "Şirvan bayatıları" (sözləri el bayatılarındandır), "Həyat eşqi" (söz. Bəxtiuar Vahabzadənin), "Kim məni xatırlasa (söz. Nəbi Xəzrinin) adlı 8 mahnısı daxil edilmişdi.

Adlarından göründüyü kimi bunların əksəriyyəti vətənpərvərlik mövzusunda olan mahnılardır. Bu mahnıları xalq artistlərindən Zeynab Xanlarova, Flora Kərimova, İlhamə Quliyeva kimi məhşur müğənnilər xalq çalğı alətləri ansamblının, "Dan ulduzu" ansamblının və estrada-simfonik orkestrinin müşayiəti ilə ifa etmişdilər. Sonradan bu mahnılar digər gənc müğənnilər tərəfindən ifa olunub və hələ də bu günə kimi ifa olunmaqdadır.

2009-2014-cü illərdə bəstəkar bir sıra mahnıları, filmlərdə özünə yer tapır. Məsələn, "Təbrizim" adlı sənədlı filmdə Ənvər Əblucun sözlərinə "Təbrizim", "Tərsinə şevrilmiş dünya" bədii filmində "Tanıdıq bir-birimizi" (söz. R.Rövşənin), "Yollara uzanan gün" filminə "Dünya" (söz. Novruz Nəcəfoğlu) kimi mahnılarını göstərmək olar. Bundan əlavə bəstəkar R.Hüseynovun sözlərinə "Azərbaycan bayragı", "Zərifdən zərif", "Hünərli ol" kimi mahnılar yazır və bu mahnılar xalq artisti A.Zeynalov, əməkdar artist A.Orucova, N.Növrəsli və A.İskəndərli kimi müğənnilər tərəfindən ifa olunurlar. Bu illərdə O.Rəcəbov şair S.Nuru qızının sözlərinə "Qız qalası", "İçərişəhər", "Novruz bayramı", "Ağla mənimçün", ölüm səninüçün", "Toy olsun", "Sevgi valsı" kimi mahnılar da yazır və bu mahnılar müğənnilərdən F.Əmirov, A.İskəndərli tərəfindən ifa olunur.

Bu mahnıların bir qismi lirik, bir qismi oynaq-şən əhval ruhiyyəli, bir qismi rəqs-vals, digərləri isə təntənəli-marş xaraktrrinə malikdirlər.Bəstəkar bu mahnıların bir qismini əsas müəllifi olduğu ümumtəhsil məktəblərinin "Musiqi" dərsliklərinə də daxil etmişdir.

Beləliklə, bir bəstəkar, alim, pedaqoq kimi O.Rəcəbovun yaradıcılığı yalnız öz fərdi xüsusiyyətləri ilə heç kəsə bənzəməməklə başqalarından tam şəkildə fərqlənir. Onun yaratdığı bir çox mahnılar, artıq 40 ildən çoxdur ki, xalqımızın dillər əzbəri olmuş və olmaqdadır.

## ƏDƏBİYYAT

1. İmruz Əfəndiyeva. Axtarış yollarının bəhrəsi. – Bakı: "Zərdabi LTD" MMC, 2014.- 524 s.
2. Zülfüqarlı H. Sənətimizin "Oqtay budağı", "Mədəniyyət" qəzeti, 5 mart 1998.
3. Эфендиева И. Азербайджанская советская песня. Б., Язычы. 1981, стр.150

**УДК 78.072**

**Тамилла Сулейманова**
докторант
Бакинская Музыкальная Академия имени У. Гаджибейли
AZ1014, г. Баку, ул. Ш. Бадалбейли 98
e-mail: suleymanova.tamilla@gmail.com

# ЦИФРОВЫЕ АРХИВЫ ДЛЯ МУЗЫКОВЕДЧЕСКОГО ИССЛЕДОВАНИЯ

***Ключевые слова:*** *цифровые архивы, музыкальные манускрипты, музыковедческие ресурсы*

В данной статье дан обзор цифровых архивов, содержащих оцифрованные музыкальные манускрипты, письма, изображения и другие музыковедческие ресурсы. Мы уделили особое внимание проектам, посвященным музыке, которая была создана в период от раннего средневековья до 20-го века.

**Tamilla Suleymanova**

# DIGITAL ARCHIVES FOR MUSICOLOGICAL RESEARCH

**Keywords:** digital archives, music manuscripts, musicological resource.

**Summary**. In this paper, we review digital archives containing digitized music manuscripts, letters, pictures and other musicological resources. We focus on the projects dedicated to music from the early Middle Ages until 20th century.

**Tamilla Süleymanova**

# MUSİQİŞÜNASLIQ TƏDQİQATI ÜÇÜN RƏQƏMSAL ARXİVLƏR

**Açar sözlər**: rəqəmsal arxivlər, musiqi manuskriptləri, musiqişünaslıq mənbələri.

**Xülasə**. Bu məqalədə musiqi manuskriptləri, məktublar, şəkillər və sair musiqişünaslıq mənbələri yer alan rəqəmsal arxivlərin baxışı verilmişdir. Orta əsrlərdən başlayaraq 20-ci əsrə qədər musiqini əhatə edən layihələrə daha böyük diqqət yetirilmişdir.

Азербайджанские музыковеды все реже обращаются к изучению западноевропейской музыки периода средневековья, а также к исследованию творчества композиторов, творивших до 20-го века. В основном, к данной области – западноевропейской музыке вплоть до 20-го века – обращены исследования на уровне выпускных работ студентов и магистерских диссертаций. Во многом это связанно с тем, что проведение фундаментального исследования требует получения доступа к ряду архивных материалов, таких как манускрипты, письма, нотные издания в разных редакциях, аудио и видеозаписи исполнения в различной интерпретации и многим другим. «Невозможность» получить доступ к необходимой информации, в зависимости от ракурса избранной темы, ставит под сомнение «новизну» исследования, так как освоение научной литературы – это лишь одна часть работы, которую предстоит выполнить ученому-музыковеду. В связи с этим, изучение, скажем, итальянского мадригала, вряд ли будет одобрено в качестве темы докторской диссертации, если ученый, конечно, не имеет возможности проводить свое исследование в Европе. То же касается и исследования теоретической мысли эпохи средневековья.

В данной статье мы рассмотрим некоторые из доступных оцифрованных коллекций музыкальных манускриптов, ресурсов для исследования теории музыки, а также другие материалы, доступные онлайн полностью или частично.

Интегрированная база данных IDEM (Integrated Database for Early Music) [1], являясь междисциплинарной, сфокусирована на музыкальном наследии от периода раннего средневековья до 1800 года. Центральную часть базы составляют цифровые изображения первоисточников, созданные, в основном, центром фотографии Alamire Digital Lab (Alamire Foundation, Katholieke Universiteit, Leuven). Она включает информацию о всех аспектах манускриптов, в том числе их физические характеристики, а также адаптированные версии оригинальных изображений. Следует также упомянуть «Musica restaurata» [2] - совместный проект Ватиканской Библиотеки и Alamire Foundation, также нацеленный на сохранение музыкального наследия исторических Нидерланд.

Швейцарская виртуальная библиотека манускриптов (Virtual Manuscript Library of Switzerland) e-codices [3] стала доступна онлайн в 2007 году. Она содержит большое количество рукописей, в том числе очень редких, таких как «Ars contrapunctus» Филиппа де Витри.

Среди множества цифровых архивов, содержащих большое количество образцов музыки средневековья, некоторые из которых предоставляют возможности поиска и многие другие инструменты,

отметим DIAMM [4] (The Digital Image Archive of Medieval Music), Du Chemin [5], Josquin Research Project [6], ASCIMA [7] (Archive of Seventeenth-Century Italian Madrigals and Arias), MARGOT [8] , Digital Scriptorium [9]. Редкие манускрипты представлены на сайте Британской Библиотеки [10].

Исследовательский проект Josquin Research Project, разработанный в Стэнфордском университете, предоставляет пользователю возможность не только просматривать и искать музыкальные произведения Ж. Депре, И. Окегема, Г. Дюфаи и многих других композиторов конца 15-го – начала 16-го веков, но и анализировать данные произведения, извлекая информацию из музыкального контента.

Одним из проектов, посвященных истории теории музыки, является вебсайт «Early Music Theory» [11], где собраны работы теоретика И. Тинкториса (ок. 1435–1511), а именно, двенадцать Латинских Трактатов. Трактаты здесь представлены в виде нового цифрового издания, включающего как оригинальные тексты на латинском языке, так и английский перевод, а также комментарии, охватывающие ряд технических вопросов и исторический контекст.

TmiWeb [12] – онлайн версия мультимедийного издания итальянских трактатов о музыке “Thesaurus musicarum italicarum”. Здесь представлены трактаты П.Аарона (ок. 1480 – ок. 1545) и Дж. Царлино (1517 - 1590).

Коллекция Music Manuscripts Online [13] включает более 700 манускриптов произведений таких композиторов, как Бах, Гендель, Гайдн, Моцарт, Глюк, Бетховен, Брамс, Керубини, Шопен, Лист, Шуман, Дебюсси, Глинка, Мусоргский и многих других.

Цифровой архив дома-музея Бетховена (Beethoven-Haus, Bonn) [14], содержит манускрипты, письма, первые издания и многие другие материалы, в том числе 6,100 документов (37,600 цветных сканов высокого качества), 1,600 аудио файлов (включая аудио письма) и 7,600 текстовых файлов. Также здесь можно найти портреты композитора, написанные различными художниками в период его жизни. Каждому произведению посвящена отдельная страница, где помимо вышеуказанных материалов приведены краткие сведения об истории создания произведения (на английском и немецком языках).

Еще один проект, посвященный творчеству Бетховена - Beethovens Werkstatt [15], официально запущенный в 2014 году. Целью этого проекта, который будет продолжаться до 2030 года, является воссоздание эволюции творчества композитора на основе его «книги эскизов», которой также посвящено исследование Н.Л.Фишмана [16]. Следует также

отметить, что помимо графических данных, онлайн версия «книги эскизов» аннотирована при помощи языка разметки MEI (the Music Encoding Initiative) [17].

Творчеству И.Брамса посвящен сайт [18], созданный институтом Брамса (The Brahms Institute, Lübeck). Здесь представлены такие ценные материалы, как рукописи, ранние издания его произведений, письма, фрагменты музыки, программы концертов и многие другие.

Большой интерес представляют проекты, посвященные творчеству Э.Грига [19], А.Брукнера [20], Ф.Мендельсона [21], Г.Малера [22], . Вагнера [23].

Особо следует отметить проект Российской Национальной Библиотеки «К 400-летию Дома Романовых. Нотные дары русским императорам» [24]. Данная коллекция содержит как рукописи всемирно известных композиторов, таких как К.Ф.Э.Бах, К.М.Вебер, Ф.Мендельсон-Бартольди, так и сочинения менее прославленных авторов.

Ограничиваясь рамками данной статьи, перечислить все доступные музыковедческие ресурсы не представляется возможным. Безусловно, рассмотренные выше источники, созданные в рамках тех или иных проектов научных институтов, университетов, музеев и библиотек отличаются качеством представленной информации, могут считаться достоверными и использоваться как студентами, преподавателями, так и в целях проведения фундаментальных научных исследований.

## ЛИТЕРАТУРА

1. Integrated Database for Early Music. URL: http://heron-net.be/alamire/
2. Musica restaurata.
URL: http://www.vaticanlibrary.va/home.php?pag=in_evidenza_art_00187
3. Virtual Manuscript Library of Switzerland. URL: http://www.e-codices.unifr.ch/en
4. The Digital Image Archive of Medieval Music. URL: https://www.diamm.ac.uk/
5. Du Chemin.
URL: http://ricercar.cesr.univ-tours.fr/3-programmes/EMN/duchemin
6. Josquin Research Project. URL: http://jrp.stanford.edu/
7. Archive of Seventeenth-Century Italian Madrigals and Arias. URL: http://www.ascima.bham.ac.uk/
8. MARGOT. URL: http://www.marenzio.org/
9. Digital Scriptorium. URL: http://bancroft.berkeley.edu/digitalscriptorium
10. British Library. URL: http://www.bl.uk/onlinegallery/onlineex/musicmanu
11. Early Music Theory. URL: http://earlymusictheory.org/
12. TmiWeb. URL: http://euromusicology.cs.uu.nl/
13. Music Manuscripts Online. URL: http://www.themorgan.org/music

14. Цифровой архив дома-музея Бетховена. URL: http://www.beethoven-haus-bonn.de/sixcms/detail.php?template=startseite_digitales_archiv_en
15. Beethovens Werkstatt. URL: http://beethovens-werkstatt.de/demo/index.html
16. Книга эскизов Бетховена за 1802-1803 годы. Расшифровка и исследование Н.Л.Фишмана. М.,1962.
17. Music Encoding Initiative. URL: http://music-encoding.org/
18. И. Брамс. URL: http://www.brahms-institut.de/web/index_en.html
19. Э. Григ. URL: https://bergenbibliotek.no/grieg/english
20. А. Брукнер. URL: http://www.bruckner-online.at/
21. Ф. Мендельсон.
URL: http://www.loc.gov/collections/felix-mendelssohn
22. Г. Малер. URL:
http://daten.digitale-sammlungen.de/~db/ausgaben/uni_ausgabe.html?projekt=1384445807
23. Р. Вагнер. URL: http://daten.digitale-sammlungen.de/~db/ausgaben/uni_ausgabe.html?projekt=1350302053&recherche=ja&ordnung=sig&l=de
24. К 400-летию Дома Романовых. Нотные дары русским императорам. URL: http://expositions.nlr.ru/MusicalManuscripts/
25. Center for Computer Assisted Research in the Humanities at Stanford University. URL: http://ccarh.org/
26. Online Resources for Music Scholars.
URL: http://hcl.harvard.edu/research/guides/onmusic/

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.10.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor Nərminə Quliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.07**

**İlahə Şirəliyeva**
magistr
Üz. Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ1014, Bakı ş., Ş.Bədəlbəyli küçəsi 98
e-mail: bma-akademi@list.ru

# İSMAYIL SOLTAN OĞLU HACIBƏYOVUN Ü.Ə.HACIBƏYLİNİN "KOROĞLU" OPERASINDAN UVERTÜRANIN FORTEPİANO ÜÇÜN İŞLƏMƏSİ

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, İsmayıl Hacıbəyov, "Koroğlu" operası, transkripsiya, uvertüra, lad, tonika, akkord, harmoniya, faktura*

Təqdim olunmuş məqalə görkəmli Azərbaycan bəstəkarı İsmayıl Soltan oğlu Hacıbəyov tərəfindən yaradılmış Ü.Hacıbəylinin "Koroğlu" operasından uvertüranın transkripsiyasının lad harmonik əsasının öyrənilməsinə həsr edilmişdir.

Bu əsərin müqayisəli harmonik təhlilinin nəticəsində səslənmə qalınlaşdırılmasının bütün vasitələri vurğulanmışdır. Bəstəkar İsmayıl Soltan oğlu Hacıbəyov fakturanın qalınlaşdırılmasının müxtəlif üsullarından istifadə edərək bu əsərin harmonik dilinə heç bir yeni akkord daxil etməmişdir.

**Илаха Ширалиева**

# ОБРАБОТКА ИСМАИЛА СОЛТАНОВИЧА ГАДЖИБЕКОВА УВЕРТЮРЫ ИЗ ОПЕРЫ "КЁРОГЛЫ» У.А.ГАДЖИБЕЙЛИ

***Ключевые слова:*** *Узеир Гаджибейли, Исмаил Гаджибеков, опера «Кёроглу», транскрипция, увертюра, лад, тоника, аккорд, гармония, фактура*

Данная статья посвящена изучению ладогармонической основы транскрипции увертюры из оперы «Кёроглу» У. А. Гаджибейли, созданной замечательным азербайджанским композитором Исмаилом Солтановичем Гаджибековым.

В проведении сравнительного гармонического анализа данного произведения подчёркнуты все приёмы уплотнения звучности. Композитор Исмаил Солтанович Гаджибеков используя разные приёмы уплотнения фактуры, буквально не внёс ни одного нового аккорда в гармонический язык данного произведения.

**Ilaha Shiraliyeva**

# ISMAIL SOLTANOVICH HADJIBEKOV'S PROCESSING OVERTURES FROM THE OPERA OF «KOROGLU» OF U.A.HADJIBEYLI

***Keywords:*** *Uzeir Hadjibeyli, Ismail Hadjibekov, opera «Koroglu», transcription, overture, harmony, tonic, chord, harmony, invoice*

This article is devoted to studying of a lad-harmonik basis of a transcription of the overture from the opera «Koroglu» of U. A. Hadjibeyli created by the remarkable Azerbaijani composer Ismail Soltanovich Hadjibekov.

In carrying out the comparative harmonious analysis of this work it is underlined all methods of consolidation of sonority. The composer Ismail Soltanovich Hadjibekov using different methods of consolidation of the invoice, literally I didn't bring any new chord in harmonious language of this work.

XX əsrin II yarısının Azərbaycan bəstəkarlıq məktəbinin ən parlaq nümayəndələrindən biri olan İsmayıl Soltan oğlu Hacıbəyov[1] (1949-2006) Ü.Hacıbəylinin, Q.Qarayevin, S.Hacıbəyovun ənənələrini davam etdirib. O, novator bəstəkardır. İsmayıl Soltan oğlu Hacıbəyovun melodiya, tematizm, ritm, harmoniya, forma, orkestrovka, alətşünaslıq, janr sahəsində axtarışları müxtəlif dövrün üslub istiqamətləri ilə əlaqələnir. Musiqi təfəkkürünün vacib cizgiləri bəstəkarın lad-harmonik dilində öz ifadəsini tapır. Burada lad müxtəlifliyi, klassik funksional akkord əlaqələri, romantiklər, impressianistlər, rus klassikləri və müasir musiqi ruhunda koloristik və fon üsulları vardır.

İ.Hacıbəyovun lad harmonik dili son dərəcə genişdir. Onun əsərlərində ənənəvi harmonik dönmələri eşitmək, diatonikanın qanunauyğunluqlarını, xromatikanın sadə keçidini eyni zamanda major-minor, minor-major

[1] Azərbaycanın Əməkdar İncəsənət xadimi, professor, prezident təqaüdçusu, "Humay" Milli mükafatı lauratı bəstəkar İsmayıl Soltan oğlu Hacıbəyov (1949-2006) 1972-ci ildə Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakultəsini professor Q. Qarayevin sinfi üzrə bitirrmişdir. O, fortepiano üçün "Paqanini mövzusuna variasiyalar" (1968), Dantenin şeirlərinə "Daş qadın haqqında şeirlər" vokal silsiləsi (soprano, alt, tenor və bas üçün, 1969), simfonik orkestr üçün "Uvertüra" (1971), fortepiano üçün "Vatto ruhunda eskizlər" (1971), simfonik orkestr üçün "Klassik süita" (1971), kamera orkestr üçün "Konsertino" (1972), Skripka, violençel və orkestr üçün "İkili konsert" (1974), "Memorial" kantata (1982), "Molbı" vokal silsiləsi (1984, 1997. Səs və fortepiano üçün köçürülmə), "Azərbaycan" odası (1988), fortepiano üçün "Albomdan Səhifələr" Süitası (1991); "Üç İdilliya" (1992); Fleyta və simli orkestr üçün "Konsertştük" (1993); oktet üçün "Divertisment" (1993) və digər opusların müəllifidir.

təzahülərində, enharmonik münasibətdə, tonal qeyri-sabitlikdə, dissonant ahənglərdə, akkordların mürəkkəb quruluşunda müasir xromatik sistemi izləmək olar.

Bəstəkarın milli cizgiləri sahəsində axtarışları və novator cəhdləri Ü. Hacıbəyli musiqisinin təsiri, həmçinin atasının (S.Hacıbəyovun) yazı texnikasına bağlılığında özünü təzahür etdirir. Bu istiqamət öz təcəssümünü Ü. Hacıbəyli əsərlərinin bir sıra işləmə və transkripsiyalarında − kamera orkestri üçün “Aşıqsayağı”, “Şikəsteyi-Fars”, fortepiano kvinteti üçün “Arazbarı”, orkestr üçün “Komsomolçu qız” mahnısı, “Koroğlu” operasından uvertüranın fortepiano işləməsini (1991), həmçinin “Füruzə” operasında, fortepiano və simfonik orkestr üçün “Cəngi” rapsodiyasında tapır.

Ü.Hacıbəylinin “Koroğlu” operasından uvertüranın fortepiano üçün işləməsi XX əsrin 90-cı illərində İ. Hacıbəyovun bir neçə əsərinin gözəl ifaçısı, istedadlı pianoçu Ülviyyə xanım Vəliyeva[2] həsr etmişdir. Ülviyyə Hacıbəyova İsmayıl bəyin həm həyat, həm də mükəmməl sənət yoldaşı olmuşdur. O, İ. Hacıbəyovun bir çox əsərlərinin ilk ifaçısı, onların gözəl interpretatoru, redaktə edərək çapını təşkil edən təbliğatçısıdır.

1991-ci ildə Ülviyyə xanımın virtuoz ifa texnikasını nəzərə alaraq Ü.Hacıbəyovun “Koroğlu” operasından uvertüranın fortepiano işləməsini yatarmışdır.

“Uvertüra”nın ifa olunması coşğun vətənpərvərlik emosiyalarının yaranmasına səbəb olur. Hətta qeyd edək ki, əsərin Türkiyədə ifasını dinləyicilər oturmayaraq, ayaq üstə dayanarq dinləmişdilər.

Diqqətə layiqdir ki, Üz. Hacıbəylinin “Koroğlu” operasının uvertürasına müraciət edərək İsmayıl Hacıbəyov əsərin lad-harmonik əsasını saxlayır. Bir əlavə not belə daxil eləmir. Hazırki konsert işləməsinin yaranmasında onun rolu Ü.Hacıbəylinin əsərində harmonik materiala malik olan səslənmə diapazonu səslərin oktavalı unison vasitəsi ilə qalınlaşdırılması nəticəsində maksimal genişləməsiylə bağlıdır. Diqqətə çatdıraq ki, hətta mövcud səs palitrasında natamam akkordlar yeni səsin əlavə olunması ilə zənginləşdirilmir, yalnız “toxunulmaz bir qanun” qüvvədə olur ki, əsərə heç bir zərər gətirmədən

[2] Ülviyyə Vəliyeva-Hacıbəyova − Azərbaycan pianoçular məktəbinin görkəmli nümayəndəsidir. O, 1978-ci ildə Bülbül adına Bakı Orta İxtisas Musiqi Məktəbini (L. L. Filatovanın sinifi), 1983-cü ildə Azərbaycan Dövlət Konservatoriyasını (indiki Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, professor Rauf Atakişiyevin sinifini), 1986-cı ildə isə assistentura-stajorluğu əla qiymətlərlə başa vurub. 1967-ci ildən radioda, televiziyada və konsert salonlarında çıxış edən pianoçu Zaqafqaziya və Ümumittifaq müsabiqələr diplomçusudur. Azərbaycan bəstəkarlarının musiqisinin ifaçısı, təbliğatçı kimi fəalliyyət göstərir. 2006–ci ildə Azərbaycanın Əməkdar xadimi adına layiq görülmüşdür. 2011-ci ildən Ü. Hacıbəyli adına Bakı Musiq Akademiyasının professorudur.

İsmayıl Hacıbəyov özünün dahi qohumunun parlaq uvertürasını görünür ki, pianistlərin repeatuarına konsert pyes işləmə formasında daxil edir. İ.Hacıbəyov bu əsərin fortepiano şərhində Ü. Hacıbəylinin orkestr orijinalına uyğun olan iri maştablı səslənməyə nail olur.

Bəstəkarın özünün heç bir notunda orijinaldan ayrılmadığını, səsləri ikiləşdirərək isə səslənmənin iriləşməsinə nail olduğunu göstərmək məqsədi ilə işləmənin bəzi fraqmentlərinə diqqəti cəlb edək.

İ.Hacıbəyovun Ü.Hacıbəyli əsərinə heç bir yeni əlavə akkord daxil etmədən mövcud olan harmonik material vasitəsi ilə səslənmənin fakturasını genişləndirmə priyomlarını giriş, əsas, koməkçi mövzular və koda fraqmentlərinin müqayisəli təhlili əsasında göstərək.

Belə ki, məsələn Ü.Hacıbəylinin uvertürasının başlanğıc çağırış intonasiyası *c* şurda səslənir və melodik intonasiyanın dəqiq dayaqlarını müəyyən edir: *c*, *g*, *f*, və yenidən *c*. Bu dayaqlarda harmonik fon cəmlənir – $T_{35}^{4}$. Burada aşıq musiqisnə xas olan lad cizgiləri və kvarta-sekundalı intonasiyaların təsiri var. Bütövlükdə şur kadensiyasının melodiyasında tonika funksiyası dəqiq şəkildə aydınlaşır.

*Nümunə 1. Hacıbəyli Ü. "Koroğlu" operası. Uvertüra. Giriş*




İsmayıl Hacıbəyovda aşağıdakıları müşahidə edirik: şaquli xəttin qalınlaşması vasitəsi ilə başlanğıc *c* şur səslənməsinin güclənməsi. Daha doğrusu, Ü. Hacıbəylidə başlanğıc fraza ikisəslidir. Onun şərhində dörd səsli ifadədə səslənən bütövlükdə üç səs var: *b*, *a*, *c*. Bu üç səsi İ. Hacıbəyov şaquli xəttin məzmununda ustalıqla "xərcləyir". Beləliklə, yeni səs daxil etmədən, lakin "səs məzmunundan" istifadə edərək o, harmonik şaqulilik yaradır. Və bu harmoniyalarda şurun tonika funksiyası dəqiqliklə eşidilir. Şurun tam kadensiyası girişin tematik materialı kimi xidmət edir. İ. Hacıbəyovun başlanğıc frazanın səslənməsinə daxil etdiyi *des* səsi qanunauyğundur, bir

halda ki, Ü. Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" əsərində lad nəzəriyyəsində tam kadensiyanın aydınlaşdırılmasından birinə daxil olur. İkinci element – *g* dayağında tamamlanır. Burada İ. Hacıbəyov səslənmənin gücləndirilməsində növbəti üsuldan istifadə edir. Oktavalı təkrar edilən səsi əlavə edir və növbəti xanədə onu saxlayır. Nəticədə artıq akkord – natamam üçsəsli (g-b-g) səslənir. Üzeyir Hacıbəylidə burada sonrakı xanə ilə liqalanan oktava unisonudur. İ. Hacıbəyov açıq şəkildə səslənməyə bu səsin obertonunu çıxardır. Burda artıq tonika septakkordu və tam tonika üçsəslisi səslənir.

*Nümunə 2. Hacıbəyov İ. "Koroğlu" operasından uvertüranın fortepiano üçün işləməsi. Giriş.*




Ü.Hacıbəylidə – rəqəm 6 – da *b* dayağı ostinant təmkinli ritmik fiqur ilə ifadə olunur. Melodik fiqurasiyalarda iki funksiya birləşir: *b* rast tonikası və köməkçi subdominanta.

*Nümunə 3. Hacıbəyli Ü. "Koroğlu" operası. Uvertüra. Əsas mövzu.*




İsmayıl Hacıbəyov səslənməni zənginləşdirir. İlk növbədə, səslərin miqdarını artıraraq. Diqqətəlayiqdır ki, bu epizodda o orijinalın səs məzmunundan istifadə edərək ostinatonun yeni bas tematik fiqurunu yaradır. Yəni burada bas mövzusunun dörd səsi saxlanır: b, es, f, g. Səslənmənin

gücləndirilməsi həmçinin orta səsdə tonikanın təkrar səsinin əlavə edilməsi yolu ilə də yaradılır.

*Nümunə 4. Hacıbəyov İ. "Koroğlu" operasından uvertüranın fortepiano üçün işləməsi. Əsas mövzu.*




Sonra, *g* Bayatı-Şirazda köməkçi mövzu səslənir. Basda kvinta və seksta burdonları bir-biri ilə növbələşir. Kvinta burdonu – tonikanın xarakteristikasıdır. Seksta – gah subdominantın akkordunu, gah əskidilmiş aparıcı septakkordu müəyyən edir. Bütovlükdə, köməkçi partiyada harmonik xarakteristikanın əsasını iki akkord təşkil edir – tonik üçsəslisi və əskidilmiş septakkord.

*Nümunə 5. Hacıbəyli Ü. "Koroğlu" operası. Uvertüra. Köməkçi mövzu*



İsmayıl Hacıbəyov mövcud epizodda fakturanı doldurur və bas səsini aşkara çıxardaraq Ü. Hacıbəylidə orqan punktunun səslənməsində “gizlənən” harmonik məzmunu canlandırır. Beləliklə, başlanğıc frazada növbəti akkordlar səslənir: $t_6$, $III_2$, $VI_7$, $K_{64}$.

*Nümunə 6. Hacıbəyov İ. “Koroğlu” operasından uvertüranın fortepiano üçün işləməsi. Köməkçi mövzu*




Akkordların tonika-dominanta birləşməsi uvertüranın kodasında harmonik ifadənin əsası hesab olunur.

*Nümunə 7. Hacıbəyli Ü. “Koroğlu” operası. Uvertüra. Koda.*



İ.Hacıbəyov kodanın səslənməsində maştablığa nail olur. Faktura əhəmiyyətli dərəcədə mürəkkəbləşir. Burada İ.Hacıbəyov qəhrəmanın qələbəsinin əzəmətli səhəsini böyük uğurla təcəssüm etdirir.

*Nümunə 8. Hacıbəyov İ. “Koroğlu” operasından uvertüranın fortepiano işləməsi. Koda.*




**ƏDƏBİYYAT**


1. Bağırov N.H. Azərbaycan musiqisinin bəzi xüsusiyyətləri / Harmoniya dərsliyi. Bakı: “Maarif” nəşriyyatı, 1989, s. 477-497.
2. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. Bakı: “Elm” nəşriyyatı, 1991, 118 s.
3. İsmayıl Hacıbəyov. Məqalələr, oçerklər, xatirələr (Redaktor Hacıbəyova Ü.). Bakı, “OKA Ofset”, 2007, səh. 176.
4. Hacıbəyov Üz. Əsərləri. II cild. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1965, 412 s.
5. “Koroğlu” operasına uvertüra (fortepiano üçün işləmə İsmayıl Hacıbəyov) // Azərbaycan bəstəkarlarının piano əsərlərinin antologiyası, I cild (Redaktok-tərtibatçı Ülviyyə Hacıbəyova). Bakı, “Elm və təhsil”, 2012, Səh. 21-32.
6. Hacıbəyli Ü. Azərbaycan türklərinin musiqisi haqqında. Bakı: “Adiloğlu”, 2005. 76s.
7. Абезгауз И. Опера «Кëр-оглы» Узеира Гаджибекова. О художественных открытиях композитора. М.: «Советский композитор», 1987, 231 с.
8. Холопов Ю.Н. Гармония. Практический курс. Часть II. Гармония XX века. Научная редакция и подготовка текста к печати В. С. Ценовой. Москва: издательский дом «Композитор», 2003, 624 с.
9. Мамедова Б.М. О некоторых особенностях гармонии азербайджанских композиторов // Учёные зап. Серия XIII. №1. Баку, 1973, стр. 40-68.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.09.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ellada Hüseynova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.071.1**

**Leyla Rzayeva**
metodist
Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz
e-mail: emm-tehsil@mail.ru

# ƏFRASİYAB BƏDƏLBƏYLİ – İLK AZƏRBAYCAN MİLLİ BALETİNİN BANİSİ

***Açar sözlər:*** *dövlət, teatr, musiqi, mədəniyyət, balet*

**Лейла Рзаева**

# АФРАСИЯБ БАДАЛБЕЙЛИ – ОСНОВАТЕЛЬ ПЕРВОГО НАЦИОНАЛЬНОГО БАЛЕТА

***Ключевые слова***: *государство, театр, музыка, культура, балет*

Эта статья посвящена талантливому азербайджанскому композитору Афрасиябу Бадалбейли. Он основатель и создатель первого национального балета « Девичья башня». В статье говорится о предпосылках создания балета, его редакциях и драматургии.

**Leyla Rzayeva**

# AFRASIYAB BADALBEYLI – THE FOUNDER OF THE FIRST NATIONAL BALLET

***Keywords:*** *state, theater, music, culture, ballet*

The article is dedicated to the talented Azerbaijani composer Afrasiyab Badalbeyli – the founder of the first national ballet “ Maiden`s Tower”. The article deals with the prerequisites for the creation of ballet, its editions and dramaturgy.

Azərbaycan çoxəsrlik tarixə malik olan bir dövlətdir. Azərbaycanın dövlət və hərb quruculuğunda, elm və mədəniyyət sahələrində Səfəvilər, Aşurbəylilər, Kəngərlilər, Naxçıvanskilər, Hacıbəylilər, Qacarlar, Əliverdibəylilər, Rəfibəylilər, Vəkilovlar, Bədəlbəylilər və digər nəslin soyadları silinməz izlər qoymuş və onların bu sahələrin inkişafında xüsusi xidmətləri olmuşdur.

Bədəlbəylilər səcərəsi qədim və çoxşaxəlidir. Bədəl bəy, Əhməd bəy, Əfrasiyab, Şəmsi Bədəlbəylilər. Bədəlbəylilərin Qacarlar, Əliverdibəylilər, Hacıbəylilərlə sıx qohumluq əlaqələri oldugundan hamısının damarında bu və ya digər dərəcədə həmin nəsillərin nümayəndələrinin qanı var.

Bədəlbəylilər nəslinin qocaman nümayəndəsi olan Bədəl Bəşir oğlu – XX əsrin lap əvvəllərində mədəni-maarif fədaisi olaraq, 35 il fasiləsiz rus-müsəlman məktəbində müdir vəzifəsində çalışmış, xalq kütləsi daxilində maarifçiliyin, təhsilin vacibliyini və gərəkliyini açıqlayırdı. O, həmcinin özünü aktyor kimi də dəfələrlə sınamışdır, xalası oğlu dahi bəstəkarımız Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Məcnun, İbn Salam obrazlarını böyük məharətlə ifa etmişdir.

XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin inkişafı və təbliği sahəsində əvəzsiz rolu olan şəxsiyyətlərdən biri də Əhməd Bəşir oğlu Bədəlbəyli (Ağdamski) Azərbaycan səhnəsində qadın rollarının ilk ifaçısı olmuşdur.

Əfrasiyab Bədəlbəyli bütün Yaxın Şərqin müsəlman aləmində ilk baletin yaradıcısı olmuş, Şəmsi Bədəlbəyli isə - Azərbaycan musiqili komediya teatrının qurucularından biri olaraq, həmin sahədə püxtələşən böyük aktyor nəslini tərbiləndirib yetişdirmişdi.

Hal-hazırda isə Bədəlbəylilər nəslinin digər nümayəndisi olan gözəl musiqiçi, Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli yaradıcı sənət aləmində fəal həyat mövqeyindədir.

Əfrasiyab Bədəlbəyli təkcə öz nəslinin deyil, o, həmçinin bütünlüklə XX əsr Azərbaycan musiqi mədəniyyətinin sələflərindən biridir. O ilk musiqi təhsilini 20-ci illərdə almışdır. Həmin illərdə respublikada böyük ictimai, siyasi hadisələr baş verir, musiqi tariximiz üçün gərgin və ziddiyyətli illərdə mətbuatda əski opera və operettaları tamamilə səhnədən götürərək "sürətçilik üsulu ilə **"Avropaya pəncərə açmaq"** xülyasında olanlarla qəti razılaşmıyan Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, görkəmli ədib Məmməd Səid Ordubadi və başqaları ilə yanaşı, 17 yaşlı Əfrasiyab 1924-1929-cu illərdə "Kommunist" qəzetində dərc etdirdiyi **"Türk operası və musiqisi haqqında"** məqaləsində "Operalarımızın islahatı işində tələsməyə heç bir ehtiyac yoxdur" deyə və xalqımızın ulu aləti olan tarı köhnəlik əlaməti sayaraq muzeyə göndərmək, tarı ləğv etmək məqsədilə yaranmış kompaniyalara etiraz olaraq tarın xalq musiqi aləti olduğunu və onun Azərbaycanın məşhur tar çalanı Əsəd oğlu Mirzə Sadıq tərəfindən təkmilləşdirildiyini, konservatoriyada tar dərslərinin keçirilməsinin vacibliyini qeyd edərək, **"Tar üzərinə mühakimə münasibətilə"** başlığı altında yazı çap etdirərək, öz qəti etirazını da bildirmişdir.

Ə.Bədəlbəyli professional bəstəkar kimi fəaliyyətə Azərbaycan Dövlət Dram Teatrında musiqi hissə müdiri işlədiyi vaxtdan (1928) başlamışdır.O, burada yaradıcılığına çoxdan pərəstiş etdiyi Cəfər Cabbarlı ilə tanış olur və dramaturqun "Od gəlini" pyesinə ilk dəfə musiqi bəstələyir.

1930-cu ildən isə ömrünün sonuna qədər M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında dirijor işləmiş, onlarca klassik və müasir opera və baletin gözəl təfsirçilərindən olmuşdur. O, həmçinin özünün "Qız qalası" baletinə, "Nizami" və "Söyüdlər ağlamaz" operalarına, "Lenin" oratoriyasına və "Təntənəli marş"ına böyük şövqlə dirijorluq etmişdir.

Ə.Bədəlbəylinin yaradıcılığında ən böyük xidməti ilk Azərbaycan milli baletini yaratmasıdır. Xalq musiqisinə dərindən bələd olan bəstəkar onun nəzəri əsaslarını, lad-məqam xüsusiyyətlərini çox mükəmməl bilirdi və bunları o öz əsərlərində bacarıqla istifadə etmişdir. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin də Ə.Bədəlbəylinin bəstəkar kimi formalaşmasında böyük təsiri olmuşdur.

Görkəmli bəstəkar bir çox operalar üçün librettolar yazmış, məsələn S.Ələsgərovun "Bahadır və Sona", B.Zeydmanın "Qızıl açar" və bir sıra operaların libretto mətnini dilimizə uğurla tərcümə etmişdir.

Ə.Bədəlbəylinin publisistik fəaliyyətinə nəzər salaraq qeyd etmək lazımdır ki, onun tərtib etdiyi "Musiqi haqqında söhbət" (1953), "Musiqi terminləri luğəti"(1956), "İzahlı monoqrafik luğəti" (1956) hər bir musiqi tədqiqatçısının stolüstü kitabıdır.

30-cu illərin sonu 40-cı illərin əvvəllərində xalq musiqisinə məhəbbət, onun zəngin ənənələrinə bağlılıq, milli Azərbaycan operası "Leyli və Məcnun"dan "Koroğlu" yadək, simfonik musiqisi sahəsində qazanılan yüksək nailiyyətlər, xoreoqrafiya məktəbinin açılması, professional cəhətdən hazırlıqlı milli xoreoqrafiya kadrların yetişməsi, opera teatrında tamaşaya qoyulmuş P.İ.Çaykovskinin "Sonalar gölü", Adolf Adanın "Jizel" baletlərindən və xüsusən, Ü.Hacıbəylinin "Koroğlu" operasında olan xoreoqrafik epizodlar, 1930-cu illərin ortalarında milli xoreoqrafiya səmasında ilk azərbaycanlı balerina Qəmər Almaszadə kimi bir ulduzun parlaması, onun yaratdığı bir çox poetik, dramatik səhnə obrazları, həmçinin rus və sovet balet teatrları ənənələrinin güclü təsiri Azərbaycan musiqi incəsənəti üçün yeni janrın – milli baletin yaradılması üçün gözəl şərait yaradır.

1937-cı ildə Azərbaycan Xalq Komissarlığı Soveti yanında İncəsənət İşləri üzrə İdarəsi Azərbaycanda milli balet yaratmaq haqqında qərar qəbul edir və bu işi Ə.Bədəlbəyliyə tapşırır. Onunla bağlanmış müqaviləyə əsasən bəstəkar bir neçə ay ərzində baletin librettosunu, klavirini və partiturasını təhvil verməyi öz öhdəsinə götürür.

Bəstəkar balet üçün mövzu olaraq Qız qalası haqqında geniş yayılmış orta əsr nakam məhəbbət əfsanələrinin C.Cabbarlının eyni adlı poemasına yaxın bir variantını götürüb, librettosunu da özü yazır. Gözəl Gülyanaqla gənc kəndli Poladın faciəvi sevgisi, zülmkar xanın zorakılığı, feodal dünyasına qarşı nifrət motivləri baletdə zəngin və aydın, obrazlı musiqi dili ilə, həm də professionallıqla verilmişdir. Əsərdə klassik baletin hələ o zaman Azərbaycan musiqisində görünməmiş variasiya, adajio, ansambl və kordebalet formalarından geniş istifadə olunmuşdur. Dahi

bəstəkarımız Üzeyir Hacıbəyli baletə yüksək qiymət verərək belə yazmışdır: "Öz musiqi əsərinin əsasında əfsanəvi süjetdən istifadə edərək, bəstəkar klassik və milli rəqs ənənələrini üzvi sürətdə birləşdirərək, milli incəsənətin inkişafı tarixində yeni səhifə açan ilk Azərbaycan baletini yaratmışdır".

Ə.Bədəlbəyli "Qız qalası" baletində xalq melodiyaları ilə yanaşı, muğam elementləri, xüsusən "Bayatı-Kürd" və "Şur", rənglər, "Ay, bəri bax", "Şələxo" Azərbaycan xalq oyun havalarını da bacarıqla istifadə edir və onlar baletə xüsusi milli kolorit, milli ifadəlik verir.

Tükənməz insan məhəbbəti haqqında humanist ideya baletin əsas səciyyələrindən biridir. Proloq və epiloqla 3 pərdədən ibarət olan bu baletin forması klassik balet formasına uyğundur, məzmunu isə-sırf milli dildə təqdim olunub. Baletdə silsilə obrazlar qalereyasına rast gəlinir: xan və onun arvadının mövzusu, Gülyanaq və Polad obrazları. Müəllif əsərdə obrazların açılmasında leytmotivlər sistemindən geniş istifadə edir. Burada Gülyanağın leytmotivi daha əhəmiyyətli görünür. Əsərin düyün nöqtəsində- Gülyanaqla Cahangir xanın toqquşması səhnələrində səslənən bu leytmotiv əsərdə dəfələrlə təkrar edilir və hər dəfə yeni ritmik ifadədə, yeni tonallıqda, harmonik və orkestr işləmələri ilə verilir.Baletin orkestr quruluşu rəngarəngliyi ilə fərqlənir və əsərin dramaturgiyasında böyük rol oynayır. Orkestrin tərkibinə xalq alətlərinin – tar, zurna, dəfin daxil olunması baletin xoreoqrafiya nömrələrinə özünəməxsus orijinallıq gətirmişdir.

"Qız qalası" baleti üç redaksiyada tamaşaya qoyulmuşdur:

Birinci redaksiya 18 aprel 1940-cı ildə Bakıda M.F.Axundov adına Opera və Balet Teatrında həyata keçirilir. Gülyanaq rolunda – Qəmər Almaszadə, Polad rolunda – Konstantin Bataşov çıxış etmişlər. İlk tamaşaya müəllif özü dirijorluq etmişdir. Quruluşu respublikanın xalq artisti, rejissor İ.Hidayətzadə və baletmeyster V.İ.Vronski həyata keçirmişlər.

İkinci redaksiya isə - 1959-cu ilin may ayında Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə keçirilmişdir. Gülyanaq rolunda –SSRİ xalq artisti - Leyla Vəkilova, Polad rolunda – respublikanın xalq artisti Məsud Məmmədov çıxış etmişlər. Quruluşun baletmeysteri SSRİ xalq artisti Qəmər Almaszadə , yeni bədii tərtibatın rəhbəri isə qardaşı Ənvər Almaszadə olmuşlar.

Birinci və ikinci redaksiyalar arasında 19 illik ara var. Müəllif həmin dövr ərzində ictimai həyat, eləcə də incəsənət qarşısında duran mürəkkəb vəzifələri nəzərə alaraq sənət baxımından əsəri bir daha nəzərdən keçirmiş və bir sıra əsaslı dəyişiklər aparmışdır.

Baletin üçüncü redaksiyasına isə gəldikdə qeyd etmək lazımdır ki, 1990-cı illərdə Azərbaycan balet yaradıcılığında bir növ "sükük" yarandı. Bir çox balet tamaşaları, o cümlədən də "Qız qalası" repertuardan çıxdı. Bunun səbəblərindən biri əsərin mənəvi cəhətdə köhnəlməsi, incəsənətdə baş vermiş yeniliklərlə uzlaşması, parlaq balet ustalarının olmaması idi.Amma belə bir əsəri tamamilə yaddan çıxarmaq

böyük bir qəbahət olardı.Beləki, görkəmli incəsənət xadimləri, teatr rəhbərliyi və kollektivi baleti yenidən nəzərdən keçirərək, yeni redaksiyada səhnəyə qoymaq qərarına gəldilər. Bu işə rəhbərliyi Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli öz öhdəsinə götürür. Və 23 oktyabr 1999-cu ildə opera və balet teatrın fəaliyyəti tarixində "Qız qalası" baleti üçüncü redaksiyada səhnəyə qoyulur. Baş rolları Mədinə Əliyeva və Gülagası Mirzəyev ifa etmişlər.

Fərhad Bədəlbəyli tərəfindən edilmiş bu son redaktə və quruluşda baletin libretto və dramaturji xətti köklü surətdə dəyişdirildi.Belə ki, xan qızının dünyaya gəlişini və gələcəkdə inkişafını açıqlayan "Proloq" əsərdən çıxarıldı. Tamaşada, ümumiyyətlə, "ata-qız" xətti yoxdur. Balet iki pərdədən ibarətdir.

Yeni quruluşun yeniklərindən biri də Afaq Məlikovanın rəhbərlik etdiyi Dövlət Rəqs Ansamblının üzvlərinin tamaşada iştirak etmələridir. Həmçinin, balet truppası ilə rəqs ansamblının birgə çıxışı, onların ifa etdikləri "Şələxo", "Nəlbəki" və "Gürcü" rəqsləri bu axırıncı quruluşa uğur gətirmişdir.

Əsərin dekorasiyaları və ifaçıların geyimləri əsaslı surətdə yeniləşmiş, baletin musiqi dili də dəyişdirilmişdir. Əvvəlki partitura sadə səslənmə olduğu halda, yeni quruluşda orkestr xeyli zənginləşmiş, simfonikləşmişdir. Bu yeniliklər ilk notlardan hiss olunur. Orkestrləşmənin müəllifi, bəstəkar Musa Mirzəyev Əfrasiyab Bədəlbəylinin musiqi mövzularını, melodiyaları olduğu kimi saxlayaraq, onlar əsasında yeni bir partitura yaratmağa nail olmuşdur.

Bu il Azərbaycan mədəniyyəti və incəsənəti üçün əlamətdar ildir, görkəmli bəstəkarımız Əfrasiyab Bədəlbəylinin anadan olmasının 110- illik yubileyi qeyd olunur və bununla əlaqədar musiqi ictimayyəti silsilə tədbirlər hazırlayır.

Sonda məqaləmi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sözləri ilə bitirmək istərdim: **"Heç bir xalq şəxsiyyətsiz yaşaya bilməz".**

Əfrasiyab Bədəlbəyli sözün əsl mənasında şəxsiyyət idi, çünki o həyatda öz borcunu milli musiqimizin, musiqi elminin təşəkkülü və inkişafında, insanların doğma musiqimizin incəliklərinə dərindən yiyələnməsində - bir sözlə, xalqa xidmətdə görmüşdür.

**ƏDƏBİYYAT**

1. "Qız qalası". Azərbaycan Teatr Cəmiyyətinin Nəşriyyatı. Bakı.1947
2. F.Əmirov "Kompozitorı Azerbaydjana". Bakı. "İşıq". 1986
3. F. Rəhmanzadə " Bədəlbəylilər". Bakı. "Nurlan". 2006
4. İ.Quliyev "Maestro". Bakı."CBS" . 2008

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.10.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 04.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, dosent Ülkər Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# *MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ*

**UOT 004.9.**

**Firuzə Abdullazadə**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: abdullazade.firuze@mail.ru

## PEDAQOJİ PROSESDƏ İKT-nin TƏTBİQİNİN MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFINA TƏSİRİ

***Açar sözlər:*** *İKT təlimi, məktəbəqədər müəssisə, texnologiya*

İKT-nin məktəbəqədər müəssisələrdə tətbiqi bilavasitə həyatı gerçəkliklərə bələdliliyi təmin edir, həmçinin, müxtəlif təhsil proqramları daxilində təhsil məlumatlarının, oyun komponentlərinin təqdimatını genişləndirməyə, uşaqların bilik və fəaliyyətini stimullaşdırmağa, materialın təsirini artırmağa, uşaqların məktəb təliminə daha uğurlu hazırlaşmalarına kömək edir.

**Фируза Абдуллазаде**

## ВЛИЯНИЕ ПРИМЕНЕНИЯ ИКТ НА РАЗВИТИЕ ДОШКОЛЬНИКОВ В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

***Ключевые слова:*** *подготовка в области ИКТ, дошкольное учреждение, технология*

Интерактивные технологии прочно заложены в жизнь нашего дошкольного учреждения. Значительно расширяют представление образовательной информации, игровых компонентов, включенных в мультимедийную программу, стимулируют познавательную деятельность учащихся, увеличивают влияние материала, способствуют более успешной подготовке детей к обучению в школе.

**Firuza Abdullazadeh**

## THE IMPACT OF ICT APPLICATION ON THE DEVELOPMENT OF PRESCHOOL CHILDREN IN THE PEDAGOGICAL PROCESS

***Key words:*** *information and communication technology (ICT) training, pre-school institutions, technology*

Contemporary culture of the late twentieth and beginning of the XXI century is more particular about teaching - the brief introduction of ICT in the context of life of society. ICT widely intruded in the professional activity of people, and now there is its mass introduction into family life and leisure. There is no doubt that the teaching profession as a social sphere of activity cannot remain without respond to these global changes in the life of society. Thus, we can talk about the ICT-competences of modern teachers as new objective requirements to professional qualities of the teacher. As a result of IT penetration of schools teachers are offered new information resources and technologies. In this regard, there was a need for teachers to develop ICT-competences which allow them to form new pedagogical competences - ICT skills in the educational process on a regular basis.IT penetration of education leads to a change of teacher’s role and formation of new methods, form of incorporation of teacher training and development of competence.The successful use of ICT in the learning process depends on the ability of teachers to organize teaching environment newly, to combine subject knowledge with new information and educational technologies to carry out exciting activities to encourage learning cooperation and collaboration of schoolchildren. It comes down on teachers a range of new skills to manage class work. Skills that should have such a teacher in the future should include the ability to develop new ways of using ICT to enrich the educational environment, to develop students’ ICT literacy, knowledge deepening and the ability to produce new knowledge. In recent years the ICT environment at kindergartens and nursery schools have rapidly been advancing, and more kindergarten teachers and nurses are using computers and the Internet. On the contrary, it seems they are becoming more cautious and negative about young children’s access to computers. As for television, too, many types of expectations are being placed on young children’s programs but the use of TV programs at kindergartens and nursery schools is on a decline. In addition to the current pre-school teaching guidance that prioritizes hands-on experience in early childhood.

Professional development of teachers is becoming a key element in improving the educational system. Within the UNESCO recommendations on the formation of the ICT-competences of teachers is written: "In the modern world a source of sustainable economic development are considered to be an increase in knowledge, innovation and human potential, and the world is increasingly based on information and knowledge. And this, above all, requires training professionals who know how to use ICT to work with the information, good at reflection, problem solving and the production of new knowledge." Achieving this goal is not possible without the appropriate training of teachers.

For modern teachers it is not enough to be technologically literate and be

able to generate appropriate technological knowledge and skills in their pupils. Modern teacher must be able to help students use ICT in order for them to cooperate successfully, to solve arising problems, to develop teaching skills and in fine to become productive citizens and workers. Such activity carries a high motivation in education and development, forms the students' self-culture, in terms of ICT development allows them to penetrate into the professional sphere of life. Pre-school institution and the teacher should act as a guarantor of children's readiness formation, as a condition for further successful graduate. Since the update rate and expansion of educational resources is very large, the process of training teachers to use it cannot be simultaneous short-term. It is necessary to update continuously and increase teachers' knowledge of ICT use in the educational process. The new information age has opened new opportunities in education. ICT development has a significant impact on the culture of modern society. Any advances in ICT involve changes in the educational process; including meeting the real educational needs of students. All set processes will help in the general education system to form new professional capacity of teachers in ICT in a short time. That particular achievement will help to solve the problem of the availability of quality educational services for each child.

ICT development requires timely changes in the system of usage and evaluation of knowledge. The modern world is a world of information and communication technologies. To be at your best, keep up with the times, for teacher in his work is also necessary to acquire ICT capabilities because "ICT is an important tool which helps the teacher in teaching, allowing to facilitate an explanation and to ensure students' understanding of scientific concepts."

**List of reference:**

1. OECD. (1997). Sustainable Flexibility: A Prospective Study on Work, Family and Society in the Information Age. Paris: OECD.
2. Mishra, P. & Koehler, M. J. (2006) Technological pedagogical content knowledge: A framework for teacher knowledge. Teachers College Record, 108 (6).
3. Журнал «Педагогический диалог» №2, 2015
4. http://www.education.com/reference/article/Ref_Preparing_Your_Child/-dən Aprel 20, 2007

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.10.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**Sona Abdulova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: lassveqas@mail.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN VƏTƏNƏ MƏHƏBBƏT RUHUNDA TƏRBİYƏSİ

***Açar sözlər:*** *vətən, məhəbbət, tərbiyə*

Müşahidələr göstərir ki, uşaqların və gənclərin vətənpərvərlik tərbiyəsində onların vətəndaşlıq mövqeyinin formalaşması əsas götürülür. Burada əsas diqqət onların biri-biri ilə qarşılıqlı münasibətlərinə, əxlaqi və mənəvi dəyərlərin formalaşmasına yönəldilir. Eyni zamanda, milli mədəniyyətə, adət-ənənələrə, ana dilin qorunmasına, doğma yurda məhəbbətə, vətən qarşısında öz borcunu yerinə yetirməyə, sağlam həyat tərzinə böyük diqqət artırılır.

**Сона Абдулова**

## ВОСПИТАНИЕ ДОШКОЛЬНИКОВ В ДУХЕ ПАТРИОТИЗМА

***Ключевые слова:*** *родина, любовь, взрастить*

Наблюдения показывают, что патриотическое воспитание детей и молодежи заложено в основу их патриотического отношения. Основное внимание здесь уделяется взаимодействию друг с другом, и их отношения направлены на формирование нравственных и духовных ценностей. В то же время большое внимание уделяется национальной культуре, традициям, защите родного языка, любви на родине, выполнению родины и здоровому образу жизни.

**Sona Abdulova**

## UPBRINGING OF PRESCHOOL CHILDREN IN THE SPIRIT OF PATRIOTISM

***Key words:*** *homeland, love, upbringing*

Observations show that the patriotic education of children and youth is taken as a basis to form their patriotic attitude. The main focus here is to interact with each other and their relations are directed to the formation of moral and spiritual values. At the same time, great attention is paid to national culture, traditions, protecting mother tongue, love in native land, fulfillment of homeland

and healthy lifestyle.

İnsan hissləri içərisində ən müqəddəsi, bəlkə də irsi, fitri mahiyyət daşıyanı, insanı tərəqqiyə, inkişafa, yaradıcılığa təhrik edəni Vətən sevgisidir, vətənpərvərlikdir.Təsadüfi deyildir ki,söz dünyasının dahiləri – Xaqani, Nizami, N.Tusi, M.Əvhədi, Ə.Təbrizi, Xətai, M.Füzuli, A.Bakıxanov, M.F.Axundov, A.Səhhət, S.Vurğun və b. Vətəni, onun gözəlliyini vəsf etmiş,uşaqları,gəncləri Vətən torpağının qədrini bilməyə, onu göz bəbəyi kimi qorumağa çağırmışlar.

Vətənə,doğma torpağa bağlı olan Azərbaycanın mərd oğulları və qızları döyüş meydanından heç vaxt çəkilməmiş, odlar, alovlar içərisindən keçərək Vətən torpağının gələcəyi, xalqının şərəf və şöhrəti, namus və qeyrəti naminə qədim zamanlardan bu günədək son damla qanına qədər mübarizə aparmışdır.

Vətən torpağı naminə mübarizə xalqımızın mənəvi varlığı və birliyi uğrunda mübarizə, qəhrəmanlıq, mərdlik məktəbidir: "Madam ki, insan ömrünün ən böyük zinəti, onu yaşadan qüvvə vətənpəvərlik hissidir, bu hiss uşaqların təlim-tərbiyəsinin əsas ruhu, çarpan ürəyi, düşünən beyni olmalıdır. Əxlaq tərbiyəsinin müqəddəs, ülvi tərkib hissələri sırasında yaşlı nəslə hörmət, sadəlik və təvazökarlıq, düzlük və doğruçuluq mühüm yer tutur. Bu əxlaqi keyfiyyətlər bir-biri ilə sıx bağlıdır. Yaşlı nəslə hörmət edən,doğru danışan, sadə və təvazökar olan insan yetişdirmək cəmiyyət üçün faydalıdır. Harada düzlük var, orada doğruçuluq, sadəlik və təvazökarlıq var, yaşlı nəslə hörmət var". (2.75)

Respublikamızda qanlı 20 yanvar gününün, 31 mart 1918-ci il faciəsinin, Xocalı soyqırımının matəm günləri kimi keçirilməsi xalqımızın vətən uğrunda canlarından keçən soydaşlarımızın xatirəsini necə əziz tutduqlarını bütün dünyaya nümayiş etdirdi.Şəhidlər Xiyabanına doğru gedən insan axını bir daha təsdiq etdi ki, xalqımız özünün dərin mənəvi tarixi köklərini, milli mənliyini, milli ləyaqətini, vətəndaşlıq dözümünü dərindən-dərinə dərk etmişdir.Belə dərketmə uşaqların mənəvi dünyasına ciddi təsir etmişdir. Çünki respublikamızda mənəvi əsasların təsir dairəsi genişlənərək yeni məzmun kəsb etmiş, adamların, xüsusilə kiçik yaşlı uşaqların fəaliyyətinə, gündəlik davranışlarına təsiri güclənmiş, onların sosial və əxlaqi məsuliyyətinin artmasına şərait yaratmışdır.

Əxlaqi və hüquq normalarına əməl edilməsi, Vətənin xeyrinə işləmək hər bir uşağın mənəvi tələbat və sarsılmaz daxili qanununa çevrilmişdir.İlkin mənəvi təsəvvür və anlayışlar, əxlaqi-etik kateqoriyalar – milli şüur, milli ləyaqət, milli psixologiya, mənlik, vətəndaşlıq dəyanəti, dözümlülük, ailədə qayğı, məhəbbət, şərəf, qeyrət, namus və s. kimi kateqoriyalar məhz məktəbəqədər yaş dövründə daha sürətlə formalaşmağa başlayır. Uşaqlar yaş və anlaq səviyyələrinə uyğun olaraq ailə səadəti, xeyir, şər haqqında, mütərəqqi və mürtəce qüvvələr haqqında, ədalət, ədalətsizlik, sülh, əmin-amanlıq, müharibə, dağıntı, ekoloji çətinliklər, hüquq qanunları, iqtisadi biliklər, qənaət, sadəlik, təvazökarlıq, düzlük və doğruluq və. s. haqqında təsəvvür və anlayışlara məhz həmin dövrdə yiyələnirlər. Uşaqların mənəvi

əqidəsi, dünyagörüşü, etiqadları, ailə həyatına baxışları, əxlaq tərbiyəsi, ailə həyatı ilə bağlı olan məsələlər ilk uşaq çağında təşəkkül tapır. Müasir dövrdə bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi kiçik yaşlı uşaqları müstəqil həyata hazırlamaq, uşaqların tərbiyəsindən, xüsusilədə vətəndaşlıq, insanpərvərlik və Vətənə məhəbbət ruhunda tərbiyəsindən həlledici dərəcədə asılıdır.(3.47)

Uşaqların tərbiyəsinin qarşısında duran başlıca məqsəd – dərin və hərtərəfli biliyə, mütərəqqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formalaşdırmaq və cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirməkdir. Bu vətəndaşların ən ali hislərindən və keyfiyyətlərindən biri onlarda vətənpərvərlik keyfiyyətlərinin formalaşdırılmasıdır. Məktəbəqədər yaşlı uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsi olduqca mühüm və zəruridir. Bu, vətənə və təbiətə məhəbbət, doğma vətəninə bağlılıq tərbiyəsidir,ana dilində, mənsub olduğu xalqa vurğunluq tərbiyəsidir. Dilini, xalqını, soydaşlarını, həmvətənlərini sevmək tərbiyəsidir. Respublika konstitusiyasına, onun bayrağına, gerbinə, himninə hüsn-rəğbət tərbiyəsidir. Eyni zamanda mənsub olduğu xalqla, onun nailiyyətləri ilə, tarixi ilə, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə fəxr etmək tərbiyəsidir. Vətən torpaqlarının azadlığı, qorunması naminə mübarizlik tərbiyəsidir. Vətənin çiçəklənməsi naminə fədakarlıq göstərmək – yaxşı oxumaq, elmlərin əsaslarına dərindən yiyələnmək, üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmək tərbiyəsidir. Buna görə də kiçik yaşlı uşaqlarda insanpərvərlik və təbiətə məhəbbət keyfiyyətlərinin formalaşdırılması müasir dövrdə həmişəkindən daha çox aktuallıq kəsb edir və onun hərtərəfli tətbiqinə ehtiyac hiss olunur.

İnsanın gələcəkdə necə,hansı xarakterdə olacağı həlledici dərəcədə onun uşaqlıq illərini necə keçirməsindən, bu illərdə ətraf aləmdən onun ağıl və ürəyinə nəyin daxil olmasından xeyli asılıdır.Ona görə də məhz məktəbəqədər dövrdə vətənpərvərlik tərbiyəsi zəruridir. Böyük arzu ilə bağçaya gələn balaca uşaqlar dərhal təlim və tərbiyənin güclü təsirinə məruz qalır.Uşaqlar onlara tapşırılan bütün tapşırıqları səylə yerinə yetirməyə çalışır və ilk ictimai tapşırıqlar alırlar. Ona görə də verilmiş tapşırıqların səliqəli, təmiz və vaxtında yerinə yetirilməsinə nəzarət etmək zəruridir. Çünki kiçik yaşlı uşaqlar diqqətlərinin qeyri-sabitliyi, əhval-ruhiyyələrinin dəyişkənliyi, tez yorulmaları ilə fərqlənirlər. Tərbiyəçi hər an onların qayğısına qalmalı, tapşırıqları müəyyən edilmiş normada verməlidir.Yaxşı, gümrah əhval-ruhiyyə, təbəssüm, şən və sevinc bəxş edən baxış kiçik yaşlı uşaqların mənəvi aləminin formalaşmasında mühüm rol oynayır. Tərbiyəçinin səmimiliyi, uşaq təfəkkürünün konkretliyi, fərdi xüsusiyyətlərini nəzərə ala bilməsi balacaların gələcəkdə vətənpərvər bir şəxsiyyət kimi formalaşmasına, müsbət əxlaqi keyfiyyətlərinin inkişafına böyük təsir edir.

Vətənə məhəbbətin, milli mənlik şüurunun, vətəndaşlıq ləyaqəti və. s. kimi müsbət əxlaqi keyfiyyətlərin ilk rüşeymləri məhz bağçada təşəkkül tapmağa başlayır. Təlim-tərbiyə prosesində tərbiyəçi-müəllimlə uşaqlar arasında çox mürəkkəb

münasibətlər, qarşılıqlı əlaqələr sistemi formalaşır. Tərbiyəçi-müəllim kiçik yaşlı uşaqların nəzərində müqəddəs, ülvi bir varlıq kimi canlanır. Kiçik yaşlı məktəblilər tərbiyəçi-müəllimdə böyükləri görür, özünü, yoldaşlarını axtarırlar. Hər bir uşaq bir fərd-təkraredilməzdir, onun öz daxili aləmi var. Ona görə də tərbiyəçi-müəllim hər bir uşağa sevinc bəxş etməyi, onun kövrək mənəvi aləminin ilk guşə daşlarını böyük ustalıqla, ehtiyatla qoymağı bacarmalıdır.

Kiçik yaşlı uşaqlar təbiət və cəmiyyət hadisələrinə böyük maraqla yanaşır, onların sirlərini öyrənməyə can atırlar.Yaşlı adamların əməyi, həyatı onları özünə cəlb edir. Onlar çətinlik çəkmədən ata və analarının harada, nə kimi işdə işlədiklərini bilir,bu haqda müəyyən məlumata sahib olurlar. (5.60)

Məktəbəqəbər yaşlı uşaqlar demək olar ki,əksər hallarda dünyaya tərbiyəçinin gözü ilə baxır, onun kimi hərəkət edir, onu təqlid edirlər. Onların əxlaqi keyfiyyətləri tərbiyəçi şəxsiyyətinin, tərbiyəçinin sözü ilə hərəkətinin təsiri altında formalaşır. Onlar tərbiyəçi-müəllimin təlim materiallarını necə başa salmasına, adamların necə danışmasına, özünü və yoldaşlarının cavablarının necə qiymətləndirilməsinə, əməkdə necə iştirak etməsinə xüsusi əhəmiyyət verirlər. Çünki müəllim uşaqların əqlini elm ümmanına, gözlərini mənəviyyat dünyasına açan ilk tərbiyəçidir. Elmin ilk ünsürləri, elmi, əxlaqi-etik anlayışlar haqqında ilk elmi və geniş məlumatları müəllim-tərbiyəçi verir.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. “Azərbaycan müəllimi” qəzeti, 7 may 1998.
2. Əhmədov H.M. Azərbaycan pedaqoji fikir tarixi, Bakı-2001.
3. Qədimbəyova Ə.B. Uşaq bağçasında əxlaq tərbiyəsi, Bakı-1989.
4. Suxomlinski V.A. Vətəndaşın doğulması, Bakı-1975.
5. Səlimxanova X.İ. Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasına şifahi xalq yaradıcılığı nümunələrinin təsiri (namizədlik dissertasiyası), Bakı-1989.
6. Şirzadova M.H. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişaf tarixindən, Bakı-2007.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.10.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.2**

**Nailə Əliyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: na-ila94@mail.ru

# MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ MÜƏSSİSƏSİ İLƏ AİLƏNİN UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ROLU

***Açar sözlər:*** *ailə, şəxsi nümunə, mənəvi mədəniyyət, milli dəyər, əxlaqi keyfiyyət*

Bu məqalədə uşaq şəxsiyyətinin formalaşmasında məktəbəqədər tərbiyə müəssisələri ilə ailənin qarşılıqlı fəaliyyətinin böyük rolundan bəhs edilir. Müəllif qeyd edir ki, uşaq şəxsiyyətinin formalaşdığı ilkin mühit ailədir. Ailənin yaşam tərzi, tərkibi, ailə üzvlərinin bir-birinə göstərdikləri qarşılıqlı münasibət, hörmət və ehtiram hissi uşaqların formalaşmasına təsir göstərir. Əxlaqi və iradi keyfiyyətlər ailə üzvlərindən götürülür məktəbəqədər təhsil müəssisələrində inkişaf etdirilir.

**Наиля Алиева**

# РОЛЬ ДОШКОЛЬНОГО ВОСПИТАТЕЛЬНОГО ЗАВЕДЕНИЯ И СЕМЬИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ РЕБЕНКА

***Ключевые слова:*** *семья, личный пример, нравственная культура, национальные ценности, моральное качество*

В настоящей статье повествуется о большой роли дошкольного воспитательного заведения и семьи в формировании личности ребенка. Автор отмечает, что семья является первоначальной средой, где формируется личность ребенка. Образ жизни, состав семьи, взаимоотношение членов семьи, чувства уважения и почтения оказывают влияние в процессе формирования детей. Моральные качества перенимаются у членов семьи и развиваются в дошкольных образовательных учреждениях.

**Naila Aliyeva**

## ROLE OF FAMILY AND PRE-SCHOOL EDUCATION INSTITUTION IN FORMATION OF PERSONALITY OF CHILD

***Key words:*** *family, private sample, spiritual culture, national value, moral quality*

This article is devoted to great role of mutual activity of family and pre-school education institutions in formation of personality of child. Author indicates that, primary environment in formation of the personality of child is the family. Life style and content of family, mutual relations of family members to each other, respect and reverence influence toward formation of children. Moral qualities are taken from family members and developed in pre-school education institutions.

Ailə cəmiyyətin özəyidir. O hər bir insanın həyatında xüsusi yer tutur. Ailədə valideynlər və uşaqlar arasında mənəvi bağlılıq var Ailənin mənəvi mədəniyyəti cəmiyyətin mənəvi mədəniyyətini əks etdirir. Ailənin iqtisadi durumu da cəmiyyətin iqtisadi durumunu müəyyən edir.

Uşaq şəxsiyyətinin formalaşması ailədaxili münasibətlərdən,valideynlərin nüfuzu və idarə etməsindən çox asılıdır. Valideynin nüfuzu və şəxsi nümunəsi də tərbiyənin mühüm şərtlərindəndir. Valideynin nüfuzu dedikdə,uşaqların öz ata analarına hörməti, onların tapşırıqlarını sözsüz və şüurlu surətdə yerinə yetirmələri və məsləhətlərinə qulaq asmaları nəzərdə tutulur. A.S.Makarenko bu məqsədlə deyirdi ki, nüfuzun əsl mənası bundan ibarətdir ki,o hec bir sübut tələb etmir, o, yaşlı adamın şəxsi ləyaqəti kimi qəbul edilir. (1.349)

Uşaq bağçasının və ailənin qarşılıqlı fəaliyyət problemi bir çox illər ərzində aktual olaraq qalmaqdadır. Şəxsiyyətin formalaşmasında ailənin yoxsa ictimai tərbiyənin üstün olması və vacib əhəmiyyət kəsb etməsi məsələsində daima tədqiqatçılar arasında fikir müxtəlifliyi olmuşdur. Onlar qeyd edirdilər ki,ictimai tərbiyə ailə ilə birləşməlidir. Ailədə uşağın tərbiyəsinin təkmilləşdirilməsi üçün böyük əhəmiyyət uşağın ilk tərbiyəçilərinin yəni valideynlərinin pedeqoji mədəniyyəti kəsb edir.

Uşaq bağçasının rəhbər və təşkilati rolu haqqında məsələ kompleks amillərlə səciyyələndirilir. Bu pedaqoji biliklərin valideynlər arasında planlı,aktiv şəkildə yayılması, uşaqların tərbiyə edilməsində ailəyə praktik yardımı, valideynlərin pedaqoji fəaliyyətə cəlb edilməsi, onların pedaqoji özünütəhsilin aktivləşdirilməsidir. Tərbiyəçilərin ailə ilə işi vacib əməkdir. Bu uşağın inkişafını, uşaqla fərdi yanaşmanın, fərdi yardımın, uşağın xarakterində arzuolunmaz təzahürlərin vaxtında qarşısının alınmasının, onun gələcək taleyinin ayrılmaz

amilidir. Ona görə də valideynlərlə işi təşkil edən zamanı ilk növbədə ailədə uşaqların tərbiyəsinə diqqət etmək və uşaqların düzgün tərbiyələndirilməsi və təhsil almaları üçün lazimi şəraitin yaradılmasında valideynlərə yardım etmək lazımdır. Valideynlərlə iş uşaqların tərbiyəsində valideynlərin pedaqoji-psixoloji bilik səviyyəsinin, bacarıqlarının və vərdişlərinin artmasına yönəldilmiş mürəkkəb və mühüm fəaliyyətidir. Bu, uşaqların şəxsiyyətinin formalaşmasını və tərbiyəsini düzgün qurmaq üçün lazımi şəraitin yaradılması məqsədi ilə ailə tərbiyəsinə valideynlərə yardımıdır. Bu, uşaqların inkişaf posesində tərbiyəçilərin və valideynlərin qarşılıqlı əlaqəsidir.

Beləliklə, ailə məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin bütün tərəflərinin inkişafında iştirak edir.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, məktəbəqədər yaşlı uşaqların tələbat-motivasiya sahəsinin, iradi-emosional və münasibətlər sferasının, davranış tərzinin, intellektinin və s. formalaşmasında ailənin və məktəbəqədər tərbiyə müəssisəsinin üzərinə məsuliyyət düşür. Bu iki sosial mühitin birgə səylər nəticəsində məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin mükəmməl formalaşmasına nail olmaq olar.

## ƏDƏBİYYAT


1. A.Həsənov. Məktəbəqədər pedeqogika.Bakı,2011
2. Əlizadə Ə., Əlizadə H.Ə., yeni pedaqoji təfəkkür: psixoloji pedaqogikaya giriş, Bakı, 2008.
3. Антонов А.И. Микросоциология семьи (методология исследования структур и процессов).М.,1998
4. Никитина Л.Е. Социальное воспитание детей фактор стабилизации общества. // Педагогика № 7 за 1998



**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.10.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 381.478**

**Ayşad Əsgərli**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: a.asgarli1994@gmail.com

# UŞAQLARIN DOĞMA YURDA MƏHƏBBƏT HİSSİ YÜKSƏK ƏXLAQİ KEYFİYYƏT KİMİ

***Açar sözlər:*** *vətənə məhəbbət, milli dəyər, vətənpərvərlik*

Vətənə olan sevgi və məhəbbət hissi gələcəyimiz olan uşaqlara hələ kiçik yaşlarından aşılanmalıdır. Azərbaycanın zəngin folkloru, şifahi və yazılı ədəbiyyat nümunələri uşaqlarda doğma yurda bağlılıq, məhəbbət hissinin aşılanması üçün dəyərli mənbədir.

**Айшад Аскерли**

## ЧУВСТВО ЛЮБВИ У ДЕТЕЙ К РОДНОМУ КРАЮ КАК ВЫСОКОЕ МОРАЛЬНОЕ КАЧЕСТВО

***Ключевые слова:*** *любовь к родине, национальная ценность, патриотизм*

Любовь к родине должно прививаться детям еще в раннем возрасте.

Богатый фольклор Азербайджана, а также письменные и устные примеры литературы являются ценным источником для развития любви детям к родному краю.

**Ayshad Asgarli**

## THE LOVE OF CHILDREN  TO THE NATIVE LAND AS A HIGH MORAL QUALITY

***Keywords:*** *love to homeland, national value, patriotism*

The sense of love and affection for homeland must be taught children who are our future from their early years . The rich folklore of Azerbaijan ,the sample of oral and written literature are very valuable source for children to teach them the sense of love and commitment to native land.

Vətənə sədaqətlik, xalqa, milli və mənəvi sərvətlərinə, Vətənə, xalqa, doğma torpağına, yurduna məhəbbət, adət-ənənələrinə hörmət Azərbaycan xalqının nəcib əxlaqi keyfiyyətlərindəndir.

Bəşəriyyətin tarixi inkişafında vətənpərvərlik hissinin mahiyyəti və təzahür formaları yaşayış şəraitindən və insanlar arasında olan əlaqələrin dəyişməsi ilə bağlı olaraq dəyişmiş və inkişaf etmişdir. Bütün xalqlar kimi, Azərbaycan xalqı da öz doğma yurdunu, Vətənini qızğın məhəbbətlə sevmişdir.

H.Əliyev dəfələrlə çıxışlarında demişdir : "Gənclərimiz bizim tariximizi, keçmişimizi, dilimizi yaxşı bilməlidir.Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.Hər bir gənc vətənpərvər olmalıdır.Vətənə sadiq  olmaq, Vətəni sevmək, torpağa, yurduna bağlı olmaq - budur Vətənpərvərlik".

Görkəmli şəxsiyyətə görə xoşbəxt uşaqlığı xalqın həyatından, onun ictimai quruluşundan və qanunauyğunluqlarından ayırmaq olmaz. Uşaqlar təkcə ailə mühitini deyil, ictimai həyatın müxtəlif sahələrini görür, onlardan təsirlənir. İctimai həyatda baş verən hadisələr şüurlu, qanunauyğun və elmi əsasda qurulan ləyaqətli insan tərbiyə etmək asan olar. Çünki uşaqların ləyaqətli bir vətəndaş kimi tərbiyə olunması bunu tələb edir.

Qabaqcıl maarifpərvərlər və görkəmli pedaqoqlar gənc nəslə doğma yurda məhəbbət və vətənpərvərlik hissinin hələ kiçik yaşlarından aşılamağı məsləhət görmüşlər. Onlar bu hissi əməksevərliklə doğma yurdun və vətənin xeyrinə iş görməklə əlaqələndirmişlər.

Azərbaycan xalqının vətənə məhəbbət hissi çox qədim zamanlardan "Doğma yurd şirin olar", "Hər kəsə öz  Vətəni əzizdir", "Hər quşun öz yuvası istidir", "Torpaq qüvvətli olar" və s. atalar sözlərində öz ifadəsini tapmışdır.

Şifahi xalq ədəbiyyatında Vətən sevgisini tərənnüm edən "Koroğlu" dastanından, bayatılardan, atalar sözlərindən təsirli misallar göstərmək olar. Xalq arasında belə bir bayatı geniş yayılmışdır:

Aşıq Vətən yaxşıdır,
Köynək kətan yaxşıdır.
Qürbət cənnət olsa da,
Yenə Vətən yaxşıdır.

Xalqımız Vətənin qədrini həmişə bilmiş və onu əziz tutmuşdur.Öz Vətənini dərin məhəbbətlə sevən Azərbaycan xalqı həmişə yadellilərə qarşı qəhrəmanlıqla vuruşmuşdur. Babək, Cavanşir, Korğolu, Nəbi, Həcər, Gültəkin, Mübariz, Fərid və yüzlərlə qəhrəmanlarımız zəhmətkeş xalqla birləşib vətənimizin azadlığı uğrunda zülm və soyğunçuluğu aradan qaldırmaq üçün mətanətlə vuruşmuşlar.

Nizami Gəncəvi Azərbaycan xalqının mübariz keçmişini, Vətəni uğrunda düşmənlərə qarşı mətanət və cəsarətli çıxış edən azərbaycanlı oğul və qızları öz əsərlərində dərin məhəbbət və böyük ehtirasla təsvir etmişdir.

Azərbaycan xalqının böyük oğlu M.F.Axundovun əsərlərində də vətənpərvərlik məsələləri xüsusi yer tutur.

Görkəmli şair A.Səhhət "Vətənim" şeirində öz fikrini belə ifadə etmişdir:

Vətəni sevməyən insan olmaz,
Olsa da o şəxsdə vicdan olmaz.

Bu misallarda şair insanlıq üçün ən böyük meyarı doğma yurda, Vətənə məhəbbətdə görür, bu nəcib hissdən məhrum olanlarda "vicdan olmaz" deyir.

H.V.Vəzirov "Quzğunlar" adlı məqaləsində vətənin qədir-qiymətini bilmək, onu əziz tutmağın əhəmiyyətindən danışaraq ürək ağrısı ilə yazırdı : "Amandır, quzğunlar.Vətən əldən gedir, yaman günlərə qalarıq, balalarımızın xatirinə, gələcəkdə övladlarımızın xatirinə rəhm edin vətənə, rəhm edin millətə, əl çəkiz mürətəd işlərdən, yoxsa, gələcək tarixdə adınız çəkiləndə lənət oxunacaqdır". (1)

İctimai həyatın gözəlliyi haqqında uşaq şüurunda formalaşan anlayışlar, onda doğma yurda məhəbbət hissinin güclənməsinə müsbət təsir göstərir. Uşaq tədricən doğma yurdunun təbiətinə, möhtəşəm və yaraşıqlı binalarına, baharda yaşıllaşan, payızda saralan ağaclarına, əlvan çiçəklərinə bağlanır: onda yaşadığı yerin hər yerdən yaxşı və yaraşıqlı olduğu əqidəsi yaranır. Lakin məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik hissini onun yaşadığı mühitin gözəlliyi ilə məhdudlaşdırmaq düzgün olmaz.

Uşaq doğma yurda, Vətənə məhəbbət hissini əsasən yaşlıların təbiətə, doğma yerlərə münasibətini nümunə əsasında mənimsəyir. Məsələn, ata-anası ilə bulvara, parka gəzintiyə çıxan 5 yaşlı uşaq gündən-günə gözəlləşən, yaşıllığa qərq olan bu yer, Xəzər, sahilə can atan qırçın ləpələr, dənizin işərisinə doğru uzanan körpü və s. haqqında valideynlərinin söhbətlərini dinlədikcə, həmin xoş mənzərəyə onların gözü ilə baxdıqca çox şeylər duyur. Uşaq hiss edir ki, bu gözəllik, bu möhtəşəm binalar, dənizdə üzən nəhəng gəmilər, neft buruqları öz-özünə əmələ gəlmir, yaşlıların əməyi ilə yaradılır. Bu mənada belə gəzinti və söhbətlər zamanı anlayış və xəyalına düzgün istiqamət vermək, ona aydın olmayanları aydınlaşdırma, gördüyü yerlərin bu günü və gələcəyi haqqında aydın, səlist dillə izahat vermək zəruri və faydalıdır.

Bununla yanaşı, uşağı ancaq anlamaq, mühiti seyr etmək səviyyəsində saxlamaq düzgün olmaz. 5-6 yaşlı uşağı evdə və uşaq bağçasında yaşıllığa, habelə ev və çöl quşlarına qulluq etməyə həvəsləndirmək də çox vacibdir. Təbiəti qorumaq, əməyi sevmək, əmək adamlarına rəğbətlə yanaşmaq, əşyalarla

ehtiyatla davranmaq və s. kimi hisslər bu prosesdə formalaşır və tədricən inkişaf edir.

Məktəbəqədər yaşlı uşaqlarda doğma yurda məhəbbət və vətənpərvərlik hissi aşılamaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək lazımdır :

- Uşaqlarda kiçik yaşlardan doğma və gözəl yurdumuza, qəhrəman xalqımıza məhəbbət hissi tərbiyə etmək.
- Məktəbəqədər yaşdan Vətən üçün zəhmət çəkməyə, ailədə, uşaq baxçasında uşaqların yaşlarına müvafiq özünəxidmət və faydalı əməkdə iştirak etmək vərdişi yaratmaq.
- Vətənimizdə yaşayan qardaş xalqlara məhəbbət və rəğbət hissi aşılamaq.
- Kiçik yaşdan öz Vətəninin sərvəti, əzəməti və gözəlliyi ilə fəxr etmək, daha doğrusu,milli iftixar hissi tərbiyə etmək.
- Məktəbəqədər yaşdan uşaqlarda Vətənimizin düşmənlərinə, millətçilərə qarşı nifrət hissi oyatmaq.

Beləliklə, məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik hissinin əmələ gəlməsində ictimai mühitlə tanışlığın müstəsna əhəmiyyəti vardır. Çünki, uşaq üçün Vətən ailədən, yaşadığı mühitdən, doğma yurddan başlayır.

## ƏDƏBİYYAT

1. N.B.Vəzirov. Məqalə və felyetonlar.ADU nəşri, 1961, s.85
2. Z.Vəliyeva. Məktəbəqədər yaşlı uşaqlarda Vətənə məhəbbət hissi tərbiyəsi. Bakı - 1977
3. Ş.Əliyeva. Məktəbəqədər pedaqogika. Bakı -2010
4. Z.Vəliyeva. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi. Bakı – 2012

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.09.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Pərişan Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.2**

**Əminə İsrafilzadə**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş.,Üzeyir Hacıbəyli küçəsi,68
e-mail: amina27@inbox.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ESTETİK TƏRBİYƏSİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Açar sözlər:*** *estetik, bədii, təbiət, məktəbəqədər*

Bu məqalədə estetik hisslərin uşaqlarda kiçik yaşlardan özünü göstərməsi, tərbiyə və təlim prosesində formalaşmasından bəhs edilir. Müəllif hesab edir ki, uşaq yaşa dolduqca estetik mədəniyyətə yiyələnir, onda bədii yaradıcılıq inkişaf edir. Uşaqların gözəllik haqqında anlayışları ətraf mühiti estetik cəhətdən dərketmə prosesində yaranır. İncəsənət əsərləri vasitəsilə uşaqlar şeir, nəğmə, musiqi, təsviri sənət vasitəsilə cisim və hadisələri estetik baxımdan qiymətləndirmək qabiliyyətinə yiyələnirlər.

**Амина Исрафилзаде**

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ЭСТЕТИЧЕСКОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *эстетический, художественный, природный, дошкольный*

В данной статье повествуется о проявлении и формировании у детей в процессе воспитания и обучения эстетических чувств с малого возраста. Автор считает, что ребенок с возрастом осваивает эстетическую культуру, и у него начинают развиваться навыки по художественному творчеству. Понятия у детей о красоте возникают в процессе познания окружающей среды с эстетической точки зрения. Дети с помощью произведений искусства вооружаются навыками эстетической оценки предметов и событий через поэзию, песни, музыку, изобразительного искусства.

**Amina Israfilzadeh**

## THE FACTORS WHICH AFFECT TO PRE-SCHOOL CHILDRENS' AESTHETIC NURTURE

***Key words:*** *aesthetic, art ,nature, pre-school*

In this article is disputed aesthetic feelings in children show itself at the early ages and it forms in the process of nurture and training. The author consider that when children get older they own aesthetic culture and develop artistic activity. Childrens' understanding about beauty arise in the process of comprehension environment in aesthetic aspect. Children own poetry, song, music through art works, they own the ability of estimation object and events in aesthetic aspect through descriptive art.

Estetik hiss – ətraf aləmi insanda müəyyən hiss doğuran gözəllik, yaxud eybəcərlik, ülvilik, yaxud rəzillik, faciəvilik, yaxud komiklik nöqtəyi-nəzərdən qavramaq və qiymətləndirmək qabiliyyətidir.

Məktəbəqədər yaş dövründən bu hisslər aşılanmalıdır. Uşaq lap kiçik vaxtlardan yaşadığı kəndin, rayonun, şəhərin gözəlliyinə hörmət bəsləmək ruhunda tərbiyə olunmalıdır. Estetik hisslər cəmiyyətin maddi mədəniyyətinin yalnız müəyyən inkişaf pilləsində yaranmışdır. Cəmiyyət inkişaf etdikcə, insana ətraf gerçəklikdən həzz almaq imkanını verən hisslər də inkişaf etmişdir. Estetik tərbiyə duyğuların inkişafı ilə sıx bağlıdır. Bu duyğular lap kiçik yaşlardan aşılanmalı və inkişaf etdirilməlidir.

Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsi üçün tərbiyəçilərin əlində çoxlu imkanlar vardır. Uşaqlarda gözəllik haqqında təsəvvür yaratmaq üçün qrafik işlərdən, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət, ədəbiyyat, musiqi və digər məşğələ növlərindən istifadə etmək olduqca faydalıdır.

Bir nümunəni nəzərdən keçirək: Bakı şəhəri, 266 saylı bağçada xüsusi güşə yaradılmışdır. Güşədə ətraf həqiqətləri özündə əks etdirən incəsənət və rəsm əsərləri, uşaq şerlərindən və nağıllardan ibarət bədii parçalar, habelə uşaqların özlərinin əl işləri nümayiş etdirilir. Belə bir tədbir uşaqlarda estetik hisslərin inkişafına, onlarda incəsənət əsərlərinə marağın artmasına kömək məqsədi daşıyır. Həmin bağçada uşaqları mütəmadi olaraq təbiətə, uşaq yaradıcılıq birliklərinə, kukla teatrına ekskursiyaya aparır və orada aldıqları təəssüratlar yekunda müzakirə edilir. Belə tədbirlər məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsində ən təsirli vasitələrdən biri olmaqla yanaşı, onların mənəvi tərbiyəsində də təsirsiz qalmır.

Məktəbəqədər yaşlı uşağın estetik tərbiyəsində incəsənətin əsas

növlərindən olan musiqinin çox qüvvətli və özünəməxsus təsiri vardır. Musiqi ürəyə asanlıqla yol tapan, qəlbin incə və zərif tellərini ehtirasa gətirən, emosional təsir gücü ilə insanı valeh edən, həyatın gözəlliyini və mənalılığını daha da dərindən dərk etdirən əvəzsiz incəsənət vasitəsidir. Böyük bəstəkar D.Şostakoviç musiqinin qüdrətindən danışarkən demişdir: "Heç bir söz dinləyicinin qəlbinə musiqi kimi qüvvətli təsir göstərə biməz" [4, 66] .

Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsində həmçinin təsviri incəsənətin də əhəmiyyəti böyükdür. Təsviri incəsənətin rəsm, qrafika, nəqqaşlıq, heykəltəraşlıq, memarlıq, dekorativ işlər və s. kimi növləri bu baxımdan geniş imkanlara malikdir.

Məktəbəqədər yaşlı uşaq çox erkən, hələ körpəlik dövründə təsviri incəsənət əsərləri ilə maraqlanır. Onlarda təsviri incəsənət və onun müxtəlif növləri haqqında bilik, bacarıq və vərdişlər əmələ gətirmək valideynin üzərinə böyük vəzifələr qoyur. Adətən uşaqlar kiçik yaşlarından rəngli qələmlərlə rəsm çəkmək, şəkil kəsmək, yapışdırmaq, bəzəmək kimi işlərlə məşğul olmağa çox böyük həvəs göstərir.

Deyilənləri yekunlaşdıraraq qeyd etmək lazımdır ki, hazırki dövrdə estetika həyatımızın müxtəlif sahələrinə dərindən nüfüz etməkdədir. O, həm elm, həm də təcrübə kimi indi təkcə mütəxəssisləri yox, geniş kütləları də maraqlandırır. Şəxsi və ictimai həyatımızda, məişətdə və istehsalatda, insanların ictimai təcrübəsində, əməyində və psixologiyasında, onların geyimində, rəftarında, davranışında, bir sözlə, cəmiyyətimizin maddi və mənəvi, cismi və zehni təkamülündə o, ən mühüm amillərdən birinə çevrilir.

## ƏDƏBİYYAT


1. Musaqulova R., Rüstəmova N. Məktəbəqədər pedaqogika,2012
2. Əliyeva Ş. Məktəbəqədər təhsilin aktual problemləri, 2010
3. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.
4. Актуальные проблемы дошкольного образования: Сб. научных трудов Магнитогорск, 2003.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 20.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 376.34**

**Sünbül Mustafayeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: mustafayeva.sunbul@mail.ru

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ NİTQ İNKİŞAFI ÜZRƏ TƏLİM MƏŞĞƏLƏLƏRİNİN TƏŞKİLİ

***Açar sözlər:*** *məktəbəqədər təhsil müəssisəsi, nitq inkişafı məşğələsi, uşaq nitqinin inkişafı*

Məktəbəqədər təhsil müəssisənin müxtəlif yaş qruplarında təşkil olunmuş nitq inkişafı məşğələsi uşaqların nitq inkişafında böyük rol oynayır. Nitq inkişafı məşğələlərində uşaqlar bilik, bacarıq, vərdişlərə yiyələnır, həm də onların nitqi formalaşır, zəngin söz ehtiyatına, rabitəli nitqə, qrammatik nitqə yiyələnməklə məktəb təhsilinə hazır olurlar.

**Сунбуль Мустафаева**

# ОРГАНИЗАЦИЯ В ДОШКОЛЬНЫХ ЗАВЕДЕНИЯХ УЧЕБНЫХ ЗАНЯТИЙ ПО РАЗВИТИЮ РЕЧИ

***Ключевые слова:*** *дошкольное образовательное учреждение, занятия по развитию речи, развитие речи детей*

Развитие речевого развития в разных возрастных группах дошкольного образования играет важную роль в развитии детской речи. В развитии речевого образования дети приобретают знания, навыки, привычки и формируют свои речи, готовые к школьному образованию через богатый лексикон, коммуникативную речь и грамматику.

**Sunbul Mustafayeva**

# ORGANIZATION OF TRAINING SESSIONS IN THE DEVELOPMENT OF SPEECH IN PRESCHOOL EDUCATIONAL EDUCATIONAL INSTITUTIONS

***Key words:*** *preschool educational institution, speech development training, children's speech development*

The development of speech development in different age groups of pre-school education plays a major role in the development of children's speech. In the development of speech education, children acquire knowledge, skills, habits, and form their speeches, ready for school education through rich vocabulary, communicative speech, and grammar.

Təhsil sisteminin demokratik əsaslar üzərində qurulduğu hazırkı dövrdə məktəbəqədər təhsil müəssisələrinin vəzifəsi uşaqları hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyət kimi yetişdirməkdən ibarətdir. Bu vəzifənin yerinə yetirilməsi üçün ilk növbədə uşaqlarda ana dilinə məhəbbət oyatmaq, onun zənginliyindən istifadə etmək, öz fikirlərini müsahibinin başa düşəcəyi tərzdə aydın və rabitəli, obrazlı şəkildə ifadə etməyi öyrətmək lazımdır. Bütün bu göstərilənlər nitq inkişafı ilə bağlıdır ki, bu da məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı üzrə təşkil edilmiş məşğələlərdə öz həllini tapır.

Məktəbəqədər təhsil müəssisəsində təşkil olunmuş nitq inkişafı məşğələsinin uşaq nitqinin inkişaf etdirilməsində böyük rolu vardır. Nitq inkişafı məşğələsi təlimin əsas təşkili forması olmaqla uşaqlara bilik, bacarıq və vərdişlər aşılamaqla onların nitqini formalaşdırır, inkişaf edib təkminləşdirir. Nitq inkişafı məşğələlərinin yüksək səmərə verməsi həm də onun düzgün təşkil edilib həyata keçirilməsindən asılıdır.

Müntəzəm aparılan nitq inkişafı məşğələləri uşaqlarda zehni əməyə maraq formalaşdırmaqla yanaşı, onlarda əxlaqi, iradi, estetik keyfiyyətlərin təşəkkülünə şərait yaradır. Həm də söz incilərinin gözəlliyini uşaqlara aşılamaqla, onlarda dilimizə məhəbbət hissi oyadır.

Məktəbəqədər təhsil müəssisələrində təlimin əsas təşkili forması olan məşğələlər bütün yaş qruplarında aparılır. Məşğələ prosesində uşaqlar yaş və fərdi xüsusiyyətlərinə uyğun olaraq bir sıra müxtəlif bilik, bacarıq və vərdişləri mənimsəyirlər. Onlar öz fikirlərini dəqiq ifadə etməyi, bir-birlərini və tərbiyəçini diqqətlə dinləməyi öyrənirlər.

Nitq inkişafı üzrə məşğələlər onun sahələri ilə (səs mədəniiyəti, lüğət işi, rabitəli nitqin inkişafı, nitqin qrammatik qurluşu və s.) üzrə ayrı-ayrılıqda, təcrid olunmuş şəkildə deyil, kompleks şəkildə aparılır.

Məşğələnin bütün mərhələlərində (giriş, əsas, yekun) məşğələnin məqsədinə uyğun olaraq metod və pri yomlar müəyyənləşdirilir.

Nitq inkişafı məşğələrinin təşkilində didaktikanın əsas prinsipləri, yeni təlim metodları və pedaqoji texnologiyaların tətbiqi nəzərə alınır.

Məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı məşğələləri günün birinci yarsında həyata keçirilir. Bu vaxt uşaqların əqli fəaliyyəti daha güclü olur. Məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı üzrə təlim məşğələləri

hər qrupda (kiçik, orta, böyük, məktəbəhazırlıq) sentyabr ayından may ayının axırına kimi həftədə bir dəfə təşkili nəzərdə tutulub. Məşğələlər günün birinci yarsında keçirilir. Məşğələlərin müddəti kiçik qrupda (2-3 yaş) 10-15 dəqiqə; orta qrupda (3-4 yaş) 15-20 dəqiqə; böyqk qrupda (4-5 yaş) 20-25 dəqiqə; məktəbəhazırlıq qrupunda ( 5-6 yaş) 25-30 dəqiqə vaxt verilir.

Məktəbəqədər təhsil müəssisələrində keçirilən nitq inkişafı məşğələsi prosesində təlim və tərbiyənin vəhdəti həyata keçirilir.Məşğələlərdə təlim işi uşaqlardan ciddi fiziki və əqli gərginlık tələb edir ki, bu da uşağın şəxsi fəallığı ilə həyata keçirilir. Onlar çalışırlar ki, öz fəaliyyətlərində müəyyən nəticə əldə etsinlər. Bütün bunları nəzərə alaraq, uşaqların təlim yükünün müəyyən edilməsində ehtiyatlı olmaq, məşğələnin müddəti, harada keçirilməsi və gün rejiminə riayət edilməsi mühüm əhəmiyyət kəsb edir.

Məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən nitq inkişafı məşğələlərin təşkilində aşağıdakılara daha çox diqqət verilir: məşğələnin düzgün təşkilinə;məşğələnin planlaşdarılması səviyyəsi;məşğələdə uşaqlarla səmərəli əks əlaqənin təmin olunması, əməkdaşlıq şəraitinin yaradılması; məşğələdə əsas psixoloji tələblərin həyata keçirilməsi; məşğələdə vaxtdan səmərəli istifadə; məşğələdə əməyin mühafizəsi, təhlükəsizlik texnikasının, gigenik tələblərin gözlənilməsi.

Məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı məşğələləri müasir dövrün tələblərinə əsasən qurulur. Hal-hazırda nitq inkişafı məşğələsi aşağıdakı tələblərə əsasən qurulur:

- Nitq inkişafı məşğələsində yüksək təlim, inkşaf və tərbiyə səmərəsi əldə edilməlidir. Məşğələdə təlim, tərbiyə və inkşaf vəzifələri vəhdətdə həyata keçirilməli, real nəticələr əldə edilməlidir.

- Nitq inkişafı məşğələsində təlim materialının optimal məzmunu müəyyən edilməlidir. Tərbiyəçi məşğələnin qarşısında duran məqsəd və vəzifələrdən, uşaqların hazırlıq səviyyəsindən çıxış edərək öyrənilən materialın həcmini, çətinlık dərəcəsini, başlıca məsələlərini və məşğələ zamanı məzmunun mənimsənilməsinə nail olmalıdır.

- Nitq inkişafı məşğələsində səmərəli metodik variant seçilib tətbiq edilməlidir. Məşğələnin məqsəd və məzmununa, uşaqların dərketmə fəaliyyətinə müfafik olaraq fəal təlim metodları müəyyənləşir. Məşğələ o zaman səmərəli olur ki, tərbiyəçi biliyi hazır şəkildə təqdim etməsin, uşaqları fəal axtarışlara cəlb etsin, onlara müstəqil fikirlərini söyləməyə imkan versin.

- Nitq inkişafı məşğələsində əlverişlı psixoloji iqlim, müsbət emosioanal vəziyyət yaradılmalıdır. Məşğələnin səmərəsi onun emosional mühüti ilə sıx bağlıdır: mənfi emosiyalar (qorxu, kədər, inamsızlıq və s.) şəraitində keçirilən təlim məşğələsi cansıxıcı, yorucu və səmərəsiz olur. Məşğələdə tərbiyəçi və uşaq arasında qarşılıqlı hörmət, inam, xoş əhval-ruhiyyə, müsbət zehni hisslər

(şadlıq, təlim sevinci, inam və s.) hakim olmalıdır. Göstərilən tələblərə cavab verən nitq inkişafı məşğələsi yaxşı məşğələ hesab olunur; belə məşğələdə yüksək səmərə,müsbət təlim-tərbiyə nəticələri əldə edilir.Nitq inkişafı məşğələlər uşaqların nitqini inkişaf etdirməklə, dərketmə qabiliyyətlərinin və zehni əməyə marağının inkşafına kömək edir. Bütün bunlar uşaqların məktəbdə müvəffəqiyyətlə təhsil almalarına əsas yaradır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı. 2009.
2. Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı. Qanun. 2009. 67 səh.
3. Azərbaycan Respublikasında Məktəbəqədər təhsilin Yeniləşdirilməsi Proqramı. (2007-2010-cu illər.) Bakı. 2007. 12 aprel “Xalq” qəzeti
4. Ağayev.Ə., Talıbov Y. Pedaqogika. Bakı. 2005. Nasir
5. Abdullayeva S. Tərbiyəçinin stolüstü kitabı. Bakı. Nərgiz. 2008.
6. Əliyeva Ş. Məktəbəqədər pedaqogika. Bakı. ADPU. 2010.
7. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı. Elm. 2000.
8. Həsənov M. Uşaqların ailədə məktəbə hazırlanması. Bakı.Elm.1992.
9. Hacıyeva Ə.M. Məktəbəqədər yaşlı uşaqların nitq inkşafı.Bakı. Elm.1992.
10. Kərimov Y.Ş.Uşaq məktəbə gedir. Bakı Nurlan.2009.
11. Kərimov Y.Ş..Uşaq bağçasında savad təlimi. Bakı. Elm.1972.
12. Kərimov Y.Ş.Uşaqların məktəbə hazırlanması. Bakı Maarif. 1977.
13. Kərimov Y.Ş.Məktəbəqədər yaşlı uşaqların nitq inkşafı metodikası. Bakı. 2009

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.09.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.24**

**Şəbnəm Nuriyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail. shabnamnuriyeva92@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN EKOLOJİ TƏRBİYƏSİ

***Açar sözlər:*** *ekoloji tərbiyə, təlim, əqli tərbiyə, ekoloji təsəvvür*

Məqalədə ekoloji tərbiyənin vacibliyi, məktəbəqədər yaşlı uşaqlarda ekoloji biliklərin formalaşdırılmasının imkan və yolları araşdırılmışdır. Xüsusilə təlim fəaliyyətinin məktəbəqədər yaşlı uşaqlarda ekoloji tərbiyəsinə müsbət təsiri göstərilmişdir.

**Шябням Нуриева**

## ЭКОЛОГИЧЕСКОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *экологическое воспитание, обучение, умственное развитие, экологическое представление*

В статье выясняется важность экологического воспитания, а такте пути и средства формирования экологических знаний у детей дошкольного возраста. В особенности подчеркивается положительное отражение экологического воспитания в обучении детей дошкольного возраста.

**Shabnam Nuriyeva**

## ECOLOGICAL EDUCATION OF PRE-SCHOOL AGED CHILDREN

***Key words:*** *ecological education, training, mental upbringing, ecological imagination*

In the article there was searched the importance of ecological education, a chance to know the ways of environental knowledge in pre-school age. Especially there was shown a positive influence of ecological knowledge during educational activities on pre-school aged children

Müasir dövrdə ekoloji tərbiyə problemi önə çəkilir və buna getdikcə daha çox diqqət yetirilir. Bəs, nəyə görə bu problemlər daha da aktuallaşmışdır. Səbəbi, ekoloji tarazlığı pozmağa gətirib çıxaran insan məlumatsızlığı, davamlı olaraq təbiətə qarşı etdiyi haqsızlıqlar,vurduğu zərbələr. Bu insanlar hər biri nə vaxtsa uşaq olublar. Elə buna görə də məktəbəqədər təhsil müəssisələrində uşaqların ekoloji tərbiyəsinin erkən yaşlardan başlanması çox vacib məsələlərdən biri olaraq daim diqqət mərkəzindədir**.**

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsinin bir sıra üsulları məlumdur. Həmin üsullardan düzgün və yaradıcılıqla istifadə etmək lazımdır. Uşaqlara ekologiya haqqında məlumatların verilməsi məqsədilə keçirilən məşğələlərin böyük əhəmiyyəti vardır. Təlim proqramının məzmununun dəyişdirilməsində və məşğələlərdə çalışmaq lazımdır ki, uşağa verilən hər bir yeni məlumat onun əvvəllər qazandığı biliklərlə əlaqəli olsun. Mümkün qədər onu tamamlamağa xidmət göstərsin.

Bağça yaşlı uşaqlar əhatə olunduqları təbiətlə, onun fakt və hadisələri ilə maraqlanıb onları dərk etməyə səy göstərirlər. Onların bu maraqlarına istiqamət vermək onu daha da inkişaf etdirmək lazımdır.

Məşğələlərin təşkilində və keçirilməsində uşaqların qavrama qabiliyyətinin xüsusiyyətləri nəzərə alınmalıdır. Məşğələlər elə qurulmalıdır ki, uşaqların təbiətlə tanışlıq prosesində dünyagörüşləri, nitq və təfəkkürləri inkişaf etsin və onlarda ekologiyanı öyrənməyə meyl tərbiyə olunsun. Məşğələnin əsas məqsədi uşaqlara proqram materialını mənimsətməkdən başqa həm də sözlə yeni biliklər verməkdən və möhkəmlətməkdən ibarətdir. Bunun üçün müxtəlif metodlardan: təbiət obyektlərinin və yaşlıların əməyinin müşahidə edilməsi, didaktik oyunlar şəkillərdən müxtəlif materiallardan istifadə, bədii əsərlərin və hekayələrin oxunması, söhbətlərin aparılması və s. Məşğələ digər fəaliyyət formaları ilə də sıx əlaqədardır. Hansı ki, onların biri digərini tamamlayır. Məşğələ zamanı uşaqlar öyrəndikləri bilik və bacarıqları gündəlik həyatda, əmək və oyunlarda tətbiq edirlər.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində fəsillər üzrə torpaqda, suda və havada baş verən dəyişiklikləri bilmək mühüm əhəmiyyət kəsb edir. Hər fəsildə təbiətdə baş verən dəyişikliklər onların biliyini, təbiət haqqında anlayışlarını zənginləşdirir, təbii sərvətlərə yanaşmada yeni imkanlar əldə etməsinə kömək edir.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində təlim xarakterli gəzintilər mühüm rol oynayır. Proqramın tələblərinə müvafiq olaraq təbiətin qoynuna təşkil edilmiş gəzinti zamanı uşaqların təbiət və onun qorunması haqqında bilikləri zənginləşir, onlar bir çox hadisələri gözləri ilə görürlər. Gəzintinin üstün cəhəti burasındadır ki, uşaqlar çayın, meşənin, gölün təmiz saxlanması, çirkab suların çaya, gölə axıdılmasının zərərini anlayır, eləcə də,

təbiətdəki gözəlliyi əyani olaraq görür, bu sahədə düzgün mühakimə yürüdürlər.

Yaxşı olar ki, uşaq bağçasının sahəsində və ya otaqlarda quşlar və heyvanlar bəslənsin. Bu ona görə lazımdır ki, uşaqlar həmin canlılar üzərində vaxtaşırı müşahidələr aparır, onlara qulluq edirlər.

Uşaqlara təbiət haqqında bilik və təsəvvürlər verilməsi, yaxud da bunların dəqiqləşdirilməsi tərbiyəçinin iş planlaşdırılmasından başlayır.

Təbiətdə gəzinti üçün elə yerlər seçmək lazımdır ki, eniş – yoxuş , uşaqların fəaliyyətinə mane olacaq yerlər olmasın, Məktəbəqədər yaşlı uşaqların fiziki və estetik tərbiyəsi ilə əalqədar imkanlar nəzərə alınmalı, gəzintiyə getmək üçün daha mənzərəli daha cəlbedici yer seçilməlidir. Şəhər şəraitində bağlar, parklar və s. yerlər seçilir ki, bitkilərin, quşların həyatında baş verən mövsümü dəyişiklikləri müşahidə etmək üçün müəyyən imkanlar vardır. Kənd yerlərində isə meşəyə, çəmənliyə, çaya, quş və heyvan saxlanılan yerlərə aparmaq daha məqsədəuyğundur. Eyni bir təbiət obyektinə ilin müxtəlif vaxtlarında gəzintiyə getmək olar. Bu gəzintilər uşaqlara təbiətdə baş verən dəyişikliklərlə əlaqədar hadisələri müşahidə etməyi imkan verir.

Gəzintilər uşaqlara imkan verir ki, onlar öz maraq və meyllərini istiqamətləndirsinlər. Gəzinti uşaqların əqli keyfiyyətlərinə, xarakterinə, maraq və meylinə də müsbət təsir göstərir.

Uşaq bağçasında tərbiyə və təlim proqramında hər bir yaş qruplarında uşaqların təbiətdə əməyinin məzmunu müəyyənləşdirilir. Bu vəzifələri yerinə yetirmək üçün forma və üsullar seçərkən uşaqların yaşı sadədən mürəkkəbə əsas götürülür.

Məktəbəqədər yaşlı uşaqlarda heyvanlara və bitkilərə qulluq etməyə maraq oyadır. Onlara yerinə yetirilməsi üçün bacarıqlar tərbiyə edir. Çalışmaq lazımdır ki, bitkilər və heyvanlara qulluq və s. kimi sadə əmək fəaliyyətləri uşaqları sevindirsin. Təbiət guşəsindəki bitki və heyvanlar la uşaqlar il ərzində tanış olurlar. Burada onlarda canlı təbiəti sevməyə və onlara qayğı göstərməyi öyrədir.

Uşaqlara tədricən bitkiləri sulamaq, çiçəklərin iri toxumlarını toplamaq, bitkilərin iri yarpaqlarını silmək öyrədilir. Uşaqlar həmçinin böyüklərin bostanda məhsul toplamalarını müşahidə edir, özləri də sadə əmək tapşırıqlarını yerinə yetirirlər.

Uşaqların təbiətin qoynunda istirahəti, müşahidəsi və ya əməyi, bəzi ziyanverici həşəratlara qarşı mübarizəsi, ac quşların yedizdirilməsi, onların xidmətində durması, ekoloji tərbiyə baxımından çox əhəmiyyətlidir. Bu uşaqlarda ekoloji şüurun formalaşmasına şərait yaradır, onların dünyagörüşünü genişləndirir və təbiətə sonsuz maraq oyadır. Bu zaman uşaqlarda yaşıllıqdan zövq almaq hissi tədricən formalaşır.

Onlarda təbiəti canlı aləmi qorumaq sahəsində ilkin vərdişlər yaranır.

Mövzunun aktuallığı: Şəxsiyyətin inkişafı həmin şəxsiyyətin davranış və idrakında baş verən dəyişikliklərin ardıcıl və irəliləyən şəkildə baş verməsidir. Məktəbəqədər yaşlı uşaqlarn ekoloji tərbiyəsinin onların sosial,əqli, esteti və tərbiyənin digər tərkib hissələri ilə əlaqəsindən danışılır. Onların cəmiyyət üçün dəyərli şəxsiyyət kimi formalaşmasında rolu qeyd olunur.

*Elmi yeniliyi*: Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların məktəbəqədər təhsil müəssisələrndə ekoloji tərbiyə məsələlərinin müxtəlif parametrlərdən nəzərdən keçirilməsi qiymətləndirilməsi,fikirlər irəli sürülməsidir.

Praktik əhəmiyyəti və tətbiqi: İctimai və mədəni həyatda aktiv iştiraka hazırlanması məqsədi ilə şəxsiyyətin məqsədyönlü, sistematik şəkildə formalaşdırılması prosesidir. İnteriorizasiya prosesi nəticəsində uşaq sosial reallıqdan mənimsədiyi yeni şəxsi keyfiyyətlər əldə edir.

## ƏDƏBİYYAT

1. Mursaqulova R., Rüstəmova N. Məktəbəqədər pedaqogika.B.,2000
2. Павлова. В.А Экологическое воспитание дошкольников в ДОУ.М.,//Дошкольное воспитание,2016 №2
3. Ишкова Н.А.Экологическое воспитание дошкольников в современном ДОУ

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.09.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 376.34**

**Günel Nurullayeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e- mail; gunel.nurullayeva1990@mail.ru

# ƏTRAF ALƏM UŞAQLARIN RABİTƏLİ NİTQİNİN İNKİŞAFINDA ƏSAS AMİLDİR

***Açar sözlər:*** *nitq, təbiətlə tanışlıq, ətraf aləm*

Bu məqalədə ətraf aləmin uşaqların rabitəli nitqinin inkişafında göstərdiyi təsirdən, sözlərin dilimizin fonetik, leksik və qrammatik normalarına uyğun olaraq istifadə edilməsindən, ətraf aləmlə tanışlığın uşaqların psixi proseslərinin inkişafına göstərdiyi təsirlərdən bəhs edilir. Müəllif bildirir ki, ətraf aləmdə baş verən hər bir proses uşaqlarda müstəqil rabitəli nitqin formalaşmasında böyük rol oynayır.

**Гюнель Нуруллаева**

## ОКРУЖАЮЩАЯ СРЕДА ЯВЛЯЕТСЯ КЛЮЧЕВЫМ ФАКТОРОМ В РАЗВИТИИ СВЯЗАННОЙ РЕЧИ У ДЕТЕЙ

***Ключевые слова***: *речь, знакомство с природой, окружающая среда*

В этой статье обсуждаются вопросы влияния окружающего мира на развитие связанной речи у детей, использование языка в соответствии с фонетическими, лексическими и грамматическими нормами, а также влияние знакомства с окружающей средой на развитие психических процессов детей. Автор утверждает, что в окружающей среде каждый процесс играет важную роль в формировании независимой речи у детей

**Gunel Nurullayeva**

## THE ENVIRONMENT IS THE MAIN FACTOR IN THE DEVELOPMENT OF CHILDREN'S COMMUNICATION SPEECH

***Key words:*** *speech, acquaintance with nature, environment*

In this article, is mentioned that the impact of environment on the development of children‘s communication, using the language in accordance

with phonetic, lexical and grammatical norms, the impact of acquaintance with the surrounding world on the development of children's mental processes. The author informs that, every process in the environment plays a major role in the formation of independent communication skills in children.

Uşaqların konkret əmək prosesinin gedişini təsvir etmələri rabitəli nitqin inkişafına kömək edir. Məşğələ zamanı əşyanın hazırlanması üzrə prosesi uşaqlara göstərmək, əşyaların hissələri, keyfiyyətləri, xassələri ilə tanışlıq uşaqların nitqinə rəngarəng söz ehtiyyatının daxil olmasına imkan verir. Bu zaman uşaqlar müşahidə etdikləri və iştirakçısı olduqları əmək prosesini müstəqil hekayə qurub yığcam, sərbəst danışmaları həlledici istiqamət sayıla bilər. Müxtəlif yerlərə ekskursiya zamanı da uşaqlar da müstəqil müşahidə aparmaq ,suallar vermək təsəvvür və nitqlərini zənginləşdirir. (1, s. 168)

Uşaq dilin lüğət ehtiyatına yiyələnərək, eyni zamanda həm də dilin qrammatik cəhətinə də yiyələnir. Sözün qrammatik cəhətdən formalaşması və düzəldilməsi üsullarına yiyələnmə ünsiyyət vasitəsilə işlədilən cümlələrdə və cümlə quruluşununmürəkkəbləşməsində özünü göstərir. Ətraf aləm uşaqların rabitəli nitqinin inkişafında əsas amildir.

Təbiətə, onun gözəlliklərinə sadəcə baxmaq, həyəcan, heyranlıq doğurmadığı halda, bunları görmək heyrətlənməyə, təəccüblənməyə, hadisələrin sirrini bilməyə böyük maraq oyadır, uşaqları düşünməyə, səbəb və nəticələr arasındakı qarşılıqlı əlaqələri öyrənməyə təhrik edir. Uşaqlar erkən yaşlarından təbiət adlı müəllimin öz səsi, öz nəğməsi, öz dərsliyi, öz dəsti-xətti ilə tanış olurlar. Ətraf aləm anlayışının dairəsi çox geniş olmaqla usage daim təmasda olduğu xarici mühiti – təbiəti və cəmiyyəti əhatə edir". (2,s 21)

Təbiətlə tanışlıq uşaqların duyğularının, qavrayış və təsəvvürlərinin, təfəkkür və təxəyyüllərinin, xüsusilə nitqlərinin inkişafına böyük təkan verir: "Fəsillə əlaqədar təşkil olunmuş ekskursiya zamanı tərbiyəçinin istiqamətverici sualları ilə uşaqların diqqətini havaya, qara, yağıntıya, buza, ağaclara, quşların, heyvanların həyatına, insanların əməyinə, parkda və meşədə isə sarı, qırmızı, ala-bəzək, yaşıl yarpaqlı ağaclara, qara və qırmızı rəngli xırda, yumru, topa-topa, salxımı xatırladan meyvələrə, quşların onları dimdikləməsinə, tək-tük həşəratların görünməsinə, boz dovşanın, kirpinin qaçıb necə gizlənməsinə, mal-qaranın talada necə otlamasına və s. yönəlməlidir".

Uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi dedikdə onların lüğət ehtiyatının tanış olmayan və az tanış olan sözlər hesabına zənginləşməsi nəzərdə tutulur. Uşaqlar ətraf aləmin əlamətləri, fakt və hadisələri ifadə edən sözləri öyrənməklə, təbiət hadisələri, təbiət obyektləri ilə tanış olduqda, müşahidəapardığı əşya və hadisələr barədə uşaq öz yaşıdları ilə dialoqa girdikdə

də lüğət ehtiyatı yeni sözlər hesabına zənginləşir. Eyni zamanda ictimai həyathadisələri, insanların əməyi, ictimai müəssisə adları, orada işləyən peşə sahibləri haqda məlumat da lüğət ehtiyatına daxil olur".

Uşaqlarda rabitəli nitqin formalaşmasında məktəbəqədər təhsil müəssisələri ilə ailə birgə fəaliyyət göstərməlidirlər. Valideyn - tərbiyəçi - müəllim uşağın danışığına diqqətlə, səbirlə qulaq asmalı, yeri gəldikdə yardımçı suallarla onun ardıcıl rabitəli nitqinə istiqamət verməlidir.

Uşinskinin dediyi kimi, ana dili hər cür əqli inkişafın əsasını təşkil edir və bütün biliklərin xəzinəsidir. (1, s 8)

Uşaqda nitq öz-özünə yaranmır. O, tədricən inkişaf edir, hətta böyüklərin cidd-cəhdi nəticəsində də xeyli çətinliklərlə qarşılaşır. Uşaqda nitqə maraq oyatmaq üçün ona daim suallar verilməlidir. Bu sual aydın və anlaşıqlı olmalıdır. Eyni zaman da uşağın özündə də sual vermək bacarığı yaratmaq lazımdır. Onların müxtəlif suallarına həvəslə, sevinclə, səbirlə, ətraflı cavab vermək tələb olunur.

Çünki belə sual-cavab uşaqların lüğət ehtiyatının zənginləşməsinə kömək edir".

## ƏDƏBİYYAT

1. Kərimov Y. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı metodikası. Bakı, 2009
2. Mursaqulova R., Əliyeva Ş. Bağça yaşlı uşaqların təbiətlə tanış edilməsi metodikası. 1993
3. Hacıyeva Ə. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı Bakı: Elm, 1992

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 376.34**

**Məlahət Osmanova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: osmanovamelahet29@gmail.com

# NİTQ ÜNSİYYƏTİ VƏ DAVRANIŞIN ETİK NORMALARI İLƏ UŞAQ NİTQİNİN İFADƏLİLİYİN TƏRBİYƏSİNİN VƏHDƏTİ

***Açar sözlər:*** *Nitq ünsiyyəti,ifadəlilik anlayışı, diksiya, intonasiya,dialoq, monoloq*

Məqalə ifadəli nitqi məktəbəqədəryaşlı uşaqların nitq mədəniyyətinin ən mühüm tərkib hissəsi kimi nəzərdən keçirir. Nitq ünsiyyəti və davranışın etik normaları ilə ifadəliliyin vəhdətdə tərbiyəsindən bəhs edir.

**Малахат Османова**

# ЕДИНСТВО ВОСПИТАНИЯ ВЫРАЗИТЕЛЬНОСТИ ДЕТСКОЙ РЕЧИ С ЭТИЧЕСКИМИ НОРМАМИ РЕЧЕВОГО ОБЩЕНИЯ И ПОВЕДЕНИЯ

***Ключевые слова:*** *речевое общение, понятие выразительности, дикция, интонация, диалог, монолог*

Статья рассматривает выразительную речь, как основной растью речевой культуры детей дошкольного возраста. А также говорится о воспитании единства выражений этических норм речевого общения и поведения.

**Malahat Osmanova**

# UPBRINGING IN UNITY OF SPEECH COMMUNICATION AND ETHICAL NORMS OF BEHAVIOUR WITH EXPRESSION OF CHILD SPEECH

***Key words:*** *speech communication, concept of expressionism, enunciation, intonation, dialogue, monologue*

The article review the expressive speech as the most important ingredient of speech culture of preschool aged children, also talked about upbringing in

unity of speech communication and ethical norms of behavior.

Uşaqların gələcəkdə hərtərəfli şəxsiyyət kimi inkişaf etməsi üçün məktəbəqədər yaş dövründə onların nitqinin bütün keyfiyyətlərə malik olmasına xüsusi əhəmiyyət vermək lazımdır. Səslənən nitqin ən mühüm keyfiyyəti onun ifadəliliyidir. Uşaqların nitqinin təbii ifadəliliyinin qarşısını almaq, ona təzyiq etmək olmaz. Əksinə onu inkişaf etdirmək lazımdır. O zaman nitqi tam ifadəli olan, gözləri alovlanan, fikri və hissləri üzündə və jestlərinə əks olunan natiqlərə rast gəlmək mümkündür.

Bu gün məktəbəqədər yaşlı uşaqlarda bədii, sinonimlərlə, əlavələr və təsvirlərlə zəngin nitq çox nadir hadisədir. Uşaqların nitqində bir çox problemlər mövcuddur. Uşaqların arasında keçən dialoqlar ifadəlilik, zənginlik baxımından çox kasıbdır. Uşaqlarda bir söz və ya cümlə ilə qısa şəkildə fikri ifadə etmə bacarığı da formalaşdırmaq ifadəli nitq üzrə işin məzmununa daxildir. Nitq inkişafı üzrə işin əsasında onun səs mədəniyyətinin düzgün tərbiyəsi durur. Səs ifadəliliyinin elementləri, ifadəliliyin hərəkət vasitələri səs mədəniyyətinin tərkib hissəsidir. Uşaqlarda səs mədəniyyətini tərbiyə edərkən bu vəzifələr yerinə yetirilir: sözlərin aydın, səlis, normal sürətdə ədəbi tələffüz qaydalarına uyğun deyilməsi, danışarkən düzgün nəfəs almaq, ucadan cavab vermək (səsin yüksəkliyini, sürəti, məna vurğusunu, fasiləni gözləməklə), fonematik və nitq eşitməni inkişaf etdirmək. Məktəbəqədər yaşlı uşaqlarda tez-tez aydın olmayan tələffüz müşahidə edilir. Belə ki, onlar danışarkən bəzən sözün axırı eşidilmir, hətta söz başa düşülmür. Bu dodaqlar və dilin ləng, qeyri-enerjili hərəkətinin, alt çənənin çevik olması nəticəsində baş verir. Deməi, artikulyasiya aparatı orqanlarının işinin inkişafı hər bir səsin ayrılıqda, həmçinin söz, ifadə daxilində dəqiq olmasını, diksiyanın formalaşmasını təmin edir. Yaxşı diksiya nitqi eşitmənin inkişafından, diqətin davamlılığından və uşağın öz səsini idarəetmə bacarığından asılıdır.(1)

Xoşagələn, asanlıqla qavranılan nitq orta sürəti, ritmliliyi, mülayim qüvvəsi və səsin orta yüksəkliyi keyfiyyətləri ilə xarakterizə olunur. Uşaqların nitqinin sürəti və səsinin keyfiyyəti kifayət qədər dəqiq, çevik və elastik olmalıdır ki, müxtəlif hal, vəziyyət və hissləri ifadə edə bilsin; başqa sözlə uşaqlar pıçıltı ilə, ucadan, alçaqdan, sürətlə danışa bilməlidirlər. Məhz ifadəlilik səslənən nitqin ən mühüm keyfiyyətlərindəndir. Tərbiyəçi uşaqlar üçün xarakterik olan təbii ifadəliliyi inkişaf etdirməlidir. Uşağa səsin keyfiyyətindən ifadəliliyin vasitəsi kimi istifadə etməyi, mətnin məzmununa uyğun sürət seçməyi, başqasının, həmçinin müəllifin fikrini verməyi öyrətmək lazımdır. Şablon və standartlar üzrə düşünmə ifadəli nitqə ziddir. İfadəlilikdə birinci şərt düşüncənin müstəqilliyidir. Uşaq səslər və onların ifadə imkanlarını dəqiq bilməlidir. (3,118)

İntonasiya səslənən nitqin ifadə vasitələrinin kompleksidir. Melodika, ritm, məntiqi vurğu, sürət, tembr, fasilə intonasiya ifadəliliyinin vasitələridir. İntonasiya ifadəliliyinin belə vasitələri ünsiyyət prosesində fikrin, emosional-iradi

münasibətlərin dəqiqliyini,tamlığını təmin edir, ona əlavə məna verir. Nitqin ifadəliliyinə zərər yetirən nöqsanları aradan qaldırmaq üçün tərbiyəçi kiçik qrupdan başlayaraq şeir oxuyarkən, nəqletmə prosesində öz nitqinə yüksək tələbkarlıqla yanaşmalıdır, çünki tərbiyəçinin ifadəli, emosianal nitqini eşitməklə uşaqlar da lazimi intonasiya seçə bilərlər. Məktəbəqədər müəssisələrdə böyük qruplarda uşaqlar artıq şeiri ifadəli, əzbərdən söyləyir və onun məzmununa emosional münasibət bəsləyirlər. Uşaqlar əsərin dilinin axıcılığını duyur, məntiqi vurğudan və fasilədən yerində istifadə etmək bacarıqlarına yiyələnirlər. Uşaqlar şeirin ritmini, musiqililiyini duyur, mətnin məzmunundan asılı olaraq səsin tonunu yüksəltməyi və endirməyi, səsi idarə eməyi öyrənir. Uşaqlara yaradıcı nəqletmə vərdişi aşılanır. Uşaqlar öz fantaziyalarına uyğun hekayə qumağı və onu emosional şəkildə nəql etməyi mənimsəyirlər.

Uşaqlar bayramlarda, təntənəli tədbirlərdə sevinc, iftixar hissi keçirməyi, bu halda uyğun söz ve ifadələr seçməyi bilməli, ictimai yerlərdə başqalarının rahatlığını poza biləcək söz ve ifadələrə yer verməməlidirlər. Tərbiyəçi uşaqlara qonağı gülər üzlə, şadlıqla qarşılamağı, onunla mülayim, nəzakətlə danışmağı öyrətməlidir. Bu vərdişləri uşaqlarda aşılamaq məqsədilə ictimai yerlərde nitq mədəniyyəti, nitqin emosionallığı məzmunundan asılı olaraq tonun seçilməsi haqqında valideynlərə məsləhət verilməlidir. Tərbiyəçilər uşaqların səs mədəniyyəti sahəsindəki bacarıqlarını təhlil etməli, hər bir uşaq üçüb xarakterik halları aşkara çıxarmalıdır. Tərbiyəçinin güclü müşahidə bacarığı olmalıdır. O, uşağın danışarkən, şeir deyərkən necə nəfəs almasına, nəfəsi necə verməsinə, nitqin sürətinə, diksiyasına və s. diqqət yetirməli, lazım gəldikdə saxlayıb nümunə verməlidir. Uşaqlarda rabitəli nitqin inkişafı olmadan “ifadəli nitq” anlyışından danışmaq mümkün deyildir. Rabitəli nitq dialoji və monoloji olmaqla iki növdür. Şifahi nitqin forması olan dialoq nitq ünsiyyətinin təbiiliyini təmin edir. Danışıq dilinə xas olan emosionallıq və ekspressivlik dialoji nitqdə öz əksini tapır. Monoloji nitqə hazırlıq üçün işə iki yaşından başlanılır. Monoloq yaxşı yaddaş, nitqin məzmunu ilə forması arasında vəhdəti başa düşmək bacarığı tələb edir. Müşahidələr əsasında belə nəticəyə gəlinmişdir ki, uşaqların məşğələlərdəki nitqi sərbəst vaxtlarda, məişətdə istifadə etdikləri nitqdən az ifadəlidir. Buna səbəb uşağın məşğələdə canlı ünsiyyət şəraitini itirməsidir. Bəs canlı ünsiyyət şəraiti nə deməkdir? Danışan belə hesab edir ki, həmin məlumat müsahibi üçün də yeni və eyni dərəcədə maraqlıdır. Buna görə də o, təbii şəraitdə canlı danışır. (2, 73)

Beləliklə çalışmaq lazımdır ki, məktəbə gedənədək uşaqlar öz fikirlərini planlaşdırmağı, cümlələri düzgün qurmağı, onların ardıcıllığını müəyyənləşdirməyi öyrənsin. Bu yaşda artıq uşaqların nitqində nitq mədəniyyətinin elementləri, həmçinin də ifadəlalik təmin olunmalıdır.

Masir təhsil əməkdaşlığa əsaslanan təhsildir. Məşğələ prosesində məktəbəqədərlilər öz yaşıdları, yaşlılar və tərbiyəçilərlə ünsiyyət prosesində etik

normalara və nitq ünsiyyətinə yiyələnə bilməyirlərsə təlimin uğurlu həyata keçirilməsindən danışmaq olmaz. Məqalədə qoyulan problem bu mənada çox aktual bir məsələni əhatə edir. Uşaq nitqinin ifadəliliyi nitq ünsiyyətini inkişaf etdirməklə yanaşı uşaqlar arasında kommunikativ ünsiyyəti də zənginləşdirə bilər. Tədqiqat işinin nəticəsi bağça təlimi zamanı ana dili məşğələlərində tətbiqə yararlıdır.

## ƏDƏBİYYAT


1. В.Е.Юрьевна. «Актуалност проблемы речевого развития детей дошкольного возраста». М- 2016
2. Бородич А.М. Методика развития речи детей. М-1979
3. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı.B-1998


**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.037**

**Fidan Salmanlı**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e- mail: fidan.salmanli1994@mail.ru

# UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA MİLLİLİYİN ROLU

***Açar sözlər:*** *milli dəyərlər, soykökə bağlılıq, doğma yurda məhəbbət*

Məqalədə uşaqların inkişafında , cəmiyyətə yararlı ahəngdar inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında milli-mənəvi dəyərlərin rolu, əxlaqi və iradi keyfiyyətlərin formalaşması, milli adət-ənənələrimizin uşaqların inkişafına təsiri , uşaqların vətənpərvərlik ruhunda tərbiyəsi məsələləri nəzərdən keçirilir. Uşaqların milli ruhda tərbiyə olunmasında məktəbəqədər təhsil müəssisələrinin və ailənin birgə əməkdaşlığı zəruridir. Müəllif qeyd edirki, uşaqların milli ruhda tərbiyə almaları onların sosiallaşmasında, öz mənliyini dərk etməsində, vətənini sevməsində böyük rol oynayır.

**Фидан Салманлы**

## РОЛЬ НАЦИОНАЛЬНОСТИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ РЕБЕНКА

***Ключевые слова:*** *национальные ценности, приверженность генеалогии, любовь к родине*

В статье рассматривается роль национальных и духовных ценностей в развитии детей, а также гармоничное развитие общества, формирование нравственных и духовных качеств, влияние наших национальных традиций на развитие детей и воспитание детей в духе патриотизма. Совместное сотрудничество дошкольных учебных заведений и семьи имеет важное значение для обучения детей в духе национального духа. Автор отмечает, что воспитание детей в национальном духе играет большую роль в их социализации, их самореализации, и их любви к родине.

**Fidan Salmanly**

## THE ROLE OF NATIONALITY IN FORMATION PERSONALITIES OF THE CHILD

***Key words:*** *attachment to national values, origin, love their native lands*

In an article in the development of society, the formation of national and spiritual values, the formation of national tradition of patriotic education of our children, children are considered suitable for children developed as a person, the role of the willful quality and ethical impact on the development of harmony. In the education of children of preschool education institutions and families need the cooperation of the national spirit. The author notes that children raised in the national spirit, love for his motherland plays a significant role in understanding their dignity, their sosiallaşmasında them.

Milli mənəvi dəyərlər hər hansı millətin tarix boyu əldə etdiyi nailiyyətləridir. Xalqımızın həyat tərzi, ənənələri, milli irsi, ulularımızın , müdrik təfəkkür sahiblərinin, hikmətli kəlamları, öyüd və nəsihətləri yüksək mənəvi-əxlaqi dəyərlər kimi cəmləşmişdir. Yeni dünyaya gəlmiş hər hansı bir insan hələ beşikdə ikən eşitdiyi laylalar ilə ana dilinin təsiri altında qalır. Buna görədir ki, ən sevdiyimiz dil ana dilimizdir. Ruhumuzu təşkil edən bütün dini-əxlaqi, bədii-estetik duyğularımız da bu dil vasitəsilə anlamışıq. Əslində ruhumuzun sosial duyğuları dinə, əxlaq və estetikaya - ədəbiyyata aid duyğulardan ibarətdir. İnsan ən səmimi, ən dərin duyğularını ilk tərbiyə zamanı alır.

Xalqımız xeyir, vicdan, şərəf , borc, insaf, ədalət ləyaqət, namus, qeyrət, halallıq, təvazökarlıq və s əxlaqi keyfiyyətləri qiymətli sərvət kimi qoruyub saxlamağa çalışmışlar. Məhz bu əxlaqi dəyərləri dərk etmək və tərbiyə sistemində həyata keçirməklə yetişməkdə olan gənc nəslin tərbiyəsini milli zəmində qura bilərik. (1, s. 177)

Uşaqların erkən yaşdan millilik ruhunda tərbiyə edilməsi ilk öncə ailədə sonra isə bağçada həyata keçirilməli, uşaq bağçası və ailə arasında daim vahidlik prinsipi gözlənilməlidir. Valideynlər daim uşaq bağçaları ilə əlaqədə olmalı, uşaqlarının uğurlarının şahidi olmalı, onlara dəstək göstərməlidirlər. Şifahi xalq yaradıcılığı nümunələri – nağıllar, tapmacalar, atalar sözləri, dastanlarda Milli dəyərlərimizə söykənir. Vətənpərvərlik, dostluq, yoldaşlıq, qayğıkeşlik, düzlük, cəldlik və çeviklik, dözümlülük və s. kimi keyfiyyətlər formalaşır.

Uşaq şəxsiyyətinin formalaşmasında milli əxlaq anlayışı böyük rola malikdir. Milli əxlaqda öz əksini tapan mənəvi dəyərlər, xeyirxahlığın yüksək qiymətləndirilməsi, xeyrlə şər arasında mübarizə və sonda xeyrin qalib gəlməsi uşaq şəxsiyyətinin formalaşmasında örnək rolunu oynamalıdır.

Hər bir normal insan hansı millətin tərbiyəsini alıbsa, ancaq onun ölkəsi-idealı uğrunda çalışa bilər. Böyük İskəndər "Mənim gerçək atam Filipp deyil, Aristoteldir. Çünki birinci maddiliyimin - maddi quruluşumun, ikinci mənəviyyatımın - mənəvi quruluşumun meydana gəlməsinə səbəb olmuşdur" - deyirdi. Bu baxımdan mədəniyyətimizin inkişafı mənəvi dəyərlərimizin inkişafından asılıdır. Mənəvi dəyərlər xalqı ruhən yaşadan, ona ideya, istiqamət, stimul verən bir dəyərdir. Bu də yər hətta içtimai hadisələrə səbəb ola biləcək qüvvəyə malikdir.

Millətimizin mənəvi-əxlaqi dəyərləri ilə bağlı, bütövlükdə mənəvi mədəniyyəti dastanlarımız, nağıl və folklorumuz, miflər, əfsanələr, dini inanaclar, eləcə də əxlaq hüquq texnika və iqtisadiyyatla bağlı qaydaların, elm və fəlsəfə ilə bağlı görüşlərin hər biri kollektiv təsəvvürlərdir. Dini inamın - etiqadın və nəzəriyyənin ziddi sayılan ayinlər və praktiki fəaliyyət də öncə ağılda təsəvvür olunub sonra həyata keçilirdikləri üçün əslində hər biri kollektiv (ortaq) təsəvvürlərdir. İctimai kollektiv təsəvvürlər çoşğun böhranlar əsasında çox şiddətli həyacanlara bölünərək son dərəcə böyük qüdrət və gücə malik olurlar. İçtimai təsəvvürlərin bu durumuna ölkə məfkurə adı verilir. Ictimai təsəvvürlər gerçək (əsl) ölkə halını aldıqdan sonra həqiqi inqilabların səbəbi olurlar (2, s. 67).

## ƏDƏBİYYAT


1. Həsənov A.Məktəbəqədər Pedaqogika Bakı – 2011
2. Göy alp Z. Türkçülüyün əsaslan, Bakı: Maarif, 1991,176 s.
3. Əliyev İ. Azərbaycan Etnopedaqogikası . Bakı , 2009



**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 372.36**

**Elnarə Salmanova**
magistrant
Azərbaycan Pedaqoji Unuvesiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: salmanova.elnare@mail.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL-EMOSİONAL İNKİŞAFINA MUSİQİNİN TƏSİRİ

***Açar sözlər:*** *sosial-emosional inkişaf, musiqi, keyfiyyət*

Məqalədə məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafında musiqinin təsiri nəzərdən keçirilir. Məktəbəqədər yaşlı uşaqlarda sosial və emosional keyfiyyətlər vəhdətdə inkişaf edir. Uşaq özünün emosional sahəsini məhz yaşadığı sosial mühitin normaları əsasında, buna uyğun olaraq tənzimləyir.

**Эльнара Салманова**

## ВЛИЯНИЕ МУЗЫКИ НА СОЦИАЛЬНО-ЭМОЦИОНАЛЬНОЕ РАЗВИТИЕ ДОШКОЛЬНИКОВ

***Ключевые слова:*** *социально-экономическое развитие, музыка, качество*

В этой статье просматривается влияние музыки на социально-эмоциональное развитие дошкольных детей. У детей дошкольного возраста социальные и эмоциональные качества развиваются в единстве. Ребёнок регулирует свои эмоциональные качества в соответствии, именно на основе норм социальной среды проживания.

**Elnara Salmanova**

## INFLUENCE OF MUSIC ON THE SOCIO-EMOTINONAL DEVELOPMENT OF PRE-SCHOOL CHILDREN

***Key words:*** *social-emotional development, music, quality*

There are reviewed effects of music for the social-emotional development of the pre-school aged children. The social-emotional qualities of the pre-school aged children develop under a unit form. A child regulates his emotional

aspects on the basis of his social environment.

Müasir təhsildə uşağın fərdi inkişafını qəbul edən ən təbii yanaşma şəxsiyyət yönümlü yanaşma hesab olunur. Şəxsiyyətyönümlü model uşaqların emosional, sosial və idraki inkişafına eyni dərəcədə əhəmiyyət verir.

Belə yanaşma uşağın nəinki ibtidai təlimində, eyni zamanda uzunmüddətli perspektivdə daha yaxşı nəticələr verir. Belə ki, uşaqlar təşəbbüskar, yaradıcı, müstəqil, özünəinamlı böyüyürlər. Şəxsiyyət yönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi və uşaqların funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Tərbiyəçi təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir.Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Məktəbəqədər təhsil proqramına (kurikulumuna) əsasən məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-uşaq münasibətləri "subyekt - subyekt" formuluna uyğun qurulur. [1, s.120]

Bu zaman uşaqlar öz təfəkkürünün, düşüncəsinin, tərbiyəçilər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olur. O daha çox qrup şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi uşaqların müstəqil idraki fəaliyyətini, yaradıcılığını təşkil edən subyektə çevrilir, uşaqlar isə müstəqil axtarışlar aparmağa, yaradıcı fəaliyyət göstərməyə sövq edilir.

Sosial-emosional inkişaf vasitəsilə uşaqlarda insanlara qarşı müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq və s. kimi mənəvi keyfiyyətlər yaranır.Uşaqlar oyun, əmək və əməli fəaliyyətə, kollektivdə davranma qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər. Kommunikasiyanın köməyilə birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, qarşılıqlı təsir və qarşılıqlı anlaşma təmin olunur. Kommunikasiya uşağın sosial şəxsiyyət kimi formalaşmasında əsas vasitəyə çevrilir.

Özündən kiçiklər, həmyaşıdları və böyüklərlə ünsiyyət qurur. Hərəkətlərini sosial normalara uyğun olaraq sadə formada nümayiş etdirir. Qrup oyununa qoşulur, rolunu müəyyən edir, qərarlar qəbul edir. Oyunun qaydalarına əməl edir. Ünsiyyət zamanı öz rolunu yaşına müvafiq qaydada tənzimləyir. Ünsiyyət prosesində vəzifələrini anlayır və müxtəlif situasiyalarda onu nəzərə alır. Fərdi qaydada əmək bacarıqları nümayiş etdirir. Liderlik bacarığı meydana gəlir.

Musiqi kəlimələrin ifadə edə bilmədiyi duyğuları ortaya çıxardır. Uşaq musiqi söyləyərkən səsini istifadə etməyi, nəzarət etməyi öyrənir. Musiqili tədbirlərdə uşaqların iştirak etməsi onların ictimai tədbirlərdə təcrübəsini artırır. Sosial inkişafda hərəkət və yaradıcı rəqs: Uşağın problem həll etməsi və özünü ifadə etməsi üçün yeni kəşflər etməsinə kömək üçün yaradıcı rəqsdən

yararlanırlar. Uşağa məktəbəqədər yaş dövründə sistemli hərəkətlər ona sağlamlıqla əlaqəli vərdişləri, nizamlı olmağı, iradəli olmağı qazandırır. [2, s.98]

Musiqi özünü ifadəetmə bacarığını, yaradıcılıq zövqünu və estetik duyğusunu inkişaf etdirir; səs və dil inkişafı ilə idraki düşünməyə kömək edir. Uşaqda musiqi qabiliyyəti doğuşdan başlayır. Doğumundan etibarən səs uyarıcısına reaksiya verir. Ana və atasının ayaq səslərini tanıyır. Ağlamalarla və səs tonunu yüksəldib alçaldaraq xoşbəxtliyini və gərginliyini ifadə edər. Bir çox mütəxəssislər uşaqların mahnı və zümzüməsini dinləyərək, onların orijinal rəqs və oyunlara uyma səylərini izləyərək bu qənaətə gəlmişlər ki, uşaqlar, doğrudanda uşaqlar musiqiyə qarşı doğuşdan həssas olurlar. Bu təbii qabiliyyət hər uşaqda vardır.

Musiqi, əvvəlcə, mahnı və şeir vasitəsilə məktəbəqədər yaşlı uşaqların dil inkişafına öz töhfəsini verir. Bununla yanaşı davam edən musiqili tədbirlər yolu ilə uşağın yaradıcılığq qabiliyyəti formalaşır.

## ƏDƏBİYYAT


1. Əhmədov A., Abbasov Ə. Məktəbəqədər təhsilin konseptual problemləri. //Kurikulum, 2011, № 2, səh.8-15.
2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. B., Mütərcim, 2010.
3. Тимофеева, Н.В., Зотова Ю.В. Занятие в детском саду. Волгоград, 2009.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.035**

**Şükufə Talıbzadə**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: talibzade94@inbox.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA MİLLİ ŞÜURUN FORMALAŞMASINDA İSLAMİ DƏYƏRLƏRDƏN İSTİFADƏ İMKANLARI

***Açar sözlər***: *milli şüur, islami dəyərlər, milli-mənəvi dəyərlər*

Məqalədə məktəbəqədər yaşlı uşaqların tərbiyəsində islami dəyərlərin vacibliyi, milli şüurun formalaşmasının imkan və yolları araşdırılmışdır. Yetişən nəslin tərbiyəsində bənzərsiz rol oynayan islami dəyərlər milli- mənəvi dəyərlərin formalaşdırılması üçün zəngin mənbədir.

**Шукуфа Талыбзаде**

## ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ИСЛАМСКИХ ЦЕННОСТЕЙ В ПРОЦЕССЕ ФОРМИРОВАНИЯ НАЦИОНАЛЬНОГО СОЗНАНИЯ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *национальное сознание, исламские ценности, национально-нравственные ценности*

В статье исследованы возможности и пути формирования национального сознания, важность исламских ценностей в процессе воспитания детей дошкольного возраста. Исламские ценности, сыгравшие неповторимую роль в процессе воспитания вырастающего поколения, являются богатым источником для формирования национально – нравственных ценностей.

**Shukufa Talibzadeh**

## OPPORTUNITIES OF USE FROM ISLAMIC VALUES INFORMATION OF NATIONAL CONSCIOUSNESS OF PRE-SCHOOL CHILDREN

***Key words:*** *national conscience, Islamic values, national – spiritual values*

Significance of Islamic values, opportunities and methods of formation of national conscience in education of pre-school children are studied in the article. Islamic values, playing essential role in growing up and education of current generation is the valuable source for formation of national – spiritual values.

Azərbaycan xalqının milli-mənəvi dəyərləri onları inam, əqidə saflığına, daxili təmizliyə, ləyaqətli , mərhəmətli olmağa sövq etmisdir. Ulu öndərimiz Heydər Əliyev bir sıra çıxışlarında milli-mənəvi dəyərlərimizi toplamağı, dərindən öyrənməyi, tədqiq etməyi və gələcək nəsillərə ötürməyi daim tövsiyə edirdi. Ona görə də milli-mənəvi dəyərlərimizin bütün tərbiyəvi çalarlarını öyrənib yetişən nəslin nümayəndələrinə ərmağan etmək bu işlə məşğul olanların ən vacib vəzifələrindəndir. Özü də bu işə məktəbəqədər yaşlardan başlamaq lazımdır.

Azərbaycan xalqının özünəməxsus milli-mənəvi dəyərləri islam dünyasının müqəddəs kitabı və dünya mədəniyyətinin ən möhtəşəm abidəsi olan “ Qurani-Kərim”də öz əksini tapır.

Müsəlmanların müqəddəs kitabı “Qurani-Kərim” ulu Tanrının öz möcüzəsi kimi milyonlarla insanın qəlbinə hakim kəsilmiş onların canına qanına hopmuş, beyninə nüfuz etmişdir. İslam mədəniyyətinin ən uca abidəsi “ Qurani-Kərim”in müəyyən bir hissəsini folklor süjetli və ulu peyğəmbərin həyatına aid hissələr (yəni mənzum hekayələr) təşkil edir. Tarixi gerçəklikləri əks etdirən bu ədəbi parçalar kiçik yaslarındakı usaqlara yüksək bəşəri hisslər aşılayır, onları düzlüyə, daxili zənginlik və mənəvi ucalığa çağırır.

Kiçik bağça yaşlı uşaqlarda milli şüurun formalaşmasını günün tələbləri səviyyəsində təşkil etmək üçün bu işin həm pedaqoji, həm də psixoloji əsaslarının müəyyənləşdirilməsinə zəruri ehtiyac duyulur. Bağça yaşlı uşaqların tərbiyəsinin pedaqoji əsasları deyəndə kiçik yaşlı uşaqlara aşılanan ən ali insanı keyfiyyətlərin müvafiq pedaqoji zidiyyətlərin təzahür xüsusiyyətlərinin, pedaqoji prosesdə istinad olunan ümümi pedaqoji prinsiplərin, tətbiq olunması etimal edilən ümumpedaqoji üsulların nəzərə alınması kimi qəbul olunur. Məktəbəqədər yaşlı uşaqların milli-mənəvi tərbiyyəsi müəyyən qanunauyğunluqlar çərçivəsində baş verir. . Məktəbəqədər yaşlı uşaqlarda milli şüurun formalaşmasında islam dəyərlərinin çox mühüm rolu var. Yəni milli-mənəvi tərbiyyə ailə mühitindən, bağça şəraitindən, tərbiyəçinin ünsiyyət üslubundan, yaşıdları ilə ünsiyyətdən, yaşlılarla münasibətlər sistemindən asılı olur. Məktəbəqədər yaşlı uşaqlar ətraf aləmdəki mürəkkəb mühitdə saysız-hesabsız münasibətlərə girir və bu münasibətlər heç də həmişə pozitiv səviyyə daşımır. Məktəbəqədər yaşlı uşaq hər gün , hər an

müxtəlif münasibətlər, məlumatlar və ünsiyyət axınına məruz qalır, həyatda baş verən haqlı və haqsız hadisələrin şahidi olur. Bu yaşda uşaq həmin hadisələrin mahiyyətii dərindən dərk edə bilməsə də, bu onun beynində, mənəvi aləmində dərin izlər buraxır.Milli ləyaqətin, mənəvi tərbiyənin təşəkkül tapmasına mane olan müəyyən pedaqoji ziddiyyətlər mövcuddur. Onların da aradan qaldırılması vacibdir. Məktəbəqədər yaşlı uşaqların milli şüurunun düzgün təşkili zamanı bu işin psixoloji əsaslarını müyəyyənləşdirilməsinin çox mühüm əhəmiyyəti vardır. Ona görə ki, kiçik məktəbəqədər yaşlı uşaqlar bir fərd olaraq şəxsiyyət kimi inkişaf etmək üçün fəallığa meyil edir. Psixoloqlar sübut etmişlər ki, bir fərd əgər ictimai münasibətlərə daxil olursa, ictimai inkişafa doğru hərəkət edərək fəallıq göstərirsə , deməli, o şəxsiyyət kimi özünü göstərir. Sadəcə bu şəxsiyyyəti inkişaf etdirmək lazım gəlir.

## ƏDƏBİYYAT

1. Orucov Hidayət. İslam əxlaqı. Bakı, 2010
2. Abbasov Namiq. Mədəniyyət siyasəti və milli-mənəvi dəyərlər. Bakı, 2009
3. Qasımova Lətifə. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən Bakı, 2004

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 796:078**

**Gülnar Teymurlu**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail:gulnar104@mail.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFININ İZLƏNİLMƏSİ VƏ DƏYƏRLƏNDİRİLMƏSİNƏ MÜASİR YANAŞMALAR

***Açar sözlər***: *dəyərləndirmə, nailiyyət, təlim mühiti*

Bu məqalədə məktəbəqədər yaşlı uşaqların inkişafının izlənilməsi və qiymətləndirilməsindən bəhs edilir. Dəyərləndirmə təlim-tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, uşaqların inkişafının izlənilməsi onların mənimsədiklərini, öyrəndiklərini, bildiklərini və onlarda hansı əxlaqi keyfiyyətlərin formalaşdığını müəyyənləşdirməyə şərait yaradır. Nailiyyətlərin dəyərləndirilməsi prosesində uşaqlar hamılıqla iştirak etməlidir. Tərbiyəçi uşaqların nailiyyətlərini izləyib dəstəkləyərkən onların yaş və fərdi, psixi xüsusiyyətlərini mütləq nəzərə almalıdır.

**Гюльнар Теймурлу**

# СОВРЕМЕННЫЕ ПОДХОДЫ К МОНИТОРИНГУ И ОЦЕНКЕ РАЗВИТИЯ ДОШКОЛЬНИКОВ

***Ключевые слова***: *оценка, достижение, учебная среда*

В этой статье рассматривается мониторинг и оценка развития дошкольников. Оценивание создаёт условия для усовершенствования процесса обучения – воспитания, повышения продуктивности процесса обучения, исследования развития детей, их усвоения, изучения, знания и определяет формирование у них моральных качеств. Все дети вместе должны участвовать в процессе оценивания достижений. Воспитатель, следя и поддерживая достижения детей, обязательно должен учитывать их возрастные и индивидуальные психические качества.

**Gulnar Teymurlu**

## MODERN APPROACHES TO MONITORING AND EVALUATION OF THE DEVELOPMENT OF PRESCHOOL AGED CHILDREN

***Key words****: assessment, achievement, training environment*

This article deals with the monitoring and evaluation of the development of preschool children. Assessment improves upbringing training process, raise the effective of training process and creates situation to follow children` s growth, how they appropriate, learn, know and determine to form of morality quality. Children must take part in process of achievement cost. The tutor have to watch and support the children's achievement and take into account their age and individual mental characteristics.

Məktəbəqədər təhsil sahəsində təhsil islahatının həyata keçirildiyi hazırkı şəraitdə pedaqoji kadrlara, xüsusən tərbiyəçilərə olan tələbatlar dəyişir. Şəxsiyyətyönümlü kurikulumların tətbiqi tərbiyəçilərdən uşaqyönümlü fəaliyyət mexanizmlərinin tətbiq olunmasını, ən müasir pedaqoji texnologiyalara istinad olunmasını tələb edir. Bunların daha uğurlu tətbiq olunmasını həyata keçirmək üçün birinci növbədə tərbiyəçilərin müasir şəraitdə fəaliyyəti ilə bağlı aydın təsəvvürə malik olmaları, onların peşəkarlıq və səriştəliliklərinin artırılması vacibdir.Dəyərləndirmə müşahidə prosesi, qeydlərin aparılması, böyümə və inkişafın izlənilməsinin nəticələrinin sənədləşdirilməsidir. Bu, fasiləsiz bir prosesdir və çoxsaylı resurslar cəlb edir.Uşaqlar təlim nailiyyətlərini müxtəlif yolla nümayiş etdirirlər. Münasib qaydada seçilmiş vaxt, uşağın əhval-ruhiyyəsi, verilən sualların xarakteri, məzmunu ilə uşağın tanışlığı, uşağın təlim dilini asanlıqla dərk etməsi nəticələrə əhəmiyyətli dərəcədə təsir göstərir.

Müasir məktəbəqədər təhsildə irəli sürülən qiymətləndirmə strategiyaları kiçik yaşlı uşaqların bilmədiklərini və bacarmadıqlarını təkcə aşkar etməyə deyil, onların bilmədikləri və bacarmadıqlarını göstərməyə yönəldilməlidir. Qiymətləndirmə uşaqda mənfi hisslər oyatmadan, emosional şəraitdə aparılmalı, onda özünəinam hissini artırmalıdır. Fəaliyyət məhsullarının qiymətləndirilməsi uşağın şəxsiyyətinə yönəldilməməli, uşağa sevgi və məhəbbət bəslənilməlidir. Qiymətləndirmə:

- uşaqların bilmədiklərini və ya bacarmadıqlarını aşkar etməyə deyil, bilik və bacarıqlarını göstərməyə xidmət edir;
- tərbiyəçilərin planlaşdırdıqları məşğələlərin və tətbiq etdikləri təlim strategiyalarının təcrübədə nə dərəcədə səmərəli olduğunu müəyyən etməyə, habelə məktəbəqədər yaşlı uşaqların nəzərdə tutulan təlim nəticələrinə nail

olmalarını təmin etmək üçün lazım olan dəyişiklikləri həyata keçirməyə imkan yaradır;

• uşaqda mənfi hisslər oyatmadan, onun özünəinamını və irəli getmək səylərini möhkəmləndirərək müsbət emosional şəraitdə aparılır;

• uşaqların təlim fəaliyyətinə dair toplanmış müxtəlif formalı dəlillərə əsasən vaxtaşırı aparılır;

• hər bir uşağın xüsusi ehtiyaclarına, öyrənmə üsuluna və inkişaf mərhələsinə həssaslıqla yanaşmanı əks etdirir.

Qiymətləndirmə - məktəbəqədər yaşlı uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və dəyərləndirilməsi prosesidir. Qiymətləndirmə zamanı uşağın hərəkət və davranışları, müəyyən şəraitdə fəaliyyətinin nəticələri qiymətləndirmənin obyektinə çevrilir; qiymətləndirmə zamanı uşağın hərtərəfli inkişafı nəzərə alınır; uşaqlar özlərinin və yoldaşlarının nailiyyətlərinin qiymətləndirilməsi prosesində iştirak edir; uşağın mövcud və əvvəlki nəticələri arasında müqayisə aparılır; uşağın valideynləri və təhsil mütəxəssisləri ilə əlaqə saxlanılır və hər bir uşağın nailiyyətləri müntəzəm olaraq izlənilir.( 2, s.70)

Məktəbəqədər yaşlı uşaqların sərbəst gördüyü və düzəltdiyi hər bir əl işi onun nailiyyəti hesab oluna bilər. Necə hazırlanmasından asılı olmayaraq bu nailiyyətlər tərbiyəçi və valideynlər tərəfindən mütləq dəyərləndirilməlidir. Bu dəyərləndirmə uşağın gələcəkdə daha ciddi fəaliyyət növlərini mənimsəməsi və həyata keçirməsi üçün bir başlanğıc olur ki, təlim-tərbiyənin ahəngdar və uğurlu inkişafı da məhz ondan asılıdır.Məktəbəqədər təhsil müəssisələrində üç növ qiymətləndirmədən istifadə olunur:

1. Diaqnostik (ilkin) qiymətləndirmə - sentyabr-oktyabr aylarında təlim məşğələlərinin əvvəlində uşaqların ilkin inkişaf səviyyələrini, ehtiyaclarını müəyyənləşdirmək məqsədi ilə aparılır.

2. Formativ (cari) qiymətləndirmə – uşaqların ümumi inkişafının müntəzəm izlənilməsi və istiqamətləndirilməsi məqsədilə aparılır.

3. Summativ (yekun) qiymətləndirmə - “summativ” termini ingilis dilində “sum up” , yəni müəyyən müddətin və ya işin yekunu, xülasəsi deməkdir. Bu qiymətləndirmə müəyyən vaxtda aparılmış müşahidələri əhatə edən uşağın inkişafının ümumiləşdirilmiş xülasəsi deməkdir.Məktəbəhazırlıq qrupunda ildə 2 dəfə summativ qiymətləndirmə aparılır.Məqsəd uşaqların nailiyyətlərini qiymətləndirmək, ibtidai təhsilə keçidi asanlaşdırmaqdır.

Diaqnostik qiymətləndirmə zamanı uşaqlar haqqında toplanan məlumat onların inkişafında mövcud olan fərqləri aşkar edir və təlimin planlaşdırılması üçün şərait yaradır. Diaqnostik mərhələdə toplanan məlumatlar gələcəkdə uşağın inkişafının izlənilməsi və müqayisələrin aparılması üçün indikatorlar yaradır.Formativ qiymətləndirmə müntəzəm şəkildə, müəyyən intervallarla

gündəlik baş verən qiymətləndirmədir. Məqsəd uşaqların necə öyrənməsini və inkişaf etməsini müəyyənləşdirməkdir. İnkişafa dair yekun hesabat 6 yaşın sonunda uşağın inkişaf və təliminin qiymətləndirilməsi ilə bağlı hazırlanır.Uşaq bu hesabatla məktəb təliminə hazırlaşır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). Kurikulum, 2008.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsil Proqramı (Kurikulum) 3-6 yaş. Bakı 2012.
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 5 sentyabr 2009-cu il.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 08.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.2**

**Xəyalə Vəliyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MUSİQİ TƏLİMİ

***Açar sözlər:*** *məktəbəqədər yaş, musiqi, musiqi təhsili, musiqi alətləri*

Uşaqlara ümumi musiqi təhsili vermək və onları yüksək musiqi incəsənətinə cəlb etmək, ən yaxşı xalq musiqisi, klassik, xarici, Azərbaycan musiqisi, habelə müasir bəstəkarların əsərləri nümunəsində estetik zövq formalaşdırmaq, "Fəal bədii özfəaliyyət iştirakçılarını, musiqi-estetik biliklərin təbliğatçılarını tərbiyə etmək, böyüməkdə olan nəslin mənəviyyatına dövrümüzün tələbləri ruhunda təkmilləşdirilməsinə kömək etmək - estetik musiqi təhsilinin istiqamətləridir.

**Хаяла Велиева**

## МУЗЫКАЛЬНОЕ ОБРАЗОВАНИЕ В ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Ключевые слова:*** *дошкольный возраст, музыка, музыкальное образование, музыкальные инструменты*

Предоставлять детям общее музыкальное образование и привлекатъ их к высокому музыкальному искусству для создания эстетического вкуса на примере лучшей народной, классической, зарубежной, азербайджанской музыки, а также произведений современных композиторов, "Обучать активных участников искусства, педагогов музыки и эстетических знаний, помогая улучшить дух нашего времени – это направления музыкально-эстетического воспитания.

**Khayala Valiyeva**

## EDUCATION IN PRE-SCHOOL INSTITUTIONS

***Key words:****pre-school age, music, musical education, musical instruments*

To give children a common musical education and to attract them to high musical art to create pleasure on the example of the best folk, classical, foreign, Azerbaijani music, as well as contemporary composers works, "To educate

active artistic participants, educators of music and aesthic knowledge, helping to improve the spirit of our time – these are the directions of music- aesthetic education.

Hər bir insan dünyaya göz açdığı andan etibarən musiqi ilə təmasda olub, musiqi sədaları altında böyüyərək kamillik aləminə qədəm qoyur. Musiqi – gerçək aləmi səslər vasitəsilə əks etdirən incəsənət növüdür. Digər incəsənət növləri ilə yanaşı musiqi də böyük bədii ifadə gücünə malik olub insanın mənəvi aləmini – onun sevincini və kədərini, arzu və düşüncələrini həyat uğrunda mübarizəsini bədii obrazlarla əks etdirir. İnsanın mənəviyyatına müsbət təsir göstərən ifadə vasitələrində ən əhəmiyyətlisi də məhz musiqidir. Antik dövrün filosofları musiqinin bədii təsir gücünü yüksək qiymətləndirmişlər. Aristotel gənclərə musiqi alətində çalmağı, oxumağı öyrətməklə onların mənəvi kamilliyə çatmasında, cəmiyyətin nəcib, saf üzvlərinə çevrilməsində musiqi tərbiyəsinin rolunu xüsusi qeyd etmişdi. Musiqi təhsili – məktəbəqədər yaşlı uşaqlarda yüksək bədii-estetik zövqün formalaşmasında, zəngin ideya-mənəvi düşüncə tərzinin yaranmasında mühüm əhəmiyyət kəsb edir. Musiqi ni dinləmək, onu daxilən hiss etmək, duymaq, musiqi haqqında öz fikirlərini söyləmək bacarığını uşaqlara hələ erkən yaşlarından aşılamaq musiqi təhsilinin əsas şərtlərindən biridir. Musiqi tədrisi prosesində uşaqlarda yüksək bədii-estetik zövq formalaşdırılmalıdır ki, onlar eşitdikləri mövcu musiqi " bolluğu " axınında insanı mənən zənginləşdirən yüksək bədii keyfiyyətli sənət nümunələrini düzgün seçə bilsinlər. Uşaqlara ümumi musiqi təhsili vermək, onları yüksək musiqi sənətinə cəlb etmək ən yaxşı xalq, klassik , xarici , Azərbaycan musiqisi, habelə müasir bəstəkarların əsərləri nümunəsində estetik zövq formalaşdırmaq, "Fəal bədii özfəaliyyət iştirakçılarını, musiqi-estetik biliklərin təbliğatçılarını tərbiyə etmək, böyüməkdə olan nəslin mənəviyyata dövrümüzün tələbləri ruhunda təkmilləşdirilməsinə köməklik etmək – musiqi-estetik təhsil işinin istiqamətləri bunlardır.

Musiqi təhsilinin düzgün qurulmasında tərbiyə metodlarının seçilməsi başlıca yer tutur. Musiqi təhsilində metodların seçimi uşaqların bilik alarkən hansı mənbədən istifadə etməsi şərtdir. Təbiidir ki, ilkin mənbə musiqinin özüdür. Çünki, məhz musiqi insanda musiqi hissləri oyadır. Uşaqlarla bu istiqamətdə işin başlanğıcının musiqi dinləmə təcrübəsi əsas metod hesab edilir. Biliklərin əldə edilməsinin ikinci mənbəyinin uşaqlarda kamil şəkildə musiqi obrazının qavranılmasına və konkret musiqi əsərinin məzmununun anlaşılmasına kömək edən pedaqoqun sözü təşkil edir. Üçüncü mənbəyə isə, uşaqların özünün bilavasitə musiqi fəaliyyəti aid edilir. Çünki bunlarsız

məsələn, mahnı ifaçılığının, ritmikanın bacarıq və vərdişlərini mənimsəmək mümkün deyil. Yalnız praktiki fəaliyyət uşağın hərtərəfli inkişafına kömək edir, ictimai hadisələrə adekvat uşaqların musiqi təhsilində metodların seçimi zamanı canlı yaradıcılıqdan mücərrəd təfəkkürə və buradan da təcrübəyə doğru istiqamətə üstünlük verilməlidir. Məktəbəqədər təhsil müəssisələrində təşkil olunan musiqi məşğələləri uşaqların əsas təlim məşğələlərindən biridir. Musiqi məşğələlərində tədris olunan hər hansı mövzu uşaqların daxili aləmini zənginləşdirir, bədii zövqlərini, duyğularını, qavrayışlarını tənzimləyir, estetik dünyagörüşlərini genişləndirir. Digər məşğələlərdən fərqli olaraq musiqi məşğələləri bir sıra spesifik xüsusiyyətlərə malikdir. Belə ki, bu məşğələlərdə kompleks mərhələlərə - mahnı oxuma, mahnıya qulaq asma, rəqs hərəkətlərinə və s.-yə istinad olunur. Bir məşğələ daxilində göstərilən bu sahələr üzrə aparılan iş uşaqların emosionallığını artırır, və onlar tərəfindən böyük maraqla qarşılanır. Uşaq bağçalarında aparılan musiqi məşğələlərinin vasitəsilə estetik tərbiyəsinin əsas səciyyəvi xüsusiyyətlərindən biri də budur ki, məşğələdə səsləndirilən ayrı-ayrı musiqi nümunələri dinamik şəkildə tez bir zamanda uşaqların hisslərini ələ alır, onları estetik cəhətdən formalaşır, onların estetik görüşlərinin inkişafına qüvvətli təsir göstərir. Məktəbəqədər təhsil müəsisələrində musiqi məşğələləri vasitəsilə uşaqların estetik tərbiyəsinin inkişafı sahəsinnə qarşıya aşağıdakı vəzifələr qoyulur:

- məktəbəqədər yaşlı uşaqlarda musiqi vasitəsilə həyata, insanlara, təbiət və cəmiyyət hadisələrinə düzgün münasibət, məhəbbət hissi formalaşdırmaq;
- musiqi əsərləri vasitəsilə düzgün estetik zövqünü, bədii yaradıcılıq fəaliyyətinin və digər dünya xalqlarının musiqi sərvətinə marağın inkişaf etdirib formalaşdırılması. Məktəbəqədər təhsil müəssisələrində uşaqların musiqi təhsilində mühüm rol oynayan musiqi məşğələləri üç istiqamətdə aparılır:

1. Mahnı oxuma
2. Musiqi dinləmə
3. Sadə musiqi savadı Mahnı oxuma. Mahnı musiqinin ən geniş yayılan, hamı tərəfindən sevilən janrıdır. Təbiidir ki, bu janrda və xüsusilə məktəbəqədər dövrdə uşaqların böyük marağına səbəb olur. Onlarda estetik hisslərin, ən gözəl insani keyfiyyətlərin yaranması üçün zəmin yaradır. Bir sıra mahnıların böyük tərbiyəvi və təhsil əhəmiyyəti olduğunu nəzərə alaraq uşağa mahnının öyrədilməsi, musiqi qavrama, musiqi ifaçılıq qabiliyyətinin inkişaf etdirilməsi olduqca vacib məsələlərdən biridir . Çalışmaq lazımdır ki, musiqi məşğələlərində uşaq heç bir səs gərginliyi hiss etmədən, qışqırmadan oxumağı bacarsın. Mahnı oxuma zamanı uşağa musiqi cümləsini, habelə ayrı-ayrı bəndlərin sonunadək nəfəsdən qənaətlə istifadə etmək bacarığı da aşılanmalıdır. Musiqi dinləmə. Musiqi dinləməyi bacaran uşaq məktəbdə aparılan musiqi məşğələlərində fəal olur, musiqi nümunəsini asanlıqla şüurlu qavrayır, onu

uzun müddət yadda saxlayır. Musiqi dinləmə məşğələlərinin aşağıdakı ardıcıllıqla aparılması məqsədəuyğundur: 1.dinlənilən musiqi nümunəsinin məzmunu və janrları haqqında qısa məlumat verilməsi; 2. dinlənilən musiqi nümunəsinin məzmununu əks etdirən şəkillərdən istifadə olunması; 3. musiqi nümunəsinin dinlənilməsi; 4. dinlənilən musiqi nümunəsinin nisbətən çətin başa düşülən hissələri haqqında izahat verilməsi; 5. musiqi nümunəsinin təkrar dinlənilməsi. Sadə musiqi savadının verilməsi. Uşaqların musiqi sahəsində məktəbə hazırlanması üçün onlara musiqi savadının sadə məsələləri haqqında məlumat vermək lazım gəlir. Buna görə də çalışmaq lazımdır ki, bilavasitə musiqi savadına aid olan "Musiqi səsləri və qeyri-musiqi səslər", "Zil və bəm səslər", "Səs süzümü" və s. haqqında uşaqların müəyyən təsəvvürü olsun.

Beləliklə, musiqi məşğələsinin düzgün qurulması uşaqların musiqi təhsilinin və müxtəlif yaradıcı keyfiyyətlərin formalaşmasına xüsusi şərait yaradır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı. 2009.
2. Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı. Qanun. 2009. 67 səh.
3. Azərbaycan Respublikasında Məktəbəqədər təhsilin Yeniləşdirilməsi proqramı (2007-2010-cu illər.) Bakı.2007.12aprel "Xalq" qəzeti, 5 səh.
4. Ağayev Ə., Talıbov Y. Pedaqogika.Bakı.2005.Nasir, 168 səh.
5. Abdullayeva.S. Tərbiyəçinin stolüstü kitabı. Bakı. Nərgiz. 2008. 211 səh.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.01**

**İlahə Yahyazadə**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: yahyazade.ilahe@mail.ru

# ƏXLAQİ NORMALARIN MƏNİMSƏNİLMƏSİNİN MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏRBİYƏSİNDƏ TƏZAHÜRÜ

***Açar sözlər:*** *məktəbəqədər, uşaq, norma*

Bu məqalədə pedaqoq və tərbiyəçilər oyunu uşaq şəxsiyyətinin hərtərəfli tərbiyə olunma vasitəsi və uşaqların həyatının təşkili forması, uşaq cəmiyyətinin formalaşdırılması vasitəsi kimi görürlər. Oyunun bütün bu funksiyaları bir-biri ilə qarşılıqlı surətdə əlaqədar olmaları ilə yanaşı, həm də bir-birlərindən asılıdırlar.

**Илаха Яхйазаде**

## ПРОЯВЛЕНИЕ ОСВОЕНИЯ МОРАЛЬНЫХ НОРМ В ВОСПИТАНИИ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *дошкольный, ребенок, норма*

В этой статье педагоги и воспитатели рассматривают игру как средство всестороннего развития личности ребенка, организации жизни ребенка, также в качестве средства формирования детского общества. Наряду с тем, что все эти функции игры тесно взаимосвязаны, они в то же время и взаимозависимы.

**Ilaha Yahyazade**

## THE MANIFESTATION OF THE DEVELOPMENT OF MORAL NORMS IN THE EDUCATION OF CHILDREN OF PRESCHOOL AGE

***Key words:*** *preschool, a child, norm*

In this article, educators and teachers view the game as a means of comprehensive development of the child's personality, organization of the child's life, as well as a means of forming a children's society. Along with the

fact that all these functions of the game are closely interrelated, they are at the same time interdependent.

Dünyaya gəldiyi andan ailə körpəsinin həyatını sosial qaydalara uyğun olaraq təşkil edir. Onu gün rejiminə alışdıraraq eyni vaxtda yedirdir, yatırdır, çimdirirlər. Körpələrinə qulluq edərkən, valideynlər konkret funksiyaları və tətbiqetmə qaydaları olan əşyalardan, məsələn, bələmək üçün – bələkdən, yedirtmək üçün – əmzikli qabdan və ya qaşıqdan, çimdirmək üçün – kiçik vanna, dəsmal və sabundan istifadə edirlər. Xatırladaq ki, həyatının ilk altı ayında uşaqda böyüklə ünsiyyətə tələbat formalaşır, körpə onunla əlaqə yaratmağa, diqqətini cəlb etməyə can atır. Böyüyün sevgi və qayğısına cavab olaraq körpədə müsbət hisslər, həyat sevgisi, xeyirxahlıq, hər şeyi bilmək həvəsi yaranır. Adı çəkilən xüsusiyyətlər əxlaqi inkişafın ilkin şərtləri kimi çıxış edir.

Uşağın həyatının ilk bir ili ərzində böyük onun davranışına olan münasibətini ekpressiv-mimik vasitələrdən, mimikadan, pantomimikadan, intonasiyadan istifadə etməklə ifadə edir. O, körpəni bəzi hərəkələrinə görə tərifləməklə, bəzilərinə görə isə irad tutmaqla ona qarşı olan tələblərini ifadə edir. Körpə bu tələblərin mənasını hələ anlamasa da, səsin intonasiyasını, ona qarşı olan emosional münasibəti çox yaxşı hiss edir və qavrayır. Məsələn, uşaq yeməyini yaxşı yedikdə, böyük ona gülümsünür, başını sığallayır və mehribancasına: "Afərin" – deyir.

Böyüyün sözlərini düzgün qavraması bir yaşlı körpədə sözlə hərəkət, sözlə davranış metodu arasında əlaqələrin yaranmasına gətirib çıxarır. Bu cür əlaqələr sosial davranış formalarının uşaq tərəfindən mənimsənilməsinə kömək edir. Ana oğluna: "Xalaya hələlik de" – söyləyir və uşaq əlini yelləder. "Çox sağ ol de", – və o başını yellədir.

Körpənin böyüklərlə müştərək həyat və fəaliyyətə can atması, onun yüksək dərəcəli təqlidçiliyi mənəvi tərbiyə üçün böyüklərin nümunəsini xüsusilə prinsipial edir. O, tərbiyəçi və valideynlərindən davranış üslubunu, hərəkətləri, vərdişləri və hətta insanlara, əşyalara, heyvanlara olan münasibəti mənimsəyir. Belə ki, "pis" və "yaxşı" sözləri öncə böyüyün münasibətini ifadə edir, uşaq isə sadəcə olaraq oxşar vəziyyətlərdə onları yada salır və təkrarlayır. V.Q.Belinski qeyd edirdi: "Uşağın yaşı nə qədər az olsa, onun əxlaqi tərbiyəsi bir o qədər vasitəsiz olmalı, onu gözəl hiss, meyl və hərəkətlərə öyrətməli deyil, alışdırmalıdır və bunların hamısını daha çox vərdişlə möhkəmlənməlidir"[4 s.63].

Üç yaşına qədər olan uşaq müsbət əməllər edərkən onları digər əməllərindən seçmir. Hərəkətləri böyüklər qiymətləndirir və onlara müsbət çalar verir. Böyük tərəfindən nəzarət olmadan uşaq situativ və impulsiv hərəkət edir və buna görə də, qadağaları tez-tez pozur. Qadağaların pozulma ehtimalını aradan qaldırmaq üçün, qadağan olunan əşyaları uşağın əli çatmayan yerə qoymaq, onları tapa və ya götürə biləcəyi yolları müstəsna etmək, təhlükəli yerləri əlçatmaz etmək, aktivlik və müstəqilliyin müsbət təzahürləri üçün şərait yaratmaq (məsələn, hərəkət, oyun

zamanı uşağın yaşına və maraqlarına uyğun olaraq ona kifayət qədər oyuncaq vermək) məqsədəuyğundur. Bundan başqa, uşağın, sonradan qadağan olunacaq hərəkətləri etməsinə qətiyyən icazə vermək olmaz.

Uşağın əxlaqi davranışı onun yönəldiyi obyektə qarşı olan müsbət emosional münasibəti ilə ayrılmaz şəkildə bağlıdır. O, oyuncaq və ya şirniyyatını böyüyün onu yönəltdiyi yaşıdı ilə daha tez bölüşəcəkdir. Buna görə də, əxlaqi təzahürlərin ilkin şərti pis əhval deyil, ətrafdakılara qarşı xeyirxahlıqdır.

Məktəbəqədər yaş dövründə uşaqların mənəvi tərbiyəsi üçün daha əlverişli şərait yaradılır. Bu dövrdə uşağın böyüklərlə və yaşıdları ilə olan qarşılıqlı münasibətlər sistemi genişlənir və yenidən qurulur, fəaliyyət növləri mürəkkəbləşir, yaşıdları ilə müştərək fəaliyyət yaranır.

Xatırladaq ki, erkən uşaqlıq dövründə körpə bir çox əşyavi əməlləri mənimsəmiş, əşyalardan istifadə metodlarını "kəşf etmişdir". Bu "kəşf" qaçılmaz olaraq onu hərəkətlərin yerinə yetirilmə metodunun daşıyıcısı, özünü müqayisə edə biləcək etalon olan böyüyün yanına gətirib çıxarır. Uşaq böyüklər aləminə diqqətlə nəzər yetirərək insanlar arasındakı qarşılıqlı münasibətləri ayırmağa başlayır. Məktəbəqədər yaşlı uşaq insani münasibətlər aləmini dərk edir, üzərində insanlar arasındakı qarşılıqlı təsirin qurulduğu qanunları, yəni davranış normalarını kəşf edir. Böyüməyə can atan mətəbəqədər yaşlı uşaq öz əməllərini davranışın ictimai norma və qaydalarına tabe edir.

Uşaqlarda əxlaqi düşüncə və qiymətləndirmənin formalaşmasında vacib rolu bədii ədəbiyyat oynayır. 3-4 yaşlı uşaq hər hansı ədəbi qəhrəmanı sadəcə pis və ya yaxşı olaraq qiymətləndirməklə, ona qarşı olan münasibətinin motivini anlamır. Uşaq vəziyyəti anlamadan, qəhrəmanların konkret hərəkətlərinə özünün müsbət və ya mənfi münasibətini bildirməklə əxlaqi qiymət verə bilər. Məhz qəhrəmana olan münasibət uşaq tərəfindən ona verilən qiyməti əks etdirir. Dörd yaşa yaxın uşağın qəhrəmana qarşı emosional və əxlaqi münasibətində uyğunsuzluq müşahidə oluna bilər. Dörd-beş yaşlarında "pis", "yaxşı" anlayışları formalaşır. Elə bu zaman, hərəkətlərinin məzmunu əsasında qəhrəmanın qiymətləndirilməsi baş verir. Uşaq personajlar arasındakı qarşılıqlı münasibətləri dərk edir və sadəcə olaraq hər hansı hərəkəti kimin etdiyini deyil, həm də bu hərəkətin kimə istiqamətləndiyini də nəzərə alır. 4 yaşından sonra, qəhrəmana acıma hissinin və ona kömək etmək istəyinin inkişaf etməsi ilə əxlaqi əsaslandırma yaranır ki, bu zaman uşaqlar hərəkətlərin ictimai əhəmiyyətini qeyd edirlər. Beləliklə, təxəyyül səviyyəsində olan əməllər uşağa davranış motivlərinin dərk olunmasına yaxınlaşmağa kömək edir, qəhrəmana olan emosional münasibət isə onun hərəkətlərinə verilən qiymətdən seçilməyə başlayır.

Əxlaq normaları uşağın davranışını ilk gündən idarə etmir. Öncə onlar yalnız böyüyün tələbi ilə və ya onun nəzarəti altında bu normaları yerinə yetirir, yaxud uşaq onları sadəcə olaraq pozur. Bu zaman körpə qaydanı pozduğunu hiss etmir və

ümumilikdə oxşar davranışı mənfi qiymətləndirdiyi halda bu qiyməti özünə aid etmir.

Norma qoyulduqdan sonra, uşaq öz yaşıdına nəzarət etməyə başlayır. Onun üçün, özünün deyil, yaşıdının əxlaqi xüsusiyyətlərini və əxlaq qaydalarına riayət edib-etməməsini görmək və qiymətləndirmək daha asandır. O, yoldaşları tərəfindən əxlaq normalarının yerinə yetirilməsini düzgün qiymətləndirir və özünə qarşı münasibətdə səhv edir. Əxlaq qaydalarına bələd olduğunu sübut etməyə can atması böyüyə ünvanlanan və hər hansı bir uşağın qaydanı pozduğunu bildirən xüsusi "şikayət-məlumatların" yaranmasına gətirib çıxarır. Böyüyə müraciət edən uşaq hər hansı qayda və ya normanı düzgün anlayıb-anlamamasından əmin olmaq istəyir. Tədricən, yaşıdını qiymətləndirməklə, özünü onunla müqayisə etməklə, hərəkətlərinə böyüklər və yoldaşları tərəfindən verilən qiymətə diqqət yetirməklə uşaq əsl özünüqiymətləndirməyə yaxınlaşır.

Tərbiyəçi başqalarının qüsurlarına səbrlə yanaşmağı, düşünülmədən edilən əməlləri, haqsızlıqları bağışlamağı, tolerant olmağı, əməkdaşlıq və kooperasiya etməyi öyrədir. Tərbiyəçinin uşaqlarla hətta ən peşəkar və uğurlu işi belə bərabərhüquqlu olmur: böyük tərbiyə edir, öyrədir, uşaq tabe olur, öyrənir. Uşaqların uşaq bağçasındakı həyatının mütəşəkkil, maraqlı və məzmunlu olmasını təmin etmək üçün, tərbiyəçilər müxtəlif yaş qruplarında müxtəlif oyunlardan istifadə edir. Yaradıcı oyunların qaydalarının daxili, gizli xarakteri uşağa hərəkətlərində geniş azadlıq verir. Yaradıcı oyunlar uşaqlarda böyük ruh yüksəkliyi oyadır və onlara çox böyük təsir göstərir, lakin uşaqların həyatının təşkili zamanı yalnız bu oyunlardan istifadə etmək səhv olardı. Uşaqların qaydalı oyunları mənimsəməsi çox böyük təşkilati məna kəsb edir. Qaydalar məlum davranış normalarını, uşaqların bir-biri ilə qarşılıqlı münasibətlərinin normalarını müəyyənləşdirir, uşağın özünə və onunla oynayanlara nəzarət etməsinə imkan verir. Uşaqların qaydaları müstəqil şəkildə yerinə yetirməsi onların oyun zamanı məqsədyönlü tərbiyəsi prosesində formalaşır. Uşaq oynayarkən kollektiv ilə müəyyən qarşılıqlı münasibətdə olur. Oyunun ümumi təsiri, oyun nəticəsində yaranan hisslər uşaqlar arasındakı oyun prosesində qurulan münasibətlərdən ibarətdir.

Beləliklə, pedaqoq və tərbiyəçilər oyunu uşaq şəxsiyyətinin hərtərəfli tərbiyə olunma vasitəsi və uşaqların həyatının təşkili forması, uşaq cəmiyyətinin formalaşdırılması vasitəsi kimi görürlər. Oyunun bütün bu funksiyaları bir-biri ilə qarşılıqlı surətdə əlaqədar olmaları ilə yanaşı, həm də bir-birlərindən asılıdırlar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş) Təhsil Nazirliyinin 10 iyul 2012-ci il.

2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Dövlət standartı və proqramı. Bakı, 2010.
3. Əliyeva Ş.Məktəbəqədər təhsilin aktual problemləri. Bakı, Elm, 2010.
4. Солодянкина О.В. Социальное развитие ребенка дошкольного возраста: Методическое пособие. Издательство: "АРКТИ", 2006.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.11.2017**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.12.2017**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# QAYDALAR

Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri» jurnalında məqalələr Azərbaycan, rus və ingilis dillərində çap olunur. Məqalənin əlyazmasını kompüterdə Microsoft Word redaktorunda Azərbaycan, rus və ingilis dillərində, Times New Roman şrifti ilə, 12 ölçüdə, 1 intervalla, A4 formatlı ağ vərəqdə tərtib etmək lazımdır. Məqalənin həcmi 4-5 səhifədən az olmamalıdır.

Məqalənin başlanğıcında məqalənin UOT indeksi, müəllifin soyadı, adı, atasının adı, işlədiyi müəssisə və onun ünvanı, vəzifəsi, elmi adı, elmi dərəcəsi və ya fəxri adı, e-mail ünvanı, daha sonra, məqalənin adı, məqalə hansı dildə yazılmışsa həmin dildə qısa xülasəsi və açar sözlər (6-10 söz) verilməlidir. Məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair aydın şəkildə verilməlidir.

Daha sonra digər iki dildə xülasə (müəllifin adı və məqalənin adı həmin dillərdə göstərilməklə) («Резюме» və «Summary») və həmin dillərdə açar sözləri («Ключевые слова» və «Keywords») verilməlidir. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımından ciddi hazırlanmalıdır.

Məqalədə verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətnində rast gəlindiyi ardıcıllığı ilə nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

**Kitab və jurnallara istinad aşağıdakı qaydada verilməlidir:**

1. Müəllifin soyadı və inisialı. Kitabın adı. Cildin nömrəsi. Şəhər: nəşriyyat, nəşr ili, ümumi səhifələrin sayı;
2. Müəllifin soyadı və inisialı. Məqalənin adı // Jurnalın adı, nəşr ili, buraxılış nömrəsi, başlanğıc-son səhifələr.

**Məqalənin quruluşu:**

- Məqalənin UOT indeksi;
- Müəllifin soyadı, adı, atasının adı;
- İşlədiyi müəssisənin adı, vəzifəsi, elmi adı və elmi dərəcəsi, fəxri adı (və ya doktorant və ya dissertant olduğu təşkilatın adı, təhsilin forması);
- İşlədiyi müəssisənin (və ya doktorant olduğu təşkilatın) ünvanı (poçt nömrəsi göstərilməklə);

- Müəllifin e-mail ünvanı;
- Məqalənin yazıldığı dildə qısa xülasəsi və açar sözlər (6-10 söz);
- Baş hərflərlə məqalənin adı;
- Məqalənin mətni;
- İstinad olunmuş ədəbiyyat siyahısı;
- Digər iki dildə məqalənin adı və müəllifin adı və soyadı göstərilməklə qısa xülasəsi və açar sözlər (6-10 söz).

**Məqalə aşağıdakı hissələrdən ibarət olmalıdır:**

- Giriş;
- Məsələnin qoyuluşu;
- Məsələnin həlli;
- Nəticə (elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair);
- Ədəbiyyat.

**Məqalənin redaksiyaya təqdim olunması:**

- Məqalənin çap olunmuş əlyazması (1 nüsxədə) və onun elektron variantı Compact Diskdə (CD və ya CD-RW) və məqalənin çap olunması üçün müəssisə tərəfindən təsdiq olunmuş müvafiq sənədlərlə (məqaləyə 2 rəy və təşkilatın (kafedranın) iclas protokolundan çıxarış) birlikdə jurnalın məsul katibinə (Üzeyir Hacıbəyli küçəsi 68, ADPU, AZ 1102) təqdim edilməlidir.
- Ayrıca vərəqdə müəllif haqqında anket-məlumat əlavə olunmalıdır. Məlumatda müəllifin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi adı, müəssisənin adı, müəssisənin ünvanı, ev ünvanı, e-mail ünvanı və telefon nömrəsi göstərilməlidir.
- Məqalə jurnalın İnternet səhifəsinə göndərilə bilər. E-mail: n_s_q@mail.ru; emma_fn@mail.ru; hacerhuseynova@mail.ru.
- Lazım gəldikdə jurnalın redaksiyası məqalənin nəşri üçün əlavə sənədlər tələb edə bilər.
- Məqalənin əlyazması və CD geri qaytarılmır.

***Qeyd: Qaydalar Ali Attestasiya Komissiyasının tələblərinə uyğun tərtib olunub.***

# ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

В журнале «Актуальные проблемы музыкальной науки, культуры и образования» Азербайджанского Государственного Педагогического Университета статьи публикуются на азербайджанском, русском и английском языках. Рукопись статьи должна быть набрана на компьютере в программе Microsoft Word на азербайджанском, русском и английском языках шрифтом Times New Roman, размером 12, интервалом 1, форматом А4. Объем, статьи должен быть не менее 4-5 страниц.

В начале статьи дается индекс УДК, фамилия, имя, отчество автора, место работы (адрес учреждения), должность, ученое звание, ученая степень или почетное звание, e-mail, затем дается название статьи, краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья. В конце нужно четко и ясно показать новизну, практическую значимость и эффективность работы в соответствующей области науки.

Далее дается краткая аннотация на двух других языках (указать автора и название статьи) («Резюме» и «Summary») и ключевые слова («Ключевые слова» и «Key words») на этих языках. Все резюме должны отражать содержание и подготовлены очень строго с научной и грамматической точки зрения.

В статье список литературы дается не по алфавитному порядку, а по порядку цитат, например, [1] или [1, с.119]. Цитата из одной и той же литературы дается предыдущим номером.

**Цитаты из книг и журналов даются в следующем порядке:**

1. Фамилия и инициалы автора. Название книги. Том. Город: издательство, год издания, количество страниц.
2. Фамилия и инициалы автора. Название статьи // Название журнала, год издания, номер издания, начальная и последняя страницы.

**Последовательность оформления (структура) статьи:**

- Индекс УДК;
- Фамилия, имя. отчество автора;
- Название учреждения, место работы, должность, ученое звание, ученая степень или почетное звание (или название организации докторанта или диссертанта, форма учебы) адрес учреждения (или организации докторанта), где работает (указать почтовый номер);
- e-mail автора;

- Краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья;
- Название статьи прописными буквами;
- Текст статьи;
- Список использованной литературы;
- Краткое резюме на двух других языках (с указанием автора и названия статьи) и ключевые слова(6-10 слов) на этих языках.

**Статья должна состоять из следующих частей:**

- Введение;
- Постановка проблемы;
- Решение проблемы;
- Выводы (новизна, практическая значимость и эффективность работы в соответствующей области науки);
- Литература.
- **Представление статьи в редакцию:**
- Рукопись статьи (1 экземпляр) и ее электронный вариант на Compact Disk (CD или CD-RW) и соответствующие документы для публикации статьи, утвержденные учреждением (2 рецензии и выписка из протокола заседания организации (кафедры)) должны быть представлены ответственному секретарю журнала (улица Узеира Гаджибейли 68, АГПУ, AZ 1102).
- Анкета-справка об авторе представляется отдельно. В справке нужно указать фамилию, имя, отчество автора, ученое звание, ученую степень, название и адрес учреждения, домашний адрес, e-mail и номер телефона.
- Статью можно послать на Интернет-страницу журнала. E-mail: n_s_q@mail.ru; emma_fn@mail.ru; hacerhuseynova@mail.ru.
- В случае необходимости редакция журнала может потребовать дополнительные документы для публикации статьи.
- Рукопись статьи и CD не возвращаются.

***Примечание: Правила сставлены в соответствии с требованиями Высшей Аттестационной Комиссии***

# RULES

In the journal of «Actual problems of the science, culture and education of music» of Azerbaijan State Pedagogical University articles are published in Azerbaijani, Russian and English languages. Articles must be written on the computer in Microsoft Word with Times New Roman type of 12 size, l interval and on a white paper of A4 format. Pages of the article must be not less than 4-5.

At the top of the article it must be noted UOT index of article, name and surname of the author, his place of work and post address, scientific degree, honorary title, e-mail, title of the article, its short summary, and key words (6-10) At the end of the article it must be clearly written about scientific novelty of the article, importance of its research, economical benefit etc.

At the end of the article it must be noted list of references, in two languages title of the article, name of the author summary and keywords.

Content of the summaries in two languages must be same and suit to the content of the article. Summaries must be written grammatically and scientifically. List of references must not be given in alphabetical order but in the order of their place in the article, for example, [1] or [1, p. 119]. If any literature is used in the article repeatedly it must be noted by the previous number.

**Reference to books and journals must be given as below:**

1. Surname and initials of the author. Title of the book. Number of the volume. City: edition, publication year, number of pages.
2. Surname and initials of the author. Title of the article// Name of the journal, publication year, issue number, the first and the last pages.

**Structure of the article:**

- UDC index of the article;
- Name and surname of the author;
- Place of work and post, scientific degree, honorary title (it must be noted name of the institution where one is a candidate for a degree or a doctor for a degree);
- Address of work (or institution where one is a doctor for a degree);
- E-mail of the author;
- A short summary and keywords (6-10 words) of the article in the same language that was the article written in;
- Title of the article in capital letters;
- Text of the article;
- List of references;

- Short summary and key words by indicating the name of article, name and surname of author in other two languages (6-10 words).

**The article must consist of the following parts:**

- Introduction;
- Putting of task;
- Solution of task;
- Conclusion (scientific innovation, applied significance, economic benefit of the work conforming to character of the scientific field and article, etc.);
- Literature.

**Submission of the article to revision:**

- The printed manuscript of the article (in 1 copy) and its electron variant is to be submitted to the responsible secretary of the journal in Compact Disc (CD or CD-RW) together with proper documents certified by institution for printing of the article (2 references to the article and extract from meeting protocol of the organization (department)) (68, Uzeyir Hajibayli str., ASPU, AZ 1102).
- Information form about author is to be attached in separate sheet. Surname, name, father's name, scientific degree, scientific title of author, name of institution, address of institution, home address, e-mail address and phone number is to be indicated in the information.
- The article may be sent to internet page of the journal. E-mail: n_s_q@mail.ru; emma_fn@mail.ru; hacerhuseynova@mail.ru.
- If necessary, revision of the journal may require further documents for publication of the article.
- Manuscript of the article and CD is not returned.

***Note: The rules framed in accordance with the requirements of the Higher Attestation Commission***

Çapa imzalanmış: 25.12.2017.
Kağız formatı $70\times100^{1/8}$. 21,5 ç.v.
Sifariş 556. Sayı 200.

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel.: 493-74-10